Saday Budaqlı

# YOLÜSTÜ SÖHBƏT



SADAY BUDAQLI

# YOLÜSTÜ SÖHBƏT

## HEKAYƏLƏR, POVESTLƏR VƏ ROMAN




"TƏHSİL"
Bakı– 2015

**Redaktor:**
***Səxavət Sahil***

**Saday Budaqlı**
**S.64 Yolüstü söhbət.** Bakı, "Təhsil", 2015, 320 səh.

**S $\frac{450202000545}{067}$ 2015**

**© "Təhsil", 2015**

# OTUZ İLDƏN SONRA

*Aradan otuz il keçib, ancaq o əl boyda kitabdan ürəyimə düşən gümüşü işıq hələ də öləziməyib. "Yazıçı" nəşriyyatında "Müəllifin ilk kitabı" seriyasından nəşr olunsa da, "Döngə" Saday Budaqlının heç də ilk kitabı deyildi; bundan bir il qabaq, yəni 1984-cü ildə onun Moskvada da "Uduş" ("Vıiqrış") adlı hekayələr toplusu çapdan çıxmışdı, üstəlik, həmin kitab sovetlər ölkəsində yaşayan gənc qələm adamlarının ala biləcəyi ən nüfuzlu Maksim Qorki mükafatına layiq görülmüşdü. Bu da hələ hamısı deyil; ona qədər Sadayın hekayələri Moskvada "Drujba narodov" jurnalının, "Nedelya" həftəliyinin mükafatlarını da almışdı. Bilənlər bilir: sovetlər dönəmində rus olmayan, ya da rusca yazmayan bir gənc yazıçının öz vətənindən qabaq imperiyanın mərkəzində kitab çıxartdırması, orada tanınması, parlaması çox müşkül məsələydi. O zaman əyalətdən gələn cavan sənətkar Moskvada hansı uğurlara əl yetirə bilərdisə, hansı mükafatlara yiyələnə bilərdisə, Saday Budaqlı öz istedadı, zəhməti hesabına bunlara nail olmuşdu. Ancaq burada bir az da insafsızlıq elədim, çünki təkcə əyalətdən gələnlərin yox, elə imperiyanın mərkəzində doğulub-böyüyən gənclərin də Sadayın qazandığı ədəbi uğurlara imza atması asan başa gələn məsələ deyildi.*

*Deməк, Saday bir çox yurddaşından, nəsildaşından fərqli olaraq Moskvada – Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuduğu illəri yelə verməmişdi. Tələbəlik illərindən sonra onun böyük paytaxtdan kiçik paytaxta yetişmiş, bişmiş, tanınmış, bir sözlə, "hazır" yazıçı kimi qayıtması indi mənə qədim Roma sərkərdələrinin zəfər yürüşündən "əbədi şəhər"ə triumfal dönüşünü andırır. Bundan sonra qalırdı "Roma"da öz layiqli yerini, mövqeyini tutmaq. O vaxtlar harada yaşayır yaşasın, hansı dildə yazır yazsın, bütün sovet yazıçılarının dünyaya qapısı, pəncərəsi Moskvadan açılırdı; mənə – onun məktəbli oxucusuna*

*elə gəlirdi, Saday Budaqlı o qapı-pəncərə önündə öz növbəsini tutub gəlib, çox keçməz, bir Azərbaycan yazıçısının da dünya arenasına yolu açılar, həm də o yazıçı təkcə özünə yox, bütün çağdaş ədəbiyyatımıza, özündən sonra gələnlərə də cığır açar. Hər halda Saday Budaqlının yazdıqları da, qazandıqları da buna inanmağa tam əsas verirdi.*

*İki il sonra – 1987-ci ildə Saday Budaqlının Bakıda "Çat" adlı bir kitabı da nəşr olundu. Əsgərlik çəkdiyim 1988-ci ilin bir qış günündə atamın göndərdiyi bağlamanın arasından o kitab çıxanda nə qədər sevindiyimi ömrümdə unutmaram. Kitabdakı yazıların çoxunu ədəbi jurnallardan oxumuşdumsa da, o yazıların bir kitaba yığılması adamda ayrı-ayrı kəndlərdə, şəhərlərdə yaşayan bacı-qardaşların xeyirdə-şərdə ata evinə toplanması kimi bir ayrı ovqat yaradırdı. Sadayın da ədəbi taleyində böyük rol oynamış yazıçı Elçin kitaba yazdığı "On ildən sonra" adlı ön sözdə hələ tələbəlik illərindən tanıdığı müəllifin on ildə gördüyü işlərə yekun vurur, Saday Budaqlı yaradıcılığının ilk onilliyini, necə deyərlər, qənaətbəxş saymaqla yanaşı, sonrakı onillik üçün nikbin proqnozlar verirdi: o hesabla 1997-ci ilə qədər Sadayı da, ədəbiyyatımızı da böyük uğurlar gözləyirdi...*

*Ancaq dünyaya qəlbinin, vicdanının gözüylə baxan yazıçının hesabı heç də həmişə amansız, vicdansız fələyin hesabıyla uzlaşmır. Fələyin öz sayğacı var.*

*O zaman növbəti on ildə dünyanın, xalqların, o cümlədən də bizim başımıza nələrin gətiriləcəyi kimin yuxusuna girərdi? Sadayın da, ədəbiyyatımızın da yeni uğurlar qazanmalı olduğu həmin on ildə şəhərlərimizin, kəndlərimizin yer üzündən silinəcəyini, sözün-sənətin, fələyin fəndləri, şeytanın qurmacaları qarşısında aciz, əliyalın qalacağını, yazıçılığın bir peşə kimi, az qala sıradan çıxacağını kim deyərdi o vaxtlar? Doğrudu, 1990-cı ildə Saday Budaqlının Moskvada "Torpaq" ("Zemlya") adlı daha bir kitabı işıq üzü gördü, ancaq onda artıq nə ölkə, nə də millət kitab-dəftər hayındaydı; neçə-neçə sadayları qanadının altına alıb oxudan, yerbəyer eləyən dövlətin canındakı xərçəng şişi bütün orqanizmə kök atıb son həddinə çatmışdı, imperiya sınıq-salxaq gövdəsiylə ögeyli-doğmalı cəmi övladlarının çiyninə çökməkdəydi. O günlər kitab da, yazı da, qələm də çox miskin, çox əlacsız görünürdü.*

*Beş-altı ildə dörd kitabı çapdan çıxmış, otuz beş yaşına qədər adını Azərbaycan ədəbiyyatı tarixinə yazdıra bilmiş, şöhrətə aparan yolun keçdiyi səhralıq boyu təmkinlə, haysız-küysüz, arxayın-arxayın, ancaq inadla, inamla köçünü sürən yazıçının növbəti kitabının bir də – nə az, nə çox – düz iyirmi beş ildən sonra işıq üzü görəcəyi kimin ağlına gələrdi onda?..*

* * *

*Bu illər boyu ədəbiyyatın, sənətin, qəlbin, vicdanın üstündən çəkilməyən qara buludlar mənim içimə düşən o gümüşü işığa kölgə sala bilmədi. Sadayın "ilk" kitabını oxuyanda mən eynən Kafkanın hekayələriylə tanış olan Markesin (yanılmıramsa, o zaman onun da on yeddi yaşı olub) keçirdiyi duyğuların tilsiminə düşmüşdüm: demək, belə də yazmaq olarmış, əgər bunlar ədəbiyyat üçün yarayırsa, demək, yazmağa dəyər...*

*Məsələ çox sadəydi: mən Sadayın hekayələrində yaşantılarımı yazıya çevirməyin yollarını tapmışdım. Ona qədər daha çox öz təcrübəmə yad olan mətləblərdən, özümün yox, özgələrin dərdindən (onları öz dərdimə çevirə bilmədən) yazırdım. Saday Budaqlını oxuyandan sonra ədəbiyyata, nəsrə baxışım dəyişdi, elə bil çoxdan əlimin altında yatan, ancaq dilini bilmədiyim bir alətin nəyə yaradığını, ondan necə istifadə olunduğunu mənə anlatdılar. Onun hekayələrindəki Heminqueysayağı "aysberqlər", bir cümlənin arxasından boylanan on cümlə, bir dialoqun arxasında gizlənən on söhbət mənə nəyi yazmaq lazım olduğundan da çox, nəyi yazmamaq lazım olduğunu öyrətdi. On səkkiz yaşımda yazdığım bir hekayədə Sadayın təsiri açıq-aşkar görünür.*

*Onun qəhrəmanları böyük tarixi proseslərdən kənarda, gurultulu ictimai-siyasi hadisələrdən uzaqda təkbaşına dolaşırlar. Onları hansısa tarixi zərurət, ya kütlələrin hərəkətverici qüvvəsi işə salmır. Bu adamların hansı zamanda, hansı dövrdə, hansı ölkədə yaşadığını da düzəməlli kəsdirmək olmur, elə bil tarix onları hardasa salıb itirib, ya da heç əvvəldən karvana qoşmayıb. Zaman-məkan onlardan ötrü elə bir əhəmiyyət daşımır, bu adamlar hayana getsələr, harada olsalar da, təhtəlşüurun zirzəmisindən çıxa bilmirlər. Keçmişin çaxmağı çəkili tüfənginin lüləsi bir an onların kürəyindən aralanmır, adına gələcək deyilən qəza-qədər bir an onların yedəyini əldən buraxmır.*

*Bu adamlar daim "döngə situasiyasında" yaşayırlar: qəfil qarşıdan kimsə çıxacaq, ya da qəfildən nəsə baş verəcək. Çox vaxt onların adını da bilmirik, görkəmindən, boy-buxunundan, yerişindən-duruşundan da xəbər tutmuruq, çünki Sadayın personajı müdam öz dərisinin içində, öz beyninin şırımları arasında, düşüncələrinin burulğanında yaşayır. Qələmiylə can verdiyi adamlar onun dünyasında xəyal kimi, kölgə kimi, təhtəlşüurun yeriyən obrazı kimi dolaşırlar. Onlara qıraqdan baxmaq da olmur, çünki Sadayın bütün "kamera"ları personajların içində qurulub, müəllif də, oxucu da dünyanı onların gözüylə görür. Personajların başı üstündə yazıçı əli, müəllif zəhmi duyulmur – Saday Budaqlının ədəbi demokratizmi bu mənada sərhəd tanımır. Onun əsərlərində müəllifin yeri məsələsi Floberin dediyi sayaq həllini tapıb: "Allahın təbiətdə iştirakı kimi – hər yerdə var, ancaq gözə görünmür".*

*Doğrudan da, Saday Budaqlı "obyektiv" yazı manerasından uzaq duran yazıçıdı; o, yaratdığı obrazları öz arxasınca çəkib aparmır, özü onların ardınca gedir, özü onların izinə düşür, onların ömrünün qaranlıq döngə-dalanlarına işıq tutur. Onun əsərlərində müəllif münsif deyil, hakim deyil, olsa-olsa şahiddi. Sadayın yazıçı obyektivliyi də elə onun danışdığı subyektiv tarixçələrin muxtariyyətində, göydəki ulduzlar sayaq həm çox yaxın, həm də çox uzaq insanların yer kürəsi deyilən bir şəbəkə içində var ola bilməsində özünü göstərir – "Şəbəkə" povestində olduğu kimi. Bu əsərdə danışılan beş əhvalatdan (beş monoloq da demək olar) sonra gələn yekun fəslin üç personajın iştirak elədiyi dramatik formada verilməsi insanın əslində öz subyektiv dünyasında səmimi olduğu, "obyektiv" sayılan aləmin Şekspirin dediyi teatrda qoyulmuş riyakar tamaşadan başqa bir şey olmadığı qənaətini yaradır.*

*Kəskin süjet, macəraçılıq, kütləvi səhnələr, ictimai pafos – bunlara Saday Budaqlı yaradıcılığında rast gəlmək olmaz. Onun əsərlərində zahirən, az qala heç nə baş vermir, çünki Saday insanın fiziki-bioloji, dini-milli, ictimai-siyasi kimliyini yox, psixoloji kimliyini (bəlkə də nəliyini) araşdırır, yaratdığı personajların bioqrafik macəralarını yox, psixoloji macəralarını qələmə alır. Bu əsərlərdə inqilablar, çaxnaşmalar, ölümlər, qətllər, alçalmalar, alçaltmalar – hamısı insanın içində baş verir. Onun qəhrəmanlarının başına nə gəlirsə, cəmiyyətin gözündən*

*qıraqda, şüurun alt qatında, fələyin məxfi əməliyyat sahəsində, instinktlərin gizli reaksiyalarının aparıldığı qaranlıq zirzəmidə gəlir. O zirzəmidə nə kimyalar qaynadılır, nə maddələr alınırsa, sonunda bu maddələrdən insanın taleyi bişirilir. Bəzən Sadayın personajı arxasınca silahlı konvoy kimi hərlənən taleyinin gözündən yayınıb azad olmağa, xoşbəxt olmağa can atır, onda da ya lotereyasının vaxtı keçmiş olur ("Uduş"), ya yolu yarı mənzildə qırılır ("Zədə"), ya ölümünə qurtuluş kimi göz dikdiyi qardaşı sağ qalır ("Fevral"), ya beynindəki qarışıqlığa aydınlıq gətirmək üçün bir dindarın məbəd qapısına üz tutduğu ümidlə qaça-qaça getdiyi kafeni yerində tapmır ("Qırxıncı otaq"), ya da kimisə (əslində özünü) intizardan qurtarmağa gecikir ("Firuzə qaşlı sırğa"). Kəskin süjetlər olmasa da, Saday Budaqlının əsərlərində kəskin dönüşlər, sərt döngələr, qəfil gedişlər bəs deyincədi.*

*Sadayın özünün də öz qəhrəmanlarına bir şəksiz bənzərliyi var: o da onlar kimi dünyaya içinin dərinliklərindən, ağlın mikroskopla belə seçə bilmədiyi qatlardan baxır. Oradan aləm bir özgə cür görünür. Elə buna görə də Sadayın həyata, hadisələrə çox ayıq, hay-küysüz, orijinal, çox da dərin yanaşması var – necə deyərlər, dərin çaylar sakit axır. Nəsri nə qədər apolitik olsa da, mən bu illər ərzində onun ölkədə, dünyada baş verən ictimai-siyasi proseslərə biganə qaldığını görməmişəm. İntəhası, Saday Budaqlı dövrün, cəmiyyətin sosial mənzərəsini yaradan yazıçılardan deyil, o, ictimai yüklü hadisələri də kütlənin "əlindən alıb" fərdin psixoloji mülkiyyətinə çevirə bilir. Məsələn, Qarabağ köçkünlərinin taleyi barədə çox deyilib, çox yazılıb, neçə-neçə film çəkilib; ancaq az-az fakt, tək-tək sənəd insanı "Əclaf" hekayəsindəki Feyzi kişinin taleyi qədər sarsıda bilər. Müharibədə təkcə yurdunu yox, oğlunu, gəlinini, nəvələrini, bir sözlə, bütün var-yoxunu itirmiş qoca kişiyə əclafcasına aydın bir sual verilir: "Sən axı niyə yaşayırsan, niyə ölmürsən?.." Bir savaşçı bəlkə bu suala asan cavab tapardı, məsələn, qisas almaq üçün, düşmənlərini öldürmək üçün yaşadığını deyərdi; fələyin qumarında bütün həyatını uduzmuş, əlindən heç nə gəlməyən, dünyanın bazarında fağır-fağır hərlənib tərəzi qabağında qalmış tərəvəzlə dolanan qoca qaçqınsa bu qəddar sualın qabağına öz miskin, iddiasız ölümündən başqa nəylə çıxa bilərdi?..*

* * *

*"Yolüstü söhbət" Saday Budaqlının latın qrafikasıyla nəşr olunan ilk kitabıdı. "Döngə"də, "Çat"da toplanmış yazıların hamısı olmasa da, çoxu bu kitabda yer alıb. Üstəlik, Sadayın doxsanıncı, ikimininci illərdə yazdığı "Yağmursuz havalar", "Yolüstü söhbət", "Əclaf", "Yaxşı oğlan", "Nisgil", "Bir yay günü", "Qoca" kimi hekayələri də yeni kitaba salınıb. Sadayın vaxtında hər biri ədəbi hadisəyə çevrilmiş "Şəbəkə", "Fevral" povestlərini, "Zədə" romanını kiril əlifbasını bilməyən gənclər yalnız indi oxumaq imkanı qazanacaqlar. Bu əsərlərin yenə də oxunacağına inanıram, çünki Saday Budaqlının yaradıcılığı dövrdən, zamandan, məkandan asılı yaradıcılıq deyil.*

*Otuz il qabaq mənə – Sadayın "ilk" kitabını əlindən yerə qoymayan bir məktəbliyə "düz otuz il sonra Saday Budaqlının kitabına ön söz yazacaqsan" desəydilər, inanmazdım. O vaxt Sadayın otuz yaşı vardı, indi bir otuz da üstünə gəlib. Bu otuz ildə mən onun oxucusundan həmsöhbətinə, dostuna çevrilmək şərəfinə nail oldum. O zamanlar mən Saday Budaqlıya bir salam vermək, onun sözünü-söhbətini eşitmək üçün fürsət güdürdüm; sonralar onunla saysız-hesabsız görüşlərimiz, söhbətlərimiz oldu, Azərbaycanın bölgələrinə səfərlərə çıxdıq, bəzən gecə səhərə qədər yatmayıb dərdləşdik, dağlara dırmandıq, bulaqlardan içdik, çaylarda çimdik, dostlarla birgə məclislər qurduq, şəkillər çəkdirdik... Hətta bir səfərimizdə Saday bizi qəhrəmanlarından birinin prototipiylə tanış elədi – o kişinin öz "müəllifini" necə duz kimi yaladığı heç yadımdan çıxmaz...*

*Noyabrın 13-də Saday Budaqlının 60 yaşı tamam olur. Məndən ötrü Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan könül dostumu, əqidə qardaşımı bu yubiley münasibətilə hamıdan qabaq təbrik eləmək imkanı qazandığıma görə çox sevinirəm. Birinci otuzillikdə Saday öz təxəllüsünü ədəbiyyat tariximizə tanıda bildi. İkinci otuzilliyin böyük hissəsi təkcə onun üçün yox, bütövlükdə ədəbiyyatımız üçün çox da uğurlu keçmədi. Ömrün üçüncü otuzilliyində Saday Budaqlının yeni bir güclə ədəbiyyat meydanına girəcəyinə qəti şübhə eləmirəm, çünki onu yaxşı tanıyıram, əsla tükənmədiyini, hələ deməyə sözünün çox olduğunu, masasının gözündə bir yarımçıq romanın, müəllifin "qəbulunda" növbə gözlədiyini bilirəm.*

***Fəxri Uğurlu***

***26 sentyabr 2015-ci il***



# Hekayələr

## YAĞMURSUZ HAVALAR

Dünən tualetdən çıxıb kəmərini bağlaya-bağlaya fikirləşdi, bəlkə özünü öldürsün. Havalar birdən-birə sərinləmişdi. Yatıb durmuşdular ki, axşamkı bürküdən əsər-əlamət yoxdu, yağış yağır, soyuq külək əsir, camaat əyin-başını qalınlaşdırıb. Arvadı qab-qacaq cingiltisi arasından yadına salmışdı ki, bu gün sentyabrın iyirmi ikisidi, yəni bu gün payız girib, o da bircə gündə cildini dəyişən adamlara, şəhərə baxa-baxa təbiətin işinə əməllicə heyrətlənmişdi. Ancaq heyrəti tez keçmişdi, xırda-xuruş qayğılar onu üstələmişdi, qanını bir balaca qaraltmışdı; gərək təzə ayaqqabı alaydı, plaşı təmizlənməyə verəydi, hələ arvad-uşağa da nələrsə almaq lazım olacaqdı. Bu narahatçılığı da çox davam gətirməmişdi, illərlə yığdığı təcrübə əhdinə sadiq çıxmışdı. Doğrudan da, darıxmağa, kefini pozmağa dəyməzdi, payızı, üstəlik, qışı da birtəhər yola verəcəkdi, yaz günəşi kürəyini qızdıran kimi də çəkdiyi bütün çətinlikləri, qanqaraçılığı unudacaqdı, necə ki, şükür Allaha, unuda-unuda gəlirdi.

Bürkünü, bu il özünü aldada-aldada, günü günə sata-sata axır ki, getmədiyi çimərlik həvəsini yuyub aparan həmin yağışdan sonra istilər birdəfəlik sındı. Yağmursuz, günəşli günlər idi, şairlərin dediyi əsl qızıl payız idi, havalar sınmışdı deyə, elə bil təmizlənmişdi də, indi, heç olmasa,

sinədolusu nəfəs ala bilirdi. Nədənsə payızın belə günəşli günləri həmişə onun yadına baharı salırdı, özü də bir ilin, beş ilin baharını yox. Durduğu yerdə haradansa burnuna tüstü qoxusu dəyirdi, adını bilmədiyi bir hiss də bu tüstü qoxusuna qarışıb ona Novruz bayramını, uşaqlığını xatırladırdı. "Xatırlamaq" bəlkə də yalan sözdü, çünki keçmişin sehrinə bircə an düşürdü, nəyisə xatırlamağa heç macal da tapmırdı, uşaqlıq illəri, keçirdiyi hisslər, sevinci, ağrı-acısı sıxılıb-sıxılıb bircə ana sığışırdı. Ona görə həmin bircə anda baş aça bilmirdi ona nə olub, niyə doluxsunub, ağlamaq istəyi dərddəndi, yoxsa xoşbəxtlikdən.

Ümumi həyətli, ümumi tualetli, bir-birindən taxta divarlarla ayrılmış, üst mərtəbənin bitişik, yeriyəndə dar artırmaları asma körpülər kimi yırğalanan bu ikimərtəbəli binadakı evlər quş qəfəslərinə oxşayırdı. Balaca bir hay-küy hamını diksindirirdi, səslər, sözlər evdən-evə keçirdi, ağızdan-ağıza düşürdü, çeynənib-çeynənib həyətə çıxırdı, o qədər dəyişirdi, bəzənirdi, az qala yiyəsi də onu tanımırdı. Ona görə evdə hamı məcbur idi mehriban dolansın, səsini qıssın, hirsini-hikkəsini boğsun, kənardan baxanda elə bilərdin bu binada hamı xoşbəxtdi. O, elə də bilirdi, hər halda, bilmək istəyirdi, çünki dərinə gedəndə nəsə tapırdı, sonra da tapdığından qaça bilmirdi, rahatlığını itirirdi. Di gəl, Xeyri qarı ona qaçmağa yer qoymamışdı. Xeyri qarı divarın o üzündə idi, gecəsini-gündüzünü çaş-baş salmışdı, görürdün, haçan oldu öz-özünə danışır, donquldanır. Danışmayanda da nəfəsi eşidilirdi, elə bil körük basırdılar, elə bil kahadan külək üfürürdü. Bir torba ət-sümükdü, yaşını, indisini, keçmişini, ölüb-qalan uşaqlarının adını, adamların yaxşılığını, pisliyini unutmuşdu. Yeməyi

qabağında qoyub qızını söyüb-yamanlayırdı, deyirdi çörək vermir, baxmır mənə, özünə ölüm diləyirdi, amma çimizdirəndə çırpınırdı, sıtqanırdı, ağlayırdı, elə bilirdi yuyat yeridi, yuyub kəfənləyəcəklər. Bu qarının ona dəxli yox idi, bu qarı onun heç kimi idi – bunu çox təkrarlamışdı, intəhası, özü ilə bacarmırdı, divarın o üzündəki hənirti ovqatını qarışdırırdı, evlərində heç kim olmayanda ərinməyib səsə çıxırdı, ya arvad-uşaqdan kimisə göndərirdi, lazımdısa, həkim çağırtdırırdı, dava-dərman tapdırırdı, həyət-bacada qoluna girirdi, aftafasını doldururdu, uzun-uzadı şikayətlərinə səbirlə qulaq asırdı… və bütün bunları fikrində eləyirdi. Beləcə çoxuna yaxşılıq eləmişdi, dar gündə dadına çatmışdı. Ona görə də həmin adamlardan yamanlıq, kobudluq, soyuqluq görəndə yanıb-yaxılırdı.

Axır vaxtlar yenə tez-tez güzgüyə baxmağa başlamışdı. Deyəsən, daha ömrü xırıd eləyirdi; saçı seyrəlirdi, ordan-burdan ağarırdı, üz cizgiləri kobudlaşırdı, dişləri çürüyürdü. Yəqin, bəzi xəstəliklərdən hələ xəbəri yoxdu, hələ o xəstəliklər yol gəlirdi, bədəninin harasındasa xımır-xımır öz işini görürdü, birdən ayılacaqdı ki, hazırdı: yel, şəkər, astma, miokard… Azar o idi ki, dəyişən üz cizgilərini güzgüdə gördükcə hövsələdən çıxırdı və belə şeylərə görə əzab çəkdiyi üçün xəcalətlənirdi. Ancaq özüylə, hissləriylə bacarsaydı nə vardı ki. Düzdü, hissləri daha əvvəlki kimi onu yerindən oynatmırdı, bir az kəsərini itirmişdi, korşalmışdı, bir az da özü noxtasını çəkirdi, nalını tökməsin deyə, bacardıqca çarpışmalar, təlatümlər meydanına salmırdı, yorğa yerişlə, öz tanış cığırlarıyla sürüb gedirdi. Çılğınlıq, səbirsizlik, yuxusuz gecələr – bu olmuşdu, əvvəllər olmuşdu, özünü tələsdirirdi, tez, tez, tez böyüsün, sərbəstləşsin, dost qazansın, qadın tanısın, evlənsin, uşağı olsun, arvada xəyanət eləməyin

necəliyini bilsin, qısqansın, onu qısqansınlar, tez, tez, tez… Görə-görə gəlmişdi və birdən məlum olmuşdu ki, daha tələsməsə də olar, daha keçirdiyi hisslər üst-üstə düşür, bir-birini təkrarlayır, daha çox-çox şeyləri rahatca yerinin içində uzanıb təsəvvür də eləyə bilər.

Bəlkə təsəvvür eləyə bildiyinə görə də Səlvi ilə görüşə indi o qədər də can atmırdı. Araya bir iş düşəndə, bəhanə tapılanda sevinirdi. Ancaq sonra özünü söyə-söyə, kiminsə üzünün suyunu tökə-tökə açarını aldığı otaqda keçirdiyi iki-üç saata da sevinirdi, Səlvini ona yetirdiyi üçün Yaradana dua eləyirdi.

Səlvi ilə tanışlığı avtobusdan başlamışdı. Səhər-səhər uşağı bağçaya aparanda həmişə basırığa düşürdü. Və günlərin bir günü qarayanız, suyuşirn bir qız ondan uşağı alıb qucağında oturtdu. Bir dəfə belə, iki dəfə belə, üç dəfə belə, sonra bu təsadüfi görüşlərə öyrəşdilər. Uşağın ona getməyindən, kirimişcə qucağında oturmağından qızın xoşu gəlirdi; uşağı danışdırırdı, saçını sığallayırdı, oxşayırdı, hətta artıq uşaq üçün əl çantasında konfetdən, peçenyedən nəsə gəzdirirdi. Onlar ilk dəfə rastlaşanda qış idi; palto, papaq, qırmızı şərf. Qış çıxdı, yaz girdi, Səlvinin ipək saçlarının yumşaqlığı, dərisinin hamarlığı, boynunun zərifliyi hiss olundu. Səlvi özünə, bəzək-düzəyinə fikir verirdi, elə bil onunla görüşə gəlirdi, elə bil bəzək-düzəkli otaqda gözə xoş görünsün, nəzəri çəksin deyə, hər gün nəyinsə yerini dəyişirdi. Bəzən rastlaşmırdılar – Səlvinin gözləri umuküsü eləyirdi; bəzən tək olurdu – Səlvi nigaran qalırdı. Hərdən də uşaqla əyləndiyi yerdə birdən-birə duruxurdu, sifəti kölgələnirdi, gözləri yol çəkirdi. O bu qüssənin səbəbini başa düşürdü, bilirdi Səlvinin ürəyindən keçənləri

– kaş bu uşağı o doğmuş olaydı, beləcə bir yerdə uşağı bağçaya aparaydılar, bağçadan gətirəydilər, indiki səddi qırıb onunla danışaydı, nəsə soruşmaq üçün qoluna toxunaydı, heç kimdən çəkinmədən üzünə gülümsəyəydi. O, Səlvini intizarda çox qoymadı…

Yaxşı ki, Səlvi onu incitmirdi, ürəyini ələk-vələk eləmirdi, astarına çevirmirdi. O da Səlviyə əxlaq dərsi vermirdi, arvad-uşaqlı kişinin subay, cavanca bir qıza tay olmadığını söyləyib onu haqq yoluna qaytarmağa çalışmırdı. Onsuz da haçansa ayrılacaqdılar, gec-tez nəsə olacaqdı, ya birdənbirə, ya yavaş-yavaş. Onsuz da həyat da müvəqqətiydi. Yel, miokard, astma…, ya avtomobil qəzası. Bir də gördün, arvadı şikayətlənirdi, deyirdi nə olaydı, bir dəfə də bizim bəxtimiz gətirəydi, nəsə tapaydıq, ya maşından-zaddan udaydıq. Düzdü, onların bəxti gətirib maşın-zad udmurlar, di gəl, gündə nə qədər adam maşın altına düşür, ya çayda boğulur, pilləkəndən aşır. Onların hələ ki bu sarıdan da "bəxtləri gətirmir". Buna da şükür.

Hərdən könlünə toxunanda, görüşünə getməyəndə, ya elə-belə darıxanda quş olurdu, uçub Səlvinin pəncərəsinə qonurdu. İstəyirdi beş addım oyandakı Səlvini, onun necə baxdığını, gülümsədiyini, kiməsə nazlandığını, kimdənsə küsdüyünü görsün, yad adamlar içində dolaşan yad təbəssümlü bu qızın onun olduğuna özünü inandıra bilməsin, bir az qüssələnsin, əzab çəksin, özü özünü bir az ağrıtsın.

Səlvinin otağı bapbalaca idi. Bu bapbalaca otaqda qapının girəcəyindən iri güzgü asılmışdı. Səlvi o güzgünün qabağında sığallanırdı, daranırdı, həyətə düşəndə, nə üçünsə mağazaya qaçanda da tələsik güzgüyə boylanırdı. Qadın bəzənirsə, demək, istəyir xoşa gəlsin, diqqət çəksin, sevilsin. Ancaq kişilərin çoxu sadəlövhdü; elə bilir büruzə versə, hiss elət-

dirsə, qadın ondan inciyər, onun haqqında pis düşünər. Amma heç bir qadın sevildiyini hiss eləsə, inciməz, özünü incimiş göstərsə də, inciməz. Bu da çox vaxt unutduğu həqiqətlərdəndi.

Səlvi ata-anasının tək uşağı idi. Ondan böyük bacısı üç yaşında ölmüşdü. Qohum-qardaş yaylağa yeyib-içməyə gediblərmiş, başları qarışır, bir də görürlər uşaq yoxdu. Axtarmadıqları, gəzmədikləri yer qoymurlar, meşəni ayaqdan salırlar, uşaq tapılmır ki, tapılmır. Anası başına-gözünə döyürmüş, deyirmiş yuxusunu görmüşdüm: görmüşdüm köç gedirik, arabadan bir quzu düşür, qışqırıram ki, a gözünüz tökülsün, görmürsünüz quzu düşdü, götürsəniz… Uşağı səhər qayıdıb süfrə açdıqları yerdən bir azca aralıda tapıblar. Demə, onların başı qarışanda, uşaq gedib kolun dibində yatıbmış. Ona görə də gəzənlərin səsini, harayını eşitməyib. Deyir, uşaq yan-yörəsini qazıq-qazıq eləyibmiş… Əhvalatı eşidəndən o qız yadından çıxmırdı, gözünün qabağından getmirdi. Necə olub tapmayıblar? Ağılları kəsməyibmi ki, üç yaşlı uşaq uzağa gedə bilməz? Bəs ürəkləri necə gəlib ki, evə qayıda biliblər? Axır dözmədi, həmin ilə, həmin günə qayıtdı, gecənin bir aləmi yolunu o meşədən saldı, ağlamaqdan səsi kəsilən uşağı tapıb bağrına basdı, öpə-öpə, əzizləyə-əzizləyə meşədən çıxartdı, aparıb dərddən üzülmüş ata-anasına qaytardı. Həmin uşaq elə Səlvi idi, bunu özü bilmirdi, ancaq elə ona görə evlərində hamı toxtamışdı, ona görə bu əhvalatı belə sakitcə xatırlayırdılar. Öz ürəyinə də toxtaqlıq gətirən sonluğu Səlviyə demədi, çünki dedi-demədi – fərqi yoxdu, o vacibdi ki, uşaq meşənin zinriyində zülüm-zülüm ağlayıb anasını çağıranda, torpağı cırmaqlayanda, böyürdən bir Allah

bəndəsi çıxmışdı, qoymamışdı onsuz da ağrılı, əzablı dünyada heç nədən bir zülüm də olsun.

Dünyada hamı istəyirdi dərdi özündən uzaqlaşdırsın, necəsə, nəyləsə təsəlli tapsın. Yaşamaq doğrudan da ağır iş idi. Nələr fikirləşib tapmamışdılar, nələr quraşdırmamışdılar; məktəbi də vardı, zavodu da, əsgərliyi də, dustaqxanası da, kommunisti də, kapitalisti də, üstəlik, dəst-dəst qayda-qanunu, fərmanı, qadağası da. Hamısı da guya onun xatirinə ki, insan deyilən varlığın bir qarın yeməyi olsun, yağışdan daldalanmağa damı olsun, balasının altına atmağa palazı olsun. Hələ möhürlə təsdiqlənənlər bir yana, yazılmamış qaydalara nə deyirsən: bunu eləmə, ona baxma, nəfsini boğ, ata-ananı sev, namus, vicdan, qeyrət – gəl indi bütün bunların içində baş çıxar, büdrəmə, yıxılma, alçalma.

Anası son zamanlar bir falçını tez-tez xatırlayırdı. Xatırlayib heyrətlənirdi, Allaha şəkk gətirənə söyürdü. Bu əhvalat çoxdan olmuşdu, onda hələ dünyada yoxuymuş. Ancaq falçı deyib ki, bir oğlun da olacaq. Atasının tutulmağı, "uzaq səfərdən" sonra başqası ilə evlənməyi, anasının belindəki ağrılar, bu ağrının ondan ölənə kimi əl çəkməyəcəyi – hamısı düz çıxmışdı. Falçı böyük oğlunun xoşbəxt taleyini də əvvəlcədən görmüşdü, özü də bunu iki-üç dəfə təkrar eləmişdi. O, alın yazısına inanırdı. Ancaq içi tüklü məst kimi səssiz-səmirsiz dolaşan, yanında gözükölgəliymiş təki arvadından çəkinən, yemək yedikləri yerdə mətbəxə keçib, gizlincə yüz qram vurub qayıdan qardaşına onun xoşbəxt deməyə dili gəlmirdi. Bəlkə Allah üçün xoşbəxtlik o idi ki, adam varlı-hallı olsun, dişi tökülməsin, mədəsi ağrımasın, övlad görsün və uzun bir ömür yaşasın, Xeyri qarı kimi, elə uzun ömür ki, olub-keçəni, keçmişini, hətta əzablarını da unutsun – keçmişini unudan adamın nə əzabı – və

ölüm gəlib onu vur-tut bədəninin ağrısından qurtarsın. Daha sevgidi, yaxşılıqdı, pislikdi, bunları necə başa düşməkdi, nəyə sevinməkdi – yəqin bunları Allah adamların öz ümidinə buraxmışdı. Qoy onda biz başqa cür düşünək, Səlvi xanım, deyək ki, insan dünyaya əzab çəkmək üçün gəlir. Belə fikirləşək və taleyimizlə barışaq. Kim bilir, bəlkə taleyimizlə barışanda biz elə xoşbəxt oluruq?!

Amma Səlvi ondan sirr də saxlayırdı – hər halda, özünə belə gəlirdi, elə bilirdi qara divlərin gecələr o bapbalaca otaqda ona əziyyət verməyindən xəbəri yoxdu. Divlərin gözü düşüb Səlviyə, istəyirlər ürəyinə xof salsınlar, şübhələr içində üzdürsünlər, ondan üzü dönsün. Hələ ki, gücləri çatmırdı, Səlvinin sevgisi onların əl-ayağını bağlamışdı, bu sevgi yoxa çıxanda divlər Səlvini ondan alıb yeddi dağın arxasına aparacaqdılar. Ona görə Səlvidən soyuqluq hiss eləyəndə tezcə özünü yığışdırırdı, dönüb olurdu həssas, qılıqcıl, mehriban, məşuqəsi yolunda hər məşəqqətə qatlaşan igid bir oğlan. Bəlkə də Səlvini itirmək ona elə də yer eləməzdi, ancaq uduzmaq pis şeydi, bunun ağrısına, özü də bu yaşda, dözə bilməyəcəyindən qorxurdu. Həm də istəyirdi özünü bir sınasın, görsün divlərlə vuruşmağa qüvvəsi çatırmı, hələ nəyəsə qadirdimi.

Onun ötəri coşğunluğunu ola bilməzdi ki, arvadı hiss eləməsin, heç olmasa, yataqda hiss eləməmiş olmazdı. Yəqin, gümanı başqa şeyə gəlmirdi, bunu həmin günün xoş havasından, ya bişirdiyi dadlı yeməkdən görürdü.

Kefi pis olanda, həmişə çalışırdı yaxşı geyinsin. Üzünü qırxırdı, ətirlənirdi, dodaqlarına təbəssüm qondururdu. Gülümsəməyi gözəl bacarırdı. Bəzən heç danışmırdı da, elə gülümsəyirdi. Evdə, işdə, yolda. Hamı da ondan razı

idi. Çünki o, hamının zəif yerini bilirdi və çalışırdı oraya toxunmasın. Bir də bilirdi ki, onu daha çox sevə bilərdilər. İmkanlı olsaydı, dost-tanış bir yana, evdə arvad-uşaq başına dolanardı, gələndə ayağa durardılar, ayaqqabılarını çıxarardılar, pencəyini tutardılar, qılığına girərdilər. O, bu sevginin işığını bəzən uşaqlarının üzündə görürdü. Və həmişə belə olmadığına darılmırdı. Çünki bu, çox təbii idi. Bunları başa düşüb darılmadığı üçün hətta gizlicə özünə hörmət eləyirdi.

Arvadı pişikləri xoşlayırdı, ona görə o, hərdən pişik olurdu.

## YOLÜSTÜ SÖHBƏT

Evə gedirsən, aparım? Nə zəhmət, yolum onsuz da siz tərəfdəndi. "Nərimanov" metrosunun yanında qalmırsan? Deyirəm də. Di otur. Baxma, hamımız iş yoldaşıyıq, günün çoxunu bir yerdə oluruq, ancaq adamın hamıya qanı qaynamır. Bir il olar da bizdə işlədiyin? Az vaxt deyil. İntəhası, adam tanımağın vaxta dəxli yoxdu. Uzun müddət lap bir damın altında yaşadığın adamı, olar ki, tanımayasan. Şəraitdən çox şey asılıdı. Görürsən, vəziyyət elə hərlənib gətirir, yaxın saydığın adamın birdən başqa sifəti çıxır üzə. Neyləyəsən, həyatdı. Yaşaya-yaşaya bilirsən nə nədi. On ilə yaxındı burada işləyirəm, ancaq tək-tük adam var ki, evimə, ailəmə aparmış olam. Demirəm, hamıdan qaç, heç kimə qaynayıb-qarışma. Yox, çalış münasibət saxla. Ancaq hamını ürəyinə yaxın buraxma. Ürəyini açırsan, sözünü deyirsən, bir də görürsən, həmin ağrıyan yerindən vurdular. Dünyanın işləri belədi. Zəif oldun, batdın. Oğlum yerindəsən, bütün həyatın hələ qabaqdadı. Görə-görə özün hər şeyin kökünə gedib çıxacaqsan.

Evli olduğunu bilirəm, uşaqdan-zaddan nəyin var? Oğlandı? Allah saxlasın. Görürəm, buradakı qızlarla hərdən

xosunlaşırsan. Yox. Heç nə demirəm. Gəzmək də lazımdı. Görüşüb lap o yana keçmək də. Kişiyə hərdən sol getmək olar, ancaq hər şeyin təhəri var. Gərək ilk növbədə ailəndə səni kişi kimi saysınlar, hörmətini saxlasınlar. Yoxsa mən kişiyəm deyib, bu gün burada, sabah orada, bilməyəsən evdəkilərin dərdi-səri nədi, haradan gəlib, hara getdilər, nə yedilər, nə içdilər. Əvvəl evin içi, sonra çölü. Ailəni kişi kimi saxlaya bilirsənsə, arada bir böyür-başa boylanmaq olar. Bunları sözgəlişi deyirəm, özün, şükür Allaha, ağıllı oğlansan. Mənim də əlimdən gəlib keçənlər olub. Özümə korluq verməmişəm. Hamımız Allah bəndəsiyik, ancaq belə şeyləri hisslə görməmişəm. Ağıllı, ölçülü-biçili hərəkət eləmişəm. Olub – qurtarıb. Onunku onda, mənimki məndə. Hisslə yanaşdınsa, sapı çıxdı. Başlayacaqsan əzab çəkməyə. Onun həyatı olacaq sənin həyatın. Gülüşü, duruşu, baxışı – hamısı dil deyib danışacaq. Hamısına məna verəcəksən, hamısını yozacaqsan. Bu gün niyə belə baxdı, sabah niyə belə gülümsədi. Narahatçılıqdan da qəliz şey yoxdu. Hələ ürəyinin necə parçalandığını, bölünməyini demirəm. İstər-istəməz evdə başqa cür olmalısan, çöldə bir başqa cür. Qadın da elə məxluqdu, səndəki hər dəyişikliyi o saat tutur. Bir şey duydusa, hiss elədisə, dinc dayanmaz. Necəsə, cavabını verəcək, əvəzini çıxacaq. "Min bir gecə"ni oxuyubsan da?! Onu qaçıran divdən səhranın ortasında da qız fürsət tapıb acığını çıxır. Özü də divin böyründə. Yuxudan oyanmasın deyə, divin başını ehmalca dizinin üstündən götürüb qoyur yerə, səhraya düşmüş tək bir kişini məcbur eləyir onunla olsun. Qadın belə məxluqdu. İstədiyini iki daşın arasında da eləyəsidir. Gərək ona bəhanə verməyəsən. Ona görə belə işləri hisslə yox, ağılla görmək lazımdı. Həm

də özün üçün belə yaxşıdı. Axı hamımızın ömür boyu çalışdığı nədi? İstəyirik bir daxmamız olsun, ailəmiz olsun, işimiz olsun. Sabahımızdan da narahat olmayaq. Həmişə buna çalışmışıq. Birdən də durub könül dilxoşluğuna, ay guya kimisə sevdim deyə, hər şeyi alt-üst eləyəsən, öz yuvana su çiləyəsən. Dəyərmi? Məni dəli eləyib çöllərə salacaqsa, ailədə, işdə hörmətsiz eləyəcəksə, nəyimə lazımdı o sevgi. Hamı Məcnun, Məcnun deyir, soruş ancaq görüm, Məcnun olmaq istəyən varmı? Mən evdə çox ciddiyəm. Kimin ağzı nədi bir sözümü iki eləyə. Ona görə yox ki, hər işi düz tuturam. Gərək sənə inanalar, əsas budu. Səhvini də düz bilələr. Bir dəfə boynuna alıb desən ki, filan işi səhv elədim, sabah düz işinə də müçük qoyacaqlar. Bir oğlum var. Bir qızım. Onlarla da, lazım gələndə açıq söhbətlərim olur. Oğlumla elə olub lap sənnən danışdığım kimi danışmışam.

Ayıbdı, filandı, aradan pərdəni götürmə – belə şeylər başıma batmaz. Başqası onların yaxşılığını məndən çox istəyəsi ha deyil. Daha özümü niyə çəkib qurutmalıyam. Görəndə ki, düz iş görmür, nədəsə yanılır, ona elə mən yol göstərməliyəm də. Onun dostu elə mən olmalıyam. Qızımı ərə vermişəm. Öz istədiyi oğlandı. Bir yerdə oxumuşdular. Soraqlaşdım, öyrəndim, əslinə-kökünə bələd oldum, sonra razılığımı verdim. Ailələri kiçikdi. İki qardaşı, bir də anaları. Pis o idi ki, hamısı bir yerdə qalırdı. Üstəlik, böyük qardaşı da evliydi. Bilirsən, mən həmişə gözəldən qorxmuşam. Bacardıqca onlardan qaçmışam. Onlardan uzaq durmuşam. Bəlkə də vurulmaqdan qorxmuşam. İnanmamışam onlar da məni sevə, ya görünür, onların vəfasına etibarım olmayıb. Hə, nədənsə, ömrüm boyu onlardan gen gəzmişəm. Qızımın

qaynı arvadı da gözəldi. Çox gözəldi. Gözəllik də cürbəcür olur. Bunun gözəlliyi adamı çağırırdı. Elə bil çiçək açmış ağacdı, durub qarşında. Deyir, bax mənə, gör nə gözələm, nə qəşəngəm. Mən mənliyimnən gözümü ondan çəkmirdim. Hamı xatirini istəyirdi. Deyən, gülən, mehriban, qılıqcıl. Ancaq çox sərbəstdi. Evə olduqca gec gəlirdi, elə olurdu heç gəlmirdi. Guya ezamiyyətə gedib, nə bilim, rəfiqələrigildə qalıb. Fikirləş də, ər evdə oturub, arvad hələ işdən qayıtmayıb. Gecə peyda olur, rəfiqəmgildəyəm. Ağlın nə kəsir? Ər heç nə demir, qayınana dillənmir. Onların əvəzinə mən ha danışası deyiləm. Demirəm, işdən gecə gəldisə, mütləq nəsə eləyib. Axı hər şeyin bir qaydası var. Mən də görəndə ki, filan hərəkətimə dillənən yoxdu, əvvəl bir az çəkinirdimsə, sabah heç çəkinmirəm. Hamımız beləyik. Gərək vaxtında qolundan tutub saxlayasan, deyəsən, elə deyil, belədi, bu yolla getməlisən. Nəsə, axır dözmədim. İşin sonuna yaxın getdim idarələrinin qabağına, bir dəfə, iki dəfə, üç dəfə, hər şey məlum oldu. Ürəyimə daman düz çıxdı. Bir xeyli düşündüm, daşındım. Necə eləyim, nə təhər eləyim. Qızım da bu evdə. Gəlinlə ora gedirlər, bura gedirlər. Beşi ağlına gətirməsə də, biri fikirləşməzmi, qızım da elə onun tayıdı, o yolun yolçusudu. Kimi inandırasan?! Əvvəl qızıma dedim ki, ya siz qalmalısız bu evdə, ya da qaynıngil. Məcbur eləməyin biabırçılıq açım, götürüb səni aparım evə. Qız qalıb duruxa-duruxa. İnana bilmir. Həm də asan iş deyil axı, özüm başa düşürəm. Gördüm bundan bir şey çıxmayacaq, qayınanasına dedim. O da mızıldadı, sızıldadı, nə başını ağrıdım, bir ay beləcə keçdi. Hər şey yenə əvvəlki qaydasındaca gedir. Bircə mənə münasibət dəyişib. Məni görəndə qızımın da, qayınanasının da ağzı əyilir.

Guya mən bunların evinə narahatçılıq gətirmişəm. Bilirsən, heç kim pis adam olmaq istəmir. Nə olsun, anadı, qardaşdı, ya o birisidi, niyə başlarını cəncələ salsınlar? Haçan özü bilər –bilər, bilməz – canı cəhənnəm. Qoy belə də yaşasın.

Kiminsə dalınca danışanda, barmaqla göstərəndə, fikirləşirsən belə vəziyyətə bu adamın özü necə dözür. Demə, məsələ başqa cürüymüş. Hamı elə arxada danışırmış, o yazığın özünə həqiqəti gedib deyən yox imiş. Bu işi mən başlamasaydım, başqasından eşitsəydim, bəlkə özgə bir şey fikirləşərdim. Ancaq daha geriyə yol yoxdu. Oğlanın özünü tutdum. Dedi, mənim işimə qarışma.

Soruşmur, öyrənmir düzdü, səhvdi. “Mənim işimə qarışma”. Dedim, bu, təkcə sənin işin deyil, mənim də qızım bu evdə qalır. Qoymaram, sabah mənim də qızımın adına söz çıxa. Başqa yerdə yaşasaydınız, doğrudan da öz işinizdi. Məcbur oturtdum maşına, apardım arvadının iş yerinin qabağına. Çıxdı, mindi bir zoğalı “Jiquli”yə. Dedim, istəyirsən, sürüm arxalarınca. Başını yırğaladı ki, yox. Özü də kağız kimi ağarıb. Dedim, axşam soruşarsan haradaymış. Yəqin yenə rəfiqələrigildəymiş. Dinib danışmadı.

Yolun ortasında maşını saxladı ki, düşürəm. Nə qədər elədim, dedim, hara lazımdı aparım, razı olmadı. Qapını çırpıb düşdü. Sonra nə eləsə yaxşıdı? Özünü asdı. Ağlın nə kəsir beləsindən?! Axmaqlıqdı. Özünü öldürdüsə, belə şeyə getdisə, deməк, arvadının xəyanətinə inandı. İnandınsa, bəs özünü niyə öldürürsən? Guya acıq çıxırdı. Guya qızı peşman eləmək istəyirdi. Nə xeyri. İndi sümüyü çürüyüb. Bəlkə heç üstünə gedən də yoxdu. Allah eləməsin, onu

yerində mən olsam, basıb gözünü çıxarardım. Uzağı boşayardım. Daha özümü niyə öldürürəm. Yasda arvadı gözünün yaşını sel eləmişdi. İşin içindən xəbəri olmayan deyərdi ərini nə çox istəyirmiş. Mən də mənəm. Qırxı çıxdı. Ara bir az soyudu. Təklikdə yaxalayıb hər şeyi danışdım. Nə təhər olub, necə ərini aparıb göstərmişəm, sifəti nə hala düşüb – hamısını danışdım. Ağladı, ağzına gələni dedi mənə. Guya təqsir məndədi. Beləsinə nə deyəsən. Sonra şələ-şüləsini də yığışdırıb evinə getdi. Daha bilmirəm haradadı, nə işlə məşğuldu. Nəyimə də lazım? İntəhası, heç keçiləsi şey deyildi. Nədi, düşürsən? Çatdıq ki? İstədiyin yerə apara bilərəm, mənə görə narahat olma. Di özün bilərsən. Ancaq, deyəsən, tələsdin.

## QIRXINCI OTAQ

*Qoca ona qırx açar verib dedi: "Burada hər nə istəsən var, qalarsan, kef edərsən. Bu otaqlar da hamısı sənin. Ancaq nəbadə, nəbadə, qırxıncı otağı açasan".*

***"Ax-vax" nağılından***

İşıqdan gəldiyinə görə əvvəl heç nə seçəmmədi. Gözü qaranlığa öyrəşənə qədər qapının ağzında dayandı. Çəkinə-çəkinə qapının ağzında dayandığı həmin bir-iki dəqiqədə onu ilk dəfə ayaq basdığı bu yerə doğmalaşdıran həzin musiqi oldu. Musiqi tanış ev sahibi kimi astanada qabağına çıxmışdı, duyulmadan kafeni işıqlandırırdı; masanın, kətillərin, orda-burda oturmuş adamların cizgiləri get-gedə qaranlıqdan seçilirdi.

Kafedə o qədər sakitlik idi ki, bu sakitlikdə heç kimin onun gəlişinə fikir verməməsi, gözucu belə baxmaması onu təəccübləndirdi. Amma az sonra təəccübü arxayınlığa, rahatlığa çevrildi. Yerini rahatlayıb sakitcə ətrafına baxdı.

İçəridə adam az idi, bir masanın arxasında uzağı iki nəfər oturmuşdu. Pıçıltı ilə danışdıqlarından heç kimin səsi

eşidilmirdi. Elə bil hamı, onun indiyə qədər hardan gəldiyini anşıra bilmədiyi musiqi kimi, sükuta xələl gətirmək istəmirdi. Hətta sükutu qorumaq istəyi necə yaxınlaşdığını hiss etmədiyi xidmətçinin gülümsər çöhrəsindən də oxunurdu. Otuz-otuz beş yaşlı, dolubədənli bu kişi salam verib, nə sifariş edəcəyini ondan pıçıltı ilə soruşdu. O da pıçıltı ilə cavab verdi. Və kişinin təbəssümündən başa düşdü ki, pıçıltıynan danışmağı onun xoşuna gəlib.

Kafedə işıq yanmırdı. İşıq otağa iki kiçik pəncərədən düşürdü. Evlərin daş soyuqluğu hopmuş işıq titrəyə-titrəyə otağın alaqaranlığında musiqi ilə qovuşurdu, elə qovuşurdu ki, onları nə gözlə, nə duyumla bir-birindən ayırmaq olmurdu. İşıqla musiqinin bakirəliyində içəridəki adamlar kobud, yad, özgə görünmürdülər. Hər titrəyişin kölgəsi bu adamların çöhrəsindən, əsəbi dodaqlarından, heyrətlə, sevinclə açılmış gözlərindən keçirdi.

Hisslərin rəqsi yadına gecə gördüyü yuxunu saldı. Tanımadığı bir qızı tabuta qoyurdular. Bapbalaca, qapqara tabut çəkisizlikdən asılmışdı. Qız da çəkisizlikdə uzanmışdı, ağappaq gecə köynəyinin ətəyi yüngülcə qabarmışdı, yumşaq, tabut rəngində saçı boşluğa dağılmışdı. Onu tabuta qoyduqca kiçilirdi, kiçilirdi, axır kiçilib körpəcə uşaq boyda oldu, amma saçı əvvəlki kimi uzun idi, saçı tabuta sığışmırdı, tabutdan axıb tökülürdü. Kimsə istəyirdi saçını kəssin. Qız körpə kimi qığıldayırdı, nəsə deyirdi, ağlayırdı, ancaq heç kim onu eşitmirdi.

O, qıza kömək eləmək istəyirdi, gücsüzlüyündən hönkür-hönkür ağlayırdı: "Yazıqdı, Allah, rəhm elə, – deyirdi, – yazıqdı, yazıqdı, yazıqdı..."

Başqa söz yadında qalmamışdı, yuxudan ayılandan sonra da hələ bir neçə dəfə bu sözü təkrar eləmişdi. Söz hər

dəfə dodağından qopanda indiyə qədər hiss eləmədiyi, ürəyinin harasındasa yatıb qalmış, illərlə gəzdirdiyi və gəzdirəcəyi bu hüdudsuz qüssənin xofundan titrəyirdi.

Kiminsə səsi onu fikirdən ayırdı. Arıq, ağbəniz kişiydi, hamının eşidə biləcəyi bir səslə:

– O gün gülməli bir iş oldu, – dedi və söz ağzından çıxan kimi qəhqəhə çəkib güldü. Hamı da ona qoşuldu.

Kafenin sakitliyində kiminsə qəfil hündürdən danışması, nə iş olduğunu bilməyə-bilməyə hamının gülməyi ona təəccüblü gəldi. Ancaq qəribə idi ki, o da bu adamlara qoşulub gülürdü. Özü də boş yerə yox, birdəncə lap çoxdan klubda gördüyü bir əhvalatı xatırlamışdı. Kinonun başlanmasına hələ qaldığından adamların darıxdığını görüb, on-on iki yaşlı bir uşaq səhnəyə çıxıb başladı mayallaq aşmağa. Onda da hamı beləcə gülmüşdü.

Kişi gülməli nə iş olduğunu sonra da danışmadı. Amma deyəsən, heç kim bunu gözləmirdi. Bir azdan həzin musiqi bu əhvalatı da, kafedəki adamları da ona unutdurdu.

Musiqi həmişə ona özünü unutdururdu, bataqlıq kimi çəkib aparan hisslərin arxasından o daha heç kimi, heç nəyi görmürdü. Nəsə duyulmadan canına hopurdu, onu istədiyi yerə çəkirdi, onunla istədiyini eləyirdi. Musiqi bitəndə o, gücsüz olurdu, hələ bir müddət kimliyini, harda olduğunu kəsdirəmmirdi. Əgər həmin an kiminsə yanında durduğunu, ona baxdığını görsə, bu, yatan adamı səksəndirməyə oxşayırdı. Ona görə musiqini həmişə təklikdə dinləyirdi. Hətta adamların yanında ömrünün hansı əziz anınısa xatırlamağa belə qorxurdu: kiminsə üz-gözündə hisslərini təhqir edəcək bir ifadə görəcəyindən qorxurdu.

– O vaxt birinci sinfə getməyə hazırlaşırdım...

Bunu kimin dediyini o heç görmədi də. Söz artıq deyilmişdi və sözün işığı hamının üzünə çilənmişdi. Məktəbə getdiyi ilk gün, şehli sentyabr səhəri istər-istəməz onun da yadına düşdü. Budu, anası onu geyindirib-gecindirib: əynində yaşıl rəngli gödək uşaq şalvarı var, qısaqol ağ köynəyinin yaxasına, qoluna çəhrayı tikmə salınıb. Təzə paltarlarına sevinsə də, küçəyə çıxmağa utanır, elə bilir uşaqlar bəzəndiyinə görə onu lağa qoyacaqlar. Qapıdan çıxanda birdən anası onu saxlayıb bağa qaçır, bir dəstə qızılgüllə qayıdır. Qızılgülü üzünə yaxın tutub, üzü görünmür, bir dəstə qızılgül uçub ona sarı gəlir, qızılgül gülümsəyir. Anası – qızılgül, anası – qızılgül. Qızılgül gülümsəyir... Kafedəkilər də gülümsəyirdi, bu an hamı uşağa oxşayırdı, əlində qızılgül tutmuş uşağa.

Kafenin bayaq işıq düşən iki balaca pəncərəsindən indi içəri qaranlıq süzülürdü. Otağın olan-qalan işığı ağzı yana bağlanmış çay qolu kimi soğula-soğula açıq rəngli əşyalara, əllərə, çöhrələrə hopub, oradaca soyuq-soyuq işarırdı. Qaranlığın get-gedə daha çox duyulan nəfəsi onu addım-addım torpaqdan ayırırdı. Torpaqla göyün, sevinclə əzabın, keçmişlə gələcəyin sərhədləri itdiyi həmin sirli anlar artıq sirli olduğu qədər də dözülməz idi. Hisslərin qaysaqlanmamış yara kimi hər titrəyişə həssaslığı gecələr onu hər şeyi unudub bir hovur yatmağa qoymurdu. Körpə anasını çağırdığı təki, o da yarıhuş, yarıayıq səhərin açılmasını arzulayırdı. Oyanan şəhər öz kobud əlilə pəncərəni döyəndə, o sevinməyə də macal tapmırdı, daş kimi düşüb qalırdı.

– Mən gözələmmi?

Hamı elə bil küncdə oturmuş qızı indicə gördü. Qızın on yeddi-on səkkiz yaşı zorla olardı. Həyat hələ verdiyinin

heç birini ondan almamışdı, üzündə nə qədər ağrı, nə qədər kədər olsa da, hamilə qadın kimi xoşbəxtliyi, sevinci kədərdən, ağrıdan daha çox hiss olunurdu. Qısa kəsilmiş xurmayı saçları uzunsov çöhrəsini meh yumşaqlığı ilə çevrələmişdi. Meh yumşaqlığı uzun barmaqlarının, şümal boynunun, nazik, həvəsli dodaqlarının tərpənişindən də duyulurdu. Qız işıq kimi, səs kimi çəkisiz idi. İri gözləri ətrafına maraqla, heyrətlə, məhəbbətlə baxırdı.

Kafedəki adamlar kimi onun da coşğunluqdan gözləri yaşarmışdı. Musiqi ilə qovuşmuş bu gözəllik önündə o indi xoşbəxt idi; xoşbəxt idi ki, bu gözəlliyi görür, xoşbəxt idi ki, heç nə bu gözəlliyə ləkə gətirmir və xoşbəxt idi ki, bu gözəllik var.

Əllərə, çöhrələrə hopub soyuq-soyuq işaran işığı xidmətçi son damlasına qədər soğulmağa qoymadı: öz ağır, arxayın yerişilə gətirib masalara mis şamdanlar düzdü. Hər dəfə şam yandıranda dünyada heç nəyin yerindən oynada bilməyəcəyi tox sifəti zəifcə işıqlanırdı. Elə bil şamın şöləsi kimi titrək təbəssümü ilə hamıya ürək verməyə çalışırdı, hamını başa düşdüyünü demək istəyirdi...

Kafedən çıxanda onu şəhərin səs-küyü qarşıladı. Zərbədən qorunurmuş kimi özü də hiss etmədən tezcə büzüşdü, paltosunun yaxasını qaldırıb, keçib-gedənlərlə toqquşmamaq üçün ehtiyatla evinə sarı addımladı. Yolda heç nə barədə düşünməməyə çalışırdı, indi də yeganə qayğısı axşama yemək tədarükü görmək idi. Bu isə çətin deyildi, dükanların birinə girib kolbasa, pendir götürdü. Daha arxayınca evə getmək olardı.

Otağa girən kimi paltosunu çıxarmadan çarpayıya oturdu. İşığı da yandırmadı. İçini dolduran rahatlığın, hələ də eşitdiyi musiqinin, hissiyyatlı çöhrələrin gözü önündən

əriyib itəcəyinə qorxurdu. Gecə on iki olmamış artıq yerinin içindəydi və körpə uşaq kimi şirin yuxuya getmişdi.

Həmin gündən sonra hər səhər yuxudan duranda ürəyində gizli bir sevinc hiss eləyirdi. Bu titrəyişin nə olduğunu yaxşı bilirdi, amma özünü o yerə qoymurdu, guya böyrünü dürtmələyən, dartışdıran, nəyə sevindiyini ona bu saat deməsə, ürəyi partlayacaq "körpədən" xəbəri yoxdu. İşini-gücünü görürdü, bir də guya gözünü açırdı ki, kafenin qapısı ağzında dayanıb. Bu yerdə daha bayaqdan küsdürdüyü "körpəni" görməzliyə vura bilmirdi.

İlk dəfə olduğu kimi, onu astanada yenə musiqi qarşılayırdı, sonra xidmətçi ağır-arxayın yerişilə yaxınlaşıb nə sifariş edəcəyini soruşurdu. Ondan sonra daha heç kimin onunla işi yoxdu. Musiqi idi, o idi, bir də musiqinin bakirəliyində yad görünməyən adamlar.

Ancaq qəribə orası idi ki, elə ikinci səfər gələndə ilk dəfə gördüyü adamların heç birini kafedə tapmadı. Bu, səhərisi də təkrar olundu. Beləcə, kafedə rastlaşdığı adamları birinci və axırıncı dəfə görürdü. Amma hər təzə gələn adam elə bil haçansa burda olmuşdu. Üz-gözündən, xidmətçi ilə salamlaşmağından, hardan gəldiyi duyulmayan musiqi kimi sükutu qorumağa çalışmağından bu məhrəmlik hiss olunurdu.

Bir də qəribə o idi ki, kafeyə gələn adamlar onun şəhərdə gördüyü adamlara oxşamırdı. Bu fərqin nədə olduğunu başa düşəmmirdi, ancaq fərqi görməyə də bilmirdi. Hətta istəyirdi axır vaxtlar qarşılaşdığı adamların cizgiləri ilə kafeyə gələn adamların cizgiləri arasında nəsə bir oxşarlıq tapsın. Bundan bir şey çıxmayanda, heç olmasa, kafedəki adamların biri ilə rastlaşmağı arzulayırdı ki, onunla tanış olsun, oturub söhbət eləsin, evinə aparsın. İnanırdı ki, bu

yaxınlığa onların da ehtiyacı var, bu tanışlıq onları da sevindirər. Amma necə tanış olsun? Şəhərdə həmin adamların heç biri ilə rastlaşmırdı, kafedəsə kiminsə masasına yaxınlaşmağa utanırdı, hətta özü də kafedə ona yaxınlaşmaqlarını istəmirdi. O, əmin idi ki, burda bir-birinə yaxınlaşmaq heç kimin ürəyincə olmaz, çünki söz-söhbətsiz də bu yaxınlıq vardı.

Bəzən tanış olmaq üçün tez-tələsik durub, kafedən çıxanların birinin arxasınca getmişdi. Ancaq bir-iki dəqiqə gec çıxsa da, bayırda neçə-neçə adamın arasında axtardığını tapa bilməmişdi. Özü də bilirdi ki, həmin adam bax burda, burda olmalıdı, uzağa gedə bilməz. Qaçırdı, diqqətlə üzlərə baxırdı, amma yenə tapa bilmirdi.

Sonra bu qəribəliklərə öyrəşdi. Hətta bu adamlar getgedə onun üçün lap əziz oldu. Daha bu adamları yolda-izdə axtarmaq lazım deyildi, yuxusuna gəlirdilər, oturub saatlarla onunla söhbət eləyirdilər. Bir-birlərini çoxdan, lap çoxdan tanıdıqlarından hər söz, hər kəlmə hiss oyadırdı, bir xatirə oyadırdı. Bir yerdə olmaq, eyni hissi yaşamaq onları tənhalıq qorxusundan qurtarırdı. Ən kədərli xatirələr belə, bir yerdə onlar üçün yağış səsi qədər xoş və kövrək idi.

Amma bir kərə göy gözləri civə kimi oyur-oyur oynayan qoca bir kişinin gəlişi onunçün lap gözlənilməz oldu. Bu adamı kafedə heç vaxt görməmişdi. O isə içəri girən təki nimdaş, bozumtul paltosunun ətəyini yığıb stulda oturaotura:

– Bu saat kafedən gəlirəm, – dedi, – acından da ölürəm, mərətdə düz-əməlli bir şey də tapılmır.

– Məndə bir az kolbasa var, – deyə o, yerindən qalxmaq istədi.

Qoca onu durmağa qoymadı.

– Özüm götürərəm, siz zəhmət çəkməyin, amma icazə versəniz, patefonu söndürərdim.

– Əgər xoşunuza gəlmirsə, söndürün.

– Yox, xoşuma gəlir, elə ona görə istəmirəm, musiqini gərək həmişə eşidəsən, yoxsa elə bil birdəncə istidən soyuğa düşürsən. – Mətbəxə keçib kolbasa-çörəklə qayıtdı. – Kafedə də elə təkcə kolbasaydı, kolbasanı da ki, görməyə gözüm yoxdu, ancaq daha çarəm nədi, bir də ki.. – kolbasadan çox dişlədiyindən sözünün dalını zorla gətirdi, – nəsə indi ləzzət eləyir.

– Nuş olsun. – Qoca elə iştahla yeyirdi ki, onun da ağzı sulanmışdı.

– Həmişə belədi: nəsə haçansa adama ləzzət eləmir, amma haçansa ləzzət eləyir. Gəl indi baş çıxar, pis nədi, yaxşı nədi.

O, ərincək-ərincək:

– Gərək elə biləsiniz? – dedi.

Qoca dodaqaltı qımışdı:

– Neyləyəsən, kimsə bilmək istəyir. İnananda ki, pis filan şeydi, başlayır üstünə damğasını vurmağa, daha yüz adam da yığıla, onu dediyindən döndərə bilməz: pisdi ki, pisdi, vəssalam.

– İnanır ki, deyir. İnanmaq günah deyil.

– Qoy onda tələsməsin inanmağa. Günahkarı başa düşmək üçün gərək günah işlədəsən.

– Onda belə çıxır ki, yaxşı adamların hamısı günahkardı, İsa peyğəmbər də dünyanın ən günahkar adamı.

Qoca razılıqla gülümsədi:

– Gəldiz çıxdız mən deyənə. Elə çıxır. Ancaq boğaza qədər günaha batmış adam başqa günahkarı bağışlaya bilər.

Qocanın özündən bədgüman olmağı ona gülməli gəlirdi.

– Onda gərək məhkəmələrdə peşəkar canilər işləsin.

– Bəlkə də elə olmalıdı. Özünü yaxşı tanımasan, başqasını başa düşə bilməzsən. Özünü tanımaqsa mümkün deyil.

O, kinayə ilə:

– Yaxşı sözdü, – dedi, özümüzü tanımaq mümkün deyil, deməli, heç kimi də tanımayacağıq.

Qoca əlini keçəlinə çəkdi.

– Mən belə fikirləşirəm. Bu gün inandığım adam sabah üzümə tüpürsə, təəccüblənmərəm.

– İndidən özünüzlə dəsmal gəzdirin.

Qoca gülə-gülə əlini atıb cibindən dəsmal çıxartdı.

– Sizə də məsləhət görürəm.

– Məsləhətinizə görə sağ olun.

– Onda xudahafiz. – Qoca ayağa durmuşdu. – Ləzgi qonağı kimi yedim, içdim, daha burda nə işim. Görürəm, siz də yatmaq istəyirsiniz.

– Hə, yatmaq istəyirəm.

Daha qocanın necə getdiyindən xəbəri olmamışdı, amma onu iki gündən sonra kafedə gördü. Başı, deyəsən, möhkəmcə ağrıyırdı, tez-tez alnını qırışdırırdı, gicgahlarını ovurdu. Ağrıdan qıyılmış gözləri boşluğa baxırdı, dodaqları hərdən tərpənirdi, öz-özünə danışandan çox, nəsə oxuyana oxşayırdı. Sonra çöhrəsində göz yaşı göründü, dodaqları titrəyə-titrəyə, səssizcə, hamıdan xəbərsiz ağlayırdı. Bəlkə ağladığından heç özünün də xəbəri yoxdu.

Qocanın kefli olduğunu sonra bildi. Nəyə görəsə qoca tələsik getmək istəyirdi, amma ayaq üstə dura bilmədiyindən səndələyib təzədən oturdu. Bir də durmaq istəyəndə sürüşüb döşəməyə yıxıldı, elə yıxıldığı yerə də qusdu. Nə qədər kefli olsa da, qoca özünü hələ unutmamışdı, görməsinlər

deyə qusuntusunu örtməyə çalışırdı. Amma görən olmuşdu. Xidmətçi öz ağır-arxayın yerişilə yaxınlaşıb dinməzcə əlindəki əskini qocanın qabağına atdı. Qoca elə bil günahını yumaq üçün ona verilmiş imkana sevinirdi. Əskini götürüb tələsə-tələsə döşəməni silirdi. Silib qurtaranda xidmətçi onun durmağına kömək elədi, amma yerində oturtmadı, çəkə-çəkə qapıya sarı apardı.

Xidmətçi qocanı çölə salıb qayıdandan sonra o, yerində nəfəs çəkməyə də qorxurdu. Birdəncə hiss eləmişdi ki, nəsə olacaq, nəsə eləyəcək, bu gün, sabah, ya birisi gün onu da kafedən belə qovacaqlar. Bir də bu kafeyə gələmməyəcək, ömürlük kafenin qapısı üzünə bağlanacaq.

O, hamının bircə dəfə gəldiyi kafedə çox ləngidiyinə heyifsiləndi. Gərək əvvəlcədən özünü saxlayaydı, vaxtında ayağını burdan kəsəydi, vaxtında çıxıb gedəydi. Daha gecdi, çox gecdi.

Elə səhərisi, hər ertə onu yuxudan durğuzan, böyrünü dürtmələyib kafeyə dartan sevincin azaldığını hiss elədi. Həmin gündən həvəslə görüşünə hazırlaşdığı gecə qonaqları da yoxa çıxdı. Və həmin gün ilk dəfə kafedə gördüyü adamların biri ilə şəhərdə rastlaşdı. Görüşün həqiqiliyinə inanana qədər bu təsadüfi görüşlər gün-gündən lap artdı. O, indi kafedə gördüyü adamlara hər gün, hər yerdə: çayxanalarda, dükanlarda, avtobuslarda, hətta ümumi tualetlərdə də rast gəlirdi. Qəribə idi ki, kafedə gördüyü bu adamlar daha şəhərdə gördüyü min-min adamın heç birindən heç nə ilə fərqlənmirdi. Bu adamların da yanından o, yad kimi keçib-gedirdi, onlara yaxınlaşmağa, onlarla görüşüb söhbət eləməyə həvəsi olmurdu: bir-birlərini itələyə-itələyə avtobusa doluşurdular, deyinə-deyinə növbədə dayanırdılar, bir-birlərini acılayırdılar.

Bir dəfəsə ilk gün kafedə gördüyü xurmayı saçlı qızla rastlaşdı. Hava günəşli və soyuqdu. Qızın əynində açıq rəngli palto var idi, xurmayı saçları saçı rəngində xəz yaxalığının üstünə dağılmışdı. O, qızı kafedə görən anda keçirdiyi hisslərin yenə dalğa-dalğa qayıtdığını hiss eləyirdi. Qıza yaxınlaşmaq, nəsə demək heç ağlına da gəlmirdi, heç inanmırdı da ki, qız ona qulaq asar, kəlmə kəsər. Sonra qıza cavan bir oğlan yanaşdı, bir az danışıb küçəaşağı getdilər. O da arxalarınca getdi, onsuz da heç hara tələsmirdi, o vaxta qədər getdi ki, qızla oğlan bir evə girib gözdən itdilər. Küçə daldaydı, adamsızdı, belə küçələrdə gəzmək həmişə ona xoş gəlirdi. İndi də lap yerinə düşmüşdü, bayaq keçirdiyi hisslərin, gözəllik önündə duyduğu sevincin ömrünü uzatmaq üçün burdan yaxşı yer tapmaq olmazdı. Hava da günəşli, təmiz, ürəkdə rahatlıq. Bir xeyli gəzəndən sonra yenə qızla rastlaşdığı yerə gəldi. Qız elə həminki yerində durmuşdu, elə bil heç ordan tərpənməmişdi və elə bil yenə kimisə gözləyirdi. Qıza baxa-baxa birdəncə qorxdu ki, bayaqkı səhnə bir də təkrar olunar, ya bu oğlan, ya bu tösmərək kişi, küçədən keçənlərin hansısa onu bircə anda həyatın adiliyinə inandırar. Özü də hiss etmədən bir də gördü ki, qızın qarşısında durub, qız da gülümsəyə-gülümsəyə ona baxır. Bir vaxt dünyaya uşaq heyrəti ilə baxan gözlər indi ondan nəsə istəyirdi, nəsə gözləyirdi. O, daha hər şeyi başa düşmüşdü, inanmaq istəmədiyinə inanmışdı, hətta qıza nəsə demişdi də, ancaq qızın yanına düşüb hara getdiyini, nə üçün getdiyini, qızdan nə istədiyini bilmirdi. Yenə həmin dalda, adamsız küçə idi, bax, bu da həmin ev. İçərini o görməmişdi, bayaqkı oğlan görmüşdü. O da gördü: bir otağıydı, bir divan, pəncərənin yaşıl pərdəsi çəkili. Qız qapını bağlayıb ondan pul istədi. Qulaqları guyuldadığından

zorla eşitdi, əlini cibinə salıb nə vardısa, hamısını çıxartdı. Qız yenə gözəldi, kafedəkindən də gözəldi, di gəl bu gözəlliyi qoruyan, bu gözəlliyi əlçatmaz eləyən, hiss olunan, duyulan sevincdən, coşğunluqdan gözlərini yaşardan, ancaq gözə görünməyən nəsə bircə anda yoxa çıxmışdı, həmişəlik yoxa çıxmışdı.

Sonra iki gün evdən bayıra ayaq qoymadı. Yuxu da ona yaxın düşmürdü. Gözlərini yumanda elə bil gözünün giləsi get-gedə böyüyürdü, o qədər böyüyürdü ki, həmin dəqiqə gözünü açmasa, gilələrin davam gətirməyib partlayacağından qorxurdu. Bütün günü eləcə, key kimi gözlərini divarda bir nöqtəyə zilləyib qalırdı.

İki gündən sonra durub evdən çıxdı. Tez-tələsik paltosunu geyindi, tez-tələsik qapını bağlayıb qaça-qaça pilləkənləri düşdü. Elə bil nəyisə qət eləmişdi, ancaq son sözü demək üçün tezcə getdiyi yerə çatmalıydı. Orda hər şey, hər şey aydın olacaqdı.

Həmin yerə çatanda gözlərinə inana bilmədi. Burda kafe deyilən şey yox idi və sanki heç vaxt olmamışdı. Yaraşıqlı doqquzmərtəbəli binanın qabağında cavanca bir gəlin xarici cib dəsmalları satırdı.

# FİRUZƏ QAŞLI SIRĞA

Evlənəndən tək gəzməyi xoşlayırdı. Həmişə də özü ilə kitab götürürdü. Çünki gəzməkdən çox, bəzən bir yerdə dayanmalı olurdu: ya trolleybusda, metroda, ya dükanda. Onda kitab dadına çatırdı, onu vaxtla göz-gözə dayanmaq əziyyətindən qurtarırdı.

İş yeri qaldığı evdən uzaq idi. Ancaq evlənəndən uzaqlığı da hiss eləmirdi. Uzaqlıq – darıxmaq deməkdi. O isə axır vaxtlar darıxmırdı və heç hara tələsmirdi.

Səhərlər yuxudan tez dururdu. Elə tez dururdu ki, Nərimanov prospektindən "Bakı Soveti" metrosuna qədər tələsmədən, gəzə-gəzə, işığın qaranlığı necə əritdiyinə tamaşa eləyə-eləyə piyada gedə bilsin. Yolüstü də köşkdən təzə qəzet alırdı, onu da kitab qoyduğu sellofan torbaya atırdı və beləcə: yarımçıq qalmış kitabın, təzə aldığı qəzetin istisinə qızına-qızına metroya düşürdü.

Metro səhərlər basabas olurdu. İstəsən də, belə basabasda nəsə oxumaq çətin məsələ idi. Ancaq o heç istəmirdi də. Bir-birinin ağzına girmiş, geyimlərindən, görünüşlərindən çox, bir-birindən çöhrələrinin ifadəsilə seçilən adamlara baxmaq, kitab oxumaqdan az maraqlı deyildi. Birinci və

sonuncu dəfə gördüyü bu mürgülü, qayğılı, qırışlı sifətlərin özündə nələr gizlətdiyini fikirləşib yozmaq onu əyləndirirdi. Amma həm də yaxşı bilirdi ki (bunu bilmək ona ləzzət eləyirdi), ətrafına baxmaqdan bezsə, qoltuğundakı kitabı açmaqla əziyyətdən qurtaracaq. Elə bil otağın gizli qapısından sakitcə sivişib çıxırsan.

"Gizli qapı" ona işdə lazım olurdu. Altı il işlədiyi şöbədə hamı onu tanıdığı qədər, o da hamını tanıyırdı: nə az, nə çox. Bir addım atıb dayanmışdılar. Adlarını bilirdilər, salam verib, salam alırdılar, bir-birlərinin üzünə gülümsəyirdilər. Belə yaxınlıq, görünür, hamını razı salırdı. İş də altı il qabaqkı iş idi, bircə fərqi vardı ki, institut qurtardığına görə axır bir ili usta maaşına qol çəkirdi, əl-ayağı da təmiz qalırdı. Bəlkə iki ildən, beş ildən sonra onu müdir müavini, ya müdir vəzifəsinə keçirəcəkdilər, nə bilmək olardı. Əgər adicə nəzarətçilikdən ustalığa keçmək belə asandısa (nədi, nədi, diplomu var), demək, nə desən gözləmək olardı. Ancaq bu yerdəyişmə, bir pillə qabağa sürüşmək onu maraqlandırmırdı. Ona görə yox ki, vəzifə, on manat artıq almaq, iyirmi-iyirmi beş adama əmr eləmək ürəyinə yatmırdı. Sadəcə, fikirləşirdi ki, axı nəyə görə kiməsə əmr eləməlidi? Nə səbəbə? Bu sualın cavabını axtarmaq belə ona gülünc gəlirdi. Yəqin vəzifə üçün doğulurlar, kimi bir az aşağı vəzifə üçün, kimi bir az yuxarı, kimi lap dövlət başında durmaq üçün. Özünü biləndən vəzifəyə can atan adamları çox görmüşdü, həmişə də onlara bir az şübhə ilə baxırdı və nədəns, onlara yazığı gəlirdi.

Ustalığa keçəndən bir şeyə şükür eləyirdi ki, nə yaxşı ona ayrıca stol ayırıblar. Yoxsa bekarçılıqdan lap bezərdi: bir yandan başını qatmağa düzəməlli işin olmaya, bir yandan da oturmağa yerin. İndi ancaq bilirdi gələndə harda

oturacaq, nəyi hara qoyub, nəyi hardan götürəcək. Stol onunla otaqdakılar arasında görünməz pərdəyə dönmüşdü. "Pərdənin" arxasında heç kim ona dəyib-dolaşmırdı, yerli-yersiz söhbətə tutmurdu. Oturub sakitcə öz işini görə bilirdi. İşini qurtaranda yenə kitab köməyinə çatırdı və hamının əlindən zinhara gəldiyi səkkiz saatın necə keçib-getdiyini o, hiss eləmirdi.

İşdən çıxanda evə gəldiyi yolla qayıdırdı, amma gəldiyi kimi qayıdammırdı. Necə keçdiyini duymadığı səkkiz saatı bədəni, canı istər-istəməz hiss eləyirdi, metrodan sonra Nərimanov prospektinə piyada qalxmağa həvəsi olmurdu. Həm də elə bil iş-gücdən təkcə adamlar yorulmurdular, günün özü də yorulurdu, rəngini, şuxluğunu itirirdi. Ətrafdakılar onu özünə çəkməkdən çox, özündən itələyirdi. Heç nə diqqətini tutub saxlamırdı, hətta kitab oxumaq fikri belə onu sevindirmirdi. Yaxşı ki, bu halsızlığın, biganəliyin ötəri olduğunu bilirdi. Arvadının gətirdiyi bir stəkan çayı içib, bir qismət çörəyi yeyib, bir az divanda uzanandan sonra, gəzmək, görmək, nəyəsə tamaşa eləmək istəyi təzədən qayıdırdı. Dükanda, trolleybusda ətrafına baxmaqdan bezsə, vaxtla göz-gözə dayanmamaq üçün kitabı da qoltuğuna vurub yenə evdən çıxırdı.

Bu gün şənbə idi. Elə bircə buna görə sevinməyə dəyərdi: yuxudan istədiyin vaxt durursan, bütün bir gün də soyulmuş naringi kimi sənin ixtiyarında. Getməyə, gəzməyə yerin olmasa da, dəxli yoxdu, bilirsən heç nədən, heç kimdən asılı deyilsən, öz əlin, öz başın. Hələ onu da düşünmək xoşdu ki, gecəni rahat yatacaqsan, çünki səhəri bazar gününə açılacaq.

Bəxtindən bu gün hava da gəl-gəl deyirdi. Hər yan ağappaq, dünəndən yağan qar əriməyə macal tapmayıb,

bir yandan da günəş: sopsoyuq, adı var, özü yox, gücü tək göz qamaşdırmağa çatır. Qanını bircə qaraldan arvadının səhər-səhər ağrıdan turşumuş sifətini görməsi idi. Yığılmamış yataq, balıncda qopub qalmış saç, arvadının turşumuş sifəti iki dəqiqə əvvəl örtdüyü qapının o yanında qalmışdı. Belə gözəl havada xəstəlik haqda düşünmək günah idi. Ona görə çalışırdı heç düşünməsin. Ancaq bir dəfə gərək onu həkimə aparaydı, əməlli-başlı yoxladaydı, görəydi dərdi nədi. Çünki həmişə harasınısa tuturdu, ağrısını nə qədər gizlətməyə çalışsa da, hərdən özü ilə bacarmayıb sızıldayırdı. Deyirdilər kənd adamı buz baltası kimi olur, o da belə bilirdi, gedib aldı, bəxtindən gəlib xəstə çıxdı. Şəhəri də düzəməlli tanımırdı ki, ağrıyanda özü durub həkimə getsin. O da ha deyirdi aparacam, di gəl, macal eliyəmmirdi. Ancaq nəsə fikirləşmək lazımdı, arvad onun idi, o da gərək fikirləşəydi. Bunu bildiyindən və heç nə fikirləşmədiyindən, ağrıdığına görə arvadına lap acığı tuturdu.

Tini dönən kimi özünü azadlıqda hiss elədi. Elə bil gözdən itən evlə bir yerdə onu evə bağlayan qayğılarla da üzülüşdü.

Prospekt yenə qələbəlik idi: səs-küy, bir yerdə bənd almayan qıvraq ayaqlar, sağlam, gülümsər çöhrələr. Tələbə olduqları qoltuğuna vurduğu kağız rulonlarından, kitab-dəftərdən çox, sifətlərindəki işguzarlıqdan oxunan cavan-cavan uşaqlar durduqları yerdə də tələsiyirdilər. Avtobuslar, trolleybuslar onları institutun qabağından şəhərin dörd yanına səpələyib qurtarammırdı. İçində gəzdirdiyi sevincdən, ümiddən hamının xəbəri olduğuna inanan bu sadəlövh uşaqların hay-küyünə o qədər adət eləmişdi, hətta bazar günü onları görməyəndə qəribsəyirdi, nəsə itirmiş adam kimi narahat olurdu.

Özü də bir vaxt bu institutda oxumuşdu. Amma qiyabi oxuduğundan bəzən institut qurtardığına şübhə eləyirdi. Xatırladıqıarının bir ucu gedib işə çıxırdı. Guya heç orta məktəbdə oxumamışdı, heç subay da olmamışdı. Elə gözünü açıb işə getmişdi, işdən gəlib arvadını görmüşdü. Bu iki sonluğun arasındasa yollar dururdu. Öyrəşdiyi, tanıdığı yollarda tanımadığı adamlar, xatırlayammadığı keçmişi kimi həmişə onu özünə çəkirdi.

Bayaqdan siqaret üçün əlini 2-3 dəfə cibinə salmışdı. Amma hava o qədər təmiz idi ki, onu siqaret çəkməyə də qoymurdu. Həm də indi kitab dükanına girməli idi. Buna öyrəşmişdi, heç olmasa, iki gündən bir gəlib baş çəkirdi, heç vaxt da heç nə almırdı, almayacağını da yaxşı bilirdi. Çünki almaq istədiyi kitablar abonomentlə satılırdı, ona kənardanca baxmaq qalırdı. Bəzən özünü saxlayammırdı, yaxınlaşıb köhnə tanışı kimi satıcı ilə salamlaşırdı, sonra yavaşca soruşurdu: o kitabı satırsınızmı? Axırıncı sözü lap yavaşca deyirdi, yəni xəcalətindən çıxacam. Sonra xahiş elədiyi anı təzədən xatırlayanda özünə yazığı gəlirdi, satıcı qızın yerinə olsaydı, belə yazıq adama kitabı lap peşkəş eləyərdi. Amma, görünür, satıcı hər cür adama rast gəlmişdi, hər cür təbəssümə də öyrəşmişdi. Dinməzcə yumru yanaqlarını titrədib başını yırğalayırdı.

Qızın laqeydliyi həmişə onu heyrətləndirirdi: əgər kiməsə satırsa, qoy ona da satsın, nə qədərdi gəlib-gedir, üzdənsə tanıyır: yox, satmırsa, qoy, heç olmasa, görməzə-bilməzə belə şey təklif elədiyinə görə ağzını büzsün, hirslənsin, nəynənsə narazılığını bildirsin, daha at kimi başını yırğalamasın. Yaxşı ki, onun yenə şükür eləməyə bəhanəsi var idi, yaxşı ki, hirslənməməyi cəhənnəm, ağzını açıb bir söz demirdi də. Nədənsə, inanırdı qız ağzını açıb bir söz desə,

mütləq ordunu dişləyəcək. Qızın necə hirsləndiyini, ordunu dişləyə-dişləyə nələr dediyini təsəvvürünə gətirəndə tezcə piştaxtadan uzaqlaşırdı. Bu dəfə kənardan durub göz qoyurdu, guya qızın ona rəhmi gələcəkdi. Gözləyirdi, baxırdı, ancaq qızın çağıracağına heç inanmırdı da. Bu ümid idi, di gəl bu ümidin kölgəsi yox idi, ürəyin istəyəndə altında uzanıb sərinləyəsən. Pişik quyruğu ilə oynadığı kimi, bu kölgəsiz ümidlə oynamaq da onun xoşuna gəlirdi.

Dükanın girəcəyinə vurulmuş əl boyda kağız hələ də öz köhnə yerində dururdu. Bir həftə idi, hər gələndə gözünə sataşırdı, orda nə yazıldığını da daha əzbər bilirdi. Amma birdən-birə hardansa peyda olmuş bu kağıza da, bu kağızda yazılanlara da öyrəşəmmirdi. Dükana girib-çıxanda ayağını saxlayıb, ilk dəfə görürmüş kimi təzədən oxuyurdu.

***FİRUZƏ QAŞLI SIRĞA İTİRMİŞƏM!***
***Çox xahiş edirəm, tapan zəng vursun.***
***Əvvəlcədən minnətdarlığımı bildirirəm!***

***Telefon: 88-24-36***
***Güllü Qasımova***

Elan göy mürəkkəblə yazılmışdı, bircə “itirmişəm” sözü qırmızı mürəkkəblə. Güllü xanım kim idisə, sadəlövh adam deyildi. Bilirdi, sırğanı tapan adam çətin qaytarar, di gəl, inanmaya-inanmaya bəxtini sınamaq istəmişdi. Yazana qədər nələr keçirdiyi, nə düşündüyü, nə fikirləşdiyi tək elə elandan hiss olunurdu. İki yerdə nida işarəsi qoyulmuşdu: bir itirdiyini yazanda, bir də minnətdarlığını bildirəndə. Xahişini bacardıqca yumşaq eləmişdi, nida işarəsindən qaçmışdı. Nə bilmək olar, birdən acıqları tutar, fikirləşərlər, əmr eləyir. Ancaq “çox” sözünü yazmağı unutmamışdı: bəlkə tapan onun halını başa düşdü, rəhmə gəlib qaytardı.

Ad-familiyasını isə lap xırda hərflərlə yazmışdı, gözə soxmaqdan çəkinmişdi. Bir yana qalanda, ad-familiyanı heç yazmamaq da olardı, onsuz da telefon nömrəsi göstərilmişdi, tapan hara zəng vuracağını bilirdi. Burda da Güllü xanım ad-familiyasını yazmaqla tapanın ürəyini yumşaltmağa çalışmışdı. Çünki telefon nömrəsi səs idisə, ad-familiya səsdən başqa həm də şəkil idi: kimin ürəyi necə istəsə, eləcə gözünün qabağına gətirə biləcəyi bir qadın şəkli. Bəlkə bu şəkil tapana nəsə dedi, kimisə yadına saldı, nələrisə xatırlatdı.

Qəribə də olsa, kimin ki işi bir balaca dara düşdü, istəyir, hamının ona yazığı gəlsin. Bacardıqca da bu istəyi pərdələməyə çalışır. Güllü xanım da eləcə. Heç kimə inanmır, amma fikirləşir ki, qaytarmırlar-qaytarmırlar, heç olmasa, yazıqları gəlsin.

Görən, doğrudan da, sırğanı tapan qaytararmı? Bəs əgər o tapsa idi qaytarardımı?.. Baş sındırmağa dəyməz. İndi başqa adamdı, başqa cür fikirləşir. Tapandan sonra başqa adam olacaq, başqa cür fikirləşəcək. Həmin başqa adamın əvəzindən danışmaq nəyə lazım?

Onun elana baxdığını görüb bir-iki adam da ayağını saxlamışdı. İndi yaman olar: biri fikirləşə ki, sırğanı o tapıb, tuta yaxasından, hay-küy sala. Gəl onda işin arasından çıx görüm, necə çıxırsan. Bunu təsəvvür eləmək çətin deyildi: o saat rəngi-ruhu qaçdı, gözünü gizlətməyə yer axtardı. Təsəvvür elədiyindən qorxmaq adəti idi. Bir də görürdün, dükanda, ya hardasa, hansı bədbəxtinsə səsi aləmi başına götürdü. Hamı bir-birinə dəyirdi, oğrunu yamanlayırdılar, nəyi apardığını, necə apardığını soruşurdular, məsləhət verirdilər. O isə ürəyi əsə-əsə sıpıxıb bir kənarda dayanırdı, kimsə üzünə baxanda lap əl-ayağı yerdən üzülürdü. Deyirdi,

bu saat onun üstünə cumacaqlar. Hələ üstünə cummaqları cəhənnəm, qorxurdu birdən axtardıqları şey, doğrudan da, onun cibindən çıxar.

Yenə siqaret çəkəmmədi. Trolleybus elə bil dayanıb onu gözləyirdi. Minməmək də olardı, bazar yaxın idi, ancaq fikirləşənə qədər daha trolleybus tərpənmişdi, o da içində.

Nəzarətçinin qorxusundan tezcə bilet aldı. Tərs kimi bilet almayanda bir də baxırdı başının üstünü kəsdirib. Elə ki, alırdı, nə qədər arzulasa da, nəzarətçidən xəbər-ətər çıxmırdı.

Trolleybus elə donmuşdu ki, sınıq araba kimi cır-cır cırıldayırdı, deyirdin, bu saat sökülüb dağılacaq. Onunla qabaq-qabağa kök, şubalı qadınla qırmızı papaqlı qız uşağı oturmuşdu: rahat, qayğısız, elə bil trolleybusda yox, öz evlərində, öz isti otaqlarında oturmuşdular, qışın əli çatmadığı ılıq, mehriban səslə hündürdən danışırdılar.

– Məni daha aparmayacaqsan bağçaya?

– Yox, aparmayacam.

– Doğrudan?

– Ana heç yalan deyər?!

– Bəs işə getmiyəcəksən?

– İşdən çıxdım da, sən quzu balaya görə.

Qız tez-tez anasına baxırdı. İnana bilmədiyinə görə təqsirkar-təqsirkar gülümsəyirdi. Gülümsəyəndə yanaqları batırdı.

– Bə nətəri çıxdın?

– Görürsən, yenə anaya inanmırsan. Mən də axı səndən ötrü darıxmışam. İstəyirəm balam yanımda olsun.

Qız elə sevindi, heç söz də deyə bilmədi. Sevincini gizlədəmmədiyinə görə utanıb başını anasının sinəsində gizlətdi.

Qadının xoşbəxtlik və hiyləgərlik oxunan təbəssümündən hiss olunurdu ki, qızını aldadıb. Ancaq qızın necə sevindiyini görəndə sevinməmək olmurdu. Bircə uşaq sevinci belə yoluxucu olur.

Nədənsə, yenə elan yadına düşdü. Bayaq nə üçün qadının qulağına baxmaq istədiyini indi anladı. Bəlkə sırğanı elə bu qadın itirib? İnanmağı gəlmədi. Elan verən qadının narahatçılığı bu qadından çox-çox uzaq idi. Lap ilk dəfə elanı görəndə düşünmüşdü: görən, firuzə qaşlı sırğanın qiyməti neçə olar? Arvadından soruşmağa ürək eləməmişdi: birdən fikirləşər onun üçün almaq istəyir. Ancaq, görünür, bahadı ki, elan yazıb yapışdırıb. Bir var sözünü bir-iki adama deyib heyifsilənəsən, bir də var hamıya car çəkəsən. Qadının əri yəqin indi kitab dükanının yanından keçməyə ürək eləmir. Qorxur birdən kimsə dönüb deyər: bax, bu yazıq kişinin arvadı itirib. Özü də nə? Sırğa. Sırğanı da heç itirmək olar? Pul deyil, papaq deyil, üzük deyil. Deşib qulağını taxırsan, gəl başa sal ki, itirmişəm. Sözsüz, əri də əvvəl inana bilməyib. Qadını kiritməkdən çox sorğu-suala tutub: necə olub, hara getmişdin, hardan gəlmişdin? O qədər soruşub, qadının dərdi-azarı sırğaya yanmaqdan çox, ərini inandırmaq olub. Buna çalışdıqca da özü inanmayıb. Çünki əlini hara atıb – boşa çıxıb, qalıb çiynini çəkə-çəkə. Kişi də o, çiynini çəkdikcə gözünü yumub, ağzını açıb, dişinin dibindən çıxanı ona deyib: sən həmişə beləsən, sən gicsən, sən huşsuzsan, nə bilim, nəsən. Sonra qolundan tutub darta-darta qadını həmin gün olduğu yerlərə aparıb. Gediblər, baxıblar, qadın işləyirsə, iş yerinə də baş çəkiblər. Əlləri hər yandan üzüləndə ev-eşiyi alt-üst eləyiblər. Axırda da yenə tezcə özündən çıxdığı kimi, birinci kişi sakitləşib, başını qoyub qaz tükündən yastığa, üzünü

də çevirib divara. Qadın qalıb əli qoynunda. Gecə pəncərəni qaraldıb, ev elə bil bu saat ayaq tutub qaçacaq, qadın da tör-töküntünün arasında oturub, bilmir nə eləsin, sözünü kimə desin...

Nə bilmək olar, bəlkə əri sakit adam olub. Dinməzcə arvadına qulaq asıb: qoy ürəyini bosaltsın. Sonra başlayıb ürək-dirək verməyə, zarafata salmağa. Deyib, fikir eləmə, birini də alarıq. Əgər almağa imkanları varsa, qadın da itirməyi özünə dərd eləməyib. Ancaq imkanları yoxdursa, ərinin sözü qadını lap kövrəldib, ağlayıb, sızıldayıb, özünə acığı tutub, özünü yamanlayıb. Kişi kiritdikcə, qadın sakitləşməyib. İtirmək, axı doğrudan da pis şeydi, durduğun yerdə gəl itir. Qoy lap dəyərsiz şey olsun, yenə birinə versən, bağışlasan – yer eləməz. Bağışlamısan, demək, bir yaxşılıqdı eləmisən, kimisə sevindirmisən. Ancaq itirmək axmaq şeydi. Tapan sevinir, di gəl fikirləşmir ki, kimsə ona yaxşılıq eləyib. Bunu fikirləşmədiyinə görə də tapdığının qədrini bilməyəcək. Bax, adamı budu yandıran.

Qadının sakitləşmədiyini görəndə daha kişi də özü ilə bacarmayıb, soyuqqanlılığını saxlaya bilməyib, nə iləsə: sözləmi, təbəssümləmi, sırğanın itdiyinə heyifsləndiyini büruzə verib. Qadın onun kədərləndiyini hiss edən kimi özünü ələ alıb, bütün günü, hara getdiyini, hardan gəldiyini, kimlərlə görüşdüyünü təzədən xatırlayıb. Tapılacaq, deyib, baxarsan, tapılacaq. Özünü inandırmaq üçün yox, ərini kədərləndirməmək üçün deyib, axı adamlar yaxşıdırlar, vallah, yaxşıdırlar. Tapan qaytaracaq, mütləq qaytaracaq. Hətta elan vermək də pis olmaz. Qoy tapan çətinlik çəkməsin, bilsin kimindi, bilsin kimə qaytaracaq. Sonra sevincək qaçıb, elan yapışdırıblar. Bir-birlərinə ürək-dirək veriblər. Hər ikisi də bununla o birisini saktləşdirdiyinə inanıb.

Bir də var ər arvadına qarşı diqqətsiz ola, diqqətsiz olduğu da sırğa itəndə bilinə. Qadın deyəndə ki, sırğanı itirmişəm, kişi birdən-birə karıxıb dilindən qaçıra: nə sırğa, hansı sırğanı? Qadını elə bil buzlu suya salıb cıxararlar, dodağı nifrətdən əyilər: gör ha, hələ bilmir ki, mənim sırğam var imiş. İlahi, bəs bu nəyi bilir? Bəs bunun fikri hardadı? Mən bunun üçün bəzənib-düzənirəm, bunun xoşuna gəlmək üçün dəridən, qabıqdan çıxıram, ancaq bu bilmir ki, mənim firuzə qaşlı sırğam var imiş. Bu sözləri qadın ürəyində deyəcək, hər dediyi sözlə də dünya söz boyda gözündən düşəcək, gözündən düşmüş dünyada daha sırğa dərdinə yer qalmayacaq. İndən belə necə, nə cür yaşayacağını, nəyə söykənəcəyini bilmədiyindən, günün, həyatın verdiyi adicə yaşamaq sevinci də ona gülünc görünəcək.

Kişi isə səhvini o saat başa düşəcək, diqqətli olduğunu qadına çatdırmaq üçün təkrar-təkrar sırğa söhbətinə qayıdacaq, güya sırğanın itməyi onun da qanını qaraldıb. Ancaq günlərin bir günü, kitab dükanının yanından keçəndə elanı görüb hirslənəcək, həm də hirslənməyə bəhanəsi olduğuna görə sevinəcək. Qopartdığı elanı arvadının burnu qabağında yellədə-yellədə (qopartmayıbsa, demək, hələ elandan xəbəri yoxdu), nədi, deyəcək, nə vaxta qədər deyirsən yas tutaq sənin sırğana? Küçəyə çıxammıram, görən sırğanı soruşur: sırğanı tapdınızmı, sırğanı tapdınızmı? Daha dəli olmuşam, yatıb yuxuda da sırğa görürəm. Qara gəlsin sənin sırğanı, itib, neyləyək itib, durub özümüzü öldürməyəcəyik ha?! Məni niyə gülünc vəziyyətə salırsan, az-çox qazandığımız hörməti niyə beş qəpiklik eləyirsən?!

Hirsini töküb sevinə-sevinə evdən çıxacaq, bəlkə heç gecəni də evə gəlmədi. Çünki hardasa bir qadın var ki, onun yanında qalmaq daha xoşdu. Özü də arvadının ağlına

başqa şey gətirməyəcəyini bildiyindən, azadlıq hissi ona lap ləzzət eləyəcək. Bir müddət beləcə: istədiyi vaxt evdən çıxacaq, istədiyi vaxt qayıdacaq. Soruşan yox ki, harda qaldın, hara getdin, niyə gec gəldin. Acıq eləyib, küsüb, vəssəlam. Bacardıqca da arzuolunan küsülülüyün ömrünü uzatmağa çalışacaq.

Qadınsa işi belə görəndə, başqa arvadlar kimi, tezcə peşmanlayacaq, quyruğunu bulayacaq, ərinin böyür-başına keçəcək. Beş-on gün qabaqkı həyatdan ötrü burnunun ucu göynəyəcək, istəyəcək yenə hər şeyi öz köhnə axınına qaytarsın, yenə həyatın verdiyi, hamı kimi adicə yaşamaq hissinə sevinə bilsin.

Əgər qadının ərindən zəhləsi gedirsə, sırğanın itməyinə də elə əri təqsirkardır, bu nəhs ayaq, bu bədnöyüs, bu filan-bəsməkan təqsirkardır. Həmişə onunla işi düz gətirməyib. Nə istəyib – gözündə qalıb, elədiyinə, gördüyünə, tapdığına sevinəmməyib. İndi də sırğa.

Sırğanın itdiyini ərinə o saat deyəcək. Çünki zəhləsi gedirsə, ona elə gəlir ki, ərinin hər şeydən, onun hər addımından, hər sözündən xəbəri var. Qoy əvvəlcədən deyib qabaqlasın, sonra əri onu borclu çıxarmasın. Deyəcək, ancaq əri özünü nə təhər apardı, aparmadı, dəxli yoxdu, yenə ərini, bu filan-bəsməkanı yamanlamaq üçün əlində bəhanəsi olacaq. Üzdəsə kişi ilə sözə gəlməsin deyə, ehtiyatlı tərpənəcək, hər kəlməsini ölçüb-biçəcək. İşini ehtiyatlı tutduğundan, belə qadınların ailə həyatına hamı qibtə eləyir. Həmişə mehriban, həmişə gülərüz, qonum-qonşu ilə inciklikləri düşməz, evlərindən bir söz çıxmaz. Daha nə lazımdı? Bir yana qalanda, heç qadın da bu filan-bəsməkan oğlundan narazı deyil, çünki bu filan-bəsməkan oğlundan bir şey ummadığından, nə xətir-hörmət görsə, bəs eləyir. Kişi də

öz arvadından, öz həyatından yerdən göyə qədər razıdı. Çətin onun qədər xoşbəxt adam ola. Sevib-sevilib evlənmək kimə qismət olur? Barmaqla saymaq olar. Ancaq ona qismət olub. Sevdiyi adamdan da nə gözləyirsə; özünə qarşı diqqət, həssaslıq, hörmət – hamısını ondan görür. Sabah uşaqlar böyüyəcək, bir qayğı min olacaq, di gəl onun ev-eşik sarıdan nigarançılığı yoxdu, arvadının evdarlığına, səliqəsinə inanır. Elə götürək sırğanı. Başqası itirsə, bunu özünə bir elə də dərd eləməz. O isə fikirdən gülməyi də yadırğayıb, həmin gün olduğu yerləri ələk-vələk eləmək cəhənnəm, gedib bir elan da verib. Heç elandan xəbəri olmayacaqdı, arvadı onu hər şeydən ötrü narahat eləmək istəmir, səhər-səhər yuxudan duranda təsadüfən stolun üstündə gördü. Daha açıb-ağartmadı. Belə şeylə sakitləşəcəksə, qoy necə ürəyi istəyir, eləcə də eləsin...

Sırğanı itirən qadının heç əri olmaya da bilərdi. Ancaq nə fərqi, əri vardı, ya yox, əri onu sevirdi, ya sevmirdi, hamısının axırı gəlib elana çıxırdısa, demək, qadın sırğanın tapılacağına, onu qaytaracaqlarına ümid eləyirdi. Hər gün oturub telefon zəngini gözləyirdi, harasa gedəndə bir canı telefonun yanında qalırdı, zəng çalanda tezcə qaçıb özü götürürdü. Hələ bu narahatçılıq, bu zülm nə qədər çəkəcəkdi, Allah bilir. Ümid pis şeydi. Ümid adamı yorur.

Bazarın yanındakı qoşa telefon budkasını görəndə fikirləşdi ki, gedib qadına zəng eləsin. Desin, sırğanı tapmışam, məndədi, ancaq qaytarmayacağam. Qoy Güllü xanım bu boş ümiddən əlini üzsün, sakitləşsin, əziyyətdən qurtarsın.

– Salam.

– Əleykəssalam.

– Zəhmət olmasa, Güllü xanımı telefona çağırın.

– Eşidirəm.

– Mən sizin sırğanızı tapmışam.

– Necə yəni? Mənim sırğam axı tapılıb...

Daha gözləməyib dəstəyi asdı. Qadının səsi tox, arxayın adamın səsinə oxşayırdı. Bayaq trolleybusda gördüyü qadın gözünün qabağına gəldi. Həmin qadın öz zərli xələtində otaqda gəzişirdi. Bəlkə də telefon zəng çalanda mətbəxdə kartof təmizləyirmiş, firuzə qaşlı sırğanı itirdiyini də çoxdan unudubmuş. Əvvəl-əvvəl tapanda, yəqin ki, çox sevinib, tezcə sırğanı qulağına keçirib, güzgünün qabağında fırlanıb. Sonrasa üstündən bir-iki gün ötüb və hər şey: telefon zəngini gözlədiyi günlər, nigarançılıq, evdəki söz-söhbət – hamısı unudulub. İndi heç qulağında sırğa olduğu yadına düşmür. Çünki adam bir şeyə çox öyrəşəndə onun varlığını unudur.

Bazardan iki əli də dolu çıxdı. Əriməyə başlamış qar ayağı altında fırçıldayırdı. Evə yaxınlaşdıqca, evin qayğılarına da yaxınlaşırdı. Təki arvadının ağrısı kəsmiş ola. Ancaq ağrısa da, onun yanında çalışır sızıldamasın. Çünki bilir, ağrıyanda onun açığı tutur. Görən, arvadı heç ondan ötrü darıxırmı? Birinci dəfə idi özünə belə sual verirdi. Olur, hərdən adam belə axmaq şeylər fikirləşir.

Kitab dükanının yanından keçəndə yenə ayağını saxlayıb, elana baxdı. Qəribə idi ki, indi də sırğanı tapdığına görə qadına yazığı gəldi.

# PUL GÜNÜ

Pul verilən otağın yanından keçəndə içəri boylanır. Kassir gəlməyib. Çimmək üçün ikinci mərtəbəyə qalxır. Elə bu cür yaxşıdı. Gedib çimər, paltarını dəyişər, sonra gəlib pulunu alar. Qaçhaqaç deyil ki... Hamamda adam çoxdu. Bir duşun altında iki-üç nəfər dayanıb. Suyusa hələ buraxmayıblar, hələ iş vaxtının qurtarmağına beş-altı dəqiqə var.

O, paltar soyunulan otağa qayıdır. İş paltarını çıxarıb şkafdan asır. Çəkələkləri geyinib bircə trusikdə döşəməyə çökür. Siqaret yandırır. Su gələnə kimi siqareti çəkib qurtarar, onsuz da su gəldiyini biləcək. Su gələndə uşaqlar qışqırışırlar. O vaxt durub gedər. Hələ qoy siqaret çəksin. Görəsən, nə qədər pul yazıblar? Briqada planı doldurub. Hesabnan yüz qırx-yüz əlli alsın gərək. Səksən manat da avans alıb. Yüz qırx alsa bəsidi. Əlbəttə, çoxun da ziyanı olmaz. Çox – lap yaxşıdı.

Beş aydır işləyir. Üç yüz manat kənara ata bilib. Dörd yüz olan kimi evə yollayar. Qoy evin üstünü düzəltdirsinlər. Kirəmitlərin çoxu sınıb. Yağış yağanda damır.

Zaldakı divan da köhnəlib. Oturmaq olmur. Yayları az qalır parçanı deşib çıxsın. Eybi yox, divanı özləri alarlar.

İndiyə kimi ona pul yollayırdılar, ona görə də çatdıra bilmirdilər. Daha o, pul istəmir, özü qazanır. Yaxşı qazanır. Əvvəllər texnikumda oxuya-oxuya qarovulçuluq eləyirdi. Yetmiş manat o, otuz manat da texnikumdan alırdı. Bircə əyin-baş evin cibindən çıxırdı. Şəhər yerində dolanmaq çətindi. Hər addım puldur. Kənddə yüz manata yaxşıca dolanmaq olar. Qoyun-quzu da yenə adamın əlindən tutur. Süd almırsan, yağ almırsan, mer-meyvəyə də pul vermirsən.

Ancaq şəhərdə olmur. Texnikumu qurtardı, göndərdilər zavoda. Doxsan manat maaş. Onunla necə dolanasan? Zora qalsa, birtəhər dolana bilər. Tək oğlandı. Ayaqqabı istəyən yox, pal-paltar istəyən yox.

Ancaq ona pul lazımdı. Axı nişanlıdı. Hamı kimi gərək evlənsin. Üzüyü, sırğası, saatı – hər şey yerli-yerində. Tək ev bacarmaz. Gərək özü də işin bir qulpundan tutsun. Aparıb min manat, iki min manat qoyar stolun üstünə, deyər, bax, bu da mən, di qolunuzu çırmalayın.

Ona görə də təyinat yeri ilə birtəhər üzülüşüb gəldi zavoda. Fəhlə düzəldi. İndi qazancı yaxşıdı. Düzdü, iş də o söz – çətindi. Ancaq nə eləmək olar, heç kimə müftə yerə pul verməzlər.

Subaylıq onu lap bezdirib. Həm də axı nə qədər nişanlı qalmaq olar? Qız da kənddədi. Nişanlanandan bir dəfə də üz-üzə, göz-gözə oturub söhbət eləmiyiblər. Nişanlanmamışdan qabaq mağıl görürdü. İndi dədəsi biləndə ki, o gəlib kəndə, qızı heç suya da buraxmır. Guya qıznan bir kəlmə danışsa, nə olacaqdı. Qəribə adamdı, vallah!

Axırıncı dəfə kəndə texnikumu qurtaranda getmişdi. Kişi əlində olan-qalan pulu töküb, evi təmir elətdirib. Deyir, toy eliyəndə utanmayaq. Hələ toy üçün bir dənə də düyə alıb saxlayır. Çölə-zada da buraxmır, həyətdəcə böyüdür.

Sonra da dedilər ki, yığış, birdəfəlik gəl kəndə. Evin içində ol. Daha oxuyub qurtarıbsan.

Birtəhər başlarını yozdu.

Əlbəttə, həmişəlik şəhərdə qalmayacaq ha. Çox elə gözü uçurdu. Qoy bircə özünü düzəltsin, gələr. Gələr, evlənər, təsərüffata da azdan-çoxdan köməyi dəyər.

Daha, deyəsən, evdəkilərin əli işə-gücə yatmır. Kişi lap qocalıb. Gec evlənmək də bir tərəfdən pisdi. O qocalıb, uşaqlarsa balaca. Beş qardaşdılar. Ən böyüyü odu.

O, atasının nə cür işlədiyini bilir. Kişi gecəyə-gündüzə baxmır, elə həmişə çöldədi. Gələndə də evin işindən göz açammır. Ancaq bir dəfə də həyatından şikayətlənməyib.

O günsə, axşam tərəfi çörək yedikləri yerdəcə atası qəfil durub eşiyə çıxdı. O da arxasınca durdu. Gördü ki, kişi məhəccərə söykənib ağır-ağır nəfəs alır. Soruşdu ki, nə olub? Heç, dedi, keçib gedər, axır vaxtlar nəsə ürəyim sancır.

Kişinin kölgələnmiş sifətinə baxa-baxa onu qorxu bürümüşdü. Fikirləşmişdi ki, birdən atası ölər, evin ağırlığı onun üstünə düşər. Onda nə eləyər? Bu ailəni dolandırmağı bacararmı? Hələ uşaqlar! Onları böyütmək lazımdı, əllərini çörəyə çatdırmaq lazımdı. Bir-iki də deyil. Dörd uşaq, hamısı da balaca-balaca.

Ancaq, maşallah, zirək uşaqlardı. Sözə baxandılar. Təkcə kiçik bir az dərslərindən axsayır. Gərək gedəndə ona möhkəmcə təpinsin.

Anası çox fikir eləyir. Nə olsa ürəyinə salır. Deyəsən, şəhərdə nə üçün qaldığını hiss eliyib. O gün gözünün qorasını sıxır. Deyir, üç ildi eyni pencəkdə gedib-gəlirsən. Başqaları da uşaq saxlayır, əyin-başına baxırsan adamın gözü qamaşır.

Nə olub, ay ana. Çılpaq ha döyül. Vaxt gələr, o da geyinər, lap "ministr" balası kimi geyinər. Belə şeydən ötrü dərd çəkməyə dəyməz. Allaha şükür, heç kimin yanında gözükölgəli deyil, heç kimin qabağında boyun əyməyib. Çətinlik müvəqqətidi. Hər şey yaxşı olacaq.

Gələn günü anası ilə bazara getmişdi. Arvad bir şey alana kimi, yalan olmasın, bazarı yüz dəfə dolanırdı. Hər daxılın yanında çənə-boğaz döyürdü. Nədi ki, kartofu beş qəpik aşağı qiymətə alsın.

Həmin vaxt özünə yer tapa bilmirdi. Qüssədən ürəyi partlayırdı. Birdəncə, lap birdəncə anlamışdı ki, bu üç-dörd ildə ona pal-paltar üçün göndərilən iyirmibeşliklər, əllilikər necə qazanılırmış.

Və həmin anda göz yaşlarını zorla saxlamışdı, istəmişdi bu adamın qarşısında diz çöksün, bu daxıl qabağında qara-qışqırıq salan arvadın əllərini öpsün...

Su gəldi, deyəsən. Uşaqlar qışqırışırlar. Trusiki də çıxardıb mıxdan asdı, çəkələkləri şappıldada-şappıldada hamama getdi.

Yamanca basabasdır. Hamı tez çimməyə çalışır. İtələşə-itələşə, zarafatlaşa-zarafatlaşa yuyunurlar.

Əvvəllər beləcə lüt, atası, babası yaşında adamların gözü qabağında çimməyə xəcalət çəkirdi. Sonra öyrəşdi. Hamı lüt olanda heç kim bir-birindən utanmır...

Qurulanıb geyindi. Şkafa vurduğu balaca güzgüyə baxa-baxa saçını daradı. Özündən xoşu gəldi. Gülümsədi: "Heyif, qız uzaqdadı..."

Pul almağa bir xeyli növbə var. Otaq balacadı, bir belə adama darısqallıq eləyir. Başda kassir oturub, sağda "profsoyuz"un üzvlük haqqını yığan, solda komsomol. Səs-

küydən ağız deyəni qulaq eşitmir. Siqaretin tüstüsü otağı başına götürüb.

O da qol çəkib pulunu aldı.

Həmişə belə olur: çox arzulayanda az alır, az fikirləşəndə çox. Deyəsən, niyyət eləmək düşmür ona.

Görən niyə az çıxıb? Bəlkə "naçalnikdən" soruşsun?

– Nədi? Neçə alıbsan?

– Yüz beş.

– Bə deyirsən azdı! Yüz beş azdı ə, mən özüm sənnən də az alıram.

– Axı işləmişəm.

– Yaxşı ə, yaxşı, guya biz işləmirik. Nə vecinə, subay oğlansan, dərdin yox, sərin yox. Gələn ay yaxşı olar, hər belə xırda şeydən ötrü qanımızı qaraltma.

Daha neyləyəsən? Eybi yox, bu ay əlini sıxar. Boş yerə pul xərcləməz.

– Məllim, ay məllim, gedirsən içməyə?

– İş yoldaşlarıdı. Uşaqlar texnikum qurtardığına görə onu belə çağırırlar.

– Yox, mənim işim var.

– Nə işdi, qıznan görüşə gedirsən?! Bilirik də, gedib bu saat şirin çay içib uzanacaqsan çarpayıya. Yoxsa uşaq başı aldatma, denən, xəsisəm, inanaq.

O, uşaqlardan incimir. Axı uşaqların xəbəri yoxdu ki, o, toy eləmək istəyir. Hələ evin üstünü də düzəltdirmək lazımdı. Atası lap qocalıb. Evdə də dörd uşaq. Bir-iki olsa, dərd yarıdı. Hamısı da balaca-balaca.

# PAYIZ NAĞILI

Hava yenicə qaralmışdı. Qadın pəncərə arxasında dayanıb, qaranlıqdan çölə baxırdı. Otağın işığını özü yandırmamışdı. Çünki işıq yananda otağın içi bayırdan görünürdü. Onda nə belə rahatca pəncərədən baxa bilirdi, nə də fikirləşə. Özünü narahat hiss eləyirdi. Elə bilirdi ki, kimsə onu görür. Tək onu yox, hətta nə düşündüyünü də görür.

Yol fənərlərinin işığından torpaq ləkə-ləkə idi. Küçə yamaqlı yorğanını başına çəkib uyuyurdu.

Yollar qaranlığa sevinirlər. Amma dünya yaranandan adamlar qaranlıqdan qorxurdu. İndi də küçədən əl-ayaq yığılmışdı. Hərdən-hərdən kiminsə tələsən addım səsləri eşidilib tezcə itirdi. Yenə sakitlik, yenə fənərlərin işığından xal-xal olmuş torpaq, lal-dinməz evlər, ağaclar... Amma qadın min dəfə gördüyü bu kələ-kötür yola, bir-birinə bitişmiş divarları ilə işığını gizlədən evlərə, öz kölgəsinə bürünən ağaclara baxmağı xoşlayırdı.

Evdə də sakitlik idi. Qadının sakitliyi qorumaqdan savayı özgə bir işi yoxdu. Əri çayını-çörəyini yeyib otağına çəkilmişdi, yatana kimi də orda olacaqdı: nəsə oxuyacaqdı,

nəsə yazacaqdı, nəsə... Qadın üçün bunlar “nəsə” idi. Çünki əri öz iş-gücündən ona heç nə danışmırdı. Səhər gedirdi, bir də yatmağa az qalmış qayıdırdı. Yorğun-arğın qayıdırdı, çörəyini yeyib bəzən o saat da yatırdı; bəzən də beləcə otağına çəkilib “nəynənsə” məşğul olurdu.

Əri günün çoxunu işdə keçirdiyinə görə evlərinə gəlib-gedən az olurdu.

Gələndə də ərinin iş yoldaşları gəlirdi, yeyirdilər, içirdilər, içən olmasa da, qonaqlara görə hərdən əri də azca içirdi, amma yenə bütün gecəni yatammırdı, tez-tez durub havaya çıxırdı. Bu vaxt o da arxasınca çıxırdı, ərinin çiyninə bir şey salıb, avazımış sifətinə baxa-baxa dayanırdı. Əri bəzən buna görə acıqlanırdı, yanından qovurdu, amma hərdən heç nə demirdi, hətta elə bil bundan xoşlanırdı. Və ancaq bu vaxtlar öz işindən: planı verdiyindən, direktorun onun xətrini istədiyindən, onu irəli çəkəcəyindən, aspiranturaya hazırlaşdığından, maşın alacağından, nələrdən, nələrdən yerli-yataqlı danışırdı. Amma hər dəfə də ərinin bu vaxtlar öz iş-gücündən danışması qadına qəribə gəlirdi. Çünki belə vaxtlar ərinin nəsə başqa bir şey deyəcəyini, başqa bir şey danışacağını gözləyirdi. Ərisə hey işindən danışırdı. Qadın gözlərini ondan çəkməyib gözləyirdi, o qədər baxırdı ki, əri kiçilib-kiçilib uzağa çəkilirdi, bircə ağzı yaxında görünürdü; bu ağız açılıb yumulurdu, açılıb yumulurdu, amma qadın heç nə eşitmirdi.

Səhərlərsə əri durub yenə işə gedirdi və qadın yenə evdə tək qalırdı. Evin, həyət-bacanın qayğısı az olduğundan günortaya kimi sil-süpür eləyib, yemək hazırlayıb qurtarırdı. Sonra harasa getməyə hazırlaşırdı, güzgünün qabağında xeyli dayanıb özünə bəzək-düzək verirdi, saçını cürbəcür darayıb tökürdü. Amma geyinəcəyi paltarı seçməkdə həmişə

çətinlik çəkirdi. Paltarı çox idi, əri tez-tez başqa şəhərlərə ezamiyyətə gedirdi. Qadın bu şəhərlər haqqında da ərindən heç nə eşitməmişdi. Ancaq bilirdi ki, orda yaxşı-yaxşı dükanlar var, o dükanlarda qəşəng paltarlar satırlar. Əri həmişə o paltarlardan alıb gətirirdi, zavodda kiməsə verib satdırırdı, amma onu da yaddan çıxartmırdı.

Qadın xoşladığı paltarları dolabdan çıxarıb çarpayının üstünə atırdı. Birini seçib əyninə taxırdı. Amma geyinəndən sonra nəsə ürəyinə yatmırdı. Ya ona elə gəlirdi ki, həddindən çox bəzənib, ya da əksinə, ürəyinin istədiyi kimi yaxşı bəzənmirdi. Axır ki, paltarlardan birini könülsüz geyinirdi, könülsüz geyindiyinə görə də heç hara getmirdi.

Elə gün olurdu ki, əyninə təzə paltar geydiyi, bəzənib-düzəndiyi qadının yadından çıxırdı, ərini də bu paltarda qarşılayırdı. Amma yaxşı ki, əri heç nə hiss eləmirdi, heç nə soruşmurdu. Özü isə gecə ərinin yanına girəndə ayılırdı, amma yenicə soyunduğu paltara baxanda ona elə gəlirdi ki, doğrudan da, bu gün harasa gedib, hardasa olub, çünki gördüyü ağaclar da həmişəki ağaclar deyildi, doqqazın ağzına əkdiyi qızılgüllər də, günəş də, axtardığını tapmaqdan ümidini üzmüş adam kimi pəncərənin qabağında yatıb qalan yol da. Yola yağış yağırdı, külək əsib damcıları evin divarlarına, pəncərələrinə çırpırdı, gün çıxıb isti şüalarını nəm daşlarda soyudurdu. Qar yağanda qadın həyətə baxırdı, çünki qar az yağırdı, asfalt yolda qalmırdı, torpaqsa nəfsi tox Allah bəndəsi kimi Yaradanın azdan-çoxdan verdiyinə sevinib, şükürlə gözünün üstə saxlayırdı.

Qar yağanda qadın musiqiyə qulaq asmağı xoşlayırdı. Qar musiqiyə uyğun yağırdı. Musiqinin ritmi güclənəndə qar da güclənirdi, lopalanırdı. Elə ki, musiqi həzinləşirdi,

qar dənələri birdən havada dayanırdı, yellənə-yellənə, çözələnə-çözələnə itib gedirdi.

Qış günəşi kişi kimi təmkinli, soyuqqanlı olurdu, yaz günəşi qadın kimi odlu, uşaq kmi sadəlövh. Qadın səhər-səhər üzünə düşən gün işığına ayılırdı, gözünü açıb o saat da çölə baxırdı. Yatdığı yerdən ağacların əli çatmadığı göy görünürdü, bir də talvarın üstü. Qışda üzünə düşən gün işığının soyuqluğundan, bir də talvarın üstünə atılmış dəmiri ağardan qırovdan bilirdi ki, havada nə qədər şaxta var. Yayda da, yazda da gün işığı onu aldatmırdı. Amma havaxt ki, vaxtından çox yatırdı, ayılıb çölə baxmasa da, bilirdi ki, gün çıxmayıb, hava buludludu. Bircə belə səhərlər qadın havanın necə olacağını bilmirdi, ona görə həmin gün harasa getmək üçün hazırlaşmırdı, bəzənib-düzənmirdi.

Gecələr, işdən yorğun gəldiyinə görə əri daş kmi yatırdı. O isə yatammırdı. Sakitlik, qaranlıq, adamsızlıq onu çölə dartırdı. Durub eyvana çıxırdı. Saatlarla beləcə dayanıb qaranlığa baxırdı. Ya evin damını qamçılayan şıdırğı yaz yağışına qulaq asırdı, ya çöl fənərlərindən püskürən qara baxırdı, ya da gecənin sükutundan gözünü çəkmədən bu sükutdaca əriyib-əriyib yoxa çıxırdı.

Dünən elə ılıq, elə aylı gecə idi ki, yenə dözə bilmədi, ərini oyatmamaq üçün ehmalca durub həyətə düşdü.

Yupyumru, narıncı ay uzaqda, qollu-budaqlı ceviz ağacının arxasından zorla boy göstərirdi. Dünyanı işıqlandıran da ay deyildi, ceviz ağacı idi. Ceviz ağacının yarpaqlarının gümüşü işığı idi.

Nə torpaq vardı, nə səma, nə də evlərin, ağacların kölgəsi. Kölgəsiz evlər, ağaclar bir həzin, mavi boşluqdan asılıb qalmışdı. Paltar kimi kölgəsini soyunub atmış ağaclar

su qırağında dayanıb xoşbəxt-xoşbəxt özünə baxan çılpaq, şux qızlara oxşayırdı.

Bu qızlar onu ay təbəssümlərilə çağırırdılar, tələsdirirdilər. Onlara qoşulmaq üçün, onlar kimi gözəl görünmək üçün bəzənmək lazım deyildi.

Qadın suya girirmiş kimi, paltarını soyunub ehmalca mavi boşluğa girdi, qızlara qoşuldu. Ay işığı bədəninə hopurdu, içinə axırdı. Qadın mahnı oxuyurdu, gülürdü, oynayırdı və özünə baxmasa da, bilirdi ki, heç vaxt belə gözəl olmayıb.

Bu nağıllı gecənin nə qədər çəkdiyini qadın indi də, pəncərə arxasında dayanıb qaranlıqdan çölə baxanda da yadına salammırdı. Ancaq onu bilirdi ki, evə qayıdıb yatmış ərini görəndə çılpaqlığından utanıb ayılmışdı. Ayağının sızıltısını da, payız gecəsinin soyuğunu da onda hiss eləmişdi...

Hardansa, çox-çox uzaqdan, uzaqlığın özü kimi sirli bir səs gəlirdi. Birdən qadının bədəni uçundu, tezcə pəncərədən çəkilib həyətə düşdü, eyvanın işığını yandırdı.

Eyvanın işığı qaranlıqdan qorxan uşaq kimi həyətdən o yana adlamırdı. Bağ zil qaranlıq idi, qaranlıqdan hərdən qopub düşən almaların tappıltısı eşidilirdi.

Bu sirli səsin nə olduğunu ayırd etmək üçün qadın həyətin ortasında dayanıb qulaq kəsildi. Səsi ayırd edəndə ürəyi atlandı. Başını qaldırıb göyə baxdı. Durnalar köçürdü. Yerin, göyün tənhalığında durna qatarı bircə öz səsinə sığınmışdı. Bu sirli səs köçdən düşüb qalmış durnaları çağırırdı; gedirik, deyirdi, eyy, gedirik, harda qaldın, harda qaldın?!

Son dəfə haçan durna köçü gördüyü qadının yadına gəlmirdi. Gözünü zorla seçilən haçadan ayırammırdı.

Baxdıqca ürəyi çırpınırdı, əl-ayağı soyuyurdu. Birdən istədi ki, ərini də çağırsın. Bəlkə o da çoxdandı durna köçü görmür, durna səsi eşitmir. Bəlkə heç ömründə görməyib...

Arvadının səsinə kişi çölə bir az gec çıxdı. Baxıb qadını görmədi. Bir-iki ağız çağırdı. Gözləməyə həvəsi gəlməyib evə keçdi. Amma evdə də durmağa hövsələsi çatmadı. Nəsə özünü birdən narahat hiss elədi. Yenə eyvana çıxıb qadını səslədi. Cavab almayıb həyətə düşdü, bağa baxdı və ancaq bu vaxt durna qaqqıltısını o da eşitdi.

Durna qatarı ağır-ağır uzaqlaşırdı.

Göy də, ulduzlar da, ulduzlu səmanın altda ağır-ağır uzaqlaşıb itən durna qatarı da yerdən gözəl görünürdü.

Və bəlkə ordan, o ulduzlu səmanın altından, o durna qatarının yanından yer də, işığını çölə sərmiş bu ev də eləcə gözəl görünürdü...

# DÖNGƏ

Körpünü keçib maşını yolun kənarında saxladılar. Kənd körpüdən o yanda qaldı. Bu yanda asfalt yol idi, dağın arxasından çıxıb burulur, bir az irəlidə yenə tezcə yoxa çıxırdı. Avtobuslar burdan keçirdi.

Oğlan yol çantasını götürüb, maşından düşdü.

– Hə, – dedi, – daha sən qayıt.

Kişi də maşından düşdü. İstidən daldalanmağa yol gəzirmiş kimi, gözlərini qıyıb ətrafına baxdı. Döngədə – çayın üstə tikilmiş şüşəli yeməkxanadan başqa daldalanacaq yox idi. Amma bu istidə orda da oturmağa dəyməzdi.

– Deyirsən, gedim?

Oğlan həvəssiz-həvəssiz gülümsəyib yerə domuşdu. Elə bil maşının bapbalaca kölgəsində gizlənmək istəyirdi.

– Özün bilərsən.

Kişi çox fikirləşmədi:

– Yox, yaxşısı budu, gözləyim, yoxsa gəl sonra ananın qabağında dur görüm. Deyəcək, gülməşəkərlərimi yola salmadı.

Oğlan kişinin bacısı oğluydu. Amma yaş fərqi az olduğundan tay-tuş kimi idilər.

– Bacından qorxma, deyərsən, yola saldım. Lap deyərsən, öz maşınımnan düz aparıb qoydum Gəncəyə.

Kişi durub-durub şaqqanaq çəkdi:

– Ə, heyvərə, birdən inciyib eliyərsən ha mənnən, xəbərimiz olmaz.

Oğlan kinayə ilə:

– Qorxma, – dedi, – xəbər eliyərəm.

Kişi ciddiləşdi:

– Bura bax, doğrudan inciyirsən? Özün bilirsən, axı, işim var...

Oğlan kişinin ciddiləşdiyini görüb tələsik:

– Yox, əşi, sən mənə fikir vermə, – dedi, – kefim yoxdu.

– Gözüm aydın, kefin yoxdu deyən, gərək bizim də kefimizi pozasan? Odu ha çay, get üzünə su vur, eynin açılsın.

Özü dedi, özü də öz sözündən həvəslənib çaya sarı düşdü.

Avtobus gözə dəymirdi. Oğlan bir ara minik maşınlarına da əl qaldırdı. Amma saxlayan yox idi. Gün təpəsindən döydükcə səbri lap tükənirdi.

Kişi yaş, soyuq əllərini onun sifətinə çəkdi:

– Hamamdan sonra pivə ləzzətli şeydi, – dedi, – gəlsənə bir az içək, Gəncə qaçmır ha.

Oğlanın pivə ilə arası yoxdu. Amma ürəkdən təklif olunduğu üçün razılaşdı.

Balaca, çirkli yeməkxanaydı. Adətən, burda yolçular dayanırdı. Çox oturmurdular, toqqanın altını bərkidən kimi tərpənirdilər.

Keçib dib tərəfdə əyləşdilər, elə yerdə ki, bir gözləri çöldə olsun.

İçəri bürkü idi. Həm də ət, soğan qoxuyurdu. Stolların üstündə milçəklər vızıldaşırdı. Yan tərəfdə iki çalğıçı oturmuşdu. Pul verən olmadığından hələ çalıb-oxumurdular.

Qulluq eləyən yox idi. Özləri durub pivə, göyərti, bir də xiyar gətirdilər. Pivə də, xiyar da soyuq idi, o qədər soyuq idi ki, dadını-tamını bilmək olmurdu.

Tarın səsi gəldi. Deyəsən, kimsə sifariş eləmişdi. Cavan, dolusifətli oğlan qavalı çənəsinə yaxın tutub pəsdən oxudu:

***Evləri var, xana-xana,***
***Mən kül oldum, a balam, yana-yana...***

Oxuyan erməni idi, azərbaycanca pis oxumurdu.

Oğlanı qayğısızlıq bürümüşdü. Həmişə yoldan qabaq kefi olmurdu. İndi isə soyuq pivədən içib xiyardan yeyə-yeyə, mahnıya qulaq asa-asa hiss eləyirdi ki, kefi yavaş-yavaş düzəlir.

Kişi də mahnıya qulaq asırdı. Pivə dolu stəkanı əlində tutub fikrə getmişdi.

Kişi qəşəng idi. Doğrudan da qəşəng idi, hətta oğlan buna heyrətləndi də. Necə olub axı, indiyə qədər sezməyib? Yenə diqqətlə baxdı: qaraşın sifət, nazik bığ, altı tuluqlanmış yorğun gözlər. Elə bil bunların hamısını bir yerdə heç vaxt görməmişdi. Başqa yaxşı tanıdığı adamları da gözünün qabağına gətirmək istədi. Bacarmadı. Özünə gülməyi tutdu. Əgər birdən soruşsalar, ya özü istəsə, o saat deyə bilməz anasının burnu necədi, gözləri necədi, qaşı, çöhrəsi... Atasını, qardaşlarını da eləcə. Ancaq o saat bircə sözü deyə bilər: qəşəngdi...

Döngədə avtobus dayandı.Amma İcevan tərəfə gedirdi.

Kişinin gözü hələ də yol çəkirdi. Oğlan ona sataşmaq üçün söz axtardı:

– Köç-külfət basdı – dedi, – səni, qocaldın.

Kişi fikirli-fikirli gülümsədi:

– Hə.., qocaldım, özü də yaman qocaldım.

– Gəl bir Gəncəyə, cavannaşdırım səni. Gəzək, kef eliyək.

Kişi başa düşdü ki, oğlan sözü nəyə gətirir.

– Nisyə söhbətdi, indi belə deyirsən, ora gələndə gözün tutulur.

– Hardan bilirsən?

– Onda gəlmişdim də, gördüm kəramətini.

– Onda mən təzə idim, amma indi boyun oluram, sən bircə gəlməkdə ol, qalanınnan işin yoxdu.

Bu, doğrudan da nisyə söhbət idi. Kef eləyə biləcəkdilər, bilməyəcəkdilər, Allah bilirdi. Ancaq indi yeməkxana bürküsündə, mətbəx qoxusunda, kişi məclisində qadınlar barədə danışmaq, bir aydı uzaq düşdüyü şəhəri xatırlamaq oğlana xoş gəlirdi. Həm də oğlan bilirdi ki, belə işlərdə bacarıqsız olduğuna görə qadın söhbəti kişinin ən kövrək yeridi: bu barədə danışmağı, ya da qulaq asmağı xoşlayır. Və ona bir isti söz demək, kefini açmaq üçün indi oğlanın bacardığı, fikirləşib tapdığı ancaq bu idi.

Söhbət kişini həvəsləndirmişdi, amma öz yaralı yerini özü də yaxşı bildiyindən, bunu başqasının biləcəyindən, gülünc vəziyyətə düşəcəyindən həmişə qorxurdu.

– İnanaram ha...

Kişinin ehtiyatlanmağı oğlana ləzzət elədi.

– Mən sənə söz deyirəm, gəl, gör. Özü də sənin istəyincə olacaq: nə cürəsini desən...

Elə bil qızları bu saatca düzmüşdün sıraya: cavan, gözəl, əndamlı, hamısının da gözləri gülür, bu deyir məni götür, o deyir məni, bircə barmağını hansınasa uzatmaq qalır, sonra da...

– Sən öl, durub gedərdim sənnən!

Bu sözlər o qədər yanğıyla deyilmişdi ki, oğlan özünü saxlamayıb uğundu.

Oğlanın uğunduğunu görəndə, kişi birdən duruxdu, sifəti kölgələndi.

Avtobusdan yaşlı bir arvad düşmüşdü. Bazardan qayıdana oxşayırdı.Torbasını yolun qırağına qoyub sürücüyə vermək üçün düyünçəsindən pul çıxarırdı. Axır ki, sayıb yol tərəfdən sürücüyə uzatdı...

Kişi pərtliyini gizlətmək üçün:

– Zarafat o yana, – dedi, – doğrudan da gələcəm. Sənin işindən ötrü.

Oğlan kişinin pərtliyini sezmirmiş kimi yenə əvvəlki söhbətə qayıtmağa çalışdı:

– Nə zarafat e, sən bircə gəlməyində ol.

– Yox, hər şey öz yerində, amma əsas sənin işindi.

İndi də oğlan başa düşdü ki, kişi sözü hara hərləyib gətirir. Bu barədə aralarında söhbət olmuşdu və yoldan qabaq bir də bu söhbətə qayıtmaq oğlanı heç açmırdı. Amma bu saat kişinin ipinin üstünə odun yığmaq olmazdı.

– Əşi, təki gəl, sonrasını özün bilərsən.

– Mənnən "əşşiynən" danışma. – Kişinin kefi əməlli-başlı pozulmuşdu. – Burda "yaxşı-yaxşı" deyirsən, ora gedəndə öz bildiyini tutursan. Getdim, danışdım, hörmətini elədim, iş düzəltdim, Allah ağlını aldı.

Oğlan bir ara istədi ki, söhbəti zarafata salsın, ancaq kişinin lap özündən çıxacağından qorxub dillənmədi.

– Sən pul almırsan, müdirin hardan bilsin? Dispetçer balaca vəzifə deyil axı, əlinin altda nə qədər maşın, elə bilir alırsan, ona vermirsən. Odu ha, dalından dəydi.

Kişi hirslənməyinə, onsuz da hirslənmişdi. Daha susmağın yeri yoxdu. Ona görə də oğlan dilinə gələnləri saxlamadı:

– Cəhənnəmə dəydi, nağayrım, mən bacarmıram, məndə o üz yoxdu, Allah məni də belə qarğıyıb.

Yeməkxanada hərə öz işində idi. Çörəyini yeyən yeyirdi, içirdi, söhbətini eləyirdi. Çalıb-oxuyanlara fikir verən yoxdu, elə bil hardasa radionu qurmuşdular, özü üçün oxuyurdu.

Bayaqkı avtobus hələ də yolun qırağında dayanmışdı. Sürücü arvadla çənə-boğaz eləyirdi. Yəqin ki, pul haqq-hesabı idi. Bir az çənə-boğazdan sonra arvad yolu keçib yeməkxanaya tərəf gəldi. Maşın gözləyirdi...

Kişi toxtamışdı. Elə bil fikri oğlanı özündən çıxarmağıymış.

– Xahiş elədin, yoldaşından ötrü də ağız açdım. Deyirsən, indi yaxşıca işləyir, irəli çəkiblər...

Oğlan acıqla onun sözünü kəsdi:

– Qələt elədim dedim.

Kişinin dodağı səyridi:

– Üzümə elə baxma. Mən onun haqda pis bir söz demirəm ha. Deyirəm, yəni sən də ağlını başına yığ.

– Nə olub e mənə, yaxşıca dolanıram, maaşım da boğazacan bəsimdi.

– İndi bəsdi, bə sabah? Adam gərək burnunun ucundan bir az o yana baxa, tək özünü fikirləşməyə.

– Kimi fikirləşəcəm? Evlənmişəm, uşağım yoxdu...

– Bə evdəkilər?

– Evdəkilərə canımın sağlığı bəsdi. Şükür, yaxşı da dolanırlar, beş mənim kimisini saxlayarlar.

Arvad burnunun altda mızıldana-mızıldana yeməkxanaya girdi. Əlində xırda pullar tutmuşdu, bir dənə də beşlik. Ətrafına baxıb:

– A bala, bunu bir xırdalayın, – dedi.

Heç kim ona cavab vermədi. Arvadın da, deyəsən, heç xırdalamaq fikri yoxdu, daha sözünü təkrar eləməyib qapıdan çıxdı...

Kişi diqqətlə oğlana baxırdı, sözlər yarıaçılmış dodağında titrəyirdi. Kişi elə bil bu sözlərin ağzından çıxmasını istəmirdi. Amma bacarmadı:

– De görüm, indiyə kimi nə alıbsan evinizə, ya atana, anana? Barmağını qatda, de, filan şeyi. Nolar hə, bir dəfə gələndə atana köynək alasan, ya anana şal alasan, ya götürüb onları, nə bilim, kurorta aparasan, aparıb haranısa gəzdirəsən. Oğlusan da, yad-zad döyülsən ha. Oğul payı başqa şeydi axı. Onlar da baxıb sevinə, ürəkləri dağa dönə. Nə olar, hə? Dünya dağılar?!

Kişi boş yerə sözləri udmaq istəmirmiş. Oğlan söyüş söyməkdən özünü zorla saxlayırdı. O, çox vaxt bu barədə fikirləşmişdi, arzulamışdı, ancaq indi başqasından bu töhməti eşitməsi onun həmin gizli istəyini, arzusunu üzə çıxarmışdı, bayağılaşdırmışdı, bunların bəlkə də nə vaxtsa baş tutacağına olan ümidini öldürmüşdü...

Arvad pulu sürücüyə uzatdı. Bayaq ovcunda tutduğu həmin xırda pullar idi. Sürücü acıqlı-acıqlı nəsə deyib arvadın əlinin altdan vurdu. Pullar yola səpələndi.

Oğlan dinməzcə yola baxırdı. Avtobus getmişdi, arvad yola səpələnmiş pulları axtarırdı. Şütüyüb keçən maşınlar ona çatanda yavaşıyıb siqnal verirdi.

Ortaya çökmüş sükut kişinin dilini-ağzını bağlamışdı. Oğlan bəlkə də pis-yaxşı bir söz desəydi, o, heç bir belə tutulmazdı. Elə bu dinməzliyin özü bayaq dediyi sözlərin ağırlığını ona hiss elətdirirdi.

Oğlanın kefini açmaq üçün bir şey fikirləşib tapammadı.

Daha içməyə həvəsi olmasa da, nəsə etmək xatirinə götürüb axırıncı şüşəni də stəkanlara boşaltdı.

Oğlanın gözü ona sataşanda duruxdu. Acığı birdən soyudu, kişiyə yazığı gəldi. Amma o da axtarıb bir xoş söz tapammadı:

– Yaxşı yadıma düşdü, – dedi, – sən bir de görüm e, məni işə düzəldəndə nə ürəknən pul verdin, qorxmadın ki, birdən götürməz, söyüb biabır eləyər səni?

Pul haqq-hesabı bir il əvvəl olmuşdu. Amma indiyə kimi də oğlana çox maraqlı gəlirdi ki, görən tanımadığı, birinci dəfə gördüyü adama kişi pulu necə verib, hardan bilib ki, o, pul alandı? Hərdən fikirləşirdi, bir bu haqda kişidən soruşsun, həmişə də unudurdu. İndi qəfilcə yadına düşdü, marağını gizlədəmmədi.

Bu qəfil sual kişini çaşdırdı. Əvvəl oğlanın ciddi danışıb-danışmadığını kəsdirəmmədi. Başa düşəndə ki, oğlan çox ciddi soruşur, od götürdü onu:

– Nə axmaq söz danışırsan sən. Nəyi axı götürməz? – Əlini cibinə atdı. – Ayə, mən sənə pul verim, götürməzsən? Yox e, götürməzsən? Pul e!

Kişinin əlində tutduğu pulları görəndə oğlan qorxdu, birdən öz-özündən şübhələndi: doğrudan da, götürərmi görən?

Kişi hələ də cavab gözləyirdi:

– Yox e, götürməzsən?

Oğlan handan-hana gözünü pullardan çəkdi.

– Düz deyirsən... – dedi, – sən də düzsən, bu çalğıçılar da düzdü, bayaqkı şofer də, o arvad da.

Kişi onu başa düşmədi, əlini yellədi:

– Əşi, özün bilərsən!

Maşın təkərinin tükürpədən qıcırtısı eşidildi, kiminsə qışqırtısı bu səsi batırdı. Xoşbəxtlikdən sürücü maşını

vaxtında saxlaya bilmişdi. İndi də qapını açıb hirsini soyutmaq üçün arvadı söyürdü. Səsə çıxanlar maraqlı bir şey olmadığına heyifsilənsələr də, sürücünün söyüşlərini eşidib gülürdülər.

Arvad key kimi döyükə-döyükə sürücünün söyüşlərindən, qıraqda dayananların atmacalarından qaçıb canını qurtarmağa çalışırdı.

Avtobus gələnə kimi nə oğlan danışdı, nə kişi. İkisi də ürəyində avtobusun tezcə gəlməsini arzulayırdı.

Axır ki, avtobus gəldi. Oğlan gecikməmək üçün tələsik xudahafizləşdi:

– Hələlik, – dedi, – Hər şey yaxşı olacaq.

Fikri dağınıq olduğundan, kişi onu başa düşmədi:

– Nədi?

– Heç, deyirəm, hər şey yaxşı olacaq.

Kişi yenə nəsə soruşdu. Amma qapılar bağlandığından, oğlan heç nə eşitmədi.

# QATAR

Dünən soyunub yerinə girəndə fikirləşmişdi ki, səhər heç hara getməyəcək. Yaxşıca dincələcək, canının ağrısı çıxana kimi yatacaq. Sonra da Allaha təvəkkül, yəqin evdə görməyə bir iş tapılar.

Bunu dünən fikirləşmişdi. Bayırda möhkəmcə külək əsirdi. Bir dünya zülmət küləyin əlindən it kimi zingildəyirdi. O isə soyuqdan büzüşüb yerini qızdıra-qızdıra sevinirdi ki, şükür, yatmağa rahat bir yeri var.

Yatmağa həmişə yeri olmuşdu. Amma bu mənzilin, doqquzmərtəbəli binada yerləşən birotaqlı mənzilin qiyməti qapısına onun ad-familiyasının yazılmasındaydı. Bu ad-familiya onun üçün sehirli yazıya dönmüşdü. İşdən-gücdən necə yorğun-arğın gəlir-gəlsin, yazını görən kimi, ürəyində nəsə bir yüngüllük hiss eləyirdi. Çünki bir vaxt, hələ kənddə yaşayanda, küçədə aşıq-aşıq oynayanda heç ağlına da gəlməzdi ki, necə deyərlər, adını eşidib üzünü görmədiyi Bakı şəhərində özünün evi olacaq. Ona görə qapının üstündə öz familiyasını oxuyanda həyatın qəribəliyini lap aşkar hiss eləyirdi və inanırdı ki, bax indi heç ağlına gətirə bilmədiyi, ya da hərdən salamsız-kəlamsız ötəri fikrindən keçən bəzi şeylər, doğrudan da, nə zamansa ola bilər.

Amma səhər yuxudan lap tez durdu. Birdəncə gözləri açıldı və ona elə gəldi ki, istədiyindən də çox yatıb. Çünki yuxudan doymuşdu, dünənki yorğunluğu isə gecə kimi əriyib getmişdi.

Yan tərəfə, narıncı oboy çəkilmiş divara gün işığı düşmüşdü. İşıq zolağı çox parlaq idi, elə bil gün işığını bulanlıq su kimi süzgəcdən keçirib təmizləmişdilər.

Axırıncı dəfə haçan belə ılıq, belə parlaq gün işığı gördüyü yadına gəlmirdi. Birdən-birə uşaq kimi qayğısız olmuşdu. Dünyada nə üçdə alacağı varıydı, nə beşdə verəcəyi: bircə gün işığı varıydı ki, bu saat onun arxasına düşüb sevinə-sevinə hara desən getmək olardı.

İşığa baxa-baxa başa düşdü ki, dünən fikirləşdiyi kimi qaxılıb evdə oturammayacaq. Heç cürə oturammayacaq, dostlarnan görüşdən də qaçacaq. Başqa bir dərdi-azarı olmadan fikrinin bu cür dəyişməsi hətta onu sevindirdi. Atılıb çarpayıdan durdu. Əl-qolunu oynadıb iki-üç dəfə əyilib-qalxandan sonra qurşaqdan yuxarı soyuq suyla yaxşıca yuyundu, çay içib evdən çıxdı.

Qışın oğlan çağında elə bil qəfilcə yaz gəlmişdi. Günəş bircə gecədə hər şeyi gözəlləşdirmişdi: insanından tutmuş ağacına kimi hər şeyi. Bakıda onsuz da qar bütün qış boyu iki-üç dəfə yağaydı, ya da yağmayaydı. Amma indi Bakının daimi sakini – külək də yoxuydu. Şairlərin deyinə-deyinə əlindən qaçıb isti otaqda mürəbbəli çay içə-içə şəninə şer yazdıqları Bakı küləyi...

O, elektrik qatarının dayanacağına sarı gedirdi və ilk dəfəydi nə üçün, hara gedəcəyini bilmədən yola çıxmağın ləzzətini hiss eləyirdi. Gözünə dəyən hər şey ona təzə, səhər-səhər divara düşmüş gün işığı kimi təmiz və qayğısız görünürdü.

Bilet alandan sonra gözəl bir qadın çöhrəsi görmək həvəsilə bir xeyli perronda gəzişdi. Amma bazar günü olduğundan seyrəklik idi: üç kişidən və qarıdan başqa heç kim yoxuydu.

Elektrik qatarında da seyrəklik idi. O əvvəl girdiyi vaqonda dayanmadı, oturmaq üçün yaxşı yer gəzə-gəzə başqa vaqona keçdi. Bu da xoşuna gəlmədi. Qatarın burnuna tərəf bir vaqon da keçdi. Vaqonda iki qız, bir də qoca kişiydi. Qızların arxası ona tərəf olduğundan üzləri görünmürdü. Deyəsən, burdan yaxşı yer tapmayacaqdı. İrəli gedib qızlarnan üzbəüz oturdu. Burda qızlara görə oturduğunu sezdirməmək üçün ayağını ayağının üstünə aşırıb, çölə baxmağa başladı.

Çöldə baxılası bir şey yox idi. Düzənlik, evlər... evlər, düzənlik... O, başını asta-asta çevirdi və guya ki, üç-dörd skamya aralı oturmuş yaşıl yaylıqlı qızı indicə gördü: gözləri heyrətlə açıldı. Ancaq o saat da gözləri kiçildi, adiləşdi, şirinliyini itirdi. Çünki qız ona baxmırdı və bayaqdan onun bu görüş üçün hazırladığı, şirinləşdirdiyi baxışlar boşa çıxmışdı.

Qızın çöhrəsi adiydi: hər şey yerli-yerindəydi, nə artığıydı, nə əskik. Ona görə də çox baxmaq olmurdu, baxışlar çöhrəsindən sürüşürdü.

O, gözlərini çəkib bu dəfə o biri qıza baxdı. Və elə bil birdən üzünə meh dəydi. Ləzzətdən gözləri torlandı, bədəni heysizləşdi.

Qız kitab oxuyurdu. Hərdən şirin-şirin gülümsəyirdi, gülümsədikcə uzun kirpikləri titrəyirdi.

Qurban olum sənə, doğrudanmı, bu da bizim kimi çörək yeyir, çay içir, doğrudanmı? Heç elə şeymi olar, ay Allah, heç elə də insafsızlıqmı olar... Gör necə də sakitcə oxuyur.

Elə bil dünyada bu kitabdan başqa heç nə yoxdu. Amma var, yəqin ki, var. Yoxsa belə şirin-şirin gülümsəmək olmaz. Görən, kimdi o? Yəqin onun üçün bu qız adicə qızdı. Sarımsaq da yeyir, yatanda da xoruldayır. Sən saxla, ay Allah... Görən, bu qız heç onu sevərmi, hə? Sevərmi? Sevsə, nə olar? O, daha heç kimə baxmaz. Heç kimə baxmaz! Bircə onu sevər. Əllərini öpər, pişik balası kimi xumarlana-xumarlana başını qoyar dizinin üstünə, deyər saçımı sığalla. O da sığallayar, sığallayar, hərdən də əyilib öpər...

İlahi, sən özün saxla. Ancaq bu, heç vaxt olmayacaq. Olmayacaq. Heç vaxt!

O anladı ki, dünyada "heç vaxtdan" da pis söz yoxdu. Hirslə ağız-burnunu əyişdirdi. Yaşıl yaylıqlı qıza sarı baxdı. Baxışları toqquşdu. Qızın onu bu cür ağız-burnunu əyişdirdiyi yerdə gördüyündən qanı lap qaraldı. Qız baxışlarını qaçırmamışdı, yumşaq-yumşaq gülümsəyirdi. Yerini batıran uşağa böyüklər belə baxır. Yəni, ay səni, körpə...

Onu elə bil qıcıqlandırdılar. Kinayəli bir təbəssümlə üstdən aşağı qızı süzdü.Yəni körpə özünsən, bala, mən bu dünyada azdan-çoxdan görmüşəm.

Qız üzünü pəncərəyə çevirdi. Sifəti kölgələndi.

Qızı incitdiyinə görə özünə acığı tutdu. Gör ha, heç nədən xətrinə dəydi, həmişə gərək kəmhövsələlik eləyə, tfu!

Qız üzünü döndərib, gözünü vaqonda gəzdirdi.

O, hiss elədi ki, qızın baxışları bu saat kino kamerası kimi hər yanı gəzə-gəzə ona tərəf yönələcək. Tez özünü düzəltdi, qızın baxışlarını tutmağa hazırlaşdı. Baxışlar ona – hədəfə yaxınlaşanda fotoqraf qarşısında oturmuş müştəriyə oxşayırdı. Fotoqraf tərpənməməyi tapşırmışdı, tərpənsə şəkil pis çıxardı. Bax, hə.., belə dayan, gülümsə, belə, bu saat çəkirəm, bu saat. Çık, hazırdı. Dura bilərsən.

İkisi də dünyanın ən təmiz cavanları kimi gülümsədi. Bu baxışlarda daha hər şey var idi. Yaşanılmış günlərin günahsızlığından tutmuş, bir yerdə keçəcək günlərin gözəl olacağına kimi!

Daha məsələ həll olundu. Demək ölüm – yox, olum! O, gözünü çölə dikib üzünə qayğılı ifadə verdi. Axı "olmaq" dımdım halvası deyil ha! Bəzi cavanların düşündüyü və bəzi-bəzi romanlarda yazıldığı kimi təkcə öpüşmək, aylı gecələrdə sevişmək deyil ha. Bunun pal-paltar dərdi var, yemək-içmək dərdi var, uşaq ağlayan yuxusuz gecələri var.

Qız, deyəsən, onun qayğılarını başa düşmüşdü. Ona görə hərdən utancaq-utancaq gülümsəyirdi. Və hər gülümsədikcə çöhrəsi çirkinləşirdi. İndi elə bil sifəti lap kiçilmişdi, gözləri xırdalaşmışdı, hətta burnu belə uzanmışdı.

Daha həvəsi gəlmədi qıza baxmağa, gözünü qaçırıb yana baxdı. Və birdəncə bütün bədəni gizildədi. Uzunkirpikli qız düz onun gözlərinə baxırdı. Baxışları toqquşanda elə bil qızın baxışları onu geri itələdi. O nə qədər çalışsa da, gözlərini qaçırammadı, qızın baxışları onu tutub saxlamışdı. Beləcə baxışdılar. Axır o xoflandı ki, bəlkə qız heç ona baxmır, bəlkə fikrə gedib, ya onun arxasında kimsə oturub, – ona baxır? Yavaşca arxaya qanrıldı, baxılası elə bir adam yox idi. Təzədən qıza sarı döndü. Qız elə bil bu baxışları gözləyirdi. Şirincə gülümsəyib, yenə kitab oxumağa başladı.

O, hiss elədi ki, uçur. Get-gedə dünyadan uzaqlaşır. Uzaqlaşdıqca da xırda-xırım şeylər əriyib gedir. Hətta bayaqkı "olmaq" da eyninə gəlmir, yadına düşmür. Demək, bayaq uçmurmuş, bayaq yaşıl yaylıqlıya baxanda uçmurmuş. Sürünməklə uçmağı qarışdırıbmış.

Qız yenə baxmalıydı. Əgər yenə uzun kirpiklərini qaldırıb baxmasaydı, demək, onun bu dünyada qandığı heç nə yoxuymuş.

O, gözünü qızdan çəkmirdi. Qorxurdu ki, birdən qız başını qaldırıb onun baxmadığını görsə, inciyər.

Qız gözünü kitabdan ayırdı. Uzun kirpiklərini qaldırdı. Ağır-ağır... Elə bil kirpiklərilə dünyanı qaldırdı. Ha ki qaldırdı, ha ki baxışları qovuşdu.

Qızın baxışları yandırmırdı. Bu gözlərə sakitcə baxmaq olurdu. Qaynayan bulağa, yenicə çiçəklənmiş budağa baxmaq kimi... Amma o, baxışlarını çox saxlayammadı. Elə bil o gözlərdə, o çiçəklənmiş budaqda onun öz qorxusu gizlənmişdi. Bu qorxu onu nədənsə qorumaq üçün çox baxmağa qoymurdu. Amma yana baxan kimi, gözlərini çəkən kimi qorxu itirdi və baxışları elə həmin andaca ehtirasdan halsızlaşmış qadın tək özünü unudurdu.

Vaqonda get-gedə adamlar çoxalırdı. Qatar hər dəfə dayandıqca, minib-düşənlərin səsini eşitdikcə, qızın baxışları bu adamlara zilləndikcə, o, narahat olurdu. Əgər əlində ixtiyar olsaydı, vaqona heç kimi buraxmazdı, qatarı son dayanacağa qədər birnəfəsə sürdürərdi.

Arada yaşıl yaylıqlı qız yadına düşdü. Nə vaxtdı ona baxammamışdı. Baxdı. Və qızın gözlərindəki od onu yandırdı. Qız incimişdi ondan. Yəqin ki, incimişdi. Yəqin ki, bayaqdan ona göz qoyurmuş, o qızın uzun kirpiklərinin qabağında necə əzilib-büzüldüyünü gördükcə lap nifrət eləyirmiş.

Hı.., gör ha, boşca yerdən özünə nifrət elətdirdi. Qızın buna haqqı da var. Sözsüz, var! O da qızın yerinə olsaydı, nifrət eləyərdi. Bayaq uzunkirpikli yoxuydu, onda mən şiriniydim. İndi o var, daha nəyinə lazımam? Aldım,

aldatdım. Doğrudan da, belə çıxır... Uzunkirpikli heç vecinə də almırdı onu. Elə bil vaqonda o adda adam yoxuydu. Sonra gördü yaşıl yaylıqlı baxır, başladı o da fikir verməyə: baxırlarsa, maraqlanırlarsa, demək, nəsə var bu adamda, maraqlanmağa dəyər.

Yox, yəqin ki, elə deyil. Uzunkirpikli rəqiblik həvəsinə düşməyib. Sadəcə, xoşu gəlib ondan. İndi bir az gec maraqlananda nə olar?!

Yaxşı, bəs indi neyləsin? Yaşıl yaylıqlını vecinə almasınmı? Yox, bu da insafdan deyil. Heç insafdan deyil!

İşlər gör necə dolaşdı?! Zalımın balası əvvəldən daş kimi oturmasaydı, vaxtında tərpənsəydi, belə də olmazdı.

Yenə özünü saxlaya bilməyib uzunkirpikliyə baxdı. Ancaq ürəklə baxammadı. Yaşıl yaylıqlının gözləri onu rahat qoymurdu. Elə bil onu salmışdılar qəfəsə, hamını da yığmışdılar tamaşasına. Özü də tək qəfəsdə işıq yanırdı. Dörd tərəf də qaranlıq. Qaranlıqda da gözlər. Gülünc olduğunu sezdirməmək üçün qəfəsdəki adamın bircə çarəsi varıydı – gözünü yummaq. Özünü elə göstərmək ki, güya heç nə vecinə deyil.

O da bu çıxış yolunu seçdi. Həm qızların ürəyinə toxunmamaq üçün, həm öz ürəyini ağrıtmamaq üçün söz verdi ki, daha heç hansına baxmayacaq.

Amma baxmamağa da ürək lazımıydı. Nə qədər fikrini yayındırmağa çalışırdısa da, qızlar başından çıxmırdı. Gördüyü heç nə fikrini tutub saxlamırdı. Gözünü bayırdan çəkəndə də ancaq yerə baxırdı. Vaqonun içinə, ya kiməsə baxmağa qorxurdu. Qorxurdu ki, qızlar başqa şey fikirləşər. Çünki kino kameralarını öz üstündə hiss eləyirdi. Ona görə hara baxsa da, bütün görkəmi, duruşu, təbəssümü ancaq obyektivdə pis görünməmək üçün idi.

Amma bir ara dözmədi, baxışlarını çöldən oğurlayıb, altdan-altdan qızlara baxdı. Və duruxub qaldı. Qızların heç biri ona baxmırdı... Nə oldu görən, bunlara, birdəncə, özü də belə tez onu unutdular? Belə də şey olar?! Sonra o, hiss elədi ki, qızların ikisi də eyni yerə baxır. Baxdıqları da nə daşdı, nə torpaq. Belə çiçəklənmiş baxışlar ancaq kişiyə dikilə bilərdi. O, bu baxışların səmtini, süzülüb getdiyi yeri öyrənmək üçün çönüb arxaya baxdı. İki-üç skamya arxada gözəl bir oğlan oturmuşdu.

Bum, bum... Demək, hal-qəziyyə beləymiş. Onu soyuq tər basdı. Elə bil kimsə onu aldatmışdı: söz vermişdi, and içmişdi və birdəncə aldatmışdı.

O, yerində bənd alammırdı. Növbəti dayanacaqların birində düşməkdən özünü zorla saxlayırdı. Qızlarınsa ondan xəbəri yoxuydu. Gözləri elə bil baxdıqları yerdən su içirdi: iriləşirdilər, şirinləşirdilər, gözəlləşirdilər. Amma yaşıl yaylıqlının gözündə bir az kədər də var idi: gözləri böyüdükcə bu kədər də böyüyürdü. Yaşıl yaylıqlı, deyəsən, belə bir gözəl oğlanın ona fikir verəcəyinə çox da inanmırdı.

Hə, demək belə-belə işlər. Sağ olun, çox sağ olun! Bu onun adamlığı; istəmədi heç hansının ürəyinə toxunsun, xətrinə dəysin, ancaq onların vecinə də gəlmədi. Nə olar, sağ olsunlar... Özünü sakitləşdirməyə çalışdı. Bunun üçün əvvəl dünyanı söydü, dünyadakı adamları söydü, bu adamlardan ikisini lap canı-dildən söydü. Bundan kar aşmadı. Özünü çəkib qoydu dağın başına, başladı dünyaya naz eləməyə, dünyaya yuxarıdan aşağı baxmağa, sonra dünyanın adamlarına yuxarıdan aşağı baxdı, bu adamların ikisinə lap yuxarıdan aşağı baxdı. Amma yenə ürəyi toxtamadı. Oğlanın öz kamerasını kimə tuşladığını görmək üçün tambura çıxıb siqaret yandırdı.

Oğlan qızların ikisinə də baxırdı. Ayağını ayağının üstünə aşırıb, arxayın-arxayın ikisinin də üzünə gülümsəyirdi. Elə bil qızlarla bir stol arxasında oturmuşdu və onlarla çoxdan idi ki, tanışdı. Üçlük arasındakı bütün münasibətlər də gün kimi apaydın idi. Ona görə baxışa və hərəkətə fikir vermək lazım deyildi, onsuz da məlumdu ki, kimlə kimin arasında nə var, nə yox.

Bayaq yenicə tambura çıxanda arıq, bığlı bir oğlanın uzunkirpikliyə baxdığını sezsə də, buna fikir verməmişdi. İndi bığlının hələ də qızdan gözünü çəkmədiyini hiss elədi. Bığlı elə bil bu boyda vaqonda uzunkirpiklidən savayı heç kimi görmürdü. Gözləri ondaca mıxlanıb qalmışdı.

Ay səni, bığlı bəy, Allah sənə səbir versin, sənindəmi könlündən keçir?.. Nədənsə, birdən ürəyinə damdı ki, bığlı oğlanın belə diqqətlə baxdığını uzunkirpikli də bildi. Özü də elə bu an bildi. Buna da səbəb o oldu. Çünki bunu fikrinə gətirdi.

O, siqareti söndürüb yerinə qayıtdı. Hələ qızlara baxmamışdan hiss eləmişdi ki, gözəl oğlan şit təbəssümü ilə onları bezikdirib. Uzunkirpikliyə baxanda düşündüyünə inandı: qız kefsiz-kefsiz pəncərədən çölə baxırdı. Ancaq yaşıl yaylıqlı gözünü oğlandan çəkməmişdi, di gəl bu gözlərdə indi, azacıq da olsa, ümid yox idi.

O, yaşıl yaylıqlını yenə özünə cəlb eləməyə çalışdı. "Obyektivin" görüm sahəsinə düşmək üçün gah pəncərəyə baxdı, gah skamyada bir az o tərəf-bu tərəfə sürüşdü, amma nə xeyri? Qız bircə dəfə ona baxdı, daşa necə baxırlarsa, eləcə baxdı; kameranı hərləyib heç onun üstündə saxlamadı da.

Onu od götürdü, yanıb-yaxıldı. Ax, nə ola araları düzələ, ondan sonra özü bilər neyləyər, lap atasına od vurar, elə toy tutar ömrü boyu dadı damağından getməz!

Növbəti dayanacaqda uzunkirpikli ayağa durdu. Heç kimə baxmadan şux yerişlə vaqondan çıxdı. Qızın arxasınca bığlı oğlan da durdu. Qatar tərpəndi. Vaqon keçib-gedəndə bığlı oğlanla qızı bu dəfə yanaşı addımlayan gördü. Gözdən itirənə kimi baxışlarını onlardan çəkəmmədi. Və nədənsə, onların bir yerdə addımladığına təəccüblənmədi.

İki dayanacaqdan sonra yaşıl yaylıqlı qız da düşdü.

O, heç yaşıl yaylıqlının arxasınca baxmadı da. Bir xeyli key kimi vaqonun pəncərəsindən çölə baxdı. Gözünü qaçırıb içəri baxmağa ürək eləmirdi. Axır ki, çevrildi, həvəssiz-həvəssiz bütün vaqonu gözdən keçirdi. Vaqonda bir dünya adam varmış. Bu çoxluğu, bu çöhrələri indi görməsi ona qəribə gəldi. Soyuq baxışlarını bir ara gözəl oğlanda saxladı. Oğlan önündə oturmuş bir kişilə ləzzətlə laqqırtı vururdu.

İstədi durub başqa vaqona keçsin. Ancaq hər şeyi təzədən başlamağa nə həvəs var idi, nə də vaxt. Qatar şəhərə çatırdı.

Bəs şəhərdə neyləyəsidi?

Fikirləşməyə həvəsi gəlmədi. Evdən çıxanda bu haqda düşünməmişdi, indi də lazım bilmədi. Əvvəldən düşünməyin nə mənası? Qatarı yolundan çıxartmayacaq ha. Qoy çatsın sonuncu dayanacağa, ondan sonra fikirləşməyə vaxt çox olacaq.

Hələ ki, qatar gedirdi...

# ARALI QAPI

Onlar tini buruldular. Kişi çamadanı o biri əlinə alıb, başı ilə işıqlı pəncərəni göstərdi:

– Bu evdi.

Qadın arxasınca gəlirdi. İri əl sumkasını qoluna keçirmişdi, o biri əlində tor zənbil tutmuşdu.

Kişinin göstərdiyi səmtə baxıb təəccüblə dedi:

– Evdən işıq gəlir ki... Axı açar səndə idi.

Kişi qadına sarı döndü:

– Açarın biri ev yiyəsindədi, bilir ki, bu gün gələcəyik.

Onlar həyətə girdilər. Həyət çox kiçik idi, bir-birinə bitişən evlərdə üç ailə yaşayırdı.

Kişi çamadanı yerə qoydu, açarı çıxardıb qapını açdı. Azca aralanmış qapıdan düşən işıq zolağı it kimi onun ayaqlarına döşəndi.

Kişi çamadanı götürüb içəri keçdi. Otağın ortasına qədər gedib dayandı, çamadanı yerə qoydu.

– Həə.., necə evdi, xoşuna gəlir? – Zorla gülümsədi.

Qadın hələ də çəkinə-çəkinə qapının ağzında dayanmışdı. Bayaqkı işıq zolağı üzünün bir tərəfini tutmuşdu. Üzündən nigarançılıq oxunurdu. Cavab vermədi. Otağa adlayıb aralı qalmış qapının yanında divara söykəndi.

Kişi təkotaqlı evə göz gəzdirib qadına baxmadan dedi.

– Qapını ört.

Qadın heç nə eşitmirmiş kimi hərəkətsiz dayanmışdı. Sonra kişinin sərt baxışlarını üzündə hiss eləyib bayıra baxa-baxa qapını örtdü. Qorxa-qorxa örtdü. Elə bil qapını örtüb kişi ilə bu evdə tək qalmaq onu qorxudurdu.

Balaca, rahat bir otaq idi. Və iki nəfərin yaşaması üçün burada hər şey vardı: qaz pilətəsi, stol, üç stul, bir çarpayı, bir də şkaf. Yorğan-döşək hələ açılmamışdı, bükülüb çarpayının bir tərəfinə qoyulmuşdu. Şkafın yanında yerləşdirilməmiş qab-qacaq gözə dəyirdi. Qapı döyüldü, sonra astanada ev sahibi göründü. Alçaqboylu, dolu bir kişi idi.

– Xoş gəlibsiniz!.. Yaxşı rahatlana bildizmi? – qadına tərəf boylandı. – Bəlkə bir şey lazımdı, qabdan-qaşıqdan, çəkinib eləməyin...

Kişiyə kişi cavab verdi.

– Sağ olun... hələ ki, bir şey lazım deyil, lazım olsa, deyərik.

– Əlbəttə, elə də lazımdı. Mən də sizin qardaşınız, heç vaxt utanmayın, – yenə qadına tərəf boylandı. – Utananın, deyiblər, oğlu olmaz. – Qapıdan çıxa-çıxa, şit-şit gülümsədi.

Ev sahibinin otağa gəlməsi kişini yüngülləşdirmişdi. Pencəyini çixarıb asılqana keçirtdi, özünü səliqəyə saldı, pəncərəni açdı.

Payız təzə girsə də, hava soyuq idi. Bu soyuqluqda xoşagələn bir təmizlik də vardı.

Kişi jaketinin ətəyini çəkdi, qadına baxdı:

– Sənə nə olub?

– Heç... nəsə narahatam, qorxuram.

Kişi qadının nədən qorxduğunu hiss eləyirdi, ancaq bu haqda danışmaq istəmirdi.

– Qorxursan ki, dolanammıyaq?! Şükür Allaha, iki əlim, iki ayağım var, bir parça çörək qazanmağa, ailə dolandırmağa gücüm çatar...

Qadın tez dilləndi:

– Yox, yox, elə düşünmə, mən ondan qorxmuram, hər halda, mən də işləyəcəyəm. Ancaq ... – Nə qədər pis olsa da, qadın bəzən ürəyindəkiləri gizlətmirdi. – Qorxuram peşman olasan, incimə, bilirəm, sən bunu büruzə verməzsən... Belə yaşamaq mənə ölümdən pisdir.

Kişi çarpayıda oturdu.

– On yeddi yaşında deyiləm ki, gündə bir fikrə düşüm. Mən hər şeyi götür-qoy etmişəm, hər şeyi...

– Bəs atan, anan?.. Axı onlar da sənin xöşbəxtliyini istəyir, mən heç vaxt sənə ata-anandan əziz olammaram.

Atasının hirsli-hirsli dediyi sözlər hələ də onun qulağındaydı: "Otuz yaşına kimi gözlədin ki, ərdən çıxmışın birini alasan?! Qonum-qonşunu üstümüzə güldürmək istiyirsən hə?.. Mən qoymaram bu evə eləsi gəlsin, qoymaram. Əgər məni saymırsan, get evlən, harda yaşayırsan yaşa, ancaq bu evə gəlmə".

...Kişi əlini saçlarının arasına saldı.

Köks ötürdü:

– Hə, elə mən də xöşbəxt olmaq istiyirəm. Hamı öz atında, ancaq eyni yerə gedir.

Qadın onun ağarmış gicgahlarına baxdı: "Görən, inanırmı ki, həmişə onu sevmişəm, həmişə, neçə il qabaq da..."

– Sən əvvəl belə cürətli deyildin, yoxsa hər şey yaxşı olardı. Mən də qarşında gözükölgəli dayanmazdım... Bir söz də deməmişdin, eyham da vurmamışdın...

Kişi bu haqda danışmaq istəmirdi. Keçənləri yada salmaq nəyə lazımdı? Onsuz da olan olmuşdu.

Ayağa durub siqaret yandırdı. Tüstüsünü acgözlüklə sinəsinə çəkdi:

– Qurtar bu söhbəti.

Qadının baxışlarındakı narahatçılığa bir az da qorxu hopmuşdu:

– Sənin üçün çətin olacaq, sənin üçün...

Ani olaraq kişinin beynindən keçən fikir onu əsəbiləşdirdi: "Əgər onun da mənə yazığı gəlirsə, demək, doğrudan da, axmaq iş tutmuşam".

Qadını sancmaq üçün ürəyində qarşısıalınmaz bir arzu doğdu, hirslə əlindəki siqareti yerə atdı.

Qadın həssas idi. Kişinin dediyi sözlərə peşman olduğunu hiss elədiyindən, incimədi. Yadına nəsə düşdü, gülümsədi:

– Bilirsən, anam sənin haqqında eşidəndə elə sevindi ki. O fikirləşirdi ki, daha məni çətin alan olar.

Anası, doğrudan da, buna inanmırdı. Hər dəfə qaytarılmış cehizin yığıldığı otağa girəndə arvadı od götürürdü:

– Nə olacaq sənin axırın, a bala? Sən niyə belə bəxtsiz oldun?!. Dörd ay da gəlinmi saxlayarlar, ay köpəy oğlu, aşnan varıydı, uşağın varıydı, daha qızı niyə bədbəxt eləyirdin!.. Belə də dərdmi olar göstərdin, ay Allah, nə iş tutmuşuq?.. Səni indi kim alacaq, ay bədbəxt qızı, ay bəxtiqara...

Kişi təzədən siqaret yandırdı. Barmaqları xəfifcə titrəyirdi:

– Elə şey var ki, onu gərək deməyəsən.

Qadın əllərini qoynuna qoymuşdu. Bayıra baxırdı:

– Yağış yağır...

Kişi də pəncərəyə sarı çevrildi. Üşürgələndi.

– Hə, yağır...

Pəncərədən içəri tökülən yağış damcıları otağın işığında nöqtə-nöqtə parıldayırdı.

Qapı açıldı. Balaca bir uşaq içəri girib, əlindəki nimçəni utana-utana stolun üstünə qoydu:

– Anam göndərib, nuş olsun!

İkisi də gözünü nimçəyə dikmişdi, ikisi də eyni hissi keçirirdi. Elə bil ki, yad bir yerdə yad adam idilər və qatarda olduğu kimi, durub indicə hərəsi bir yana gedəcəkdi.

Qadın bu hissi yox eləmək üçün, bu evin sahibəsi olduğuna inanmaqdan ötrü çaydanı götürüb qaz pilətəsinin üstünə qoydu.

Kişi bayaqkı incikliyi unutmuşdu. Başını qaldırıb qadına baxdı. Onun biçimli ayaqlarına, ətli qollarına, açıqda qalmış gözəl boynuna baxdı. Fikirləşdi ki, bu saat, bu dəqiqə o qollara toxuna bilər, azca yana əyilmiş o boynu öpə bilər. Və bunun üçün qadın ona heç nə deməz.

Bu hissi keçirmək kişiyə o qədər xoş gəldi ki, özünü saxlayammayıb qadını sinəsinə sıxdı.

Qəfil təmasdan qadın diksindi. Çevrilib qapıya baxdı.

Uşaq qapını açıq qoymuşdu.

Qadının gözlərində utancaq bir təbəssüm yanıb söndü.

"Görən olmadı ki?!"

Oğurluq üstündə tutulmuş kimi, kişi də gülümsədi.

Aralı qapıdan qonşunun eyvanı, bir də məhəccərli pilləkən görünürdü. Kimsə su kranını bağlamağı unutmuşdu. Suyun həzin şırıltısı otaqda da eşidilirdi... Onların unuda bilmədikləri, bir-birlərindən ayrı yaşadıqları keçmiş kimi.

Ancaq bu keçmişi unutmaq lazım idi. Yoxsa bir yerdə yaşamaq çətin olacaqdı. Hər ikisi bunu başa düşürdü.

Kişi qapını örtdü.

# ƏCLAF

Əvvəlcə gileylənirdi, kömək eləmirsiniz, deyirdi, adam ha deyilsiniz, camaat dükan işlədir, mal gətirəni bir başqa, satanı bir başqa, mən ayağımı bir addım kənara qoya bilmirəm, məcburam bağlayam, onda da çöldəkini içəri daşı, sonra gəl içəridəkini çölə daşı, belə də alvermi gedər; sonra minnət qoyurdu, mənə nə var e, deyirdi, mənim dolanışığıma çatır, mən siz bədbəxtlərdən ötrü deyirəm, avara-avara gəzincə, gəlib beşdən-üçdən qazanardınız, siqaret pulunuzsa çıxardı; axırda da yanıyırdı, özünüz bilərsiniz, deyirdi, cəhənnəmə gəlin, gora gəlin, gəlməyib kimə ziyan eləyəcəksiniz, başa düşürəm, indi qışdı, pəncərənin şüşəsi yox, yer beton, ancaq belə qalmayacaq ha, yavaş-yavaş ağzı-burnu yığılacaq, indi də heç düzəlməsin, bunun yazı var, yayı var, bir dənə də qatlanan çarpayı alıb atacam bura, istəsən lap gecəni də qal, onda burdan əl çəkməyəcəksiniz, böyür-başıma keçəcəksiniz, ilan dili çıxaracaqsınız, heç darıxmayın, o vaxt mən də deməyə bir söz taparam…

“Adam olmayanların” sırasında mən də varıydım.

Boş vaxtım bircə bazar günüydü, onda da gərək ortaya başqa iş çıxmayaydı, üstəlik, hava xoş olaydı, yoxsa bu soyuqda bir yerdə durmaqdan gömgöy kəsilirdin.

Ancaq, doğrudan, qabaqdan yay gəlirdi, iki ay tətildə, Salman demiş, bir az pul qazanmaq ziyan eləməzdi, evdən bir bəhanə tapıb, hərdən burada gecələmək fikri də adamın içini indidən qıdıqlayırdı.

Ona görə Salmanın köntöy sözlərinə baş qoşmurdum. Susurdum, çox dirənəndə də mızıldayırdım ki, dərslərimi çatdıra bilmirəm.

Salmanın buna da cavabı hazırıydı: "Ə, dərs oxuyan olsanız, vallah, heç özüm sizi bura yaxın qoymaram. Qırımınızdan görürəm nə yuvanın quşusunuz. Canınıza əziyyət vermək istəmirsiniz. Sabahını düşünən adam zəhmət çəkər bir az tez durar, bir az gec yatar: "Öyrəşibsiniz ata-ana əlinə baxmağa, qarnınızı doyuzdursunlar, qəpik-quruş versinlər, siz də gününüzü keçirəsiniz".

Bu gedişlə, deyirdi, axırınız nə olacaq, guya institut qurtaranda birdən dönüb başqa adam olacaqsınız?! Özünüzü aldatmayın, xeyri yoxdu, indi zibilsiniz, oxuyub qurtaranda da əclaf olacaqsınız.

Salmanın sözlərinə sonra öz aramızda gülürdük.

Öz aramızda ona ad da qoymuşduq: "köntöy Salman".

Qarabağa könüllü gedəndə xalam vay-şüyən qoparırdı, fikrindən daşındırmaq üçün özünü xəstəliyə də vurdu.

Bizsə Salmana qəhrəman kimi baxırdıq. Beş-altı aydan sonra yaralanıb qayıtdı.

Bir az xəstəxanada yatdı. Sonra xalam kağız-kuğuz düzəltdi, döymədiyi qapı qoymayıb, axır birtəhər bu dükan yerini aldı.

Xəstəxanadan çıxanda biz Salmanın özündən çox, onun müharibə haqqında xatirələrini gözləyirdik.

Ancaq elə bil mərminin yeli vurub başından yaddaşını da aparmışdı.

Bir kəlmə də müharibədən danışmırdı, çox üz vuranda da hirslənirdi, belə, deyirdi, ürəyiniz atlanır, çox bilmək istəyirsiniz, əl-qolunuzu tutan ha yoxdu, gedin öz gözünüzlə görün.

Bazara bitişik olsa da, dükan görünən yerdə deyildi, ona görə alver yaxşı getmirdi.

Bunun o qədər dəxli yoxdu, Salman razılaşmırdı, babat malın ola, böyür-başdakılardan da ucuz verəsən, gör nə həngamə qopar, müştəri əlindən dizini qatlayıb bir hovur otura bilməzsən. Sonra başlayırdı planlar qurmağa, bu planların da başı axırda gedib pula dirənirdi.

Bir az pul yığsa, pəncərələrə şüşə saldıracaqdı, yerə taxta döşətdirəcəkdi, mal dalınca getmək üçün alababat maşın isə, bu, bir az qəliz məsələydi, çox sonraların işiydi. Əsas məsələ dükanı səliqə-sahmana salıb, bir satıcı götürməkdi.

Onda bu yırtıqxana, doğrudan, əməlli-başlı dükan olacaqdı, o da əməlli-başlı tacir.

Əli cibində axtarıb-tapıb malını gətirəcəkdi, satıcı da bir ucdan xırıd eləyəcəkdi. Onda, ən başlıcası, biz kimi düdəmələrə də möhtac olmayacaqdı.

Ancaq Salmanı öz planlarından peninə-boluna ləzzət almağa qoymurdular. Pul-para, ya nəsə qoparmaq üçün dükana edilən növbəti "basqından" sonra, bir gün əvvəlin sözləri yadından çıxırdı. Dükanı da söyürdü, onu dükana ürcah eləyəni də, öz gün-güzəranını da.

Ə, belə şey olar, deyirdi, belə yaşayış olar, bunun biri gəlsin, ikisi gəlsin, hər yetən dürtülür bura, guya dədələrinə borcum var, guya bank üstə oturmuşam, qazansam, elə dükanı abıra salaram da, qəpik-quruşdan ötrü daha bütün günü it kimi sitilləmərəm burda.

Çox vaxt arxalarınca danışırdı, üzdə yatımına gedirdi, çalışırdı birtəhər yola salsın. Neyləyim, deyirdi, əlacım nədi, bunlardan nə desən çıxar, gecəynən yandırıb bir qəzet atsa içəri, kimə şikayət eləyəsiyəm.

Dükana bir qarın çörək üçün gələnlər də varıydı.

Onlara Salman darılmırdı, bəzilərinə pul verirdi, bəzilərinə ayın-oyun. Feyzi kişiyə isə artıq üz-gözümüz öyrəşmişdi. Balaca, arıq adamıydı, altmış-altmış beş yaşı olardı.

Əynində əsgər kürkü, başında əsgər papağı gəlib dinməz-söyləməz tok peçinin böyründə otururdu, hərdən Salmanın naharına da ortaq olurdu.

Feyzi kişi Qarabağ qaçqınıydı, müharibədə bütün ailəsini – oğlunu, gəlinini, iki nəvəsini itirmişdi.

Gününü bazarda keçirirdi, kimisinə su gətirirdi, kimisinin malını daşıyırdı, əvəzində heç nə istəmirdi, ancaq nə versəydilər də götürürdü. Salmanın Qarabağda döyüşdüyünü bilirdi, bəlkə elə ona görə dükana tez-tez gəlirdi.

Bir dəfə istədi söhbətə də çəksin, ondan hansı tərəfdə vuruşduğunu soruşdu. Salman tezcə mızıldadı ki, siz tərəfdə olmamışam. Ondan sonra daha bu mövzuya qayıtmadılar.

Feyzi kişinin bir dəfə üzünün güldüyünü görmüşdüm.

Eşidəndə institutda oxuyuram, maraqlandı ki, qurtarıb nə olasıyam. Mənim əvəzimə Salman cavab verdi: qurtarıb, dedi, əclaf olacaq. Kişi onda xırda-xırda güldü, gülə-gülə də, elə danışma, dedi, ağıllı oğlana oxşayır.

Onun güldüyünə görə ilk dəfəydi Salmandan inciməmişdim.

Qış imtahanları vaxtı, Salmanın qılığına girmək üçün, dükana, az qala, hər gün gəlirdim.

Kitab-dəftərimi qoltuğuma vururdum, günorta evə qayıtmağın dərdindən özümlə yemək də götürürdüm. Dükanda qaraltı eləyirdim, Salman da lazım olanda rahatca orabura gedə bilirdi.

Bir gün yenə Feyzi kişi gəlib sakitcə peçin böyründə özünə yer eləmişdi.

Mən də Salmanın atmacalarını qulaqardına vurub dərsimi oxuyurdum.

Feyzi kişi getmək üçün qalxanda, Salman götürüb sellofan torbaya ayın-oyun atdı ki, onu boş yola salmasın. Ancaq əli uzanılı qaldı, Feyzi kişi pul istədi.

Salman duruxdu:

– Pulu neynirsən? – dedi.

Feyzi kişi dilini sürüdü:

– Lazımdı.

– Nəyinə lazımdı?

– Lazımdı…

Salman dönüb mənə baxdı. Üzündə qəribə ifadə varıydı. Guya Feyzi kişi heç nədən onu təhqir eləmişdi.

– Pul sənin nəyinə lazımdı?!

Feyzi kişi daha dillənmədi. Eləcə büzüşüb durmuşdu.

Salman bir yerdə dayana bilməyib vurnuxdu. Sonra gəlib yenə düz Feyzi kişinin qabağında dayandı. Torba hələ də əlindəydi.

– Sən axı niyə yaşayırsan! – Pıçıltı ilə dedi. Mən qorxdum ki, o, bu saat ağlayacaq.

Onu sakitləşdirmək üçün nəsə mızıldadım. Ancaq Salman məni eşidəsi halda deyildi.

– İndən belə yaşamağının nə mənası?! Təzədən oğulmu tapacaqsan, ailəmi quracaqsan, yurdmu salacaqsan?! Sən axı niyə ölmürsən, kişi!

Feyzi kişi başını da qaldırmadı. Ayağını sürüyə-sürüyə çıxıb getdi.

Mən yenə dinc dura bilmədim:

– Heç yaxşı eləmədin, qoca kişidi…

O, bayaqkı hikkəylə üstümə qışqırdı:

– Sən də mumla, – dedi, – hamısı mənim üçün yaxşı adam çıxıb, qanacaqlı çıxıb. Xoşun gəlmir, dur, sürüş burdan.

Mən də durub, kitab-dəftərimi yığışdırıb "sürüşdüm". Ancaq üç-dörd gündən sonra heç nə olmamış kimi qayıdıb gəldim.

Bir axşam sahə müvəkkili qapının ağzında peyda oldu. Salman o saat cibini eşələdi. Amma sahə müvəkkili demə başqa şeyə gəlibmiş. Feyzi kişinin şəklini göstərdi.

Məlum oldu ki, səhər-səhər bazardan meyitini tapıblar, indi ünvanını axtarır. Bizdən də bir şey öyrənə bilməyib getmək istəyəndə, gözü Salmanın əlindəki pula sataşdı.

– Deyəsən, pul vermək istəyirdin, – dedi, – utanma, ver gəlsin.

Salman mənə baxdı:

– Böyüyəndə nə olacaqsan, ə?

– Əclaf olacağam, – dedim.

Salman gülümsədi:

– Ay sağ ol. Pul bu dəfə sənə çatır.

Və mən onun verdiyi pulu götürmək üçün əlimi uzatdım.

## YAXŞI OĞLAN

Onu üzünə tərifləyəndə, həmişə özü-özündən xoflanırdı, içində bir etiraz qaynayırdı, elə bilirdi, onu dolayırlar, başını aldadırlar, istəyirdi qarşısındakını sancsın, necəsə incitsin, xətrinə dəysin. Bu hiss ona hələ məktəbdə oxuyandan tanışıydı. Oğlanlar varıydı, işləri-gücləri qızlara sataşmağıydı. Gündə birinə eşqnamə oxuyurdular, küçədə eşitdikləri şit-şit söhbətləri onlara danışmaqdan ləzzət alırdılar. Belələrinə qızlar, həyasızdı, deyirdilər, pis oğlandı, deyirdilər. O isə qızların gözündə yaxşı oğlanıydı, tərbiyəliydi, qanacaqlıydı. Ancaq orası varıydı ki, elə oğlanlarla qızlarınki tuturdu, elələrinnən darıxmırdılar, "həyasızdı" deyə-deyə yenə gedib çənələrinin dibini kəsdirirdilər, üçü bir yerə yığışanda da söhbətləri onlardan olurdu. Belə görəndə, heç kimin yadına düşməyəndə, hərdən-hərdən onun da ürəyindən pis oğlan olmaq keçirdi.

O vaxtdan xeyli sular axmışdı. Artıq ailəsi, uşağı varıydı, saçını ordan-burdan ağartmışdı, müvəqqəti saya-saya iki ildi nəşriyyatda korrektor işləyirdi və çoxu qız-gəlin çalışan, müvəqqəti saya-saya isnişdiyi bu korrektura şöbəsində də, görünür, onun xətrini istəyirdilər, yaxşı oğlan bilirdilər,

elə yaxşı oğlan idi ki, hətta ürəyinin ən məhrəm sözünü də ona deyən tapılırdı.

Otaqda altı nəfəriydilər. İki-iki otururdular, biri hündürdən əlyazmanı oxuyurdu, o biri korrekturanı yoxlayırdı. Ona görə bu balaca otaq həmişə səsli-küylü olurdu, ancaq səs-küydən çox onu beş qadının içində oturmaq bezdirirdi. Elə bil iynə üstündəydi; nə dedi, necə oturdu, nə geyinib, kimə baxdı, necə baxdı – gərək hər hərəkətini, hər sözünü ölçüb-biçəydi, baxışlarını özbaşına buraxmayaydı ki, gedib camaatın ora-burasında xumarlana. Onun qaraltısı da qadınları çox əl-ayaq açmağa qoymurdu, hərdən gözləri onda ola-ola pıç-pıça keçəndə qanırdı ki, otaqda artıq adamdı. Ancaq pıç-pıça qədər danışılanlar bəs eləyirdi, otaqdan çıxmaya-çıxmaya nəşriyyatın dəhlizlərində dolaşan iş yoldaşlarının künc-bucaqda, ya nəşriyyatdan xeyli uzaqlarda nə hoqqadan çıxdıqlarından xəbərdar olsun. Yaxşı ki, otağın eyvanı varıydı, sərbəst olmaq istəyəndə siqaret çəkmək bəhanəsiylə bu eyvana çıxırdı, küçədən keçənlərə baxa-baxa gündəlik qayğılardan, müvəqqəti də olsa uzaqlaşıb, özünü baş tutan, baş tutmayan arzularının axarına buraxırdı.

Nərgizi ilk dəfə görəndə, ağlına gəlməzdi ki, həyatında nəsə dəyişəcək, onu bezdirən bu səsli-küylü otaq üçün darıxacaq. Qonurgözlü, sısqa, uzunboğaz, nəzər-diqqəti cəlb eləməyən cavanca bir qızıydı. Otaqdakılara yovuşmurdu, çox vaxt orda-burda büzüşüb, qarnınnan əlləşirdi. Bəlkə elə uzaqdan hiss olunan tənhalığı, fikirli gəzməyi onu çəkdi, ya da hər şey bir yerdə korrektura oxumaqdan başladı. İstər-istəməz hər gün hal-əhval tuturdular, işarası, ya eyvanda dayananda kəlmə kəsirdilər, nəsə soruşurdular, nəynənsə maraqlanırdılar, ona görə hər gün istər-istəməz

bir-birinin haqqında təzə bir şey öyrənirdilər. Əvvəl-əvvəl onun öyrəndiyi üzdə olanlarıydı; bilirdi, Nərgiz üç ildi Bakıdadı, kiçik qardaşınnan, telefonuna görə dözdüyü xəfə bir otaqda kirayədə qalır, universitetdə axşam oxuyur, hərdən verilişlər yazdığı radioya da qaçdığından, evə çatanda xurt düşür, daha onun gəzməyi, kinosu, teatrı – paltar yumaq, yemək bişirmək, ən yaxşı vaxtlarda da kitab, jurnal olur. Sonra yağış yağırdı. Sonra soyuqlar düşürdü, payız yarpaq-yarpaq ölürdü. Kiminsə işi çətinliyə düşürdü – o da bilirdi ki, Nərgiz özgə dərdinə biganə deyil, xeyirxahlıq görəndə kövrəlir, yaxşılıq eləyəndə utanır; bilirdi ki, Nərgiz yol getməyi, yağışa baxmağı, yol gedə-gedə fikirləşməyi xoşlayır; bilirdi ki, az qala, hər gün yuxular görür, intəhası, nə qədər çalışsa da, gördüyü yuxunu səhərlər yadına salammır. Elə bil əlinə təzə kitab keçmişdi. Macal tapan kimi istəyirdi götürüb oxusun, qəhrəmanın taleyindən xəbər tutsun, haqqında daha nələrsə öyrənsin və daha çox şey öyrəndikcə, maraq onu çəkib aparırdı, özü də unamadan hadisələrin iştirakçısına çevrilirdi, onunla bir yerdə sevinirdi, ağlayırdı, əzab çəkirdi. Günlərin bir günü isə gördü ki, Nərgiz onun üçün yad adam deyil, Nərgizin həyatını, yaşayışını gözüyumulu təsəvvür eləyə bilir, hətta yada salammadığı yuxularından da xəbəri var; onu da hiss elədi ki, irili-xırdalı qayğıların içində Nərgiz möhkəmcə darıxır, özünə yer tapammır, nəsə istəyir, nəsə axtarır və nəsə axtara-axtara, nəsə gözləyə-gözləyə bədbinləşir, ümidsizləşir, həyatından bezikir. Bu hal ona tanışıydı, bir vaxt o da nə üçün doğulduğu, yaşadığı barədə, həyat, ölüm, xoşbəxtlik barədə baş sındırmışdı, hamıda təmizlik axtarmışdı, tərsəməssəb suallarla özünü çox üzmüşdü. Onu da bilirdi ki, bu hal müvəqqətidi, ötəridi, qızılca kimi bu “xəstəliyi”

hansı yaşdasa keçirirsən, oddan, sudan adlayıb dünyayla barışırsan, gec-tez hər şeyi olduğu kimi qəbul eləyirsən. Elə bunları Nərgizə deyirdi, istəyirdi ona kömək eləsin, təsəlli versin, ümidsizliyin, düşkünlüyün ötəri olduğuna inandırsın. Bir ətrafına bax, deyirdi, hamı sənin kimidi, hərənin öz dərdi-səri var, öz qayğıları var. Heç kim qeyri-adi həyat sürmür, kimsə vur-tut o birindən bekara yaxşı dolanır. Evindəki mebel o birisininkindən bir az qəşəngdi. Gəzmək, görmək, dincəlmək imkanı bir az çoxdu; əgər sən bunları xoşbəxtlik sayırsansa, qibtə eləməyə dəyməz, çünki bunları hamı qazana bilər, bu, hamının öz əlindədi. Danışa-danışa da bir laqeydlik duyurdu. Hiss eləyirdi ki, sözləri ürəkdən gəlmir, içini qımıldatmır. Gözündə hamı cılızlaşırdı, mənasızlaşırdı, böyür-başında gördüyü elə bil ölü adamlarıydı, öz arzularını, istəklərini öldürmüş adamlar; kövrəlirdi, gözləri dolurdu, çünki o da bu adamlardan biriydi, arzularının heç mində birinə də çatmamışdı, heç vaxt istədiyi kimi yaşayammamışdı, özünü ağrıtmamaq üçün bacardığı arzulamamaq, arzusuz yaşamaq olmuşdu. Sən indi elə yaşdasan ki, deyirdi, hamını yaxşı görmək istəyirsən. Pisliyin üstündən keçə bilmirsən, yaxşı saydığın adamda pis bir şey tapan kimi bədbinləşirsən, ondan da, özündən də, dünyadan da zəhlən gedir, amma vaxt gələcək, pisdə yaxşı axtaracaqsan, o yaxşını tapanda sevinəcəksən, o adamı başa düşə biləcəksən. Nərgiz ona dinməzcə qulaq asırdı, onu eşidib-eşitmədiyini, onun keçirdiyi hissləri keçirib-keçirmədiyini necəsə sezdirmirdi, ona görə boş yerə danışdığını fikirləşib, bəzən həvəsdən düşürdü, yarı yolda söhbəti dəyişirdi, hərdən də zarafata salıb, məhəbbətdən söz açırdı, bədbinliyinin heç kimi sevmədiyindən olduğunu deyirdi. Nərgiz bircə bu vaxt bir az canlanırdı,

başını yırğalayırdı ki, heç bu haqda danışmağa dəyməz, o, heç kimi sevməyib, sevmir, sevməyəcək də. Belə sözlərə inanmırdı, ancaq onu sorğu-sualnan qısnamırdı da, indi bu cür danışırsan, deyirdi, hələ nə yaşın var, hələ nə görübsən, bir də gözünü açacaqsan ki, bir ağ atlı oğlan peyda olub, həyatını alt-üst eləyib, ürəyini ovlayıb, onda dünya da gözəlləşəcək, həyatın da; onda bu gün fikirləşdiklərini yadına salıb, özünə güləcəksən.

*İmkan tapdıqca altdan-altdan ona göz qoyurdum, onun zərif boynuna, boynundakı qara xalına, dolu nəmli dodaqlarına baxırdım, fikirləşirdim, görən, o, mənim haqqımda nə düşünür, ya heç nə düşünmür, qanıqara olanda, darıxanda məni gözünün qabağına gətirirmi?! Deyirdim, görəsən, hiss eləyirmi ki, zəhləm getdiyi işə tələsməyim, bu balaca, səsli-küylü otağa can atmağım, axır vaxtlar geyimimə, görkəmimə vasvasılıqla fikir verməyim ondan ötrüdü; ondan ötrü mən daha nəzakətli, daha səbirli, daha diqqətli olmuşam. Hərdən ağzından bilə-bilməzə elə söz qaçırırdı ki, nələrəsə inanmaq istəyirdim; bir də görürdün, guya filan qızla söhbət elədiyimə görə məni qısqanırdı, ya inciyirdi ki, o, işə gəlməyəndə niyə zəng çalmamışam, niyə narahat olmamışam. Bunlar yəqin adi sözləriydi, bəlkə belə sözləri yenə kimlərəsə deyirdi, ancaq mən özümlə bacarmırdım, uşaq kimi and-aman eləyirdim, özümü təmizə çıxarmağa çalışırdım və o gün bir yerdə bənd alammırdım, həmin sözün başına fırlanırdım, sözdən söz çəkə-çəkə uzaqlara gedirdim, görüşümüzü, ürəyimizi bir-birimizə açacağımız anı təsəvvürümdə düzüb-qoşurdum. Həmişə də ürəyini birinci o açırdı, ya elə şərait yaradırdı ki, mənə olan sevgisinə, azacıq da olsun, şübhəm qalmırdı; evli olmağım dilimi bağlayırdı. Başına fırlandığım o adi sözlərə uyub qabağa düşməklə aramızda olan pis-yaxşı mehribançılığı da itirəcəyimdən qorxurdum. İşə gəlmədiyim günün əvəzini çıxmaq üçün bəzi axşamlar qalıb, korrekturanı tək oxuyurdum. Həmin vaxtlar fikrimdə düzüb-qoşduğum ana lap yaxın olurdum. Deyirdim, əgər*

*mənim zəng eləməməyimdən inciyirsə, başa düşər ki, mən də onun zəng eləməməyindən, məni yadına salmadığından inciyə bilərəm. Hələ ağlıma lap dəli fikirlər gəlirdi, gözümün telefonda qaldığı bir yana, qulağım ayaq səsi arayırdı; hər şıqqıltıya diksinirdim, həyəcandan yerimdə oturammırdım. Ancaq özüm də bilirdim ki, əvvəlcə telefon zəngi olmalıdı. Heç nəyə dəxli olmayan bir söz, bir pıçıltı, "neynirsən", "kefin necədi", "o boyda binada tək qorxmursan ki" – mən hər şeyi onun səsindən hiss eləyəcəkdim, heç olmasa, inanacaqdım ki, mən yadındayam, onun üçün dünyada mən adlı bir adam var. Bax, ondan sonra gəlişi mənim üçün möcüzə olmayacaqdı, hər şıqqıltıya diksindiyim üçün ürəyimdə sonra özümə gülməyəcəkdim, onu görüş vermiş adam arxayınçılığı ilə gözləyəcəkdim; mən səbrimdən asılacaqdım, qapıyla pəncərənin arasında qalacaqdım, bilməyəcəkdim o içəri girəndə necə oturum: oturummu, başımı əllərimin arasınamı alım, pəncərədənmi baxım; bir də onu görəndə ilk-əvvəl nə deyəcəyimi kəsdirəmməyəcəkdim, onun qara gözləri, baxışı, özü nəsə başqa cür olacaqdı, heç mən də özümə oxşamayacaqdım, onu görəndə deyəcəyim söz də bu vaxta qədər dediyim sözlərə oxşamayacaqdı: onda, Allah bilir, bəlkə heç sözə ehtiyac da qalmayacaqdı.*

Bir dəfə Nərgiz gözünə çox həyəcanlı dəydi. Ətrafındakıları görmürdü, eşitmirdi, fikri hardasa uzaqdaydı. Yavaşca soruşdu, bəlkə evdə-eşikdə nəsə olub, kimsə xətrinə toxunub. Soruşa-soruşa da başa düşürdü ki, heç kim xətrinə toxunmayıb, heç bir bədbəxt hadisə olmayıb, nə olursa, indi olur, öz aləmində olur, çaşqınlıqdan çıxıb nəyisə birdəfəlik qət eləməyə çalışır. Nərgizin narahat aləmində o adlı adam yoxuydu – o, bunu qısqanclıqla, ağrıyla hiss elədi, elə bil onu aldadıb atmışdılar, ona qarşı haqsızlıq eləmişdilər. Ona görə ürəyi durmurdu, özünü necəsə yada salmaq, heç olmasa, dindirib-danışdırmaqla, fikrindəkiləri bilməklə, doğma adam kimi təsəlli tapmaq istəyirdi. Eyvanda ikilikdə

qalanda bir də bu söhbətə qayıtdı, görürəm axı, nəsə olub, dedi, niyə məndən gizlədirsən, bəlkə sənə köməyim dəydi, bir məsləhət verdim, yoxsa mənə inanmırsan?! “Mən sənə inanıram, hamıdan çox inanıram”, – bu sözləri pıçıldayanda da hələ dalğındı, elə bil nə elədiyini hələ də kəsdirəmmirdi, o uzaqlıqdan geri qayıdammırdı. Daha şübhəsi qalmadı ki, nə isə baş verib. Bu saat qeyri-adi bir söz eşidəcək və artıq tərəddüdlə: inanırsansa, danış, dedi. “Mən hiss eləyirəm ki, istəyə bilərəm”, – Nərgizin üz-gözündə həyəcanla utancaqlıq bir-birinə qarışmışdı. Yox, o, bunu gözləmirdi, unamışdı qeyri-adi bir şey eşidəcək, ancaq bunu gözləmirdi. Çalışdı zarafata salsın. Bu söhbətin ciddiliyinə inanmadığını nə təhərsə göstərsin: “Necə yəni, istəyə bilərəm, yoxsa sifarişnəndi?!” “Bilmirəm, yəqin, istəyirəm, – bir az duruxub, – hə, – dedi, – istəyirəm”. Demək, bayaq heç kimi eşitməyəndə, gözü heç kimi görməyəndə, elə bunun üstündə baş sındırırmış, axır ki, qət elədi, şübhədən çıxdı, son sözünü dedi. Bəs o nağıllar harda qaldı: sevmirəm, sevməmişəm, heç vaxt da sevməyəcəm. “O da səni istəyirmi,” – bu sualı verən adam, doğrudan da, artıq hər şeydən əlini üzmüşdü, ona, doğrudan da, məsləhət vermək, onu səhv eləməkdən qorumaq istəyirdi. “Deyəsən, istəyir, intəhası, o, evlidi”. Elə “deyəsən”, “evlidi” kəlmələrinə görə onu səhv eləməkdən qorumaq istəyən adam hirslənməliydi, qarşısındakını danlamalıydı, amma bir az əvvəlki adam qəfil peyda olduğu kimi, qəfil də yoxa çıxmışdı. “Evlidi, demək, evlidi”, – zorla mızıldandı. Daha heç nə düşünəmmirdi. Özünə gəlib toxtamaq üçün istədi nəsə eləsin; harasa çıxsın, gəzinsin, ya siqaret yandırsın, di gəl, əl-ayağının əsməcəsinnən bacarmırdı. “Mən axmağam, hə, gicəm?!” – Nərgiz düz onun gözlərinin içinə baxırdı. Elə bil nə hiss keçirdiyini, nə fikirləşdiyini tutmağa çalışırdı. Gözlərini yayındırdı, ancaq bilmirdi baxışlarını harda gizlətsin, əllərini axtara-axtara,

səsi titrəyə-titrəyə: “Niyə ki, olur, – dedi, – hər şey olur”. Nərgizin səsində məzəmmət sezdi: “Elə bilirdim, acığın tutacaq, məni danlayacaqsan, abrımı tökəcəksən”. Gərək ehtiyatlı olaydı, içini dolduran sevinci tez-tələsik büruzə verməyəydi. O, bu anı çox gözləmişdi, yuxularında, işdən sonra qaldığı boş otaqda vurnuxa-vurnuxa bu anı, bir-birlərini başa düşəcəkləri anı çox yaşamışdı. İndi hər şey fikirləşdiyi kimiydi, özü dilə gəlmişdi, birinci özü ürəyini açmışdı. Nərgiz hələ də gözlərini ondan çəkməmişdi; utancaqlıqla, narahatlıqla azca qıyılmış qonur gözlər onun nə deyəcəyini gözləyirdi. Yenə özünü saxladı, şübhədən bir yolluq qurtulmaq üçün cavabında nə eşidəcəyini bilə-bilə, bayaqdan beynində fırlatdığı sözü, axır ki, dilinə gətirdi: “O, kimdi, mən onu tanıyırammı?”

*Özümə heç belə yazığım gəlməmişdi, elə bil hamının qabağında döymüşdülər məni, yaxşıca əzişdirmişdilər, alçaltmışdılar, gözümün içinə demişdilər ki, mən heç nəyəm, heç nəyə dəymərəm. Başqa ad eşidəndə, tezcə üzümü əllərimlə qapadım ki, necə pörtdüyümü, gözlərimin yaşsız-filansız ağladığını görməsin. İntəhası, ola bilməzdi, danışığımdan, sir-sifətimdən haldan-hala düşdüyümü, ürəyimdən nələr keçdiyini duymamış olsun. Yəqin, indi onun da mənə yazığı gəlirdi, bəlkə, üstəlik, acığı da tuturdu, fikirləşirdi ki, yaxşılıqdan, xeyirxahlıqdan, adamlıqdan dəm vururdu, demə, hamısı hoqqaymış, ağlındakı tamam başqa şeymiş. Ancaq bunda pis nə varıydı ki! İstəyirdim o, məni sevsin, lap Nərgiz olmasın, kimsə məni sevsin, dünyadan, özümdən, adilikdən bezəndə, darıxanda sığınmağa, üz tutmağa bir yerim olsun, yadıma salım ki, kimsə bu saat məni arzulayır, məni görmək istəyir, bu saat hardasa, kimsə məni düşünür, dünyada mən ona hamıdan əzizəm, doğmayam. Axı bunda pis nə varıydı ki.*

Sonra avtobus basabasında fikirləşdi ki, daha hər şey qurtardı, daha telefon zəngi onu diksindirməyəcək,

səhərlərdən heç nə ummayacaq, axşamlar şöbədə tək-tənha qalmaq cəhənnəm əzabına dönəcək. Sonra onu da fikirləşdi ki, görən, öz adını eşitsəydi, həmin an nə deyəcəkdi, nə eləyəcəkdi. Yəqin xoşbəxtlik deyilən şeyi hiss eləyəcəkdi, indiyə kimi nələr keçirdiyini, onu necə gözlədiyini, ondan ötrü necə darıxdığını deyəcəkdi. Bəlkə də xoşbəxt-xoşbəxt susacaqdı, istədiyini almış adam rahatlığı ilə özünü qurudacaqdı; guya bu, onun üçün gözlənilməzdi, bunu heç ağlına da gətirmirmiş, yəqin hələ ona ağıl da verəcəkdi, deyəcəkdi, gəl gözləyək, hər şeyi beləcə də saxlayaq, elə bilək aramızda bu söhbət olmayıb, sən də öz ürəyinə qulaq as, yaxşı-yaxşı düşün, bəlkə ötəri bir hissdi, keçib-gedəcək, unudulacaq. Bəs sonra? Sonrasını beləcə düzüb-qoşa bilərdi, yəqin, hələ çox düzüb-qoşacaqdı da. Ancaq bir şeyi yaxşı başa düşürdü ki, bunların hamısı yalan olacaqdı və heç biri ürəyinə toxtaqlıq gətirməyəcəkdi.

# NİSGİL

Sabahın xeyir, Sadıq dayı, bəlkə üzümü qırxasan? Bir görüm başqası qırxanda necə olur…

Neçə günün leysan yağışlarından sonra bərk istilər düşmüşdü. Heç nəyə həvəs yox idi.

Taqətsiz, halsız uzanıb, bir udum meh həsrətiylə axşamı gözləyirdin. Ancaq gecənin gündüzdən elə bir fərqi yoxuydu. Bürkü sıxıb adamın suyunu çıxarırdı.

Səhərə kimi neçə dəfə tərin içində yuxudan ayılırdın.

– Ağıllı fikirdi. – Üzündə heç bir ifadə yoxdu. Süstlük, əzginlik var.

Sadıq dayı bizim məhəlləyə gələndə mən uşağıydım.

Köşkün altına iki tir vurub onu yoğun məftillə yük maşınına bağlamışdılar. Hardan hara, o boyda yolda iz sala-sala sürüyüb bu dördyol ayrıcına qoymuşdular.

Uşaqlı-böyüklü hamı köşkün başına yığışmışdı. Arvadlar sevinirdi ki, daha hər xırım-xırda üçün şəhərə qaçmayacaqlar.

Ancaq köşk dükan yox, dəlləkxana oldu. Yaşıl köşkə, başı həmişə dibindən tərtəmiz qırxılı, ağxalatlı Sadıq dayıya beləcə öyrəşdik.

O vaxtdan məhəllədə çox şey dəyişmişdi. Qonşular bir-birinin bəhsinə biri o birindən, heç olmasa, bir daş hündür ikimərtəbəli evlər tikdirmişdilər.

Uşaqlar böyümüşdü, gözümüzü açıb qoca gördüklərimiz ölmüşdülər, oğlanlar gəlin gətirmişdi, qızlar ərə gedib məhəllənin yolunu yadırğamışdılar, təzə peyda olmuş uşaqları isə adam düzəməlli tanıya bilmirdi.

Ancaq köşk həminki idi, ikimərtəbəli evlərin yanında lap balaca görünsə də, Sadıq dayı vaxtaşırı onun rəngini təzələyirdi, ora-burasına əl gəzdirirdi.

Elə Sadıq dayı da həminki idi: nə cavan idi, nə qoca, bəlkə də heç vaxt dəyişməyən ağ xalatı, dibindən tərtəmiz qırxılı başı adamı çaşdırırdı.

Mənə elə gəlirdi ki, Sadıq dayı üçün irəlidə heç nə yoxdu, görüləsi işini görüb, deyiləsi sözünü deyib, daha arzulanası, can atılası bir şey qalmayıb – mənim ilk təəssüratım beləydi.

İllər öz işini görmüşdü; üzünün dərisi lırtlaşmışdı, çənəsi sallanmışdı, ilk təəssüratım isə dəyişməmişdi.

"Qırx – qəribə yaşdı. Nə keçmişi düşünürsən, nə gələcək haqqında planlar qurursan. Adam bu gününü yaşamaq istəyir, bu günündən hər şeyi almaq istəyir".

Bu sözlər Sadıq dayının məhəlləmizə gəldiyi ilk vaxtlara aiddi.

Köşkün dükan olmadığına heyifsilənsələr də, məhəllə camaatı ona tez öyrəşdi, köşk məhəllənin yığnaq yerinə döndü.

Sadıq dayı adama çox da yovuşan deyildi, içki içmirdi, siqaret çəkmirdi, – "bütün günü əlim başınızda, üzünüzdədi, içsəm, çəksəm, iydən bezərsiniz, mənim insafıma nə gəlib", – ancaq onun yanında darıxmırdılar, hətta dəlləkxana bir gün bağlı olanda, elə bil məhəllədə nəsə çatışmırdı.

Biz uşaqların isə başını keçəl qırxdırmaq dəb düşmüşdü.

Özgə vaxt bizi yola gətirmək müsibət məsələydi, indi "o boyda adamın başını keçəl qırxdırması" dilimizi-ağzımızı bağlayırdı.

Köşklə, ağ xalatı, qırxıq başı ilə Sadıq dayı məhəlləmizə qonur gözlərində açıq-aşkar duyulan bir kədər də gətirmişdi. Zarafat eləyəndə, gülüb-danışanda da o kədər gözlərindən boy göstərirdi.

Biz o kədərin arxasına düşüb Sadıq dayı barədə çox şey öyrənmişdik.

Nəyisə öz dilindən eşitmişdik, nələrisə qulağımız çalmışdı, nələrisə özümüzdən uydurmuşduq.

"Bilmirəm bu qızlar nə tapmışdı onda. Gözəl-zad deyildi. Doğrudu, çirkin də deyildi. Ortaboy, tökməbədən, qaraşın. Şabalıdı gur saçları varıydı. Gündə bir fason çıxarırdı, gah dala darayırdı, gah alnına tökürdü. Gözləri də altdan-altdan qayır-qayır qaynayırdı".

"Bir yerdə duran deyildi. Subaylıq bambaşqa, canı cəhənnəm. Evlənəndən sonra da vərdişini tərgitməmişdi. Ailə, arvad, uşaq, di gəl, yenə onun-bunun tumanının dalınca qaçırdı".

"Qadınları kim sevmir ki. Əgər kimsə məni xoşlayırsa, mənim də ondan xoşum gəlirsə, niyə axı istəyimi boğmalıyam".

Ancaq günlərin bir günü ayılmışdı ki, qadınlar onu çəkmir, onda hiss, həyəcan oyatmır. Bərk qorxmuşdu ki, qadınlara həvəsi birdəfəlik ölə, onlara heç yaxın gedə bilməyə. "Dedim, ay dadi-bidad, nə tez, hələ mənim nə yaşım var. Doğrudanmı, hər şey qurtardı? Sonra böyür-başıma baxdım, gördüm, yox, məsələ başqa cürdü. Arxalarınca düşdüyüm, görüşdüklərimdi məni çəkməyən, ürəyimi yerindən oynatmayan. Nə hiss, nə sevgi – tez, əziyyətsiz ələ keçirmək üçün belələrinə yaxınlaşırammış".

Yaşadığı həyat ona mənasız görünmüşdü. Ömrü ağır bir yük kimi onu sıxmışdı. Bir vaxt ona sevinc gətirən anları təkrar xatırlamaq da dadına çatmırdı. Həmin yalançı xoşbəxtliyə görə özünə yazığı gəlirdi.

Hər şey yuxu ilə dəyişmişdi. Yuxuda qonşu qızı görmüşdü. Görmüşdü onunla sevişir, bülbül kimi dimdik-dimdiyə dayanıb, ürəkləri əsə-əsə bir-birlərinə şirin-şirin sözlər pıçıldayırlar.

“Çoxdan tanıdığım qızdı. Demək olar, gözümün qabağında böyümüşdü. Ancaq heç vaxt ağlıma başqa şey gətirməmişdim, ona başqa gözlə baxmamışdım. Heç yolda-izdə rast gələndə də düzəməlli fikir vermirdim”.

Yatıb başqa bir adam kimi oyanmışdı.

Bu adam nə qız görmüşdü, nə qadın görmüşdü, nə ailə, uşaq qayğısı çəkmişdi.

“Durub-oturub onu fikirləşirdim, onunla rastlaşmaq üçün yüz hoqqa çıxarırdım. Ancaq rastlaşanda üzünə dik baxa bilmirdim, söz deyəndə dilim-ağzım təpiyirdi. Lap məktəbliyə dönmüşdüm”. Axır ki, ürəyini açıb, sözünü demişdi. Neçə dəfə gizlicə görüşüb söhbətləşmişdilər. Hər şey sevib-seviləndə gözəliymiş: əlindən tutmaq da, yanında dinməzcə dayanmaq da. Bir anın sevinci bütün günə çilənirdi.

Qanıqara olanda, işi tərs gətirəndə, təklik, sakitlik axtarırdı ki, öz dünyasına çəkilsin, hər sözü, hər baxışı təzədən xatırlasın, duyduğu çırpıntıları təkrar yaşasın.

Günlər tez keçirdi, günlərin başında o qız dururdu. Qalan şeylər mənasız idi. Səhər tez açılsın ki, onu görsün, evdən çıxsın ki, onunla rastlaşsın, tək qalsın ki, onu düşünsün.

Xoş baxışdan, şirin sözdən savayı bir şey ummadığı belə xoşbəxt günlər çox davam eləmişdi. Ondan olsaydı, heç nəyi dəyişməzdi, möcüzə olana qədər gözləyərdi.

“Həyatda möcüzə yoxdu, özünü aldada bilmək var. Yalançı daşlardan yalançı ev qurursan. Həmin evin qapısını külək, damını yağış döymür. Onun üçün həmişə günəş çıxır, Ay doğur, həyətində qızılgüllər açır. Başqasının əli o

evə çatmaz, onu heç kim uçura bilməz. O, uçanda içəridən uçulur, bir göz qırpımında sökülüb-dağılır, yerində sonralar ot da bitmir".

"Apar məni, hara istəyirsən apar. Baş götürüb gedək burdan. Bilirəm, çətindi, bilirəm, düz danışmıram, ailən, uşağın, ancaq sevirsənsə apar. Söyəcəklər, qoy söysünlər, lənətləyəcəklər, qoy lənətləsinlər. Mən hər şeyə dözərəm, sən də dözərsənsə, apar".

O, ailəsini atmamışdı. Heç bu haqda düşünməmişdi. Bircə onu hiss eləmişdi ki, qurduğu ev uçulur, daşları sökülür, açıq qalmış qapını küləklər çırpır.

"Görən, aparsam, gedərdimi?"

Sadıq dayı başqa cür ola bilməmişdi. Öyrəşdiyi həyatdan qopa bilməmişdi, naməlumluqdan qorxmuşdu. "Elə an olur ki, gərək heç nə düşünmədən addım atasan. Bilmirsən pismi olacaq, yaxşımı, bircə onu bilirsən ki, bütün həyatın dəyişəcək. O addımı hamı ata bilmir. Bunu tək-tək adamlar bacarır. Mən bacarmadım. Mən hamı kimi oldum".

Son görüşdə bir-birlərinə nə demişdilər, nə hisslər keçirmişdilər – Allah bilir. Bir daha görüşməmək üçün ayrılmışdılar.

"Bacılı, bacılı…"

"Can bacılı".

İki ağ göyərçindi, onun altında oturduğu ağaca qonmuşdular.

"Bu kişi niyə belə kədərlidi?"

"Dərdi var, bacılı".

"Dərdinin əlacı yoxdumu, bizim ona köməyimiz dəyə bilməzmi?"

"Yox, bacılı, bu dərdin əlacı yoxdu".

"O nə dərddi ki, bacılı, əlacı yoxdu?"

“Onu daha heç kim sevməyəcək…”

Mənə elə gəlir ki, Sadıq dayı şabalıdı gur saçlarını onda dibindən qırxdırmışdı, qayır-qayır qaynayan gözləri onda ölmüşdü, qonur gözlərində qüssə onda yuva qurmuşdu.

Bəs o “su sonası” indi hardaydı? Bəlkə xiffətdən sağalmaz dərdə tutulmuşdu, ilk görüşlərini, ilk öpüşlərini xatırlaya-xatırlaya dünyadan köçmüşdü?

Bəlkə sevdiyi adamla bir daha rastlaşmamaq üçün baş götürüb haralarasa getmişdi, ailə, uşaq sahibiydi, hər gün bazarda, dükanda gördüyü kök, dolu arvadlardan biriydi, indi heç Sadıq dayı yadına da düşmürdü? Xatırlayanda da o vaxtkı uşaq hərəkətlərinə yüngülcə gülümsəyirdi?

Açıq qalmış qapıları küləklər çırpırdı…

İlk dəfə üz qırxdırdığıma görə Sadıq dayı məndən pul almaq istəmir. Mən də “siftəndi” deyib, pulu məcbur verirəm.

– Sağ ol, Sadıq dayı.

Bir azdan Sadıq dayı dəlləkxananı bağlayıb gedəcək. İstilər düşəndən çox vaxt axşamlar da məhəllədə görünmür.

“Salam, Sadıq dayı”. “Kefin necədi, Sadıq dayı?” “Sabahın xeyir, Sadıq dayı”. “Nə təhərsən, Sadıq dayı?”

“Yaxşıyam, sağ ol”.

Hamı kimi hər gün beləcə görüşürük. Ancaq hərdən Sadıq dayının tərsəməssəb cavabları da olur.

– Yaxşı olardı, xatirələr qoysa…

## GÜNORTA

Qıraqdan baxanda deyərsən bu saat evdə heç kim yoxdu. Günortanın istisi hay-küy sevmir, hər şey nəfəsini içinə çəkib.

Qapı açıqdır, yüngül meh cunanı öz şeytan əlilə hərdən-hərdən tərpədir. Gün düz artırmaya düşüb, elə bil mısıb qəfilcə qorxutmaq üçün içəridən çıxacaq adamı gözləyir. Amma yox, o bilir ki, həmişə beləcə qapını kəsdirəndə heç kim otaqdan çıxmır, onun çəkilib getməsini gözləyirlər.

Artırmanın altı boyaboy zirzəmidi, orda qarı uşaqları üçün cürbəcür mürəbbələr saxlayır. Gün işığının bir ilməsi süzülüb zirzəminin içinə düşüb. Ora sərindi. Yəqin istidən təntimiş şüa orda sərinlikdən məst olub.

Kənardan ev dincini almaq üçün yükünü yerə qoymuş qocaya oxşayır. "Qocanın" pal-paltarı əldən çıxıb, rəngi gedib. Uşaqlar gələndən-gələnə nəsə eləmək istəyirlər, bacardıqları yeri rəngləyirlər, suvayırlar, ağacları budayırlar, şitil basdırırlar. Kişi onlara göz qoyub bağ-bağat işini yadırğamadıqlarından razı qalır.

Həyəti səhərlər gündən iri tut ağacı qoruyur. Dəymiş tutlar səbirsizlikdən çırpılacaqlarını gözləyəmmirlər, qopub

kölgəsində mürgüləyən toyuqları səksəndirirlər. Tut o qədər dəyib ki, torpağa düşən kimi dağılır. Onları qarı, bir də toyuqlar dənləyir.

Evdən körpə səsi eşidilir. Səs həyətə sərinlik gətirir. Toyuqlar istinin keçdiyini düşünüb başlarını qaldırırlar. Qarı artırmaya çıxır, nəvəsini ovuda-ovuda şüşəyə çay süzür. Körpə əmziyi tutan kimi kiriyir. Qarı ehmalca pilləkənləri düşüb kölgəlikdə oturur. Qırışmış sifəti hələ də yuxuludu. Axır vaxtlar yuxusunu lap çaşdırıb: körpə yatsa – yatır, dursa – durur.

İnsan nəfəsi həyətin mürgüsünü dağıdıb. Toyuqlar öz kimsəsizliklərini, qarısız bir qəpiyə də dəymədiklərini indi hiss ediblər. Sevinclə qırtlaşa-qırtlaşa həyətdə gəzişirlər. Şipşirin, ağappaq tutları dənləmək də ancaq indi onlara ləzzət eləyir.

Bir azdan kişi də astanada görünür. O da yuxuludu. Aşağı düşən kimi suyun gəlib-gəlmədiyini yoxlayır. Kranı açıq qoyur ki, su gələndə bilsin. Sonra hovuzdakı suyla püfə-püflə yuyunur.

Qarı kişisinin vərdişini bildiyindən durub çay qoymaq üçün mətbəxə qalxır. Ancaq hələ çay hazır olana qədər nə iş görəcəyini, başını nəylə qatacağını kişi bilmir. Görüləsi iş çoxdu. Bibərin, badımcanın əsl sulanan vaxtıdı. Bağın başında bir az pomidor da əkib, sarı çiçəkləri su deyib Allaha yalvarır. Zoğal da onun kimi.

Kişi çardağın altına baxıb gözü ilə təzə qəzetləri axtarır. Tapanda söhbətcil bir tanışla görüşürmüş kimi sevinir. Tezcə qarıdan eynəyini istəyib çardağın altda yerini rahatlayır. Qəzetləri oxuyub qurtarana qədər gərək heç kim onu danışdırmasın.

Ən əvvəl son xəbərlərə göz gəzdirir. Hardasa bombalar partlayır, evlər dağılır. Kişi başını qaldırıb yanında dayanmış qırmızı xoruzun "mənəm-mənəm" deyən duruşuna baxır. Heç inanmağı gəlmir ki, bu saat gəzmədiyi, görmədiyi torpaqlarda adamlar, "müharibədi" deyib bir-birini öldürür, qan tökür.

Uşaqlar böyüyəndən "müharibə" sözü onu çox qorxudur. İndi də qara-qura fikirlərdən yayınmaq üçün durub həyətdə gəzişir.

Suyun şırıltısı onu bekar durmaq əziyyətindən qurtarır. Rezin borunu krana keçirir, o biri ucu gündüzdən zoğal ağacının dibindədi. Borunun düyününü aça-aça gedib zoğala su ilə bərabər çatır. Su lap sısqa gəlir. Töküldüyü yerdəcə torpağa hopur. O, gözünü sudan çəkəmmir, tələsiyir, zoğalın əvəzinə özünün səbri tükənir. Sudan ovuclayıb zoğalın nazik gövdəsinə səpir, bir dəfə, iki dəfə: hə, di indi sərinlədinmi? Bir az rahatlanıb yan-yörəsinə boylanır. Pomidor uzandıqca uzanır, ancaq hələ çiçəyini tam tökməyib, bir yandan da kökünü danadişi doğrayır. Danadişi torpağın altındadı, işini gizlincə orda görür, bir də baxırsan ki, şitilin quruca kölgəsi qalıb, əlini atırsan, əlində gəlir. Danadişini yamanlaya-yamanlaya yaxınlaşıb pomidorun boşalmış dayaqlarını bərkidir, əyilib yerə dəyməsin deyə kəndirlə yüngülcə bağlayır. Əl-qolu yamyaşıl olub, köynək də batıb. Gərək yaxın düşməyəydi, qarı deyinəcək. Həmişə pomidorluq işini çimməmişdən qabaq görürdü, əynini dəyişib nə lazımdı eləyirdi, sonra da yaxşıca çimirdi. Bunun yaşılı mərət gedən şey deyil. Əlindən, qolundan zorla gedir, gəl sən bunu paltardan apar. Zoğalsa kişinin halından xəbərsiz, küncdə başını budaqlarının arasına soxub sevinə-sevinə suyunu içir. Deyirsən, bu saat göz görə-görə meyvələri

dolub qızaracaq. Suyu onun dibindən götürməyə kişinin əli gəlmir. Həmişə belə vaxt çətinlik çəkir, elə bil uşaqlarını yedizdirir, bilmir qaşığı birinci hansının ağzına aparsın.

Ağacların hamısını özü basdırıb, ağacların hamısı ondan cavandı, gözünün qabağında şirələnib, boy atıb, meyvə verib. Bircə ceviz ağacına ərki çatmır, ceviz ağacı ondan qocadı. İri gövdəsi, nəhəng çətiri bağın bir yanını tutub. Qonşular həmişə gileylənir, kəs deyirlər, ağaclarımızı qurudur. Kişi də bilir ki, qurudur. Ancaq əli gəlmir, qarğış yiyəsi olmaq istəmir, özü basdırmayıb, özü də kəsə.

Kişi gözünü cevizdən çəkəmmir. Dünyanın bu dilsiz-ağılsız ağacları, daşı, çiçəyi öz dinməzliyi ilə ona görə bildiyinin arxasında görəmmədiyi nələrinsə olduğunu hiss elətdirir. Görəmmədiyinin xofu, sehri, sirri onu uşağa döndərir. Dünyanın yağışı, qarı, gözünü açıb başının üstündə gördüyü günəşi, min-min ulduzu, buludları oynada-oynada qabağına qatıb qovan küləyi bu uşaq üçün möcüzədir. Uşaq heyrətlə, qadın bətni kimi bəhrəli torpağın bitirdiyi, bir-birinə bənzəməyən yüz cür çiçəyə, ota, ağaca baxır. Torpaq iyirmi addım yerdə eyni torpaqdı. Amma bu eyni torpaqda eyni suyu içib, eyni havanı udub biri dəcəl uşağa oxşayan alma ağacı olur, biri bəyaz çiçəklərilə adamın ürəyini titrədən gilənar ağacı, biri qadın kimi zərif, incə qızılgül. Hərəsinin də öz dadı-tamı, öz rəngi, öz qoxusu.

O, bir udum havanı sinəsinə çəkib dərindən nəfəs alır, dünyanın çiçək bitirən möcüzəsinə, canına yayılan bir udum havanın möcüzəsinə sevinir. Zoğalsa başını budaqlarının arasına soxub sudan içdikcə içir, bir doydum da demir, baxırsan, baxırsan, inanmağın gəlir ki, bu saat gözün görə-görə meyvələri dolub qızaracaq.

Günün istisi kişini təntidir. Belə baxanda düzəməlli bir iş görməyib, ancaq yorğunluq hiss eləyir, çoxdan bədənini tərk edən gücün, qüvvənin yeri yara kimi sızıldayır. Kölgəliyə çəkilib papiros yandırır. İşdən toza-torpağa bulaşmış əli ilə papirosu tutub, tərini silə-silə qıraqdan gördüyü işə baxmaq ona ləzzət eləyir. Ləzzət aldığı, canı-başı rahat yatdığı az olmayıb. Bir vaxt bu ev də yox idi. Özü gəlib yurd saldı, evləndi, bir yerdə daşı daş üstə qoydular, ev düzəltdilər, oğul-uşaq böyütdülər. İndi budu, həmin adam yorğun-arğın durub papiros çəkə-çəkə ömrünü qoyduğu bir parça torpağa baxır və bu bir parça torpaqda nəsə eləyə bildiyinə görə ürəyi küləksiz havada kirimişcə dayanmış barlı-bəhrəli ağac kimi rahatdı.

Qarı onu çağırır, yəqin çay hazırdı. Gedib yenə yaxşı-yaxşı yuyunur, sonra evə çıxıb köynəyini dəyişir. Körpə öz arabasında sakitcə uzanıb, mığmığa onu incitməsin deyə arabanın üstünə cuna sərilib. Kişi ehmalca cunanın kənarını qaldırıb baxır. Körpə onun baxdığını görüb qığıldayır, əllərini tərpədir. Qarı nə qədər desə də ki, qucağa öyrətmə, özünü saxlayammayıb arabadan götürür. Körpənin qara gözləri gülür, nəsə qığıldayır. Bu qığıltı nə dediyini başa düşəmmədiyi yarpaqların xışıltısına oxşayır; sirli, sehirli. Kişi onun ılıq, biçilmiş ot qoxuyan nəfəsini udmaq üçün üzünə lap yaxın tutur, cadar-cadar barmaqlarını körpənin əllərinə, üzünə toxundurur. Barmaqları ancaq ona aşkar olan sirdən titrəyir.

Körpə ortancıl oğlunundu, yaxşı ki, alıb saxlamaq qarının ağlına gəldi, yoxsa lap darıxardılar. Uşaqların hərəsi bir yandadı, həyat onları göz açdıqları bu evdən götürüb uzaq-uzaq yerlərə aparıb. Kişi heç kimi qınamır, belə də olmalıdı, hər kəs öz qismətini gedib tapmalıdı.

Günün əli daha artırmadan qopub, qarının su səpdiyi həyətə çəkilib. Bayaqkı odu, istisi indi yoxdu, olan-qalan istisini də suya verib damcı-damcı buxarlanır.

Qarı çaydanı, çayniki çardağın altına aparıb. Körpə hələ də kişinin qucağındadı. Kişi gözlərini yumub, indi özü elə qırışlı, cod sifəti ilə meyvəsi soğulmuş armud ağacına oxşayır.

Hava sakitdi. Meh deyilən nəsə hərdən-hərdən əsib ağacları öz dillərində danışdırır. Torpaqla səmanın qucağına sığınmış hər şeydən durub-duracaq dünyanın qocalığı, əbədiliyi hiss olunur. Baxanda heç adamın inanmağı gəlmir ki, günlər keçəcək, nə vaxtsa bu iki qocanın kölgəsi tut ağacının kölgəsinə qarışmayacaq, daşın-divarın, torpağın, öz əlləri ilə basdırdıqları ağacların yaddaşından onların nəfəsi, izi silinib gedəcək.

Ölüm haqda qocalar heç vaxt fikirləşmirlər. Bir yana qalanda, axı ölüm nə olan şeydi? Əgər adam yox olub gedirsə, bəs onda sirli-sirli qığıldayan bu körpə nədi?

Həmişə adını tutmadıqları bu evə çatanda ölüm mələyi də öz gücsüzlüyünü hiss eləyir, qorxusuz yaşayan bu evin üstünə qanadlarını toxundurammır.

Və günlər, aylar dolanacaq, nə vaxt gəlsəniz, siz də bu evi mən qoyub getdiyim kimi tapacaqsınız. Qabağınıza tut ağacı çıxacaq, bax onda qocaları həmin tut ağacından soruşarsınız.

Ağacların dilinisə dünyada hamı başa düşmür.

# BİR YAZ GÜNÜ

Yaz havasına həmişə aldanıram. Aldandığımı xəstələnəndən sonra hiss eləyirəm, onda da daha iş-işdən keçmiş olur. İndi də nə qədər isti olsa belə, paltonu təzədən əynimə taxmışam. Ancaq nə xeyri, bir var xəstələnməmək üçün geyinəsən, bir də var sağalmaq üçün.

Bu gün özümü lap pis hiss eliyirəm. Elə hey titrədirəm. Ona görə işdən icazə alıb qayıtdım yataqxanaya. İş saatı qurtarmadığından yataqxanada kimsəsizlikdi. Belə vaxtlar nəsə narahat oluram, elə bil qatar hamını götürüb gedib, mənsə perronda tək-tənha qalmışam.

Gözləməyə heç vaxt hövsələm çatmır. İşdə desələr, bax bu iki maşın dəmir-dümürü boşalt – razı olaram. Amma desələr, hər on dəqiqədən bir bayıra çıxıb bir ağız qışqır – bacarmaram. Gözləmək dərdidi ki, mətbəxlə heç aram yoxdu. İndi də dəqiqədənbir çaydanın ağzını açıram, görüm, qaynadımı, o da elə bil tərsliyə düşüb.

Mətbəxin pəncərəsi metroya baxır. Evlərlə metronun arası çöllükdü, dərə-təpədi. Burdan dəmiryolu keçir. Vaxtsız, vədəsiz ötən elektrik qatarlarının gurultusu məndən xəbərsiz keçib-gedən nələrinsə sirli səsinə oxşayır.

– Salam, qardaş!

Bu mərtəbəyə təzəlikcə köçdüyümüzdən hamının adını bilmirəm. Əvvəl yuxarıda qalırdıq, pəncərəmiz də elə bu mətbəx kimi çöllüyə baxırdı. Külək tutduğundan otağımız qışda sopsoyuq olurdu. Çox işıq yazdığından qızdırıcı işlətməyə də icazə vermirdilər. Yaxşı ki, axır güc-bəlaynan otağımızı dəyişdirə bildik – bir mərtəbə düşdük aşağı, özü də əks tərəfə. Bura küləyin əli gəlib çatmır. Otaqda üç nəfər qalırıq. Üçümüz də zavoda eyni vaxtda gəlmişik. Bu, yaşıd olmaq kimi bir şeydi, yəni aramızda böyük-kiçik söhbəti yoxdu, kim nə bacarır, onu da eləyir. İllər bizi o qədər yaxınlaşdırıb ki, bir-birimizdən inciməyə haqqımız çatır, amma bir-birimizi yaxşı tanıdığımızdan hər şeydən incimirik də.

Zavodda işləyəndən mənim üçün dünyada ən çətin şey səhər yuxudan durmaqdı. Yayda yenə hava tez işıqlanır, ertədən durub təmiz hava udmağa özümün də həvəsim gəlir. Amma qışda saatın ki, zənginə gözümü açıram, bayır zülmət, soyuq, külək – hamısı birdən yadıma düşür, həmin dəqiqə yuxu o qədər şirin olur ki, daha yüz adam da yığılsa, məni dünyanın hansı gözəl yalanıylasa aldada bilməz.

Uşaqlar yuxu azarımı bildiyindən hərdən saatın zəngini eşitməzliyə vururlar. Gözləyirlər, heç olmasa, bircə dəfəsə insafa gəlib onlardan qabaq mən duram, işığı yandıram, çay qoyam, çayı dəmləyəm, hər şeyi hazır eləyəm – sonra duralar. Bütün bu işləri görmək on dəqiqə vaxt aparır, amma həmin on dəqiqəni isti yorğan-döşəkdə xumarlanmaq nəyə desən dəyər. Həm də on dəqiqəyə adamın yuxusu da öz-özünə dağılır, stəkan-nəlbəkinin cingiltisini eşidəndəsə, pürrəngi çay artıq yuxudan ləzzətli olur, göz qırpımında hoppanıb durursan.

Həmişə uşaqların gözləməyi özlərinə qalır, mən arsızlığıma salıb durmuram, di gəl işə gecikmək qorxusundan yata da bilmirəm. Onlarsa pıqqıldaşa-pıqqıldaşa yerlərinin içində tərpənməyib məni gözləyirlər. Axır ki, yenə hansısa bezib durur. Çay hazır olanda qəfil gözümü açıram, güya indicə ayılmışam, kal-kal böyür-başıma baxıram. Onlar bu vaxt özlərini saxlaya bilməyib gülüşürlər. Mən də onların cavabında yuxulu-yuxulu gülümsəyirəm. Daha başqa söhbət olmur, güya onların da mənim bicliyimdən xəbəri yoxdu.

Təzə otağa, təzə mərtəbəyə nə qədər öyrəşsəm də, hər dəfə yerimdən durub tez-tələsik yuyunmağa qaçanda əvvəllər başqa mərtəbədə yaşadığım yadıma düşür. Köhnə yerdə heç vaxt xidmətçini görməmişdim. Biz yuxudan duranda artıq dəhliz də, ayaqyolu da, yuyunma otağı da tərtəmiz olurdu. Ancaq bura köçəndən hər səhər qara xalat geyinmiş xidmətçi qadınla rastlaşıram. Həmişə də, tərs kimi, o, ya yuyunma otağını təmizləyir, ya da ayaqyolunu.

Mərtəbənin köhnə sakinlərinin yan-yörəmizdə qurdalanan bu balaca qadını sezməmələrinə, onun yanında özlərini sərbəst aparmaqlarına, bir-biriləri ilə şit-şit zarafat eləmələrinə, söyüş söymələrinə ilk günlər öyrəşə bilmirdim. Qadın yataqxananın oyandığı vaxtı yaxşı bilir, istəsə bu işi bir az gec, ya bir az tez görər. Amma təəccüblü odur ki, qadın da uşaqlara fikir vermir, elə bil kardı, kordu, heç nə görmür, heç nə eşitmir, başını aşağı salıb dinməz-söyləməz öz işini görür.

Daha mən də uşaqlar kimi heç kəsin sezmədiyi, salam verib, salam almadığı bu qadını görməməyə çalışıram. Di gəl, yenə səhər onunla rastlaşanda əvvəl çaşıb qalıram, sonra acığım tutur, sonra da utanıram.

İşdən çıxanda uşaqlar ilə zavodun ağzında bir-birimizi gözləmirik. Hərdən havalar xoş olanda görüşürük ki, bir yerdə gedib bazara, dükana dəyək. Qışdasa çıxan qaçır yataqxanaya, çünki hamımız zavoddan çimib çıxırıq, soyuqda dayanmağa qorxuruq. Onda otaqda görüşürük, yenə kim birinci gəlir, o, heç olmasa, çay qoyur. Çay içib canımızı qızdırandan sonra yemək haqqında fikirləşirik. Ancaq yorulduğumuzdan bazara, dükana dəyməyə ərinirik. Çox söz-söhbətdən sonra başlayırıq domino oynamağa. Hamını udan qalır bəy kimi evdə, əlini ağdan qaraya vurmur, ən tez uduzub çıxan işin ən çətinini görür, o biri qalanını. Bəzən dominomuz o qədər çəkir ki, artıq bazar bağlanmış olur, axırdan-axıra uduzan durub götürülür dükana, kolbasadan, konservdən, ürəyimiz istəyəndə də araqdan-çaxırdan tapıb gətirir. Yeyib-içəndən sonra yorğun bədənimiz daha da süstləşir, özümüzü yıxırıq çarpayıya, başlayırıq laqqırtıya. Həmişə söhbətimiz oxuduğumuz bir kitabın davamına oxşayır. Hərə öz həyatından indiyə qədər danışmadığı şeyləri danışır, ya da bir vaxt üstündən elə-belə keçdiyi əhvalatı bu dəfə lap yerli-yataqlı xatırlayır. Söhbətlərdən sonra bizə elə gəlir ki, heç vaxt bir-birimizə xəyanət eləyə bilmərik, bir-birimizdən uzaqlaşa bilmərik, uzaqlaşmağı bacarmarıq. Söhbətimiz get-gedə qırılır, bir də gözümüzü açanda görürük səhərdi, işə tələsmək lazımdı...

Əvvəl fikrim varıydı çay içib girəm yerimə, bəlkə tərlədim. Amma çay içəndən sonra hiss elədim ki, elə tərləməmiş də babatam.

Uşaqların gəlməyinə hələ bir az qalır. Təzədən çay qoymaq lazımdı, onlar gələnə hazır olsun. Deyirəm, bəlkə elə yemək bişirim? Amma ləzzət eləyər ha uşaqlara! Necə də eləməsin. Ac, yorğun gəl işdən, gör ki, stolun üstündə yemək buğlanır.

Uşaqların necə sevindiyini təsəvvürümə gətirə-gətirə şkafın gözünü qurdaladım, yemək hazırlamağa bir şey yoxdu. Tor zənbili götürdüm, gedim bazara. Onsuz da ılıq yaz havasında otaqda qalmağa səbrim çatmır.

Bazara aparan yol həmişəki kimi sakitlikdi. Ağaclar hələ yarpaqlamadığından bir-birinə oxşayan taxta evlərin həyət-bacası açıqda qalıb. Bazar uzaqda deyil, amma gözoxşayan bir şey olmadığından yol adamı bezdirir. Ona görə bazar adı gələndə qulağımızı tuturuq. Şəhərdə on bu qədər yolu gedirsən, adam heç bezmir. Cürbəcür binalar, küçələrdə ardı-arası kəsilməyən insan axını, qarşılaşdıqlarının geyimi, yerişi, hərəkəti adamı əyləndirir.

Bu da bazar.

Yazınkı göy-göyərtidi, ye canına təpər gəlsin. Zənbili göyərti ilə, kartof-soğanla doldurub bazardan çıxdım. Nə qədər gəzmək istəsəm də, qoltuğu dolu otağa qayıtmaq mənə lap ləzzətli görünür.

Qarşıdakı həyətdən qaça-qaça bir uşaq çıxdı, onun da arxasınca bir qadın. Qadın daha uşağın arxasınca qaçmayıb elə qapının ağzından onu səslədi:

– Arif, Arif, ədə, dayan, bura gəl görüm.

Uşaq bir ayağını qaçaraq qoyub bic-bic uzaqdan baxırdı. Deyəsən, gəlməyə ürək eləmirdi.

Sonra çəkinə-çəkinə yaxınlaşıb qadının iki-üç addımlığında dayandı.

– O nə sözüydü ə, dedin, adam da anasına elə sözmü deyər?

Uşaq nə sözüydüsə, onu birinci dəfə deyənə oxşamırdı. Yəqin ki, bunun üstündə tənbeh olunduğu da birinci dəfə deyildi. Öyrəşdiyi onun hər an gülməyə hazır olan dodaq-

larından, qaynayan gözlərindən oxunurdu. Ayağını beş addım o yana qoyan kimi yenə, yəqin ki, o sözü təkrar eləyəcəkdi. Qadın da bunu bilirdi. Çünki onun da gözlərində uşaqdan gizlətməyə çalışdığı təbəssüm varıydı.

Qadının cizgiləri nədənsə mənə çox əziz, çox tanış göründü. Hansı xatirəyləsə bağlı kövrək bir hiss gözümü ondan çəkməyə qoymurdu. Yaddaşımı ələk-vələk eləyib qadını necə, hardan tanıdığımı xatırlamağa çalışırdım. Birdən-birə öz uşaqlığım, anam, həyətimiz, yelpik kimi evimizin üstünə əyilən tut ağacı, dünyanın ömrümün hansı çağındasa hiss olunmadan mənə verdiyi, sonrasa hiss olunmadan aldığı adamlar yadıma düşdü. O, necəsə anama oxşayırdı. Bu vaxt qadın başını qaldırıb mənə baxdı. Baxışlarımız rastlaşanda özümü saxlaya bilməyib salam verdim. Qəribə idi ki, qadın salamımı aldı və ancaq onda bildim ki, doğrudan da, qadını tanıyıram. Səhərin yuxulu toranlığı, qara xalatda tualeti yuyan qadın gözümün qabağına gəldi. Həmin qadın idi. Yerişimi yavaşıdıb indi lap zənlə qadına baxdıqca, rezin boru ilə tualeti yuyan, yanında hər cür söz danışdığımız, saymadığımız qadınla, uşağa acıqlanan yaşıl donlu qadın arasında heç bir oxşarlıq görmürdüm. İndi qadın anama da oxşamırdı. Elə bil bircə anda onun sifəti dəyişmişdi.

Yolla gedə-gedə verdiyim salama görə özümü söyürdüm, özümdən zəhləm gedirdi. Hər gün rastlaşsam da, ilk dəfə idi ona salam vermişdim. Sabah isə qadının yenə qara xalatda, şit zarafatlarımızı eşidə-eşidə metlaxı yuduğunu görəcəkdim. Ancaq daha salam verib-verməyəcəyimi bilmirdim.

Döngəyə çatmış bir də geri boylandım. Qadın uşağın əlindən tutub evə aparırdı. Mən indi onların nə üzünü se-

çirdim, nə səsini eşidirdim. Yenə uzaq bir xatirə kimi anamı xatırladım. Birdən mənə elə gəldi ki, rastlaşdığım adamlara diqqətlə baxsam, onların anama, atama, qardaşıma, bacıma oxşadığını görərəm, bu oxşarlığı taparam, onda mən həmin adamlara qarşı pis olmağı bacarmaram. Əsas məsələ necə baxmaqdadı.

Özüm də hiss etmədən addımlarımı yeyinlətmişdim. Elə bil əlimdə buz tutmuşam. Onu kiməsə çatdırana qədər əriyəcəyindən qorxuram.

# QOCA

– Ay uşaq…

Çəliyə dirənib həyətin ortasında dayanmışdı. Sulanmış gözlərilə key-key bağın başına baxırdı.

Elə bil uzandığı yerdə niyə durub həyətə düşdüyünü, nə eləyəcəyini kəsdirə bilmirdi. Toyuq hininin söykəndiyi hasar çox yerindən ovulmuşdu, daşlar qopub düşmüşdü.

Toyuqlar bir az da dimdiklərinə güc versə, günlərin bir günü hasar uçub elə toyuqların özünü birtəhər eləyəcəkdi.

– Ay uşaq…

Əvvəl bu daş hasarların yerində çəpər idi. Qonşu qonşunu görürdü, hələ iki çəpər o yanda küçə də görünürdü. Külək bu tikanlı çəpərlərin arasından, üstündən asanca keçirdi, həyət belə xəfə, havasız olmurdu.

– Nədi e, nədi, yenə nə istəyirsiniz?!

Uşaq üzünü evə tərəf tutmuşdu, sözü anasına deyirdi, ancaq səsindəki hirs-hikkə babası üçündü: bəlkə insafa gələydi, onu oyunundan ayırmayaydı.

Anası heç mətbəxdən çıxmadı:

– Gör baban nə deyir.

Uşaq tərin içindəydi. Nəfəsini zorla dərirdi.

– Günün istisində özünü niyə öldürürsən?

Fağır-fağır mızıldandı:

– Futbol oynayırıq da, məhlə-məhləyə.

– Qazancın nə olacaq?

– Nə qazanc, oynayırıq da.

– Gəl bura, futbol qaçmır, gəl toyuqlara bir az ot yol.

Uşaq könülsüz-könülsüz babasının arxasınca gedir.

– Sonra qoyacaqsan eşiyə?

– Mənnən indidən şərt kəsmə.

Toyuqlar mürgünü atıb ota girişdilər. Özündənrazı xoruz arada bir-iki dimdik də yan-yörəsindəki toyuqlara vururdu.

– Bunların yumurtasını sən yeyirsən də, mən ha yemirəm.

Uşaq ot yoluşdura-yoluşdura çımxırır:

– Elə yeyirsən, heç qoymursan yerə düşə.

Özünü saxlaya bilməyib gülümsəyir.

– Ay özün köpəsən ha, yumurtanı da mənə çox görürsən?!

– Yox e, heç olmasa, demə da.

– Yaxşı, yaxşı, az danış, işini gör.

Başında kütlük var. Bilmir çox yatmaqdandı, az yatmaqdandı, hərəkətsizlikdəndi, yeməkdəndi, ya elə zəhrimara qalmış qocalıqdan. Başını tez-tez qonşu Sadığa ülgüclə tər-təmiz qırxdırırdı. İndi bu da kömək eləmir.

– Baba, gedim?..

Bəlkə taxtı bura gətizdirə, ağacların kölgəsndə, təmiz havada uzana? Ancaq taxt gətirt, döşək gətirt – uzun haqq-hesabdı.

– Baxırsan əncirə? Gör nə dəyib. Niyə dərib yemirsən, oynamaqdan çöpə dönübsən.

– İstəmirəm, səhər-səhər yemişəm.

– Qab gətir, dər.

– İstəmirəm, sonra yeyərəm.

– Mənə dər, mən istəyirəm.

Uşaq hirsindən ayağını yerə döyür.

– Denən, özümə istəyirəm da. Səhərdən başlayıbsan: əncir ye, quruyubsan, qaxac olubsan. – Hirslənməkdən bir iş çıxmayacağını görüb qılığına girir. – Qoy gedim da, baba, uşaqlar məni gözləyir, gələndə dərərəm, yaxşı? Nə desən eləyərəm.

– Yaltaqlanma.

– Yeməyəcəksən axı. Acıqnan eləyirsən ki, oynamağa getməyim. Həmişə beləsən.

– Az danışdır məni. Get, dediyimi elə.

Əvvəl guya qab tapa bilmirdi, donquldana-donquldana hər yeri bir-birinə vurdu. Donquldana-donquldana da əncirə dırmaşdı. Budaq-budaq tanıdığı ağacıydı, ancaq az keçmiş qab qarışıq gəldi yerə.

– Zorla adama iş gördürəndə belə olur da. Dedim, sonra dərərəm. Yox, elə bu saat, bu saat. – Gah qolunu tuturdu, gah üst-başına baxırdı.

– Nədi, tasa-pasan çıxdı?

– Qoyursan ki…

– Hoqqabazsan. Öz bildiyini eləmək üçün hər oyundan çıxırsan. Mən sənnən də tərsəm. İndi ağzın var ordan tərpən. Əncir başına dəysin, dur elə orda, heç nə lazım deyil.

– Durmayacam.

– Mən sözümü dedim. Ağzın var, durma.

– Durmayacam.

– Bax da, bax.

Uşaq ayağını sürüyə-sürüyə durduğu yerdən aralanır. Bir gözü də babasındadı ki, görsün nə eləyir. Çəliyin çatmayacağı məsafədən fırlanıb, götürülür çölə.

– Tfu, – hirsindən qaba bir təpik ilişdirir.

“Böyüyü sayırmı ki, kiçiyi də saya”, – bunu bərkdən deyir. Neyləyəsən, nə asılacaqları var ondan. Qazanmır, gətirmir, götürmür. Belə olacaq da. İndi gedə maşının altına düşə. Ya yıxılıb qolunu-qıçını sındıra. Görə böyük sözünə baxmamaq necə olur. Gözündən gildir-gildir yaş tökə, deyə qələt eləmişəm, qanmamışam, başa düşməmişəm. Guya bunun pisliyini istəyirlər. Küçədi, yoldu, maşının biri gəlir, biri gedir. Günün altı, asfalt. Nə ölürsən, otur həyətində, kölgədə, dincəl. Oynamağın da təhəri var. Qoy indi canı çıxsın. Nə olsa, haqq olacaq. Ona nə, vaxtında sözünü dedi. Bir şey olsa, heç vecinə də gəlməz, “uf” da deməz.

Çığırtısı hələ küçədən eşidilirdi. Elə bil ətini kəsirdilər.

Ancaq heç nə yoxuydu, heç nə olmamışdı. Gəlin darta-darta gətirirdi. İntəhası, belə dartmağın, belə sürüyə-sürüyə gətirməyin axırı döyülmək olasıydı.

Eləcə çəkib evə saldı, qapını da örtdü ki, qışqırığı eşidilməsin. Di gəl, eşidilirdi.

Uşağın səsini eşitməmək üçün həyətdən uzaqlaşıb, bağın başına getdi. Bir az orda dayandı. Sonra həyətə qayıtdı. Uşağın hələ də qışqırtısı gəlirdi.

– Nə olub orda, o nə səsdi? – Gözlədi görsün, səs kəsirmi. – Karsınızmı, siznən deyiləmmi, nə olub orda?

Uşaq evdən yel kimi çıxdı. Anasının dalınca gəlmədiyini görüb, içini çəkə-çəkə pilləkənin ayağında dayandı.

– Elə bil faşistdilər. Belə də uşaq döyərlər. – Talvarın altında oturub, ordan uşağa göz qoydu. – Bura gəl görüm.

Uşaq köntöy-köntöy baxdı, ancaq gəlib qarşısında dayandı.

– Otur. – Uşağın bayaqkı hirsi-hikkəsi, şeşələnməsi, indi isə içini çəkə-çəkə böyründə sıpıxıb oturması onun dodağını qaçırtdı. – Bəs sözə baxmayanda belə olur da, adamı belə döyürlər.

Himə bəndmiş kimi uşaq təzədən hönkürdü.

– Di yaxşı, yaxşı, sakit ol. – Başını sinəsinə sıxdı. – Gör heç mən səni döyürəmmi. Mən səni çox istəyirəm. Hamıdan çox istəyirəm.

Pencəyinin cibindən pul çıxarıb, ehmalca uşağın cibinə basır.

– Sən də məni çox istəyirsən?

Başı ilə "hə" dedi.

– Onda babanı öp görüm.

Uşaq onun üzündən öpür.

– Di get oyna. Babanın da sözünə qulaq as.

Uşaq heç nə olmamış kimi götürülüb həyətdən çıxır.

Çənəsini çəliyə söykəyib bir xeyli nəyəsə gülümsəyir. Sonra, deyəsən, mürgü aparmışdı. Bir an keçmişdi, bir saat keçmişdi – bilmirdi. Əlini sifətinə çəkdi. Üz-gözü tərləmişdi.

– Ay uşaq…

Hasarların üstündən, ağacların arasından bir meh keçib onu tapdı, üz-gözünü sığalladı. Hər şey tanışıydı, bu meh də, bu sərinlik də, yarpaqların halsız titrəyişi də. Heç nə dəyişməmişdi, vur-tut ömür keçib getmişdi.

– Ay uşaq…

# ŞÜBHƏ

– Niyə belə oldu?

– İndi neyləsin?

– Nə vaxta kimi belə yaşayacaq?

Suallar çox idi. Hər sualın da beş cavabı varıydı, on cavabı varıydı. Bir cavabda bənd alammırdı, gəzinirdi, söyürdü, uzanırdı, söyürdü. Kimi? Heç özü də bilmirdi.

Yeddinci gün idi ki, yataqxanadaydı. Hələ də bir fikrə gələmməmişdi. Nə eləsin? Qayıtsın? Nə üzlə! Burda qalsın? Nə vaxtacan!

Hər şey əvvəl nə yaxşıydı! Ürəyi sakit, canı sakit. Yuxudan dururdu yeməyi hazır, çayını içirdi, uşağın üzündən öpürdü, yollanırdı işə. İşini görürdü, qayıdanbaş yolüstü bazara dəyirdi.

Avtobusdan düşən kimi, uşaq yüyürürdü qabağına. Şeytan bilirdi ki, nəsə alıb. Arvadı həmin saat mətbəxə keçirdi. O da yuyunurdu, daranırdı. Arvadı Allah verəndən gətirib qoyurdu süfrəyə, ağız şirinliyi ilə yeyirdilər. Sonra bir az uşaqla oynayırdı, televizora baxırdı, kefi istəyəndə kitab oxuyurdu. Hər şey yaxşı, rahat, gözəl!

İndi... Yatsa yuxusuna da girməzdi, desəydilər gülərdi. Amma indi nə demişdilər, nə də yuxusuna girmişdi. Olmuşdu, özü də belə başqa cür.

İşdə heç bilməzdi vaxt necə gəlib-gedir. Heç kimlə ağızlaşmırdı, incişmirdi. Hamı onun dediyini eşidirdi. Deyəgülə işi yola verirdilər. İndi elə bil hamısını qudurmuş it dalayıb. Balaca bir şeyin üstə höcətləşirlər. Heç kimi dilləndirmək olmur.

O vaxt bircə Səlim sataşırdı ona. Köhnə dost idilər. Ancaq evlənəndən bekara araları soyumuşdu. Soyumuşdu deyəndə ki, daha işdən sonra pivə içməyə getmirdilər, yataqxanada kef məclisi düzəltmirdilər. Elə ona görə də Səlim sataşirdı ona: "Evlənənnən, – deyirdi, – kürt toyuq olubsan, arvad ipini yığıb sənin. Ay yazıq, gör nə günə qalıbsan!? Kifləndin, bala, kifləndin!.."

Özü deyirdi, özü eşidirdi, yeməkxanada kimisə göstərirdi: "Nətəri şeydi? Qaqaşın olub e, onnan". Sonra başqası, başqası. Hamısı da gözəl, qəşəng, baxırsan üzünə, inanmağın gəlmir. Heç inanmırdı da. "Gop eləmə da, Səlim, – deyirdi, – gop eləmə, onun əri var, boynu belin yoğunnuqdadı".

"Nə olsun əşi, boynun yoğunluğunda döyül ha, iş..."

Bunu deyib irişə-irişə makinaçını göstərirdi: "Canın üçün, – deyirdi, – mən onnan kəsirəm, o sənnən kəsir, özü də eşitmişəm, yola gələndi, giriş buna, savaba batarsan".

"Əl çək, Səlim, sən başın əl çək!" Səlim də gülürdü. "Əfəlsən, əfəl! Kəsəmənnən beş-altı arvad lazımdı ağlasın səni.."

Makinaçının da iki sözündən biri əri idi. "Kişi getmişdi komandirovkaya, filan şeyi gətirdi, dünən getmişdik kinoya, əldə biletin biri beş manat, kişiynən o gün…"

Bunları şöbədəki qızlara danışırdı. O da gözaltı baxırdı, elə bil Səlimin dediyini saf-çürük eləmək istəyirdi. Baxırdı, baxırdı, ürəyində də söyürdü Səlimi: "Gör ağlına nə gəlir!?"

Amma, demə, Səlimin sözləri havaya getmirmiş. Demə, o sözlər yığılırmış, içində qurtlayırmış, özünün də xəbəri yox.

Yenə Səlimdən oldu. Makinaçı üçün zavoddan bir az kafel çıxartmaq lazımıydı. Səlim onu verdi qabağa: "Maşın mənim boynuma, Söyün də kömək eləyər aparmağa, eləmi Söyün? Hə, gedər, gedər..." Makinaçı o saat gözünü dikmişdi ona. Səlim də bir yandan əvəzinə danışırdı. Ha vurnuxdu, ha döyükdü, mümkün olmadı. Getdilər. O, maşının üstündə, makinaçı sürücünün yanında. Kafeli boşaltdı, yerləşdirdi. Qız onu buraxmadı. Çay qoydu, çörək gətirdi, elə bil onu sakitləşdirmək üçün də "ərim komandirovkaya gedib", – dedi.

Onda bildi ki, Səlimin sözləri içində qurtlayıbmış. Qurdlu sözlər içində tərpənirdi, onu da tərpədirdi. Yedilər, içdilər, daha bilmədi o qızı yola gətirdi, yoxsa qız onu. Amma hər şey razılıqla oldu.

Evə qayıdanda key kimiydi, heç nə haqda fikirləşə bilmirdi. Səhərin tezcə gəlməyini arzulayırdı ki, makinaçını bir də görsün, üzünə baxsın. Guya ki, hər şeyin cavabı onun üzündə yazılmışdı, oxuyub narahatçılıqdan qurtaracaqdı.

Səhər işə qaçanda ağlına cürbəcür şeylər gəlirdi: gedib görəcək ki, qız işə çıxmayıb, ya deyəcəklər ki, ərizə yazıb işdən gedir, ya da...

Ancaq makinaçı işə çıxmışdı. Sakitcə öz makinasını taqqıldadırdı. Onu gördü, başını qaıdırıb salam verdi, yenə başladı taqqıldatmağa. Günorta yenə də qızlarla laqqırtı vurdu, şuxluq elədi, rahatca çörəyini yedi. İşdən çıxanda

da əl güzgüsünə baxıb darandı, düzəndi, hamı ilə xüdahafizləşib düzəldi yola.

Qəribə işiydi: qız dəyişməmişdi. Dünənkindən üzündə, gözündə, yerişində, duruşunda, danışığında heç bir iz qalmamışdı və bunu anlayanda hiss elədi ki,dünya dəyişib. Öz gözündə dəyişib!

Axşam çörək yeyəndə arvadı işindən danışa-danışa “Kərim” adı çəkdi, təriflədi. Onun dalağı sancdı. Altdan-altdan arvadına baxdı: ”Kərim kimdi görən?” Sonra arvadı dedi ki, işarası qaçacam mağazaya, dünən yaxşı stəkanlar olub. Yenə altdan-altdan arvadına baxdı. “İşarası qaçmaq olurmuş, bunu mən indi niyə eşidirəm?”

O günün səhəri haradansa ağlına yerləşdi ki, gedib arvadına zəng eləsin. Evlənəndən tək-tük zəng eləmişdi, o da təcili bir iş olanda.

– Nə yaxşı zəng eliyibsən?

– Heç, elə-belə... – Mağazaya getmişdin?

– Hə, istədiyim qurtarmışdı ancaq.

– Qurtarmışdı?

– Hə.

– Özgə kefin nətərdi?

– Yaxşıdı.

– Yaxşı olsun, di sağ ol.

– Sağ ol.

Dəstəyi asandan sonra bir xeyli acı-acı gülmüşdü: arvadıyla danışmağa söz tapmamışdı. Orası gülməliydi ki, deyəsən, arvad da danışmağa söz tapmamışdı. “Bəs niyə mənnən belə quru danışır? Yoxsa başqalarının yanında utanır ərinnən danışmağa? Kimdən utanır, hə? Kərimdi nədi, onnan yoxsa?..”

Daha işləyə bilmirdi. Durub-oturub son vaxtlar arvadındakı dəyişiklikləri axtarırdı. Hər fikirləşəndə də buna inanmaq

üçün nəsə tapırdı. Evdəsə bu dəyişiklik lap gözlə görəsi idi. Arvadın iki sözündən biri öz işindəniydi, hərdən də böyük gələcəyi olan Kərimin adı çəkilirdi. Bu ad elə həvəslə deyilirdi ki, durub arvadı vurmaqdan özünü güclə saxlayırdı. Axır ki, bir dəfə yenə bu ad çəkiləndə dözəmmədi, "Kərim" sözünü güclə uddu. "Nə iş-iş salıbsan, bəsdi da, qulağım getdi daha, hara gedirəm iş, iş, qoy bir nəfəs alaq da..?"

Arvadı təəccüblə ona baxmışdı: "Sənə nə olub, danışma deyirsən, daha danışmaram".

"Hə danışma, danışma!"

Amma elə səhərisi yenə danışdı: "İşdən konsertə bilet götürüblər, dedi, gəlirsənmi?" Soruşdu ki, hamı gedir? "Hə, dedi, hamı gedir". Bu hardan ağlına gəldi, heç özü də bilmədi, iyrənc-iyrənc gülümsəyib (bu yaxşı yadındaydı), "Kərim də?" – dedi. Bu cümləni deyənə kimi tər basmışdı onu. Həmin an arvadına da, özünə də nifrət eləyirdi.

Arvadı özünü o yerə qoymamışdı, "gedir" demişdi.

Gedir, hə.., Səlim demiş, indi moddu ərnən oynaşı tanış eləmək. Buyurun, deyəcək, Kərim müəllim, yoldaşımnan tanış olun. Kərim müəllim də üstdən-aşağı ona baxıb gü lümsəyəcək: "Çox şadam, çox şadam", "a" hərfini də uzadacaq: "şaadam".

"Mən getmirəm, özün get".

Bu sözü elə sakitcə demişdi, sakitliyinə özü də məəttəl qalmışdı. Çünki içi elə qaynayırdı, həmin an tezcə eyvana çıxmasaydı, Allah bilir nə olacaqdı.

Daha evə gec gəlməyə başlamışdı. İşdən çıxıb gedirdi pivələməyə. Nə qədər üz vursa da, Səlim ona yoldaşlıq eləmirdi. Özü tək içirdi, tək kinoya gedirdi, evə qayıdanda da ha gözləyirdi, arvadından bir söz, bir danlaq eşitmirdi.

“Soruşmaz da, soruşmaz, neynir məni, öldüm, ya qaldım, fikri-zikri başqa yerdədi...”

İşdə makinaçı qızı görəndə, arvadı gəlib dururdu gözünün qabağında, özü makinaçını necə qucaqlamışdı, necə yıxılmışdılar çarpayıya, kimsə eləcə arvadını qucaqlayırdı, tez-tələsik paltarını soyundurub çarpayıya yıxırdı, arvad da dünyanı unudub, o “kimsə”nin sinəsini öpürdü, öpürdü…

Bu səhnələri, arvadının sifətindəki ifadəyə kimi o qədər aydın görürdü ki, durduğu yerdəcə az qalırdı ulasın.

Bir səfər işdən gəlib arvadını evdə görmədi. Gedib özü uşağı baxçadan gətirdi. Yedizdirmək əvəzinə, heç nəyin üstə iki dəfə şapalaqladı. Bir az keçmiş arvadı gəldi, özü də kefi köküydü: “Baxçada, deyirlər, yoldaşın gəlib apardı, hələ bir sataşdılar da, deyir, nə ciddi ərin var, bığlarından hirs tökülür, o qədər gülmüşəm...” O isə arvadının zarafatına fikir verməmişdi. Elə bil qaçmağa qoymamaq üçün qabağında durub soruşmuşdu: “Hardaydın?”

Arvadı özünü itirmişdi: “İclasdaydım”.

“Hansı iclasda?” – bu dəfə kinayə ilə soruşmuşdu.

“Nətəri hansı iclasda? Adi iclasda.”

Gör necə qızarıb, bayaq da kefi köküydü, işləri yaxşı gedir: “Sən iclasda gəzəcəksən, mən uşaq saxlayacağam?!” Arvadı yenə təəccüblə baxmışdı ona.

Bayaqkı sevinc yara kimi üzündə qaysaqlamışdı: “İclasda gəzmirlər”.

Buna bax, hələ səhvimi də düzəldir: “İşdən çıx!”

“İşdən çıxım? – arvadı bu sözü elə təəccüblə təkrar eləmişdi ki, bir an özü də dediyindən qorxub duruxmuşdu. – İşdən çıxıb eləməyəcəyəm, beş il oxuyub diplom almışam, indi evdə oturacam? Bir də mən səni başa düşmürəm, axır vaxtlar sənə söz demək də olmur”.

Buna bax? Mənnən hirslə danışmağına bax, yəni belə tanıtmışam özümü! "Çıxacaqsan. Yek kəlmə!"

Arvadı da yek kəlməynən cavab vermişdi: "Çıxmayacağam!"

Yenə özünü saxladı: "Niyə çıxmırsan? Dolana bilmirsən?.. Dolandıra bilmirəm?"

"İş dolanmaqda deyil, mən öyrəşmişəm ora, qaxılıb evdə oturmuyacam ha".

"Kimsə" yenə arvadını götürüb çarpayıya yıxdı. Arvadı da dünyanı unudub "kimsə"nin sinəsini öpürdü... Daha özünü saxlayammadı: "Öyrəşibsən?! Yaxşı keçir hə, orda səninçün! Kimnən yaxşı keçir? Kərimnən yaxşı keçir?! Kef eliyirsən onnan?!

Arvadı külqabını götürüb yerə çırpdı: "Bəsdi! Bəsdi! Gedəcəm, rədd olub gedəcəm, belə şey olmaz, gör nə günə qaldım, Allah?!"

Gör e, özünü nə hirslənmiş göstərir. Elə bunu istəyirmiş, bunu gözləyirmiş: "Mən gedəcəm, sən niyə gedirsən? Mənim kimim var gətirim, sən oynaşını gətirərsən".

Bayıra çıxanda elə bil yüngülləşmişdi: "Belə yaxşıdı, bəsdi daha dözdüyüm, hələ yaxşı eləmədim, gərək vuraydım, döyüb öldürəydim."

Amma nə döymüşdü, nə vurub öldürmüşdü. Ordan dükana gedib araq almışdı, sonra da gecələmək üçün yollanmışdı Səlimin yanına. "Gəlmişəm vurmağa sənnən". Səlim, deyəsən, heç sevinməmişdi onun gəlişinə. Özgə vaxt sataşardı. İndisə dinməzcə araqlarını içib girmişdilər yatağa.

Gecə ilan vuran yatmışdı, o yatmamışdı. Evlənəndən birinci dəfə idi ki, aralarında belə söz-söhbət olurdu.

O üzə çevrikirdi, bu üzə çevrikirdi, rahatlanmırdı. Arvadı gözünün qabağına gəlirdi, uşağı görürdü, arvadının axırıncı

sözlərini eşidirdi, ürəyi sıxılırdı. "Gör nə günə qaldım, Allah". Axır fikirləşdi ki, səhər evə getsin, mütləq getsin, ağıllı-başlı danışsın onnan. Axı, niyə belə oldu? Niyə belə olmalıydı?

Səhərisi işdən çıxıb evə gəldi, amma içəri girməyə ürək eləməyib həyətdə gəzindi. Əl-ayağı əsirdi. Nə deyəcəkdi, nə eləyəcəkdi, fikirləşə bilmirdi.

Arvadı mətbəxdəydi. Səs eşidib döndü, dərdli-dərdli gülümsədi. Əlini işdən çəkib duruxdu.

Arvadının dərdli-dərdli durmağı onu kövrəltdi, dodağını gəmirə-gəmirə gəlib yavaşca arxasında dayandı. Arvadı birdən hönkürüb başını onun sinəsinə dayadı. Hönkürtüsü kəsilmək bilmirdi. Elə hönkürə-hönkürə: "Hardaydın, – deyirdi, – hara getmişdin?"

Onun da gözləri dolmuşdu. "Gör nə fikrə düşmüşdü, arvadı heç ona xəyanət eləyərmi, heç elə iş görərmi?! Yox, yox! Amma gör o, nələr elədi, nələr dedi."

Arvadını sakitləşdirə-sakitləşdirə yalvarırdı: "Qurban olum, bağışla, dərdin alım, bağışla. Mən heyvanam, itəm, eşşəyəm, mənnən pis adam yoxdu, bağışla məni, qurban olum, bağışla..."

Birdən ağlına gəldi ki, hər şeyi açıb arvadına danışsın, kişi kimi danışsın. Arvadı onu başa düşər, günahından keçər.

Danışdı da. Amma heç bunu gözləmirdi, fikirləşirdi, arvadı yenə ağlayar, sızlayar, axır sakitləşər.

Arvadı birdən səsini kəsib qışqırmışdı.

Birinci "rədd ol" sözünü eşitdi. Bu sözdən sonra arvadının gözü lap iriləndi, elə bil dediyi sözün arxasınca baxırdı.

"Rədd ol, rədd ol! Mənə buna görəmi əziyyət verirdin?! Buna görəmi işdən çıxarmaq istəyirdin, buna görəmi?!"

Arvadının irilənmiş gözlərinə baxa-baxa başa düşmüşdü ki, heç nəylə onu sakitləşdirə bilməyəcək, nə desə, daşdan pis ağrıdacaq. Ancaq gedə bilmirdi, çünki bu getməyin bir də qayıtmağı vardı, həm də arvadının hirslənməyinə sevinirdi, onun hirsli-hirsli dediyi sözlərin hamısını eşitmək istəyirdi. Hiss eləyirdi ki, hər sözdən ürəyi bir az da sakitləşir, olub-qalan şübhəsi get-gedə yox olur. Bu hiss ona o qədər ləzzət elədi ki, sevincini saxlayammayıb qəfilcə gülümsədi.

Arvadını od götürdü: "Nəyə gülürsən, nəyə? Hə, olmuşam, düz fikirləşibsən, evə də gətirmişəm!"

Elə bil arvadını danışmağa qoymamaq üçün yerindən tərpəndi.

"Yalan demə, yalan demə".

Arvad dediyini yenə təkrar elədi.

O, indi anladı ki, öz şübhələrinə özü də inanmayıb, hətta dünən qışqırıb-bağıranda, o sözləri arvadına deyəndə də, evdən çıxıb gedəndə də inanmayıb, heç vaxt.

Arvadının əllərindən tutub ağlamsına-ağlamsına. "Qurban olum, – dedi, – qadan alım, yalan demə, elə şey olmaz, sən belə iş görməzsən. Yalan demə, qadan alım, yalan demə!.."

Daha taqəti yox idi, dili söz tutmurdu. Başı fırlanırdı, nəfəsi kəsilirdi.

Amma arvadı o sözü bir də təkrar elədi, özü də lap sakitcə: "Olmuşam, – dedi, – hə, olmuşam!"

Daha heç nə onu saxlamadı. Bircə ümid də yox idi ki, şilləni vuranda əlini tutub qoymayaydı.

Evdən çıxanda acıqlı-acıqlı fikirləşdi ki, daha hər şey qurtardı, onunku onda, mənimki məndə. Qurtardı, vəssalam. Bir də onun ayağına getməyəcək. Getməyəcək.

Amma yataqxanada keçirdiyi ikinci gecə başa düşdü ki, hər gün vəziyyəti daha da dözülməz olur. Bir dəfə işdən

qayıdanda gözünü açıb özünü evlərinin yanında görmüşdü, amma hərdən tez ayılırdı, yarıyolda avtobusdan düşüb marşrutu dəyişirdi. Daha dözülməz orasıydı ki, arvadı getgedə təsəvvüründə dəyişirdi, dəyişib yenə əvvəlki mehriban, qayğıkeş, hər şübhədən uzaq qadın olurdu.

Bu qadın hardasa ondan ötrü darıxırdı, sızıldayırdı, gecələr özü də bilmədən əlini böyründə gəzdirib onu axtarırdı, tapmayıb için-için ağlayırdı. Hər gün də uşağı aldadırdı ki, atan sabah gələcək.

Artıq yeddinci gündü yataqxanadaydı. Səlimə demişdi ki, arvadı uşaqnan dədəsi evinə yollamışam. Deyəsən, Səlim inanana oxşamırdı, amma yaxşı ki, inanmasa da, heç nə soruşmurdu.

Günlərsə keçirdi. O, işə gedirdi, yataqxanaya qayıdırdı. Gecələr arvadının onu çağıran əlləri neçə-neçə əllərin içində görünməz olurdu. O, yolayrıcında dayanıb hey düşünürdü, daşınırdı, avtobuslar dolub gedirdi, onun evinin yanından keçirdi. Avtobusun qapıları şaqqıldadıqca arvadı əlindəki işi qoyub tələsik eyvana çıxırdı. Bu baxışların altında yüzcə addımı getməmək üçün o, həmin avtobusda olmurdu, həmin dayanacaqda düşmürdü.

Yaxşı ki, hər şeyi təzədən düşünüb bir fikrə gəlmək üçün gecələr var.

Amma neyləyəsən ki, gecə düşündüklərinə şübhə eləmək üçün bu dünyanın səhərləri də vardı.

# UDUŞ

Axşam-səhər soyuq olurdu. Günorta isə dağ-daş, qırmızı kirəmitli evlər, yolların tozu hopmuş ağaclar dağlar arasındakı boşluğu dolduran gün işığında yazıq görünürdü. Adamlar günorta istisindən daldalanmağa yer gəzirdi, onların öz istisi özlərinə bəs idi. Bircə çay adamlara oxşayırdı, dağlar arasındakı boşluğu liməlim dolduran gün işığından qaçıb qurtarmağa çalışırdı. Amma hey axırdı, axırdı, kənddən çıxa bilmirdi.

Qollarını hiss eləmirdi. Biçdiyi otun daha səsini də eşitmirdi. Biçdiyi ot da deyildi, günün saçaqlarıydı, sarımtıl gün saçaqları parıltılı-parıltılı yanıüstə düşüb qalırdı. Hərdən başını qaldıranda qıyılmış gözləri arasında günəş bir damcı yaş kimi titrəyirdi, gözünü bircə dəfə qırpmağa bəndiydi qopub düşsün.

Çay yüz addımlıqdaydı, ancaq burdan görünmürdü. Suyu sopsoyuq idi, təmiz idi. Qızıl xallı balıqlar gözə görünmədən öz gümüşü dünyalarında sevişirdilər, kürü tökürdülər, böyüyürdülər. Kəndin qurtaracağında şam ağaclarının yanına dəyələr səpələnmişdi. Dəyələrin böyründə maşınlar dayanmışdı, toyuq-cücə üçün bir parça yer

çəpərlənmişdi. Tumançaq kənd uşaqları titrəşə-titrəşə çayda çimirdilər, iki-üç şəhər uşağısa analarının hədəsindən və xəstələnməkdən qorxub, əlləri cibində həsədlə çimənlərə baxırdı. Onların böyük qardaşları cır armud ağacının altda qumar oynayırdı. Şəhər uşaqları bu işdə daha pərgar idilər. Çəmənlikdən qızların gülüşü eşidilirdi, palaz salıb yamacda oturmuşdular, hamısı da göyçək idi: kənd cavanlarının ürəyini çəkən dolu sinələri, qaynar gözləri vardı. Və onların məmələrinin tez çıxması kənd cavanları üçün sirr idi.

Buradan kəndin ancaq kirəmitli damları görünürdü, şamlıq görünürdü.., dəyələr, maşınlar, toyuq-cücə üçün çəpərlənmiş yerlər, yamacda oturmuş şəhər qızları görünmürdü, gülüşləri eşidilmirdi. Amma baxmaya-baxmaya qırmızı kirəmitli darvazasız bir evin həyətində uzun, arıq bir qadının təndirdə çörək bişirdiyini də görürdü. Qadın səhər çayda qaynar asmışdı, sonra meşəyə moruq yığmağa getmişdi, indisə çörək bişirirdi, böyründəsə beş-altı uşaq ayaqüçtəcə təndirdən çıxmış çörəklə soyutma kartof gəvələyirdi. Sonra qadın qurumuş paltarları yığacaqdı, ütüləyəcəkdi, sökülmüş yerlərini çitəyəcəkdi. Qadın heç vaxt işsiz qalmayacaqdı, Yer eyni yolu fırlandığı kimi, o da hər gün eyni işləri görəcəkdi; çörək bişirəcəkdi, paltar yuyacaqdı, paltar yuyacaqdı, çörək bişirəcəkdi, çörək… Və dünyanın ən açılmaz sirri də ondaydı ki, ömrü boyu gördüyü bu işlərdən o, heç vaxt bezməyəcəkdi.

Kərəntini tullayıb özünü ağacın altına saldı. Bədəni getgedə kiçilirdi, əlləri, ayaqları üyüşüb balacalaşırdı, torpaq bu kiçilən bədəni yüngülcə fırlada-fırlada aparırdı.

Gözlərini açdı. Bir əlçim bulud dartıb onu çəkisizlikdən çıxartdı. Uzandığı yerdəcə əlini atıb kupədəki suyu boyunboğazına tökdü. Su ılıq olsa da, sərinlətdi. Gözləri böyüyüb

səmayla bir oldu, topa-topa ağappaq buludlar genişlikdən ləzzət ala-ala uçuşurdu.

Yumşaq meh əsdi. İslanmış yerlər üşüdü. Meh biçilmiş otun ılıq qoxusunu da gətirdi. Tanış qoxudan nəfəsi genəldi. Meşənin ətəyindən axan çayın soyuq şırıltısını elə bil indi eşitdi. Göy üzünün maviliyi, təkəmseyrək buludların ağlığı, yumşaqlığı, meşənin sıxlığı, intəhasızlığı; bu gördüklərinin, görmədiklərinin varlığı, gözəlliyi bir udum havayla içinə doldu. Xoşbəxtlik soyuq diliylə içini yalayıb keçdi, yorğun bədəni qov kimi yüngülləşib çəkisini itirdi.

Arvadı bir azdan gəlməliydi. Səhər çayda paltar yumuşdu, təndirdə çörək bişirmişdi, arada vaxt tapıb moruq yığmağa qaçmışdı, indi də bura gələsiydi.

Axır vaxtlar arvadından çəkinirdi. Arvadı bir yana. Uşaqlara söz deməkdən, üstlərinə acıqlanmaqdan da qorxurdu. Nədənsə özünü onların qarşısında günahkar bilirdi. Hərdən lap özünü itirirdi. Durduğu yerdə xoflanırdı. Ona elə gəlirdi, bu saat nəsə olacaq, analı-balalı onu yamanlayacaqlar, söyəcəklər, əllərinə keçəni üstünə qolaylayacaqlar.

Bu hiss, bu qorxu, vasvasılıq onda biletləri alandan sonra yaranmışdı. Birdən önündə işıq yanmışdı. Çoxdan unutduğu bir işıq. Uşaqlıqda bütün dünya bu işığın içindəydi. Sonra get-gedə bu işıq öləziləyib itmişdi, unudulmuşdu. Və indi qəfilcə peyda olmuşdu. Özünü də, həyətbacada ayaqyalın qaçışan uşaqlarını da, görən olmasın deyə qoyun-quzu üçün gecələr belində ot daşıyan arvadını da bu işıqda görmüşdü.

Falçı demişdi, dörd bilet al. Nə beş, nə altı – dörd. Özü də əlli qəpiklikdən. “Udacaqsan, a qardaş, Allah rast gətirsə, mənim də nəmərimi verərsən”.  O, fal deyilən şeyə inan-

mazdı. Amma gedib almışdı. Və həmin işıq, milyon il bundan qabaq içində üzdüyü həmin işıq birdən peyda olmuşdu.

Nə udacaqdı? Bu haqda heç fikirləşmirdi də, bəlkə on il, on beş il əvvəl onda belə bir ümid oyatsaydılar, nəsə düşünərdi, gözünün qabağına nəsə gətirərdi. İndisə bu haqda fikirləşə bilmirdi, amma inanırdı ki, nəsə olacaq, nəsə dəyişəcək.

Elə o ilğımabənzər ümid deyildimi cavanları kənddən qaçıran?! Bu kəndin başı üstündə öz səması varıydı, dağların arasından görünən səma adamları harasa çağırırdı. Elə bilirdilər hardasa bu səma daha genişdi, daha dərindi; gedirdilər, axtarırdılar, ancaq hər yerdə eyni səmanı görürdülər, kimi qayıdırdı, kimi bezib orada da qalırdı, kimi yenə axtarırdı. Nəyi axtarırdılar, nəyi? Kosmonavtlar dəlib-keçdilər bu geniş, buludlu səmanı, gəzib-gəldilər ki, orda həyat yoxdu.

Motor səsi eşidildi. Hər şey birdən öz içinə çəkildi; çay şırıltısını kəsdi, biçilmiş ot qoxusunu itirdi, ağaclar nəmli kökləri̇lə torpaqdan daha möhkəm yapışdılar.

– Ayyə.., gedən varmı, yazıqsınız, gəlin aparım, gəlirsiniz?

Kimsə “gəlirik” dedi. Bir azdan yenə motor səsi eşidildi. Səs get-gedə uzaqlaşıb itdi. Dağ-daş rahatca köks ötürdü, ağaclar dikəlib itən səsin arxasınca boylandı. Sonra çay döngəsində yük maşınının özü göründü. Maşının qulaqlarına çatmayan səsini bu dəfə gözlərilə eşitdi. Batan günün işığında kərəntilərin ağzı parıldayırdı.

Adamsızlıq, səssizlik ona xoş gəldi. Özünü qıvraq hiss elədi. İşləmək üçün qalxıb kərəntini götürdü, amma bir ağız çalan kimi həvəsdən düşdü, yenə kərəntini atıb ağacın altına çəkildi.

Qaranlıq, göyün xıltı kimi yerə çökürdü. Kolluqlar, çəmənlik artıq qaranlıqdan seçilmirdi. Bir topa mığmığa işıqla qaranlıq arasında çırpınırdı.

– Mən də deyirəm, görən, hardasan. – Uzun, arıq qadın başının üstə dayanmışdı. Bir əlində kəndir varıydı, bir əlində bağlama. – Xeyli çalıbsan deyən. Sabah Noruzu yolluyummu?

Qadın elə qızlıqdan belə arıq idi. Sonra da kökəlmədi ki, kökəlmədi. Damarı çıxmış ayaqlarına corab geyinmişdi.

– Yolla, – dedi, – bəs indi hanı?

– Bilmirəm. Demişdim, heç hara getməsin.

Dünəndən gizlicə ot biçmişdi. Arvadı gəlmişdi onu apara.

– Bilmirsən, indi tək apararsan. Başlı-başına buraxmısan. Ev bilmirlər, eşik bilmirlər, kino olsun bunlardan ötəri.

Qadın dillənmədi. Ərinin danışmasından, hirslənməsindən heç vaxt darılmırdı, incimirdi. Bircə susmasından qorxurdu.

Kəndin klubu yox idi. Yaydan-yaya dəyələrdə göstərmək üçün rayondan hərdənbir kino gətirirdilər. Onda da uşaqları evdə saxlamaq olmurdu. On beş gün qabaq özü də getmişdi. Qonşusu Dursuna baxıb arvadı, uşaqları da yığıb aparmışdı. Birinci səfər idi ki, beləcə hamılıqla gəzintiyə çıxırdı. Uşaqlar sevindiklərindən oynaqlaşa-oynaqlaşa qabaqda gedirdilər; hərdən nəyisə ona göstərirdilər, qışqırırdılar. Arvadı dalca gəlirdi. O bilirdi, arvadı da gülümsəyir. Və o, bu sevincə baxa bilmirdi. Nazlı körpə kimi özünü istədəcək bu sevincin sabah qabağında dura bilməyəcəyindən, kif atıb ürəklərini bulandıracağından qorxurdu.

Ay çıxmışdı. Amma gündüzün işığı hələ tamam çəkilib getməmişdi. Qaranlıq düşdükcə hər şey cana gəlirdi; çayın uğultusu get-gedə artırdı, ağacların xışıltısı, otların titrəyişi eşidilirdi.

Arvadı qaranlıqdan qorxurmuş kimi, hündürdən danışırdı. Otu yığana qədər bildi ki, lap balacanın bu gün qarnı ağrıyıb, moruq bişirmək üçün dükandan iki kilo şəkər alınıb, qaz lap az yanır, deyəsən, balon boşalıb, ortancıl gedib çayda paltar-palazlı çimib, kişi şəhər qızlarından utanırmış. Dursun Novruza bir dilim qarpız veribmiş, uşaqlar qarpızın üstündə dalaşıblar, qız gör nə deyir: "Ürəyim qısıldı", qısıldı ha, həyasızı görürsənmi, lap əkə-bikə arvadlar kimi danışır…

Çayın uğultusu dünyadakı bütün səsləri batırmışdı. Dağ çayı ancaq gecələr axır – bunu uşaqlıqda kəşf eləmişdi. Səhərsə kənd oyanırdı, kişilər atlı-atsız çayı keçib biçinə gedirdilər, arvadlar qaynar asıb paltar yuyurdular, uşaqlar soyuq suda çimişirdilər və bütün bu qayğılar çayın səsini batırırdı. Və ancaq gecələr çay axmağa başlayırdı: uğuldayırdı, guruldayırdı, elə bil gecə səssizliyində nələrisə yatanların yadına salmağa çalışırdı. Uşaq vaxtı başa düşdüyü, ürəyini titrədən bu səs illər keçdikcə onun üçün də anlaşılmaz oldu, işıq kimi illərin arxasında itib qaldı.

Atası Məcid kişi nə vaxtsa gətirib dibçəkdə limon əkmişdi, tanış-bilişi də güldürmüşdü özünə, çünki dədə-babadan bu yerlərdə limon bitmirdi, dibçəkdə əkməyin də xeyri yoxdu. Gərək iş-gücünü buraxıb düşəsən bir dənə limonun dalına, nazını çəkəsən. Hardandı o fərasət, o həvəs atasında.

Doğrudan da, limon böyüdü, yarpaqladı, amma bar vermədi.

O vaxt fikirləşmişdi ki, hər ağacın öz torpağı olduğu kimi, bəlkə hər adamın da öz torpağı var. Görən, nə olardı o, bu kənddə böyüməsəydi, yaşamasaydı; gözünü Bakı kimi, ya Paris kimi bir şəhərdə açsaydı?! Yenə həmişəki adam olardı, yoxsa nəsə dəyişərdi?! Gülgəz arvad ağzını

marçıldada-marçıldada onu haylayırdı: "Ədə, dədən içib orda, get köməy elə".

Atası çayın içinə uzanıb başını qoymuşdu daşın üstünə, yatırdı.

– Dur gedək, ay dədə.

– O yana dur, balıq tuturam.

– Dur, dur gedək!

Atası başını qaldırırdı, gözləri bic-bic qıyılırdı.

– Hara gedim, köpəyoğlu, sən de, hansının yanına gedim?

Onun üçün daha fərqi yoxdu atası hansının yanına gedəcəkdi. Daha anası da öyrəşmişdi buna.

– Hara kefin istəyir ora get, bircə burdan dur.

Görən, nə olardı, əgər atası Məcid kişi olmasaydı? Nə dəyişərdi?

Bəs sabah bunu onun öz uşaqları düşünsəydi nə olacaqdı? Hıqqana-hıqqana kürəyində ot daşıdığı yerdə ona baxıb köks ötürsəydilər nə olacaqdı?

"Dörd bilet al, udacaqsan". O da inanıb almışdı. Axı nə dəyişəcəkdi? Nə idi bu ümid? On il, on beş il əvvəl olsaydı, bəlkə də…

Kəndirlə sıxıb otu bağladı. Yaş otun ılıq qoxusu gəlirdi. Bu qoxu ona ən tanış qoxuydu. Bəlkə də elə ana bətnində ona hopmuşdu bu qoxu, bu qoxunun içində də böyümüşdü, bütün dünyası bu qoxuya bələnmişdi. Ona görə bu qoxuyla təkbətək qalanda ağlamaq istəyirdi. İlıq ot qoxuyan dünya onu çəkib harasa aparırdı. O, bu vaxt özünü hiss eləmirdi, bircə sonsuz rahatlıq, sonsuz qüssə duyurdu. Və bu qüssənin niyə belə cəlbedici olduğunu anlaya bilmirdi.

Qadın əlini ayaqlarına çəkib ufuldadı, elə bil ayaqlarından yorğunluğu sıxıb çıxarmaq istəyirdi.

– Bağlama ağacın altındadı, səhər də yeyərsən, Noruzu ertədən yollayacam.

O dillənmədi. Oturub altdan-yuxarı arvadının uzun qaraltısına baxırdı.

Dünya qəribə qurulmuşdu. Niyə axı bu qadın dinməz-söyləməz özünü ona tapşırmışdı, ondan altı uşaq doğmuşdu, indi də onun, uşaqlarının əziyyətini çəkirdi? Niyə? Elə ona görəmi ki, arvadıydı, bunu eləmək borcuydu?!

İşıqla peyda olan qorxunun səbəbini birdən anladı. Görən, indiyə kimi niyə bunu unamamışdı. Unamamışdı ki, bəlkə bir qadının və əkdiyi altı uşağın qarşısında özünü günahkar hiss etdiyi o işıqdan başqalarının da xəbəri varmış, bəlkə uzun, arıq qadın da milyon il əvvəl həmin işığın içində üzürmüş, bəlkə bu qayışbaldır uşaqlar da indi o işığın içindəydi. Və bəlkə başları üstündəki səma, dağların arasından görünən dumduru göy bu qadını da harasa çağırırdı, ərini, altı uşağı, içib çayda "balıq tutan" qayınatasını qoyub harasa qaçmaq istəyirdi?!

"... həyasıza bax, sən Allah, lap əkə-bikə arvadlar kimi danışır".

Qadını ömründə özünə bu qədər yaxın, bu qədər doğma hiss eləməmişdi. Bədənində xoş bir gizilti harasa can atırmış kimi titrəyirdi. Bu elə bil ömrü boyu özündən və qadından gizlətdiyi ən əziz, ən təmiz bir şeydi, onu qadına indi də verməsəydi, daha heç vaxt verə bilməyəcəkdi.

Qadını özünə tərəf çəkib arxası üstə yıxdı, amma gizilti həmin andaca söndü, bircə öz yorğunluğunu hiss eldi, bədənində yenə o titrəyişi duymaq üçün sifətini otun arasına soxub gözlədi.

Meşə də nəyisə gözləyirmiş kimi susmuşdu...

Ayın üzünü örtməyə bir əlçim bulud da yox idi, bir göy tənhalıqda qızara-qızara qalmışdı.

Vaxtı çatanda lotereya biletlərini axtarıb tapmadı. Gün keçdikcə biletlərlə peyda olmuş o işıq da elə biletləri tapmaq ümidilə öləziyib söndü. Və ancaq iki il sonra nəsə axtaranda biletləri tapdı.

Qış idi. Hər yanı qar basmışdı. Kənd dünyadan əl-ayağını üzüb, ayı kimi qış yuxusuna getmişdi. Uşaqlar Dursungildə televizora baxırdılar. Arvadı çarpayıda oturub təzəlikcə doğulmuş körpəni əmizdirirdi, o isə sönüb getmiş işığın işartısını içində hiss eləyə-eləyə biletlərə baxırdı.

Bir ara fikirləşdi, yol-iz açılanda aparıb biletləri rayonda yoxlatdırsın. Amma qorxdu ki, birdən udmuş olar. Vaxtı keçmiş biletlərəsə udsa da, heç nə vermirlər.

Yaxınlaşıb pəncərəni açdı, biletləri xırda-xırda cırıb, yağan qarın ayağı altına atdı.

# TƏPƏGÖZ, QARIŞQA VƏ UŞAQ

Heç yadına düşmədi. Anasının heç yadına düşmədi Təpəgöz. Bilirdi ki, hamı onu öldürmək istəyir, amma yadına düşmədi. Ayrılanda Təpəgöz anasının əlindən öpdü, dedi: "Ana, siz məni dolandırammazsınız, mən gedim öz başımı saxlayım". Deyib getdi. Sonra heç görüşmədilər.

– Ayağını düz tutsan... elə bil topaldı! Yekə kişisən, ancaq ayaqqabını da mən geyindirirəm. Sən niyə belə fərsiz oldun...

Görən, anası bildimi Təpəgözün öldüyünü? Bilsə, ağlayacaq. Uşaqları yox idi, bircə Təpəgözdü. O da öldü.

– Küçəyə çıxmırsan! Eşitdin?! Maşının biri gəlib, biri gedir. Ciyəri yanmışlar da elə sürürlər, deyirsən, ilan ağzınnan qurtarıblar, sən də hәlləhuş, ayağının altına da baxmırsan. Daha hər gün paltarını dəyişməkdən bezmişəm.

– Safuyə, bə anası biymədi Təpəgözün öldüyünü?

– Nə? Bildi, bildi, başına-gözünə döyüb ağladı, dedi, nər kimi oğlum getdi əlimnən... Bir o yana qaç, qoy bir paltar mərətimi geyinim. Əməllicə quyruqsan, hara gedirəm, dalımca düşürsən. Ölsəm, canım qurtarardı əlinizdən.

– Safuyə...

– Nədi, yenə nə olub?

– Təpəgöz niyə adam yiyiydi?

– Kefi elə istəyirmiş. Sən toyuq yeyirsən, o da adam.

– Bə adam yeməsə, acınnan öyəymiş?

– Bilmirəm. O yana çəkil... Dədən gələndə onnan soruşarsan. Qulağımı lap dəng elədin: “Safuyə, Safuyə...” Allahın sözünü də düz-əməlli danışammırsan. Bir “r-r-r” de görüm.

– ...

– Demirsən, demə. Bura bax, tək qalmağa könlün yoxdu, aparım nənənin yanına. Aparım?.. Dilini udubsan?! Allah, bu danışmayanda nə yaxşı bala olur, nə gözəl bala olur. Qoy bir öpüm səni... Oğul balamdı bu mənim, noğul balamdı bu mənim. Di burnunu sallama... Yaxşı, mən qaçım, soruşan olsa, denən qonşudadı. Həyətdən heç hara tərpənmə, birdən qaraçı-zad gələr, yığıb aparar evimizi. Oldumu?.. Bax belə, ağıllı balasan... Gör nə gözəl havadı! Gül gülü çağırır, bülbül bülbülü... Üşüsən, jaketi geyin əyninə, taxtın üstündədi, yaz havasınnan zarafat olmaz... Günortaya qayıdıb gəlirəm. Kibritə əl vurma ha!

Yaz idi, torpağın qırışığı açılmışdı, ağacların sevincdən çiçəyi çırtlayırdı. Hərdən havalar tutulurdu da, buludlar günəşin gözündən oğurlanıb iri-iri damcılarla puçurlu budaqları döyəcləyirdi. Buludların doğulduğu göylərdə hələ istilər düşməmişdi, çünki damcılar sopsoyuq olurdu; buludların kölgəsi də soyuq olurdu, o kölgənin altında hamı birdəncə üşüyürdü, qapılar örtülürdü, sobalara yenə odun atılırdı, bacalardan tüstü burumları çıxırdı. Uşaq onda inanırdı ki, göyə millənən ipisti tüstü burumu gedib buludları qızdıracaq, daha bundan sonra isti yağışlar yağacaq, o da isti gölməçələrdə ayaqyalın gəzəcək...

Bayaqdan çölə qaçmaq istəyirdi. Ağacların altında oynayacaqdı, kəpənəklərin dalınca götürüləcəkdi, ancaq anasının getməyilə elə bil ağacların çiçəyi soldu, günəşin istisi azaldı. Uşaq bilmədi nəyə baxsın, nə eləsin, hara getsin. Söykəndiyi alma ağacının gövdəsi ilə bir qarışqa yuxarı dırmanırdı. Barmağını qabağına qoydu. Qarışqa bir az dayandı, sonra sakitcə barmağının böyründən keçib, yenə yuxarı dırmandı. Qarışqa, deyəsən, onu görmürdü, yoxsa qorxub qaçardı. Yəqin o, çox böyükdü, buna görə qarışqa onu görmür. Yəqin buna görə də o, Təpəgözü görmür. Çünki Təpəgöz çox böyükdü ondan.

Tinə nahaq çıxdı. Anası görsə, hirslənəcək. Ancaq hirslənib döyəndən sonra anası onun yanından getməyəcək. O da daha darıxmayacaq.

Qonşunun həyətində iri, qara qazanlar asılmışdı, çadır qurulmuşdu. Çoxlu da adam var idi. Anası, yəqin ki, ordadı. Özü orda söhbət eləyir, danışıb-gülür, heç demir o, tək qalıb.

– Dur burdan, dur! Bə deməmişdimmi, eşiyə çıxma?! Günümü göy əskiyə bükübsən... Ayağını sürümə, tez gəl. Başqaxıncısan ma, görən bə nə deyir, domuşub gözünü zilləyibsən qazana. Yazıq, lap acınnan ölürsənmiş...

Daha evə gedirlər. Bircə onu evdə qoyub yenə qayıtmaya.

– Acmışdın götürüb bir tikə çörək alaydın ağzına. Çörəyin də yerini bilmirsən?! Dayan, ayaqqabılı çıxma. Evzad görmüyübsən ha, meşədə böyüyübsən. Di gəl, otur. Halva yeyirsən, ya plov? Yaxşısı budu, qabaqca plov ye. Ala, bu da qaşıq, götür. Ona kimi su qoyum qızsın, çim, qardaşın da dərsdən gələndə çimər.

Anası su qoyub, sonra paltarını dəyişdi: qolsuz, bənövşəyi don geyindi. Açıqda qalmış qolları elə ağappaqdı ki, o

istəyirdi gedib anasına sığınsın, qolunu öpsün, sığallasın, üzünə söykəsin.

– Niyə yemirsən? Bə ac döyüldün gəlib oranı niyə kəsdirirdin? Mən də üzümə salıb buna yemək gətirmişəm ki, uşaq birdən şişər. Nə mat-mat baxırsan?

– Safuyə, qoy qoyunu öpüm.

– Ətimi tökmə, sən Allah. Yaman da elə qolum var... Di üzmə məni, yeyirsən, ya yox?

– Yemiyəm.

– Heç yemə. Onda suyunu soyuqluyum, çim əldən çıx. Bir azdan dədən gələcək, qardaşın məktəbdən qayıdacaq... Vur-çatdasını hələ qabaqdadı. Vay, vay, vay, belimi saldı bu vedrə. Eh, ananızın bir sağ canı da yoxdu hərbə-zorbanıza dözsün... Dur ayaq üstə görüm, şalvarını çıxarım. Piş-piş eliyirsən, get elə. Balkona çıxma, paltarsızsan, odu bax, kuxnada vedrə var... Gəl di, tez ol. Bircə xəstələnməyin çatışmır. İstiliyi yaxşıdırmı?

Yaxşıydı. Ancaq bədəni islanan kimi üşüdü. Əlini atıb bərk-bərk anasının qolundan yapışdı.

– Üstümü batırdın, farağat dur. Onda çimizdirəmmərəm axı səni...

Anası dalbadal başına iki-üç dolça su tökdü. Su gözünə, ağzına dolub onu təntitdi.

– Gənə su tök, beyimə tök, beyimə.

– Darıxma, qoy başını sabınnayım... belə. Gözünü yum, sabın düşməsin... Bax, dədən də gəldi. Görürsənmi, dədəsi, nə qoçaq oğlun var, özü əl çəkmir ki, məni çimizdir.

– Bə ağzında oğul deyirsən, oğul da çimməkdən qorxar?!

– Dədəsi, nə olar, su tök oğlunun başına, tezcə sabınını yuyum.

– Gərək o saat mənə iş tapasan da...

– Bir də tök... hə, oldu göyçək oğlan. Daha kimin ağzı nədi balama qız verməsin... Səbrin çatmırsa, özünə çay süz.

– Özgə nə əmrin var, yoldaş xanım həzrətləri?.. Bu ılıqdı ki...

– İlıqdı?

– Yox, səni aldadıram.

– Eh, heç bilirəm ki, neyləyirəm... ölü yerinnən indicə gəlmişəm.

– Demək, yemək də çika?

– Var... bir az hövsələni bas.

– Basdım... çarəmiz nədi. Sən niyə əlini qabağına tutubsan, ə? Quş tapıbsan?

– Uşağı utandırma.

– Əlini çək görüm. Sənnən döyüləm?!

– Bəsdi, sən Allah.

– Çək əlini! Çək! Bax belə... Bu da kişi olub ə, utanır. İndi bərk tut, birdən qaçar.

Atası şaqqanaq çəkib güldü. O istədi əlini yenə qabağına aparsın, amma apara bilmədi, dizlərini bir-birinə sıxıb büzüşdü...

Vedrənin dibində qalan suyu başından carlayıb anası onu dəsmala bükdü. Qucağına alıb taxtın üstünə qoydu. Sonra dəsmalla yaxşı-yaxşı quruladı. Qardaşı gələndə o, artıq paltarını geyinmişdi, oturub hörtdədə-hörtdədə çay içirdi.

– Salam.

– Ay əleyküməssalam. Bə sazdımı xalan?

– Sazdı... Dədə, Nağı da gəlib, e.

– Xoş gəlib, səfa gətirib. Nağı kimdi?

– Dostumdu. Utanır e, gəlməyə.

– Utanır, üzünə ələk tutsun.

– Gəl da... budu bax. Dədə, muskulunu şişirt, Nağı görsün. İnanmır e, sənin hamıdan qüvvətdi olduğuna.

– Elə şey olmaz! Yalan deyirsən!

– Vallah, düz deyirəm.

– Yaxşı, bu saat görsədim inansın...

– Gördün ə, gör nə şişdi.

– Dostun qaçdı ki...

– Sənnən qorxdu da... Yaman şişirtdin ha. Birdən partdıyar e, dədə. Partdamaz?

– Partdasa, başında partdıyar. Bir başını bura gətir görüm...

Pəncərənin önündən çoxlu-çoxlu adam gəlib keçirdi. Qabaqdakılar çiyinlərinə alıb nəsə aparırdılar – üstünə qara çadra tutmuşdular.

– Safuyə, bunnay nə apayıy?

– Çəkil ordan, çəkil. Hər şeyə baxmazlar. Təpəgözü aparırlar da, aparırlar basdırmağa.

– Təpəgözü?

– Hə, hə.

İndi yəqin hamı sevinir Təpəgözün öldüyünə. İstəyirdilər ölsün – öldü. Bəs sonra nəyə sevinəcəklər?..

Anası əlindən yapışıb onunla həyətə düşdü. Cığırı tutub bağa getdilər. Gilənarın ağ çiçəkləri torpağa tökülmüşdü. Başlarının, yaşıl otların üstündən qanadları zərli bir kəpənək uçub çəpərə qondu.

– Gəzməyə çıxıbsınız deyən, ay Safurə?

Kəpənək qonşudakı arvadı görüb uçdu. Dövrə vurub yenə qayıtdı, elə bil hara qonacağını bilmirdi – öz kölgəsinin arxasınca düşmüşdü.

– Boy, sənsənmi, az... Çoxdandı görünmürsən.

– Hal varmı ki, görünəm. – Qonşudakı arvad əlini iri qarnının üstünə qoyub yorğun-yorğun gülümsədi.

– Vaxtı çatıb deyəsən?

– Hə. Özümü gəzdirə bilmirəm. Elə də yuxucul olmuşam ki, lap ayaq üstündə yatıram.

– Yat da, qoy bir az da qaynanan işləsin.

– Sən də bəxtəvərlikdən dəm vurursan.

– Qorxma, inşallah, yaxşı olar.

– Görək da... Nə göyçək uşaqdı bu. Balacandı?

– Hə.

– Daha uşaq istəmirsən?

– Yox əşi, neynirəm daha uşağı, ikisi bəsimdi.

– Mənimki ağzını açanda altı-yeddi deyir.

– Nə vecinə... Mənciyəz istəmirəm.

O, heyrətlə, qorxuyla anasına baxırdı: görən, doğrudanmı, hər şey anasından asılıdı? Doğrudanmı anası istəməsəymiş, o, bu tumurcuqlu ağacları, yaşıl otları, kəpənəyi görməyəcəkmiş? Bəs onda o, harda olacaqdı?

Uşaq nəyisə başa düşməyə çalışır, ancaq bacarmır. Qorxu dünyanı gözəlləşdirib. O, ürkək-ürkək ətrafına baxır. Baxır, baxır və eşitdiyinə inana bilmir. Uşaq ömründə ilk dəfə tənhalığı hiss eləyir.

## SULU QAR

Çətirdən su damcılayırdı. Qatlayıb suyunu çırpdı. Sonra ötəri üstünə baxıb, islanıb islanmadığını bilmək istəyirmiş kimi əlini plaşına çəkdi. Hələ başını qaldırıb yan-yörəsinə baxmamışdı. Yenə baxmadı. Dikdaban çəkmələrilə parket döşəməni taqqıldada-taqqıldada teleqram blankları, qələm, mürəkkəbqabı qoyulmuş stola sarı getdi.

Qadın o vaxt ətrafına baxdı ki, daha heç kim ona baxmırdı. Hərə öz qayğısının içində vurnuxurdu: kimi blank doldururdu, kimi sifariş verdiyi danışığı gözləyirdi, kimi avtomat-telefonda nömrə yığırdı. Ancaq qapı açılıb-örtüləndəcə başlar qeyri-ixtiyari içəri girən adamın sir-sifətinə, əyninə baxmaq üçün həmin səmtə çevrilirdi: görən, indi hava necədi!

O, qadından gözünü çəkib iri, sal şüşəyə yaxınlaşdı. Küləyin, sulu qarın küçədə çıxartdığı oyunları qaranlıq gizlədəmmirdi. Elə bil hamının qoluna girmişdilər, kimisə darta-darta çəkib aparırdılar, kimdənsə sallaşmışdılar, qoymurdular addımını atsın. Ordan-burdan düşən titrək işıqda nə yoluq ağaclar, nə tələsən adamlar öz kölgəsini azdıra bilmirdi. Təkcə binalar necə varsa da eləcə – ağır-arxayın, hamıya, hər şeyə laqeyd öz kölgələrinin üstündə möhkəmcə dayanmışdılar.

Burda daldalanmağı yaxşı oldu. Burda istədiyi qədər gözləyə də bilər, heç kim ona fikir verməz, çünki burda hamı nəyisə gözləyir. Həm də yaxşı oldu ki, evə də zəng elədi. Yoxsa neçə vaxtdı narahatdı, hər gecə yatağa girəndə zəng vurmadığına görə özünü danlayırdı. Daha beş-on gün bu narahatçılıqdan canı qurtardı. "Rəhman özünü asıb..." Anası, yəqin, söhbətləri maraqlı olsun deyə dedi. Qorxdu oğlu birdən elə fikirləşər ki, orda camaat çox sönük, cansıxıcı ömür sürür. O da tələsik heyrətləndi: "Asıb?! Niyə axı?" Qoy anası da bilsin ki, bu, onu doğrudan da, çox maraqlandırır, hətta düzəməlli tanımadığı adamın halına da acıyar.

Qapının yanında bir oğlanla qız utancaq-utancaq nəsə pıçıldaşırdılar. Hiss olunurdu ki, yenicə evləniblər, bir-birilərini hələ yaxşı tanımırlar. Ona görə tez-tez gülümsəyirlər, çalışırlar bir-birilərinin xoşuna gəlsinlər. Həmişə belədir: xoşa gəlmək üçün, yaxşı adam olduğuna inandırmaqdan ötrü əvvəl-əvvəl dəridən-qabıqdan çıxırsan, hər hərəkətini ölçüb-biçirsən, üzündən təbəssüm əskik olmur. Elə ki, ürəyinə girdin, yaxşı adam olduğunu sübut elədin – rahatlanırsan. Sonra sancmaq da olar, incitmək də, yeri gələndə saymamaq da: qoy günahı özündə axtarsın, mən ki, özü bilir, yaxşı adamam?! Ancaq hər şeyi bəlkə də axırdan başlamaq daha maraqlı olar. Qoy əvvəl-əvvəl səndən zəhləsi getsin, sonra yavaş-yavaş nələrsə tapıb, başlasın xoşlamağa. Hə, onda aldanıldığını düşünüb ümidsizləşməzsən.

Rəhman onunla yaşıd olardı, ya ən uzağı, üç-dörd yaş böyükdü. Nədənsə, çox vaxt cavan adamlar özünü öldürür. Ola bilsin, cavanı həyata bağlayan şeylər azdı ki, həmin bağları qırmağa da o qədər heyifsilənmir. İndi tanıyanların hamısı, qohum-qardaş yığışıb yasına gedir, kədərlənir,

ağlayır, ona yazıqları gəlir. Görən, bu adamlar bir-birilərinin üzünə necə baxırlar? Axı, o öz əcəlilə ölməyib – özünü öldürüb. Demək, onların içində eləsi olmayıb ki, bu fikrə düşəndə, onu yadına salıb əlini saxlayaymış.

Bəlkə heç bu gün hava düzəlmədi, elə burdamı qalacaq? Gedib teleqram blankları qoyulmuş stolun yanındakı boş stulda oturdu. Stolun altında sarı zibilqabı vardı, qalaqlanmış kağız-kuğuzla ağzınacan dolmuşdu. Blankın birini də qabağına sürüşdürüb o qaraladı, ağzına gələni yazdı, pozdu, sonra ovcunda yaxşı-yaxşı əzib zibilqabına atdı.

Kabinələrin şüşəsinə qırmızı rənglə şəhərlərin kodu yazılmışdı. Kiyev, Rostov... Şəki, Xaçmaz... – bu şəhərlərdə, deyəsən, onun zəng vura biləcəyi heç kim yoxdu. Gərək ki, olmasın. Nahaq qeyd kitabçasını özü ilə gəzdirmir. İndi, yəqin, bir telefon nömrəsisə tapardı.

Bayaqkı çətirli qadın əlində teleqram blankı, arakəsməyə söykənib növbə gözləyirdi. İçəridəki vurnuxmaya, bayırdakı havaya uyuşmayan qəribə bir sakitlik, işıq varıydı üzündə. Pəncərədən baxa-baxa hərdən nəyəsə dalğın-dalğın gülümsəyirdi, onda balaca, yumşaq dodaqları azca dartılırdı, yanağı çökəlirdi. Arada nə qədər özünü saxlamağa çalışsa da, əsnədi. Heç kim görməsin deyə, başını plaşın yaxasına tərəf əydi: gözləri qıyılıb itdi, sifəti bürüşdü, kirpiklərinin dibi islandı. Əsnəyib qurtaranda bir an çöhrəsi daş kimi ifadəsiz oldu. Sonra bircə dəfə gülümsəməyə bəndiymiş kimi, üzünə yenə işıq çiləndi.

O istəməsə də, baxışlarını qadından qaçırtdı. Görən, əvvəllərdədəmi gözəllik ona qüssə gətirirdi?

Çalışdı Rəhmanın sifətini təsəvvürünə gətirsin – bacarmadı. Hündür, şaqqalı oğlan olmağı yadındadı, ancaq

sifətini xatırlayammır. Heyif, tanış deyildi onunla. Həmişə eşidəndə ki, kimsə özünü öldürüb, peşmançılıq hissi keçirir, həmin adamla yaxın olmadığına heyifsilənir. Ona elə gəlir ki, belə adamlar heç kimin bilmədiyi nəyisə bilirmiş.

Görən, heç olmasa, külək kəsmişdimi? Durmağa ərindi, ayağını ayağının üstünə aşırıb yerini lap rahatladı. Qəribəydi – öz ölümü haqda heç vaxt qorxu ilə fikirləşməyib. Yəqin, ölüm hələ ondan çox uzaqdı. Ancaq bir dəfə ölümü hiss eləyib. Qürub çağı eyvanda durub çiçəkləmiş ağaclara baxırdı. Birdən elə qayğısızlıq, xoşbəxtlik hiss elədi ki, həmin an özünü eyvandan atmaq istədi. Həmin an hamını dəhşətə gətirən, təsəvvüründə yaradıb qorxduğu ölüm yoxdu, ölüm – onun arzuladığı, susadığı ən gözəl şeydi. İndi də hərdən inanmağı gəlir ki, ölüm – xoşbəxtliyə yaxın bir şeydi.

Başına dovşan dərisindən qulaqlı papaq qoymuş qoca bir kişi böyründə oturmuş qadına, bayaqdan Düzyurda zəng vura bilmədiyindən şikayətlənirdi. Demə, rayondan bu gün tələbə oğluna dəyməyə gəlibmiş. Gəlib ki, oğlu xəstəxanadadı. O da Bakıda heç kimi, heç haranı tanımır. Ona görə istəyir rayona zəng vursun ki, qohum-əqrəbadan bir əlli-ayaqlısı özünü yetirsin.

O, qəfilcə özünə baxdı. Oturuşunda, duruşunda qocanı, qocanın danışdıqlarını təhqir eləyən nəsə vardı. Ayağını ayağının üstündən götürüb durdu. Yenə pəncərəyə sarı getdi. Hamı bir-birinə necə də oxşayır. Ancaq hamı da fikirləşir ki, o, təkdi, bircə dənədi.

Bəlkə gedəndə qocanı götürüb öz evinə aparsın? Aparıb qulluğunda dursun, təsəlli versin, desin, fikir eləmə, mən də sənin oğlun. Sabah da qaçıb işdən icazə alar, qocanı götürüb xəstəxanaya aparar, həkimlə danışar, xəstəyə nə lazımsa tapar. Belə eləmək, doğrudan da, yaxşı olar. Di gəl, o, belə eləməyəcək. Hə, eləməyəcək.

Bayırı görmək üçün gərək üzünü şüşəyə lap yaxınlaşdıraydın, yoxsa bayır yox, içərinin şüşədə əksi görünürdü. Küçə kimsəsizdi. Və nədənsə, həmişə keçib getdiyi, daş-divarına bələd olduğu bu yer qaranlıqda ona yad gəldi. Özünü kimlərinsə tufandan başını götürüb qaçdığı gəmidə hiss elədi. Bilmirlər hara gedirlər, niyə gedirlər – təki canlarını qurtarsınlar. Bütün bunlar nədən ötrüdü axı? – o, qüssə ilə düşündü. – Hamı elə bilir son var; kimi qorxur, kimi özünə təsəlli verir. Ancaq ən pisi odu ki, son yoxdu.

Qarşıdakı binanın girəcəyinə vurulmuş fənər vur-tut öz altını işıqlandırmışdı. Və elə bil sulu qar dünyada heç hara yox, bircə bu işığa yağırdı.



# Povestlər

# ŞƏBƏKƏ

Zəng elədi, deyir, dostumun arvadı gəlib rayondan, uzağı beş-altı günə lazımdı. Danışığından görürəm, yenə quyruqları qapı arasındadı, bir az bərkini tutsam, yalvaracaq. Dedim, nə olar, gəlsinlər. Mənə nə, mənim günə üç manatımı versinlər, Allah var bir il qalsınlar. Lap yaxşı. Gəldilər. Gördüm onlardı. Elə ürəyimə dammışdı onlar olacaq. İstədim əl verəm, keflərini soruşam. Bu durub tanış eləyir. Onlar da hələ əllərini uzadır, adlarını söyləyir. Daha üstünü vurmadım. Mən də adımı söylədim, subay olduğumu da dedim, təqaüdə çıxdığımı da unutmadım. Hələ çox şey danışacaqdım, özümü saxladım. Kişilər axı tanış olmaq istəyirlər, qoy yaxşı tanısınlar, bilsinlər hara gəliblər, birdən yenə yadlarından çıxar.

Görəndə ki, hər şey öz istədikləri kimi gedir, ürəkləndilər. Qız paltosunu çıxarıb əyləşdi. Oğlan da qalxdı ki, evə baxmaq istəyirəm. Əlbəttə, baxmaq lazımdı. Birinci dəfə gəldiyin yerə gərək baxasan, tanış olasan, qapı-bacanın yönünü biləsən. Bir gün deyil ha, beş-on gün burdasan, hər gün məndən bir şeyin yerini soruşmayacaqsan ki?! Amma heç nə dəyişməyib, baxmamaq da olar. Bilirəm, başa düşürəm,

baxmasan olmaz, axı birinci dəfədi gəlirsən. Görürsən, hər şey yerindədi, tualet də, asılqan da, bax, zibil qabı da yenə burdadı, vannam da həmişəki kimi çirklidi, özgə nə lazımdı sənə? Hə, çarpayını da o saat görübsən, bilirsən iridi, hələ möhkəmliyini də yoxlayıbsan, lap üç nəfəri saxlayır. Amma onu göstərmərəm, çünki utanarsan birdən, elə bilərsən nəyəsə işarə vururam.

Qabağa dostu düşüb, gəzə-gəzə onu başa salır, arada da məni tərifləyir. Demə, mən çox yaxşı adammışam, onunla bu evdə çox mehriban yaşamışıq, lap can deyib, can eşitmişik, ev almasa, heç çıxmayacaqmış burdan. O danışır, mən də sözünə qüvvət verirəm. Qoy danışsın, məndən pul-zad ha istəmir, yerini isti salır, qoy salsın. Guya təriflənəndə adam pis olmağı bacarmır? Bir də kim pis olub axı? Nə vaxt mən pislik elədim? Kirayə pulunu vaxtında niyə vermirsən ki, mən də pis oluram. Qoca adamam, işləmirəm, qazancım yox, bir təqaüddü, bir də kirayə. Yaxşı, acından ölüm, gedim qonşudan borc alım? Deməyəndə ürəyin partlayır, deyəndə olursan yaman. Bir belə, iki belə, axır, şələ-küləsini yığışdırdı.

Sonra mətbəxə girdilər. Oğlan görəndə taxtım burdadı, özü də bilir burda yatıram, yenə soruşdu: "Siz burda yatırsınız?.. Burda olursuz?.." Axırıncı sözləri burnunun altında mızıldadı. Başa düşür, "burda olursuz"un yeri deyil, belə söz uzunqulağa çatmaz. Bilir, ancaq yenə də deyir, demək, məni eşşək yerinə qoyur, demək, mənim nə düşünəcəyim, hirslənib-hirslənməyəcəyim onun vecinə deyil, təki bircə mənə çatdıra bilsin ki, ay belə, filan-bəsməkan, bax, mən səni eşşək yerinə qoyuram, bax mən heç qorxmuram da biləsən ki, səni eşşək yerinə qoyuram. Mənə bircə o lazımdı: nəsən, nə deyilsən, bizim otaqla işin olmasın.

Qoy o adamlar qorxsun eşşəklik eləməyə ki, onu eşşək saymırlar. Eşşəyin daha nə qorxusu. Bəs onda qapını bağlayıb sizi çöldə qoyanda, niyə burnunuzu sallayırsınız? Axşamlar işığı keçirib ayağınızı mətbəxdən kəsəndə, niyə cin atına minirsiniz? Ancaq üzə vurmursunuz, özünüzü saxlayırsınız, qırıla-qırıla qalırsınız. Çünki qorxursunuz üzə vurmağa. Qorxursunuz, bu indiyə qədər eşşək saydığınız filan-bəsməkan birdən eşşək yox, adam olar. Adam kimi onun da tək gözü, qulağı yox, ürəyi də olar, nədənsə inciyə bilər, biz bir söz deyəndə, o durub beşini deyər. Deməyə də ki, söz çox. Onda da daha gərək bir evdə nəfəs almayaq. Bunu az-çox başa düşürsünüz. Ona görə də susmuşuq, susaq. Necə ki, elə birinci dəfədən tutmadım yalanınızı: gəlib mənlə tanış olurlar. Ağılları özlərinə gedib, üç ildə üç min üz görüblər, üç min oyundan çıxıblar, daha demirlər, bu adamın üç ildə qapısını açan sizsiniz. Bəlkə özlərinin də yadından çıxıb, nə danışdıqları, nə elədikləri. Ancaq mənim yadımdadı axı. Hamısı yadımdadı. Lap bu saat bir-bir danışım, geyindiyiniz paltarların rəngindən tutmuş, hərəkətlərinizə kimi. Neçə uşağınız var, onu da deyim, uşaqların adını da, bu yollarda niyə sərgərdan qaldığınızı da. Bilirdim bunların hamısı yalandı, ər-arvad olmadığınızı da bilirdim, ancaq yadımdadı. Axı sizdən başqa kimi görmüşəm, kimi eşitmişəm bu üç ildə?! And içsəm ki, sizi qapıda görəndə sevindim, inanmazlar. Amma sevindim. Vallah, billah, sevindim. Nə olsun arada yüz cür şey olub, bu evin qapısını yalanla açıbsınız. Mənim ürəyim yoxdumu, başa düşmürəmmi, dünyadı, həyatdı, hər şey olur. Gül kimi uşaqlarsınız, adam baxır həvəsi gəlir, indi taledi yaşayırsınız. Biz də yaşamışıq, görmüşük, hər şey olur, olur. Mən heç yalanınızdan da incimirəm, təzədən gəlib tanış

olmağınızdan da, bunlar xırda şeydi, düzdü, ürəyimə salıram, di gəl, fikirləşəndə sizi qınamıram. Təzədən tanış olmaq daha yaxşıdı, üç il əvvəlin yalanları haradan yadınızda qalsın, bir də gərək üç ilin tanışı daha yaxın, daha mehriban olaydı. Sizə ancaq yaxınlıq lazım deyil, qaçıb gəlibsiz bu evə, bu otağa, istəmirsiz sizi narahat eləsinlər. Bunlar belədi, belə olmalıdı, amma bu cür yox. Nəsə başqa cür, başqa cür. Bir şey fikirləşmək lazımıydı. Bu cür yox...

Özləriynən qab-qacaq gətiriblər, stəkan-nəlbəki gətiriblər, mələfəni də yaddan çıxarmayıblar. Çalışırlar nəzakətli olsunlar, deyirlər, qorxduq birdən səndə artığı olmaz. Qanacağınıza görə sağ olun, çox sağ olun, heç olmasa, hərdən-hərdən bəhanə axtarıb tapırsınız. Bircə çaynikləri yoxdu, məcburdular mənim çaynikimlə keçinsinlər. Onu da ağız-burunlarını əyişdirə-əyişdirə neçə dəfə yaxalayırlar. Kişilər mənimçün təmizkar çıxıblar. Acıqla indi heç nəyə əlimi vurmuram, hələ lap zibilləyəcəm, qoy canları çıxsın. Elə bilirlər mən istəmirəm təmizlik olsun? Nədi, yoxsa xoşlamıram ağappaq, nişastalı mələfədə yatım?! İstəmirəm qab-qacağım gül kimi olsun?! İstəmirəm döşəmə par-par parıldasın?! İstəyirəm axı, istəyirəm?! Elə deyilsə, çirklidisə, demək bacarmıram! Bacarmıram! Nə olub, heç ağlınıza gəlmir bu? Yəni adamlar bir-birini belə şeytan gözündə görür? Bunu düşünsəniz nə olar, hə? Fikirləşsəniz ki, qoca adamdı, yəqin bacarmır, əl-ayağı işə-gücə yatmır. Yaxşılıqnan pisi də yaxşı eləmək olar.

– Biz gedirik.

“Görürəm gedirsiniz “.

– Hə? Yaxşı yol.

– Sizə bir şey lazımdı, gələndə alaq?

“Özgə vaxt heş soruşmazdılar “.

– Yox, sağ olun.
– Onda hələlik, biz çıxdıq, qapını bağlayın.
“Qızın əynində o vaxt da elə bu göy palto idi”.
– İndi duraram.
Qapını örtdülər.

* * *

Son bir-iki gündü qapını arxasınca çəkəndə şükür eləyirdi ki, daha bu evlə birdəfəlik qurtarmağa az qalıb. Bu sevincdə hətta bir az uşaq sadəlövhlüyü də vardı, guya illərlə bu evdə qalmışdı, illərlə bu evdən qurtarmağı arzulamışdı, lap ümidini üzəndə birdən gəlib demişdilər ki, gedə bilərsən. Ancaq sevinc heç də burda keçirdiyi günlərə peşman olduğunu göstərmirdi. O, sadəcə, yerini dəyişmək istəyirdi; elə bil bir tərəfində çox yatmaqdan bezib çevrilirsən başqa tərəfə, özü də bilmirsən başqa tərəfdə rahat olacaq, ya yox. Bunu indi də bilmirdi, amma çox istəyirdi bilsin, hisslərin hörümçək torundan çıxsın, hər sözü, hər baxışı, hər anı saf-şürük eləsin, onu düşündürən, ağrıdan duyğuların həqiqi qiymətini versin. Beş-on gün əvvəl həmin dəqiqəni belə səbirsizliklə gözləyəcəyi heç ağlına da gəlməzdi. Üç il əvvəl qadın onun həyatına taybatay açılmış pənçərədən dolan yaz havası kimi hiss olunmadan girmişdi. Bir də özünə gələndə, ürəyinə sərinlik gətirən bu sirrin, bu gözəlliyin nə olduğunu bilmək istəyəndə, otaqda yasəmən qoxusundan savayı heç nə qalmamışdı. Qadın necə gəlmişdi, necə getmişdi? İşini-gücünü, uşağını atıb yol basa-basa yanına niyə gəlmişdi, qadını buna nə vadar eləmişdi? Bu suallara yasəmən qoxusu ilə təkbətək qalanda cavab axtarmışdı. Ancaq bilirdi ki, çağırılmamış qonağı üçün bacardığını

eləyib, bacardığını deyib, alçalan adamın alçaldığını sezdirməyə çalışıb. Di gəl, nə demişdisə, boğazdan yuxarı demişdi, dediklərini hiss etmədən, ağrımadan demişdi. Saxtalığı qadın bəlkə də duymamışdı, ancaq bunun fərqi yox idi, bu ancaq onun ustalığını göstərirdi.

Üç il əvvəlki usta adamın yalanlarını o, indi də təkrar elədi: eyni yerdə, eyni mətbəxin üfunəti hopmuş otaqda təkrar elədi, sıxılmadan, çəkinmədən. Çünki daha dediyi sözlər yalan deyildi, sözlər ana bətnindəki körpə kimi canlı idi, ağrılı idi, sevimli idi. Bu körpəni aylarla canında gəzdirmişdi, sabahına inana-inana gəzdirmişdi. Amma gecikmiş hisslərin içində cücərməsi üçün çox vaxt lazım olmuşdu. Qadın onların ikili həyatında hər şeyi öz əlinə almışdı: səma kimi öz əlçatmazlığından nə göndərsəydi, o, torpaq kimi dinməz-söyləməz canına çəkməliydi. Hətta bu mütilik, laqeydlik o yerə çatmışdı ki, canını ağrıdan, donduran yağışın, qarın, günəşin nə səbəbdən olduğunu belə axtarıb tapmağa çalışmışdı. Bu haradasa ana nəvazişinə, ana alicənablığına oxşayırdı: dözümün, nəvazişin, istəyin kökü, hardan yarandığı, hardan su içdiyi heç kimi maraqlandırmır, əbədi borc kimi görünür, hətta bu istəyin nə vaxtsa bitəcəyi ağla gəlmir.

Narahatçılıq axırıncı görüşdən sonra başladı. Bəlkə də qadını ötürüb qayıdanda əvvəlcədən bilsəydi ki, bu, onların axırıncı görüşüdü, özünü ayrılığa hazırlayardı, narahatçılıq da olmazdı. Əlaqənin qəfil kəsilməsi onu geri dönüb keçilən yolla bir də qayıtmağa məcbur elədi. O, həmin günləri, bax, ancaq onda yaşadı, həmin yolun sevincini, ağrılarını ancaq onda hiss elədi, öz saxtalığını, qadın üçün bu görüşlərin nəyə başa gəldiyini, nə demək olduğunu da onda başa düşdü. Və həmin vaxtdan daha əlçatmaz olmuş qadınla

görüşmək arzusu onunçün ümidsizlik qədər dözülməz oldu. Hər keçən gün onun inamından gedirdi, inamsızlıq itirilmiş anın qüssəsini gətirirdi, qüssə gün-gündən qana hopurdu, hətta bu qüssə ilə oynamaq, bu qüssə ilə əylənmək bəzən ona xoş gəlirdi. Artıq unudulduğuna inandıqdan sonra özünü, keçənləri, keçənləri hamının unutmadığını xatırlatmaq üçün məktub yazmaq fikrinə düşdü. Məktubun ələ keçəcəyi ehtimalı da onu saxlamadı. O, sözünü deməliydi, qadına çatdırmalıydı ki, onu unutmayıblar, onu düşünən var. Hardan bilmək olardı, bəlkə də təklik qorxusundan qurtarmaq qadına indi üç il əvvəlkindən daha çox lazımıydı. O, təhqir olunmuş, ancaq təhqir olunduğu anda cavabını verib mənliyini qoruya bilməmiş adam kimi əzab çəkirdi: an itirilmişdi, fürsətsə daha ələ düşmürdü. Çarə gözləməyə yox, özünün hərəkət eləməyinə qalmışdı. Necə olursa-olsun, həmin anı təzədən yaratmalıydı, ürəyini boşaldıb rahatlamalıydı. Qatar öz yükünü götürüb gələndə, qadının çöhrəsi pəncərədən görünəndə, o, üç il gecikmiş hisslə yağışdan islanmış perronda dayanmışdı. Gecikmiş hiss yaz yağışı kimi içini yumuşdu, o, daha üç il əvvəlki adam deyildi, onun təbəssümlə pəncərədən baxan qadından, öpüşlərdən, ancaq ikisinin başa düşəcəyi, nələrisə yada salacaq duzlu işarələrdən, deyilmiş, deyilməmiş sözlərdən xəbəri yoxdu. İlk dəfə bu qadını gördüyündən, ilk dəfə bu qadınla görüşə çıxdığından o, hətta azca həyəcanlanmışdı da. Elə ona görə ilk andan qadının bəzi hərəkətlərini, bəzi sözlərini yozmağa çətinlik çəkdi, bunu soyuqluq adlandıra bilmədi. Ancaq bəlkə də sezmişdi ki, öz hisslərindən danışmağa tələsdi. Üç il əvvəl onu başa düşmədiyini, ona qarşı biganə olduğunu, sonralarsa onu necə gözlədiyini, necə arzuladığını elə həmin günün axşamı yerli-yataqlı

qadına söylədi. Və heç ağlına da gəlmədi ki, üç il əvvəl saxtalıq etdiyini gizlətmədiyindən, indi dediklərinə də qadın inanmaya bilər.

Qadının gələcəyini biləndə yaxşı bir yer-yurd tapmağa nə qədər çalışsa da, yenə üç il əvvəlki üfunətli, çirkli evdə qalmaq məcburiyyəti qanını qaraltmışdı. Onu bu evdən qaçıran təkcə otağın çirkli olması deyildi, həm də üç il əvvəl burda qoyub getdiyi hissiz, duyğusuz adamdan – özündən uzaq olmaq istəyi idi. O, təzədən doğulmuşdu və hər şeyi təzədən başlamalıydı, heç nə keçmişi xatırlatmamalıydı. Ancaq bir-iki gün sonra, qadının soyuqluğuna inananda bu evə düşdüyünə sevindi. İllərin dəyişdirmədiyi otaq indi nələrisə oyada bilərdi. Sınıq-salxaq divan, taxta çarpayı, divarın cırıq, ləkəli oboyunu az da olsa örtən Ayvazovskinin "Doqquzuncu val"ı üç il əvvəlki qadını, üç il əvvəlki qadının ehtiraslarını, ona istisi gec çatan odu-alovu, qırpım-qırpım da olsa, qaytara bilərdi. Otağın dilindən danışıb olub keçənləri, ayrı-ayrı cizgiləri xatırlatmaq istəmirdi. Çünki həmin cizgilər üç il əvvəlki qadının dəliliyindən qabaq, üç il əvvəlki kişinin bir neçə gün əvvəl etiraf etdiyi saxtalığını yada salardı. Onda həmin adamın da nifrət payı ona çatacaqdı. Buna görə də susub gözləmək lazımıydı.

Amma gözləməyi bacarmadı. Qadına əvvəl ona qarşı belə soyuq olmadığını, dəyişdiyini deyəndə, qadının heyrətləndiyini görüb o saat başa düşdü ki, yenə tələsib, səhv eləyib, özü dilə gətirdiyi şübhəsiylə hissləri çılpaqlaşdırıb, eyni yola gətirən yol birbaşa keçilib, daha qadın nə qədər onun şübhəsini dağıtmağa çalışsa da, xeyri yoxdu, o, heç vaxt qadına inana bilməyəcək. Söhbət açıldığından, qadının nifrəti daha onu qorxutmurdu, oyun artıq öz sirrini itirmişdi, artıq o, qadında nifrət oyada bilməyəcəyinə hətta heyifsilənə

bilərdi. Çünki daha hisslər cılızlaşmışdı, hisslər əvvəlki yüksəkliyindən enmişdi, harda ki həmin yüksəklikdə nifrətdən bir az da sevgi qoxuyurdu. İndi o, uzağı-uzağı, qadını özündən bezdirə bilərdi, burnumuzun ucunda vızıldayan, yeməyimizin üstünə qonan milçəkdən bezdiyimiz kimi. Bir-iki gündən sonra elə bu cür də oldu. Amma "özünü təmizə çıxarma mərasimi"nin qadını bezdirdiyini hiss eləməmişdən qabaq bu söhbətlər daha özünün də zəhləsini tökmüşdü. Danışmağa söz qalmayanda o, birdən-birə süstləşdi, barışmaq istəmədiyi bu soyuqluq ona çox təbii göründü, hətta qadının hərəkətlərini soyuqluq adlandırmağa da dili gəlmədi. Bəlkə qadın üç il əvvəl də elə indiki kimi olmuşdu: bir az kobud, bir az diqqətsiz. Sadəcə, iş beləydi ki, üç il əvvəl heç nəyə fikir vermirdi, qadından heç nə tələb eləmirdi, heç nə istəmirdi, elə bil gözləmədiyin adam birdən sənə pay yollayıb, duyduğun sevinc o qədər çox olur ki, payın yaxşılığını, pisliyini kölgədə qoyur. Amma indi onu oynadan, rahat qoymayan, pay uman adamın xırdaçılığı idi, bu cılız adam o saat axtarıb payın qiymətinə baxırdı, görüm mənə layiqdi, ya yox. Demə, üç il gecikmiş hisslə qatarın qabağına çıxanda gecikmiş hiss onu təzələməyibmiş, keçmiş keçmişliyində qalırmış, baxışlar, öpüşlər, deyilmiş və deyilməmiş sözlər onunla bir yerdə yağışın azca islatdığı perronda dayanıbmış. Amma indi keçmişi saf-çürük eləmişdilər, yaddaşın bir küncündə sirli-sirli uyuyan anların sirli örtüyünü çəkib atmışdılar. Bu anlar rəngbərəng işıqlı lövhəyə oxşayırdı. Nə qədər işıqlı nöqtələrə toxunmaq istəyi olsa da, gərək özünü saxlayasan, çünki hər nöqtəyə əl vurduqca o saat sönürdü. Onlarsa özlərini saxlayammamışdılar və keçmiş adlı lövhəcik öz rəngbərəng geyimini itirmişdi. Daha onların

bir-birlərini xatırladacaq keçmişləri yox idi, onlar daha yad adam idilər. Allah iki yad adamı haradansa gətirib bu evdə görüşdürmüşdü. Bax, hər şey doğrudan da indi başlayırdı. Təzədən işıqlı nöqtələri yandırmaq, yad qadında özünə qarşı maraq oyatmaq həvəsi onu rahat qoymurdu. İndi daha hər şey özündən asılı olduğundan, əvvəlcədən heç nə ummadığından qadının biganəliyi onu çox da elə ağrıtmırdı. Bəlkə də kimlərsə bu qadının təkcə əllərinə toxunmaq üçün çox şeyə razı olardılar, çox şeydən keçərdilər, amma o, ağrısız, əziyyətsiz, kişinin ala biləcəyi hər şeyi ondan alıb. Ancaq o, endiyi bu pillədə dayanıb durmaq istəmirdi, qan kimi ürəyə axmaq istəyirdi, oyunun gözəl olması üçün hissləri də bu oyuna qoşmaq istəyirdi. Buna görə qadına qarşı lap diqqətli olmağa başlamışdı, onun hər istəyini əvvəlcədən tutmağa çalışırdı. Hətta daha öz geyiminə, danışığına, duruşuna, səliqə-sahmanına da fikir verməyi yaddan çıxartmırdı. Hər söz, hər hərəkət suya atılmış daş idi. Daş düşəndə suyun necə diksinib sıçramağı, necə çevrələnməyi onun gözündən yayınmırdı. O da gözündən yayınmırdı ki, diqqətli olmağı qadını bir az da ondan uzaqlaşdırır, qadın da yad adamın yanında hətta nədənsə utanmağa başlayır, nədənsə çəkinir. Hər sözünü, hərəkətini ölçüb-biçməyə başlayır. Elə onun istədiyi bu idi, uzaqdan qadın onu lap yaxşı görəcəkdi, uzaqdan o, əlçatmaz görünəcəkdi. Sahili yalayıb çəkilən dalğa daha artıq həvəslə yenə sahilə qayıdacaqdı.

Dalğanın durulub, təmizlənib köpükləri içində onu batırması üçün, qadının ərindən boşanandan sonra unutduğu bəzi vərdişləri oyatmaq lazımıydı. Hərdən özünü evin dərd-sərini çəkən ər kimi qayğılı aparmağı, nəyəsə hirslənməyi, hərdən corabını, köynəyini yudurtmağı, indi

qadının xoşuna gəlməsə də, hansı gözəl günsə: tənhalıq qorxusuna bürünüb darıxandamı, kişi sərtliyi üçün qəribsəyəndəmi yadına düşəcəkdi, ona ərdə olduğu vaxtları xatırladacaqdı. Qəfil qapısını döyən bu xoş, qüssəli hissin tərtəzəliyi onu təəccübləndirəndə həmin bu ev, bu otaq, bu otaqla bağlı xatirələr yenə öz sirli örtüyünə bürünmüş olacaqdı, dərib çardaqdan asdığımız bar kimi şirinləşmiş olacaqdı. Nə bilmək olardı, bir də gördün həmin hiss bir ağ yol olub düşdü qadının qabağına və hər şey təzədən başladı.

Arzuladığı görüş nə vaxtsa olacaqdımı, olmayacaqdımı, basdırdığı ting nə vaxtsa bar verəcəkdimi, verməyəcəkdimi – bunu hələ bilmək olmazdı. İndi ancaq qadını ötürmək qalırdı, elə ötürmək ki, nə vaxtsa dönsə bu evin işığını min-min evin işığından seçə bilsin. Qadını ötürməyə vurtut iki gün qalırdı.

* * *

İki gündən sonra evdəyəm. Bircə vaxt tez gələ, çıxıb gedəm burdan. Hər səhər oyananda elə bilirəm, durub görəcəm qoca ölüb. Elə qorxuram! Bu da guya başqa bir yer tapmırdı qalmağa, nə vaxtdı Bakıdadı, lazım olanda əli bir yana çatmır. Nahaq, lap nahaq, gərək deyəydim, məcbur eləyəydim başqa ev tutaydı. Daha onsuz da az qalıb – ikicə gün. Bircə mən gedənə kimi ölməyə. İndi də ölməsə, uzağı bir həftəyə ölər. Hiss eləyirəm, ürəyimə damıb. Xalam öləndə də ürəyimə dammışdı. Yazıq arvad durduğu yerdəcə keçindi. Pilləkəndə oturub özünü günə verirdi. Mən də mətbəxdə yemək hazırlayırdım. Yeməyi çəkib apardım otağa. Çörəyi doğrayıram, deyirəm, indi gələcək. Gördüm gəlmir, səslədim. Bir, iki, axır çıxdım eşiyə. Gözləri yumulu,

başını söykəyib aynabəndin taxtasına, üz-gözü də elə dinc, elə işıqlı, qıymadım çağıram. Yeməyi çəkməsəm, heç çağırmazdım da. Dedim, ay xala, dur, dur gəl, yeməyi çəkmişəm. Elə bil arvadı səsim yıxdı, sürüşüb düşdü pilləkənin üstünə. Gözləri qəfilcə açıldı. Sifəti o saat qupquru qurudu, dartıldı, dodaqları çəkildi, qayırma dişləri ağardı. Üz-gözü mən görə-görə dəyişməsəydi, inanmazdım ki, bu, xalamdı. Bu, xalam deyildi, Allah bilir kimdi, bəlkə elə ölümdü. Durub yaxınlaşmaqdansa, nəsə eləməkdənsə qaçmağım gəlir. Üzünə baxa bilmirəm. Qaçıb otağa getdim. Səsim də çıxmır qışqıram, kimisə çağıram. Vurnuxa-vurnuxa qalmışam. Bayıra çıxmağa qorxuram. Pilləkənlərdə kimsə uzanıb, xalam deyil – ölümdü, ağzında da qayırma dişləri. Sonra ürəyim getdi. Yasında ağlayammadım. Qurumuş sir-sifəti gözümün qabağından getmir. Ondan sonra yanımda ölümdən danışanda yadıma xalam gəlir. Elə bil "ölüm" xalamın sifətini geyinib, ağzında da qayırma dişləri. Fikirləşəndə indi də qorxuram heç kimi ağlayammayam, amma ağlamağa kimim qalıb ki... Bircə bu iki gün tezcə keçə. Tez, tez. Onsuz da öləcək, ürəyimə damıb. Ancaq indi yox, indi yox. Xalamın öləcəyini hiss etdiyimi sonra ərimə deyəndə gülürdü, məni lağa qoyurdu, deyirdi, öləcəyim ürəyinə damsa, vaxtında de, bəlkə ağlıma yerləşdi səni də apardım. Guya zarafat eləyirdi, amma elə ürəyindəkiydi. Hamısını başa düşürdüm, xalam öləndə lap inandım. Qohumlarımdan zəhləsi gedirdi. Deyirdi, nəslinizdə kişi yoxdu, məni də istəyirsiniz öz dəstənizə qatasınız. Xalama bir gün də yas saxlamadı. Başqa qohumlarım uzaqdı, yaddı, nə desə, qulaqardına vururdum, bu ki bizdə qalırdı, üz-gözün öyrəşmişdi, heç olmasa, onun özünə hörmət elə, işdən qayıdanda qabağına bir stəkan çaysa qoyub. Elə səhəri

içib gəldi. Deyir, hanı o şirin-şəkər qohumların, saxlamırdılar, aparıb ölüsünə yiyə duraydılar, toy eləməmiş evimə vay saldınız. Xalamın ruhu hələ evdən uçmayıb, durub radionu, televizoru açır, konsertə qulaq asır. Bilir özü də xalamı nətəri çox istəyirdim (indi istəməyim), anam olmayıb, beş yaşından mənə analıq eləyib, hər zəhmətimi çəkib, heç olmasa, qoy yeddi gün yasını saxlayım. Özüm də başa düşürdüm ki, qohumlarımdan inciməyə haqqı var. Yaxşı, haqqın var, olsun, bəs niyə məni üzürsən? Zəhlən gedir, ürəyində saxla, axı mən yazığam. Hiss eləyirdim məndən də zəhləsi gedir, mənə də nifrət eləyir, amma inanmaq istəmirdim. Axır inandırdı, inandırdı. Toydan sonra qohumlarımgilə getməyə qoymurdu, həmişə bir bəhanə gətirirdi... Heç özümün də həvəsim yoxdu getməyə. Amma evimizə getməyi çox istəyirdim. Nəsə könlümə düşmüşdü. Toydan sonra evimiz elə bil birdən-birə uzaqlaşmışdı, şirinləşmişdi. İndi orda bacım ailəsilə qalırdı. Əri pis adam deyil. Ancaq yaxşı, ya pis – yaddı. Ev mənə heç kimsiz lazımdı. İstəyirdim bir gün də, bir gecə də olsa, keçmişi xatırlayım, atamı, bacımı, bir stol başında necə yığılıb oturmağımızı yadıma salım. Bilmirəm niyə mənə elə gəlirdi ki, ancaq orda, evimizdə keçmişi olduğu kimi xatırlaya bilərəm. Hərdən gözümün qabağına nəsə gələndə də tez fikrimi yayındırırdım, qorxurdum düzəməlli xatırlayammıyam, bütün ləzzəti itə, sonra da heç xatırlaya bilməyəm. Hələ inanırdım ki, bəlkə anamı da xatırladım. Çox inanırdım. Beş yaşlı körpənin yadında bəlkə nəsə qalmışdı. Deyirlər, heç nə yaddan çıxmır, bircə çalışıb yaddaşı oyatmaq lazımdı. Köhnə şəkillərdən, danışılanlardan anamı təsəvvür eləyə bilirdim. Amma onu da bilirdim ki, bu qondarmadı, beş yaşına qədər məni yedizdirən, gəzdirən, gecələr yanında yatıran qadın hardasa

yaddaşımın qaranlıq bir küncündədi. Oranınsa qapısı sehirlidi. Həmin sehrin də bircə sirri var. O da evimizdə olmalıdı. Bəlkə orda nəsə bir səs, nəsə bir qoxu qəfilcə həmin sehirli qapıya düşəcəkdi, həmin o qaranlıq künc işıqlanacaqdı. Anamı görəcəkdim. Uşaq doğulandan sonra bacım qonaq çağıranda, gecəni orda qalacağımızı bilib elə sevindim ki. Yatanda ərimin yerini divandan saldım, istəmirdim bir yerdə yataq, istəyirdim bu evdə əvvəllər, qızlığımda necə olmuşamsa, necə yatmışamsa, elə də yatam, heç nə o illəri xatırlamağa mane olmasın. Amma qorxdum, birdən yeri ayrı saldığıma inciyər, ona görə ürəyimdəkini dedim ki, məni başa düşsün, bilsin. Allah, gör mən nə qədər onu sevirəmmiş, nə qədər inanırammış, bircə bundansa başa düşməyib. Bəlkə deməsəydim, incimək heç ağlına da gəlməzdi, amma deyəndən sonra ayrı yatmadı. Özü də bilirdi məni döysə, söysə, bundan yaxşıdı. Ağlamağıma da fikir vermədi. Guya məni sakitləşdirirdi, guya məni kiridirdi, amma elə hala gətirdi ki, axır özüm istədim. Ərimin yaxınlığını o günə qədər heç elə istəməmişdim. Həmin dəqiqə mənə yaxın durmasaydı, dəli olardım. Bəlkə də adam ancaq istəməyəndə elə ehtirasa gələ bilər. Sonra qaranlıqda üzünü seçməsəm də, hiss elədim mənə gülür. Onda, bax onda bildim ki, mənə də nifrət eləyir; onda bildim ki, daha bir yerdə yaşayammayacağıq. Ancaq istəyirdim. Çox istəyirdim. Elə ona görə də dözürdüm. Dözəcəkdim də. Uşağı tək böyütməkdən, camaat içində biabır olmaqdan qorxmurdum. Bunlar heç ağlıma da girmirdi. Bircə ayrılmayaydı. Əvvəllər də bir hörmət görməmişdim, həmişə məni alçatmağa çalışırdı. Onun-bunun yanında bir də gördün elə söz deyirdi, ölüb yerə keçirdim. Bir dəfə məktəb yoldaşlarımın yanında məni elə

hala saldı, sonra hönkür-hönkür ağladım. Uşaqlar oğlanlı-qızlı yığılıb gəliblər körpəni görməyə. Bu da gec gəlib, içəri girdi ki, qabağımızda çay-çörək, deyə-gülə musiqiyə qulaq asırıq. Durduğu yerdəcə qapqara qaraldı. Bildim, bu saat partlayacaq. Canımı qorxu aldı. Uşaqlar da dinməzcə durub gözləyirlər ki, gələndə görüşsünlər. Bu ancaq heç kimə baxmır. Durdu, durdu, sonra da düz gözümün içinə baxıb: "gəl, – dedi, – gəl ayaqqabımı çıxar". Elə dedi, hamı eşitsin. Oturduğum yerdəcə öldüm. Başqa vaxt ayaqqabısını da çıxartmışam, ayağını da yumuşam, özüm eləmişəm, istəyib eləmişəm, ancaq indi... Hamının da gözü bizdə. Nətəri durmayım? Durmasam, canımı alar. Heç ağına-bozuna baxmaz, lap uşaqların yanında vurar. Allah, sən özün saxla. Durdum da, çıxartdım da...Yenə də çıxardardım, dilimi dişimlə tutub dözərdim, bircə getməyəydi, getməyəydi. Həmişə elə olmayacaqdı ha. Sevirdim onu, istəyirdim onu, gec-tez başa düşəcəkdi. Evlənmişdisə, nəyə görəsə evlənmişdi, nəyə görəsə bağlanmışdı mənə. Toy günü otağımda dura bilmirdim. Hərdən pəncərədən boylanıb baxırdım, səsi qulağıma dəyəndə ürəyim düşürdü. Öz-özümə deyirdim ki, bax, bu səsini eşitdiyim adam ərim olacaq, bu gündən həmişə bir yerdə yaşayacağıq, küçədə məni görəndə deyəcəklər: bu, filankəsin arvadıdı. Deyirdim, təkrar eləyirdim, bədənim uçunurdu. Ağ köynək, qara kostyum geyinmişdi. Qalstukdan xoşu gəlmirdi, ancaq taxmışdı. Elə həyəcanlıydı ki. Gözləri par-par parıldayırdı, sifəti qızarmışdı. İçəri girəndə gedib ayağını basdım. Güldü. Deyir, dəxli yoxdu, onsuz da bu evin ağası mən olacam. Sonra əllərimi açıb öpdü, dedi, xoş gəlibsən. İkimiz də titrəyirdik... İndi onlar hamısı adama yuxu kimi gəlir. Çıxıb gedəndə də elə bil yuxu görürdüm. Elə sakitcə getdi, hər

şey elə adi oldu – dillənəmmədim də. Gecəni rahat yatdıq, səhər durdu ki, daha bizimki qurtarıb. Bu sözləri deyir, heç tükü də tərpənmir. Mən də quruyub qalmışam. Elə də gözəldi, elə də yaxşıdı, istəyirəm durub boynuna sarılam. Sonra dedi ki, uşaq da sənin, ev də, mənə heç nə lazım deyil. Deyir, danışır, pal-paltarını yığışdırır çamadana. Özü də elə gözəldi ki, istəyirəm qucaqlayıb öpəm. Çıxıb gedəndən sonra da heç ona hirslənmədim. Heç indi də hirslənmirəm. Gəldi, getdi. Belə istədi. Bəlkə də elə günah məndədi, bacarmadım qoruyam, saxlayam. Uşağa aliment verirdi, qaytardım geri. Lazım deyil. Birtəhər böyüdəcəm. Uşağı nə vaxt görmək istəsə, dillənmirəm. Elə olur, lap on gün aparıb saxlayır. Oğludu, öz balasıdı, qoy saxlasın. Mən də bacardığımı eləyəcəm, təki məni pis adam bilməsin. Nə vaxtsa başa düşər, bilər ki, onu istəyirdim. Adamın övladı olmağı nə yaxşıdı. Öz ətin, öz qanın. Atasına da elə oxşayır: dodağının nazikliyi, burnu, gözlərinin iriliyi. Hərdən baxıram, baxıram, lap ürəyim xarab olur. Onu doğana qədər neçə dəfə o dünyaya gedib gəlmişəm. Şişib çəlləyə dönmüşdüm. Doğuşda iynəni iynənin dalınca vururdular. Uşaq olan kimi elə bil üstümdən dağ götürüldü. Elə yüngülləşdim ki. Uşağı da büküb qoyublar bir az uzağa. Əl boyda, qırmızılı-göylü. Dünyadan xəbəri yoxdu, öz-özünə dodağını marçıldadır. Baxıram, inana bilmirəm doqquz ay bunu qarnımda gəzdirmişəm. Allah-taala elə bil o saat adama məhəbbət də göndərir. Lap yeməyim gəlir. Ancaq heç yaxın düşməyə də qoymadılar. Qoluma girib elə oradaca uzatdılar çarpayıya. Ürəyim də qalıb uşağın yanında, bir doyunca baxmamışam. Bir gün sonra əmizdirməyə gətirdilər. Ağzı bapbalaca, döşümün giləsi ağzına sığışmırdı. Nəfəsi tıncıxırdı, az qalırdı boğulsun. Mən də elə qorxuram, elə

qorxuram. Arvadlar da böyrümdə gülür. Qurban olum balama, bilirəm kimdən ötrü yaşayıram, bir dəfə qucaqlayıb sinəmə sıxanda bütün ağrım-azarım çıxır yadımdan. İnnən belə daha mənə heç nə lazım deyil. Umacağım yox, küsəcəyim yox. Balam var, əlini bir yana çatdırsam bəsimdi. Kim nə deyir desin, ərə getmək heç ağlıma da girmir. Fikirləşəndə ki, yenə kiminsə pal-paltarını yuyacam, kiminsə altını təmizləyəcəm, hər cür naz-qozuna tablaşacam – bağrım çatlayır. Ona dözürdüm, dözərdim. Amma başqasına dözəmmərəm, bircə gün də yola gedəmmərəm, dəli olaram. Nə bilim, bəlkə də sabah hər şeyə başqa cür baxacam, lap ərə də gedəcəm. Ancaq getsəm də, ağılla-başla gedəcəm. Daha mənim sevgi-məhəbbətlik halım yoxdu. İndi bu da durub mənə sevgidən danışır, nədənsə inciyir, nəsə istəyir. Nə istədiyini heç özü də bilmir. Hələ evli olduğunu da gizlətmişdi. Mən də sözünün başına ip salmıram, danışır, danışsın. Lap əvvəllər, birinci dəfə görüşəndə, yadımdadı, soruşdum: məni alarsanmı? Bilmirəm, niyə soruşdum, istəsəydi gedərdimmi? Bilmirəm, indi bilmirəm. Amma "yox" dedi. Əlbəttə, başqa nə deyəydi, ərdən boşanmışı uşaqla hansı ağılsız alar. Daha təzədən bu incimək nədi, bu söz-söhbət nədi, başa düşmürəm. Deyəsən, elə bilir durub Bakıya ondan ötrü gəlmişəm. Məktub yazıb, mən də durub qaçmışam. Desəm, gəzməyə gəlmişəm, axmağam, indi nəyəm, nə deyiləm, səni də yada saldım – inciyəcək. Amma Bakıya birdəfəlik köçüb gəlmək pis olmazdı. Böyük şəhərdi, tanış-bilişdən uzaq, dedi-qodudan uzaq. Qocanın ağlı olsaydı razılaşardı, evləri dəyişərdik. O gün deyirəm, lap üstündə pul da verim, ağız-burnunu əyişdirir. Onsuz da yıxılıb öləcək, evciyəz qalacaq hökumətə. Allah, keç günahımdan, gör nələr fikirləşirəm. Deyir, özgəsinin dərdi

kiməsə dərmandı. Elə ona görə də adamın başına nə iş desən gəlir. Yenə darıxdım. Bircə vaxt tez gələ, çıxıb gedəm evə. İkicə gündən sonra evdəyəm. Rüstəm yatmış olacaq. Mən gələndən yəqin xalasına gün verməyib, durub-durub gözünün qorasını sıxıb. Əvvəl heç məndən ayrı yatmırdı da. Oyanıb yanında görməyəndə çır-çır çığırırdı. Gərək yenə götürüb qoyam yanıma, yoxsa yuxuya getməz. Bir də görürsən yuxuda öz-özünə nəsə mızıldayır, gülür. Adamın inanmağı da gəlmir ki, bu balaca canın yiyəsi yuxu görə. Yatanda da elə fısıldayır, elə fısıldayır, lap elə bil yekə kişidi. Bir əli də həmişə döşümün üstündə olur. Bərk-bərk mənə sıxılır, guya bu saat durub qaçasıyam. Mənə öyrəşib deyən, ayağımı bir az o yana qoyan kimi bağrı çatlayır. Artıq yekə kişidi, yenə məndən əl çəkmir. Gedəndə oyun çıxaracaq. Gərək könlünü alam, bir saat dil tökəm, barışaq. İndi, yəqin, yatmamışdan qabaq yenə donquldana-donquldana məni soruşub. Bacım da başını aldadıb ki, sən tezcə yat, səhər duracaqsan ki, gəlib... Daha gecə keçir. Yatsaydım, doğrudan da, indi səhər açılmışdı.

* * *

Səhərin gözü yağışla açılırdı. Min ilin yağışı dünyanın cavan görünmək həvəsini öldürmüşdü. Torpağın, yaşılı içinin istisinə çəkilmiş çılpaq ağacların, boz-bulanlıq səmanın üzündən yaşanılmış əsrlərin yorğunluğu tökülürdü. Bu il buludlar bircə dəfə qar gətirmişdi. Onda da qar, torpağı öpən kimi ərimişdi. Uzaqda görünən dağların ağlığı hələ qışın keçib getmədiyini desə də, günü-gündən camaat bir də qar görəcəyindən əlini üzürdü. Qışın canı yağışla çıxırdı. Yağışın səsi Rüstəmi oyanmağa qoymurdu. Damdakı to-

yuqlar kimi bu zığda, palçıqda onu da evdən bayıra buraxmayacaqdılar. Qarşıda içindən keçiləsi uzun, cansıxıcı bir gün dururdu. Gün elə indi də başlaya bilərdi. Gözünü açsa, yerindən tərpənsə, xalası onu geyindirib sonu görünməyən yolun ağına salacaqdı. Yaxşısı budu, qoy yatsın, bir az da mürgüləsin, qoy gün öz yükünü ondan xəbərsiz çəkib aparsın.

Bütün evdə ancaq orta otağın işığı yanırdı. Hava aydınlaşdıqca, bayırın işığı dalğa-dalğa evə dolub, otağın işığına kölgə salırdı. Əşyalar rəngini, parıltısını itirir, elə bil hüdudsuz dünya önündə öz cılızlığından utanıb lap kiçilirdilər. Süsən bir-birinə qarışan iki işığın arasında oturub dilim-dilim doğradığı çörəyi sobanın üstünə düzürdü. Çay dəstgahı çoxdan hazır idi. İsti qalsın deyə, o da həmişəki kimi sobanın böyrünə sığınıb öz vaxtını gözləyirdi. Bu gün bazar günüydü. Bazar günü olduğu rayonun aramlı, heç nəyin xələl gətirmədiyi, səksəndirmədiyi oyanışından da duyulurdu. Qayğısızlıqdan, bekarçılıqdan ləzzət almaq üçün evlərin çoxu hələ öz qapı-pəncərəsini dünyanın üzünə bağlamışdı. Vaxtın qovmadığı bazar günü oyanıb yatağın istisini hiss eləyə-eləyə nə haqdasa düşünməyi Süsən çox xoşlayırdı. Fikri uzağa getmirdi, yaşadığı otuz iki illə bu gün arasında qapanıb qalırdı. Ancaq axır vaxtlar indi ilə keçmişin sərhədlərinə sığışmayan eyni bir lövhə qəfilcə gözünə görünürdü: o, yad evdə dul bir kişinin uşaqlarına yemək çəkirdi. Bu lövhə tez-tez təkrar olunduğundan, daha Süsən canında qorxu, sızıltı hiss eləmirdi. Qorxu, sızıltı – dərd-sərinə, sevincinə öyrəşdiyi otuz iki ilə qaynayıb-qovuşub yaşanılmış ömür kimi doğmalaşmışdı. Yaşadığı ömrə Süsən peşman deyildi, otuz iki il ayaq basdığı torpaq kimi, üstündə nə desən yetirmişdi. Amma səssizlikdə təkcə

dayanıb ürək sıxan sopsoyuq qış yağışına baxa-baxa keçənləri ağrısız yada salmaq, tək dayanıb heç nə xatırlamamaq qədər çətindi.

Divara bərkidilmiş təqvim martın 4-nü göstərirdi. Bu, dünənki tarixdi. Dünənin qayğılı kölgəsi hələ Süsənin də üstündəydi. Rayonu aram-aram oyadan bazar günü onunçün ancaq evdəkilər durandan sonra başlayacaqdı. Evdəkilər durandan sonra söz-söhbətin, təbəssümün, baxışların, bir ailə qayğısının içində Süsən dünənindən ayrılıb ömründəki illərin sayını-hesabını itirəcəkdi. Özünü biləndən bu üç göz evdə illərin haq-hesabının aparıldığını o görməmişdi. İllər onlardan xəbərsiz keçib-gedirdi. Bilirdilər ki, anaları dünyadan köçəndə iyirmi altı yaşı olub, bir də ataları vəfat eləyəndə bildilər ki, kişi cəmi-cümlətəni otuz səkkiz il yaşayıbmış. Otuz səkkiz il, demə, az imiş. Az, ya çox, amma onlara elə gəlirdi ki, ataları, gözlərini açıb capcavan gördükləri dünyadan qocadı. Süsən onda başa düşmüşdü ki, illərə inanmaq olmaz. İllər insanı nə qocaldır, nə cavanlaşdırır, nə xoşbəxt eləyir, illər hər addımda gözə girməklə, hər addımı ölçməklə adamı ancaq onu qarşıda gözləyən nəsə qorxulu bir ana hazırlamaq istəyir. İstəyir, di gəl, elə adamı vaxtını, vədəsini bilmədiyi həmin anın vahiməsi üzür.

İllərin haqq-hesabını aparmağı, illərdən xəbərsiz yaşayan bu ailəyə Məcid gətirdi. Məcidin gəlişi ilə Süsən ilk dəfə güzgüdə öz çöhrəsini gördü. İlk dəfə bu, xoş idi. Sonra tez-tez "güzgüyə" baxdıqca çöhrəsində nəyinsə dəyişdiyini, qırışların artıq dərinləşdiyini, gözlərindəki odun qırpım-qırpım söndüyünü qüssə ilə sezdi. Bayaq yol gedirdi, amma yol getdiyini, hara getdiyini bilmirdi, bilmək də istəmirdi. İndisə yerin fırlana-fırlana onu da fırlatdığını görməyə bilmirdi, hər addımda keçdiyi yolun ağırlığını hiss eləyirdi.

Yoldan heç cür çıxmaq olmazdı, yol isə onu illərin xatırlatdığı ana get-gedə lap yaxınlaşdırırdı. Amma indi ilə keçmişin sərhədlərinə sığışmayan, bu günlə, hardasa durub onu gözləyən illərin xatırlatdığı qorxulu anın arasında onun lap qorxduğu bir an da var idi. Bu an hərdən işıq saçıb yad bir evi işıqlandırırdı: o, yad evdə dul bir kişinin uşaqlarına yemək çəkirdi... "Güzgüdə" özünə baxmaq nə qədər çətin olsa belə, Məcidə görə dünən də Süsən şən, qayğısız görünməyə çalışmışdı, ertədən biş-düş eləmişdi, axşam ev paltarını çıxarıb belə günlər üçün saxladığı uzun ətəkli, qırmızı gəlinlik paltarını geyinmişdi. Süfrə arxasında oturanda Məcid də geyinib-gecinmişdi, üzünü qırxmışdı, saçını daramışdı. Sonra işığı keçirib rəngbərəng şamları yandırmışdılar, şampan partlatmışdılar, Məcid sağlıqlar demişdi. Şampan partlatmaq, şam yandırmaq, səliqə-sahmanla geyinib-kecinmək keçən illərin təkrarı idi. Bircə dünən ilk dəfəydi ikilikdə oturmuşdular. Məcidin şənlənməsi üçün beləcə ikilikdə, mehriban, kefi kök oturmaları bəs eləyirdi, daha heç nə, heç kim lazım deyildi. Amma Süsən ad gününə istədiyi adamları çağırmağa öyrəşmişdi. Başqa vaxt yaxın adamlarla bir süfrə arxasında görüşmək, onsuz da mümkün deyildi, hərənin öz dərdi, öz azarı. Heç olmasa, ad günü görüşməyə bəhanə olurdu. Dünənsə istədiyi kimi alınmadı. Rüstəmi də aparıb vaxtından qabaq yatızdırdı. Üçlükdə oturmaq fikrində varıydı, amma alaqaranlıq otağı, bəzənmiş süfrəni, bir də özünü, Məcidi, uşağı süfrə arxasında gözünün önünə deyib-gülən gətirəndə fikrindən daşındı. Bu lövhədə sonra adamın ürəyini ağrıdacaq həddindən çox xoşbəxtlik varıydı.

Ad gününü ikilikdə keçirməli olacaqlarını Süsən əvvəlcədən bilirdi, görmək istədiyi adam var-yox bacısıydı, o da

ki bir həftəydi getmişdi Bakıya və çətin həmin vaxta qayıdaydı. Onsuz da Məcidin ailəyə gətirdiyi təzə adətə bacısı həmişə kinayə ilə baxırdı. Bir-iki gün əvvəl zəng edib deməsə, ad günü heç onun yadına da düşməzdi. Amma zəng edib yadına salanda da özünü o yerə qoymurdu: "Bilirəm də, yadıma salmasan da olar". Dünyada hər şeydən inciməmək üçün, hər şeyi ürəyinə salmamaq üçün Süsən lazımi qədər yaşamışdı. Bacısının gəlməyi-gəlməməyi, yadına salmağı-salmamağı xırda şeylərdi, ancaq sabah onun Məcidin yanında utanmaması üçün, Məcidin qısqanclıqla gözlədiyi, hazırlaşdığı həmin gündə bacısının olmağı vacibiydi. Məcid hər şeyi üzə vuran deyildi, incisə də, xoşu gəlməsə də, onun yanında bacısı haqda pis bir söz deməzdi. Amma Süsən daha çox şey umurdu, istəyirdi bu adamların özləri bir-birinə hörmət eləsin, bir-birindən ötrü darıxsın. Bacısının Məciddən xoşu gəlmədiyini o görməyə bilmirdi. Bunu heç bacısı gizlətmək də istəmirdi, elə bil həmişə Məcidin hərəkətində, sözündə bir şey axtarırdı ki, gülsün, əylənsin. Hətta ona sataşmaq həvəsindən belə özünü saxlayammırdı.

Süsən üçün bacısı həmişə sirr olmuşdu, gözü qabağında böyümüş adamı o, hələ də tanıya bilmirdi. Bəzən ona elə gəlirdi ki, bax, indi tanıyıb, daha pis-yaxşı budur, di gəl, elə səhərisi qarşısında başqa adam dayanırdı. Bu, hər görüşdə təkrar olunurdu. Hər görüşdə də o, tanımadığı adamı tanımaq üçün, xətrinə dəyəcək bir söz deməmək üçün, bir hərəkət eləməmək üçün dəridən-qabıqdan çıxmalı olurdu. Həmin gün bir-birilərini başa düşəndə, bir-birilərindən razı ayrılanda tanıdığı adamı o, son kərə görürdü. Bir damın altda böyüdüyü, göz açdığı dopdoğmaca bacısını tanıya bilməməyi, hər dəfə hisslərinin tarıma çəkilməyi

Süsəni yorurdu. Hərdən nə qədər ağır olsa da, onu görmək istəmədiyini özündən gizlədəmmirdi. Hamının adını tutduğu, tərifədiyi, xoşu gəldiyi bu adam onunçün hələ də yad olub qalırdı və yad adamın həyatı sarıdan o, nəyə görəsə qorxurdu. Qəribə orası idi ki, bu qorxu, narahatçılıq həmişə varıydı. Bacısının barmaqla göstərilən ailəsi, əri, uşağı, yaxşı dolanacağı olduğu vaxtda da o qorxurdu. Ha fikirləşirdi, narahatçılığın səbəbini, nədən yarandığını, hardan yarandığını axtarıb tapammırdı. Amma qorxu varıydı. Bacısının, xoşbəxtliyin işığı hopmuş çöhrəsi də onu aldadammırdı. Sonralar, bacısı ərdən boşananda, bir uşaqla tək qalanda fikirləşmişdi ki, qorxmağı, narahat olmağı pis əlamət imiş, bacısının boşanmağına haradasa o da təqsirkardı. Dərdinə şərik olmaq üçün, onu ovundurmaq, sakitləşdirmək üçün bir yol axtarıb tapınca, bacısını yenə şən, qayğısız görüb əli üzündə qaldı. Bacısının itirdiyi nəydi, tapdığı nəydi, üz-gözündə xoşbəxtlik bildiyi nişanə nəydi? Hamı yenə bacısından danışırdı, tərifləyirdi, sevirdi, hamı ona "xoşbəxtdi" deyirdi. Amma Süsəni çaşdıran, bacısının da öz həyatından razı olmağıydı, üz-gözündə xoşbəxtlik, bildiyi nişanə idi. Axırıncı səfər bacısını görəndə, dediklərini eşidəndə ona elə gəlmişdi ki, narahatçılığın səbəbini tapıb. Bacısı uşağı onun yanında qoyub Bakıya gəzməyə gedirdi: tamaşalar, konsertlər, muzeylər... Bacısı danışdıqca Süsənin gözü qabağına iri, gözəl, yaraşıqlı binalar gəlirdi, bu binaların əhatəsində bacısı ona elə həmin binalar kimi çox uzaq, çox yad görünürdü, yad bir həyatın nəfəsi ürəyini qorxu ilə doldururdu. Özünü bacısının yerində təsəvvür eləmək Süsən üçün çətindi, amma bacısının yerində olmaq fikri Süsəni sevindirmirdi. Öyrəşdiyi həyat, öyrəşdiyi ev kimi onu özünə bağlamışdı...

Hava lap işıqlandığından Süsən durub işığı söndürdü. Otaq birdən-birə kimsəsizləşdi. Evi ada kimi dünyadan ayıran üzüntülü yağışı görməmək üçün başını bir işlə qatmağa çalışdı. Qızarmış çörək dilimlərini boşqaba yığıb stolun üstünə qoydu. Soyuducudan yağ, pendir çıxartdı, pendiri səliqə ilə doğradı, stəkan-nəlbəkini dəsmalla sildi. Sonra Məcid yatan otağa keçib pəncərələrin pərdəsini çəkdi. Məcidi oyatmamaq üçün nə qədər ehmal tərpənsə də oyanmasını istəyirdi. Ona görə də Məcid gözünü açanda sevincini gizlədəmmədi:

– Axır ki, durdun... Xəbərin də yoxdu, bayaqdan elə yağış yağır...

Məcid bilmədi Süsən nəyə sevinir. Amma bu sevinc, bu yağış damcısı kimi işıqlı təbəssüm ömrün bir gününün xoş başlanğıcı idi.

– Qoy yağsın, yerinə-yurduna yağır...

Bazar günü olduğunu Rüstəm Məcidin səsini eşidəndə bildi. Demək, Məcid bütün günü evdə olacaqdı, demək, daha darıxmaq söhbəti yoxdu. Yataq o saat öz şirinliyini itirdi, oyandığını bilsinlər deyə yerində qurcuxdu.

Xalası artıq başının üstünü kəsdirmişdi. Çörək qoxuyan əllər onu götürüb qucağına aldı, əzizləyə-əzizləyə, öpə-öpə paltarını geyindirdi, bağa apardı, qaytarıb ılıq su ilə yuxusunu yudu. Sonra xalası dedi ki, Məcid təzə nağıl öyrənib, bir dənə də təzə oyun. Nağıl elə maraqlıdı, elə maraqlıdı, heç belə nağıl eşitməyib, amma az yeyən uşağa danışmaq olmaz. Məcid də xalası deyəni təkrar elədi, həm də dedi ki, az yeyən uşaqla onsuz da arası yoxdu, az yeyən uşağa yaxşı nağıl nədi, heç pis nağıl da danışmaz. Yaxma ilə şirin çay içmişdi, indi gərək bir yumurta yeyəydi. Məcid iki yumurta yeməli idi, kim tez yesə, o birisi stolun altına

girib üç dəfə banlayasıydı. O, tezcə yedi. Məcid banlayası oldu. Sonra dedi ki, vaxtsız banlayan xoruzu gərək kəsəsən, gedib ülgücü gətirdi, enli zabit kəmərinə çəkib itilədi, amma başladı üzünü qırxmağa: başı üzülməmişdən qabaq adam gözəl-göyçək olmalıdı.

Süsən televizoru açmışdı, Moskvadan son xəbərləri verirdilər. Guya Azərbaycanın bəzi yerlərində qar yağacağı gözlənilirdi, heç yağışın adını da çəkmədilər. Azərbaycan böyük deyildi, di gəl, balaca da deyildi, bəlkə, doğrudan da, indi tək bura yağır, qalan yerlərin yağışdan xəbəri yoxdu. Amma nəsə əlindən bezdiyin yağışa baxanda adamın inanmağı gəlmir, elə bilirsən bura yağırsa, elə dünyanın hər yerinə yağır, hamı da sənin kimi yağışdan zinhara gəlib.

Sonra konsert başladı. Rüstəm Məcidin nağıl danışacağını unudub indi maraqla televizora baxırdı. Ara qapı taybatay açıqdı, Süsən də stolun üstünü yığışdıra-yığışdıra hərdən televizora sarı boylanırdı.

Məcid sabunu küpükləndirə-köpükləndirə Süsəni səslədi ki, dünən yadımdan çıxdı deyəm, uşağın pal-paltarını hazırla, atası gəlib aparacaq. Bacısı boşanandan sonra Süsən Vahab ilə rastlaşmaqdan qaçırdı. Vahabı bacısına görə tanımışdı, Vahab bacısına görə onların ailəsinə yaxın olmuşdu, indisə elə istər-istəməz bacısına görə də ayağı onların evindən kəsilmişdi. Küçədə qəfil qabaqlaşanda istəyirdi özünü görməzliyə vursun, çünki bir vaxt ailələrinə çox yaxın olmuş adama quruca salam verib keçmək yaxşı çıxmırdı, amma dayanıb söhbət eləmək, hal-əhval tutmaq, evə dəvət eləmək də yaxşı çıxmırdı. Bilirsən onsuz da gəlməyəcək, o da başa düşür ki, boğazdan yuxarı deyirsən. Bu məcburi

mehribançılıq bilə-bilə ağrıyan yerə toxunmaqdan savayı bir şey deyil. Qarşıdakının da dişiylə dodağını sıxıb ağrısını içinə salmaqdan savayı başqa çarəsi qalmır.

Süsən soruşdu ki: bəs demədi, qız hardadı?

Söhbətin kimdən getdiyini bilməsin deyə uşağın yanında ad çəkmirdilər.

"Bakıya gedib, dedim, özünü həkimə göstərməyə".

Bacısının nəyə görə boşandığını Süsən bilmirdi. Bacısının xoşbəxt görkəmi onu, dilinin ucuna gələn bəzi sözləri soruşmağa qoymurdu. Amma, nədənsə, bu boşanmanın Vahabın təqsiri üzündən olduğuna heç inanmırdı. Bir yana baxanda o, Vahabı yaxşı tanımırdı, evlərinə qonaq kimi gəlmişdilər – qarşılamışdı, getmişdi – qarşılamışdılar. Vahab az danışanıydı, qaraqabağıydı, arada həmişə pərdə saxlayırdı: nə özü çox yaxınlaşırdı, nə başqasını çox yaxınlaşmağa qoyurdu. Ancaq bir dəfə, Rüstəm xəstələnəndə Vahabın necə uşaq kimi özünü itirdiyini, kömək üçün, təsəlli üçün gah həkimin, gah onların üstünə qaçırdığını, həmin günü, həmin Vahabı Süsən yadından çıxarammırdı. Uşaqda qorxulu bir şey yox idi, azca qızdırması qalxmışdı. Bacısı da ərinin əl-ayağa düşməsinə gülürdü. Amma Vahab özünü ələ alammırdı: hirslənirdi, yalvarırdı, bir dəqiqə dil-boğaza qoymurdu. Həkim iynə vuranda baxmamaq üçün durub başqa otağa keçdi, uşağın çığırtısını eşidəndə o boyda kişinin gözləri dolmuşdu. Həmin gün ayrılıb, evlərinə qayıdanada Süsən bacısına görə sevinməyə bilmirdi. Elə bil həmin gün Vahabı işığa tutub baxmışdı, bu quru, qaraqabaq adamın ürəyini görmüşdü. Daha kim onun haqqda nə deyir-desin, Süsənə dəxli yoxdu, Süsənin ona pis deməyə dili gəlməzdi. Həmin gün gördüyü adamın səbəbsiz pislik edəcəyinə Süsən inanmırdı.

Vahab gələndə Məcid üzünü qırxıb qurtarmışdı. Nə qə-

dər içəri çağırsa da, yuxarı qalxmadı. Eşikdə onun tək dayanmağı ayıbdı, ona görə Məcid də çiyninə pencək atıb bayıra çıxdı.

Hava soyuq deyildi, yağış soyuğun damarını qırmışdı. Amma Vahab, deyəsən, üşüyürdü, qara plaşının yaxasını qatlayıb əlləri cibində büzüşmüşdü, ayağının birini qatlayıb, o birini qoyurdu.

Küsülülər kimi, beləcə dinməz-söyləməz dayanmamaq üçün Məcid araya söhbət salmağa çalışdı:

– Soyuqdu ha sənə... gələydin içəri.

Vahab nəsə mızıldadı. Tüklü sifətindən, altı qaralmış gözlərindən yorğunluq tökülürdü.

– Uşağı nahaq aparırsan, tək adamsan. – O saat da başa düşdü ki, söhbət elə buradaca qırılacaq.

Vahabın kinayəli təbəssümü də bunu deyirdi:

– Sənə dəxli yoxdu, burnunu hər yerə soxma.

Süsən yaxşı ki, otaqdaydı, bu sözləri eşitməmişdi. Sözü çevirmədi. Daha danışmamaq olardı, onsuz da Vahabla söhbətləri tutmurdu. Vaxt varıydı bu adamın əlindən lap boğaza yığılmışdı, əlacı olsaydı, onu boğub-öldürərdi, heç “uf “ da deməzdi. Onun qaraqabaqlığı, hərdən çoxbilmiş adam kimi kinayəli-kinayəli gülümsəməyi, burnunu yuxarı dartmağı, ikibaşlı sözləri çox gecələr Məcidin yuxusunu qaçırmışdı. Adamı təhqir eləmək üçün lazım deyil ki, elə adamın üzünə söyəsən. Vahabın saymazlığı, danışdığın yerdə durub adamdan aralanmağı, kinayəli təbəssümü söyməkdən də betər idi. Arvadının, baldızının yanında o dillənmirdi, sıpıxıb qalırdı. Bir də ki, dillənib nə deyəsiydi? Deyəcək ki, niyə elə gülümsəyirdən? Özünü təhqir olunmuş göstərməmək üçün məcbur oldu yerli-yersiz gülümsəsin, yerli-yersiz gülsün, ağlına gələni danışsın. Sussa, təhqir

olunduğunu hamı biləcəkdi, başa düsəcəkdi. Başa düşsələr də, cəhənnəmə, qoy elə fikirləşsinlər ki, o, heç belə xırda-xuruş hərəkətləri vecinə almır, belə xırda-xuruş sözləri təhqir saymır. Vahabsa onun halını bilirdi, altdan-altdan gülürdü, altdan-altdan qımışırdı. Acığını soyutmağa Məcid fürsət gözləyirdi. Nə olaydı, qadınların yanında o da Vahabı nəyə görəsə sanca biləydi, alçaldaydı, o da bir gün için-için güləydi. Ancaq Vahab yaxasını ələ vermirdi. Bu qaçdı-tutdunun, bu əsəb oyununun axırı çox adi oldu, günlərin bir günü gördüyü yuxu ilə oyun bitdi. Yuxuda gördü ki, qaranlıq bir dəhlizlə qaçır, hardasa lap dibdə göy işıq yanırdı. Üzünü həmin göy işığa tutmuşdu. Get-gedə dəhliz lap daralırdı. Əl-qolu daşa-divara dəyirdi, yol isə qurtarmaq bilmirdi. Geriyə dönmək də olmurdu, qaranlıq onu qabağa itələyirdi. Axır qapını açdı. İçəri də qaranlıqdı. Qaranlıqdan küçük zingiltisinə oxşayan bir səs gəlirdi, elə bil kimsə zarıyırdı. Əlini divarda gəzdirib düyməni tapdı. Gur işıq ağzı üstə döşəməyə sərilmiş adamı tərpətdi. Vahabı tanıyanda bayaqdan nə qədər qorxsa da, yad yerdə tanış adam gördüyünə sevinəmmədi. Vahabın ağlamaqdan gözləri şişmişdi, sifəti əyilmişdi, onu görüb tezcə üzünü örtdü: "İşığı keçir, dedi, işığı keçir". Vahabın yalvarış dolu səsi birdəncə onu ürəkləndirdi, sakitcə: "Nə olub?" – deyə soruşdu. Vahab əlini yana uzatdı. Ancaq bu zaman otaqda başqa qapı da olduğunu gördü. Qapının üstünə lüt qız şəkli vurulmuşdu. Qız gündən yanmış bədənini qabağa verib ağappaq dişlərini göstərirdi. Bir də soruşdu ki: axı nə olub? Soruşa-soruşa da hiss eləyirdi ki, eşidəcəyi xoş bir sözün dalğası indidən onu vurur. Vahab hönkürüb ağladı: "Ordadı, – dedi, – ordadı". Kim ordadı? "O... yanında..." Hər şeyi o dəqiqə başa düşdü. Onu dəli bir gülmək tutdu: "Demək,

ordadı, ordadı...” Vahab üzünü tutub zarıyırdı, başını döşəməyə çırpırdı: “İşığı keçir, işığı keçir, keçir...” O isə zorla Vahabın əlini üzündən qoparıb gözünə baxmaq istəyirdi. Vahab zarıyırdı, əliylə üzünü lap bərk-bərk qapayırdı: “Belə şeyə gülməzlər, belə şeyə gülməzlər, gülməzlər, gülməzlər...” Məcid bu qəribə yuxusunu heç kimə danışmamışdı. Amma yuxudan sonra Vahabı görəndə günah iş tutmuş adam kimi utanırdı, gözlərinə baxa bilmirdi. Daha Vahabın atmacaları, kinayəli-kinayəli gülümsəməyi onu özündən çıxarmırdı. Gözünün qabağına yuxuda gördüyü Vahab gəlirdi, o saat hirsi soyuyurdu.

Vahab uşağı götürüb aparandan sonra evdə sakitlik oldu. Televizorun da səsi elə bil batmışdı. Məcid ayağını sürüyə-sürüyə gedib televizorun qabağında oturdu. Pencəyi soyunmağı unutmuşdu.

Süsən bayaq Vahabın uşağı qucağına götürüb yağışdan qoruna-qoruna necə küçəyə çıxdığını yadına saldı. Sonra bacısı, bacısının gəzməyə getdiyi Bakı yadına düşdü. Görən, orda yağış yağırdımı? Yenə qəfilcə indi ilə keçmişin sərhədlərinə sığışmayan, hardasa illərin birində durub onu gözləyən, həmin ilin, həmin günün bir anı işıq saçıb yad bir otağı işıqlandırdı: o, yad evdə yad bir kişinin uşaqlarına yemək çəkirdi...

* * *

Yeməyini tezcə yedi. Uşaqlar doğulandan öyrəşmişdi. Əl-ayağına dolaşan olmayanda da tələsiyirdi, elə bil dalınca atlı çapır. Qayınatası belə deyir. Deyir, heç cavab da gözləmir. Bilir ki, bu cür də olmalıdır. Uşaq, uşaq ha deyil, oddu, yalovdu, bir dəqiqə, bir yerdə bənd almırlar. Onun da-

lınca qaç, bunun dalınca qaç. O qoyma suya girdi, vay, qoyma bu çaydanı üstünə aşıracaq. Hələ evin işi-gücü. Heç bilmirsən otaqları kim zibilləyir. Gələn yox, gedən yox. Bir özləridi. O, qayınanası, qayınatası, iki də uşaq. Ancaq gəl görüm bir gün otaqları silib-süpürmə. Deyərsən, toy eləyibsən, yüz adam yola salıbsan. Əlinin papağı Vəlinin başında, Vəlinin papağı Əlinin. Yığırsan, yığışdırırsan, bir də görürsən ayağının hərəsi bir dil deyir. Uşaqları yatızdırdığın yerdə özünü yuxu aparır. Bir dəfə eləcə də olmuşdu. Uşaqlar təzədən durub babaları ilə oynayırlar, o isə yatıb. Hələ də yeri düşəndə danışıb gülürlər. Stolun üstünü də tələsik yığışdırıb uşaqları yerinə saldı. Uşaqlar oyanana qədər gərək aparıb işıq pulunu keçirə, qayıdanda bazara, aptekə də dəyə. Son vaxtlar bir ayaqları aptekdədi. Gah uşaqlar xəstələnir, gah özü, qocalar da ki, çoxdan daha qocalığı dava-dərmanla ovudurlar. Qayınatası işləyəndə qıvraqdı. Gedirdi, gəlirdi, işə-gücə başı qarışırdı, daha canının ağrısına vaxt qalmırdı. İşdən ki çıxdı, qocalığı boynuna aldı. Birdən-birə düşdü. Bütün gün bekar: oturur – fikirləşir, durur – fikirləşir. Qayınanası kişinin azarını bilir. Deyir, nə oturursan evdə, get bazara, çayxanaya, otur, dur, gap elə, dominodan-nərddən oyna, başın qarışsın. Kişinin də ki, çayxana ilə, yığnaq ilə əvvəldən arası yoxdu. Hər dəfə arvadın ağzından vurur, deyir, əl-ayağına dolaşıram – gedim, gözünə girirəm – gedim, bezibsən – gedim. O söylənir, bu söylənir, bir də görürsən hirslənib bir-birilərinin xətrinə dəydilər. İki yaxşı adam bir-birilərini başa düşməyib heç nəyin üstündə incişəndə, heç nəyin üstündə bir-birilərinin ürəyinə toxunanda onun ağlamağı tutur.

Hava bozarıb, lap qar havasıdı. Plaşından özünün də xoşu gəlir. Elə tək plaşa görə gəzməyə çıxmağa dəyər. Ra-

sim Bakıdan alıb yollayıb. Keçən il bu vədə o da Bakıda idi. Neçə ildi evləniblər, yenə bir yerə yığışammırlar. Evsizlik də belə şeydi. Nə qədər kirayədə qalmaq olar?! Yaxşı ev kirayələsən, yenə dərd yarıdı. Yaxşı deyəndə, yəni kirayə pulu bir az babat ola, ev də qaydasında. İki uşaqla bir otaqda qalmaq çətindi, ancaq heç iki uşaqla hər ev sahibi adamı yaxın qoymur da. Rasim zavodda xeyli var növbəyə durub, yüzüncü, ya yüz birinci adamdı. Zavod da ki ev tikmir. İldə on-on beş mənzil verələr-verməyələr. Tez ev almaq üçün Rasimin açmadığı qapı qalmadı. Getdi, gəldi. Nə xeyri. Yüz adamı qoyub yüz birinciyə ev verməyəcəklər ha. O da yola gəlmədi. Ora yazdı, bura yazdı. Xeyri də o oldu ki, gəlib kirayə qaldıqları evdən də çıxartdılar. Ev yiyəsi dedi ki, uçastkovu qoymur kirayə verməyə. Rasim də hirslənib dalaşdı. Dedi, evin də ev ola nəyə dərd, özüm əl gəzdirməsəm, heç it də qalmazdı. Düz də deyir. Bir balaca otağıydı, qabağında mətbəx. Divarlarını ağartmışdılar, oboy çəkmişdilər, tavanına fanerka vurmuşdular. Qaldıqları heç beş ay olmazdı. Məcbur olub çıxdılar. Qışda hardan ev tapasan? Rasim lap bezmişdi, bilmirdi nə eləsin. Axır gətirib qoydu rayona. Arada vaxt tapanda gəlib dəyir. İki-üç gün qalır. Evdən ancaq hələ bir söz demir. O da heç soruşmur. Soruşub qanını niyə qaraltsın? Lazım olanda özü deyər.

İşıq pulunu keçirtmək üçün gərək rayonu dörd dolanasan. Rasimin gözündən uzaq. Təkcə şəhərə çıxmağına Rasim razı deyil. Guya elə kefindən çıxır. Daha fikirləşmir bir, bəs kim çıxsın? Bazara kim getsin? Lazım olanda dükana kim dəysin? Hamısını anası eləməyəcək ha, qoca arvaddı. Özü burda olsa, qoymaz. Anası da oğlunun xasiyyətini bildiyindən onu heç hara buyurmur. Ya özü gedir, ya elə Rasimi göndərir. Deyir, xoşun gəlmir arvadın getsin, dur özün tərpən.

İşıq pulunu əmanət kassası olan binada keçirirlər. Gözəl, cavan qızlar oturub. Onun da işləməkdən xoşu gəlir. Amma bir sənəti yoxdu. Orta məktəbi qurtaran kimi verdilər ərə. Söhbət düşəndə Rasim cin atına minir. Deyir, nə vaxt evi dolandırmağa gücüm çatmayacaq, onda işləyərsən. İndi otur yeməyini bişir, otağını süpür, uşaqları böyüt, elə bil hökumətə işləyirsən, maaşını mən verəcəm. İş elə bil təkcə puldadı. Gedirsən, kollektivdi, təzə adamlar görürsən, tanıyırsan. Onların da öz dərdi-azarı, sevinci, kiminsə sevincinə sevinirsən, dərdinə şərik olursan, təsəlli verirsən. Yoxsa elə bütün günü evdə. Adam camaat arasına çıxmağı da yadırğayır. Bilmirsən necə geyinəsən, necə danışasan. Bir də ki, lap pula görə işlə. Artıq pulun nə ziyanı. İndi alırsan çox, sabah keçərsən bir yüngül işə, alarsan bir qədər az. O da alar, yenə üst-üstə gələndə həmin puldu. Amma daha həmin əziyyəti çəkməzsən. Qabaqlar həmişə iş-gücünü gizlədirdi. Soruşanda deyirdi, avaraçılıqdı, bir az işləyib başımızı girləyirik, nə bilim, naçalniklə aram yaxşıdı, işləməyəndə də dillənmir. Danışanda deyirsən, doğrudan da, bəy işidi. Di gəl, bir yığın pul alanda onun inanmağı gəlmirdi. Nədi, hökumət varının başından keçməyib ha, götürüb o boyda pulu çölə tullaya. Bir dəfə elə oldu ki, özü gedib hər şeyi gördü. Rasim işdə yıxılıb ayağını sındırmışdı. Düz bir aydan çox yataqdan qalxmadı. Narahat olmasınlar deyə, evdəkilərə xəbər vermədilər. İncəvara, pul sarıdan korluq çəkmədilər. Qəza iş vaxtı baş verdiyindən maaşını büsbütün saxlamışdılar. Elə zavoda da pul almaq üçün o gedəsi oldu. İlk dəfə indi zavod görürdü. Lap başını itirmişdi. Bilmirdi hardan gəlsin, hara getsin. Əvvəl heç qapıdan da buraxmırdılar. Çox çək-çevirdən sonra keçdi. Yay idi. Gün adamın başını deşirdi. Asfalt od tutub yanırdı. Gözə dəyən

ancaq metaldı. Hər yana yığmışdılar. Əlini vurmasan da, bilirdin ki, onlar da alışıb-yanır. İçəridən dəmir yolu keçirdi. Elektrovoz metal yüklənmiş vaqonları istidən təntiyə-təntiyə çəkib aparırdı. Başının üstündə trubalar uğuldayırdı. Trubalar nəyinsə ağırlığından titrəyirdi, deyirsən, bu saat qopub başına düşəcək. Göydən toz yağırdı. Metal tozuydu. Günün işığında parıldayırdı. Havadan pis bir qoxu gəlirdi. Yəqin elə metal qoxuyurdu. Bilmirdi burnunu tutsun, yoxsa ağzını yumsun. Toz dişinə yapışıb xırçıldayırdı. İşçilər ayaqlarına dəmir uclu ayaqqabı, əyinlərinə göy rəngli dəst paltar geyinmişdilər, başlarına qırmızı dəbilqələr qoymuşdular. Ona qəribə gələn o idi ki, rastlaşdığı adamların heç birinin üzündən yayın istisində geyindikləri paltarların ağırlığı, narahatlığı oxunmurdu. Hirsdən, gərginlikdən, əzabdan əsər-əlamət yox idi. Gündən, tozdan, səs-küydən heç kim qaçıb qurtarmağa çalışmırdı. Çox rahat, çox arxayın danışa-danışa, gülə-gülə, nəyisə bir-birilərinə başa sala-sala keçib gedirdilər. Elə bil gəzməyə çıxmışdılar. Sonra evə qaçıb gördüklərini tələsə-tələsə, heyrətlə Rasimə danışanda o gülmüşdü. Bəs sən nə bilirdin, demişdi, elə zavod bu cür olur da. Yoxsa elə fikirləşirdin, gedib görəcəksən hamı qalstukda gəzir, hər yana da gül dibçəyi düzülüb? Rasimin gülməyi də onun heyrətini azaltmamışdı. Ərinin aldığı pulların havayı yerə çölə atılmadığına bir daha inanmışdı. Ancaq sonralar, Rasimin danışdıqlarından bilmişdi ki, bütün zavodlar gördüyü kimi deyilmiş, başqa cür zavodlar da var imiş: təmiz, yaraşıqlı, pəncərələri sarmaşıqlı, sexlərdə akvariumlar, yüz cürə balıq, orda, doğrudan da, kefi istəyən lap qalstukla gəzir, döşəməyə linolium çəkilib, hətta ayaqqabılarını çıxarıb çəkələk geyinirsən. Yaşıllıq o qədərdi ki, elə bil çöldə, təmiz havadasan. Nə vaxtsa belə

bir zavoda düzəlmək istədiyini Rasim deməmişdi, amma o istəyirdi. İstəyirdi əri ilə bərabər o da həmin zavodda işləsin. Bir yerdə işə getsinlər, qayıtsınlar, sarmaşıqlı pəncərənin altından bir yerdə keçsinlər.

Qaldı aptek, bir də bazar. Böyür-baş dükandır. Dükanların yanından laqeyd keçə bilmir. İstəyir girsin, baxsın, bir şey alsın. Amma ürəyi gəlmir. İndidən nə alsın? Alıb hara yığsın? Yığmaq da olar, saxlamaq da olar, di gəl, nəsə ürəyinə yatmır. Evi olanda alar. Bilər daha evi var, bax budur: bir otaq. İki otaq, neçədirsə nə fərqi, təki alsınlar. Yəqin ki, üç otaq verəcəklər. O vaxta qədər bir uşaq da olsa, lap dörd otaq verərlər. Üç otaq da bəsləridi. Üç otaq. Azdan-çoxdan cehiz gətirib. Bir dənə yaxşı mebel almaq lazımdı. Otağın biri uşaqların, biri olar özlərinin yataq otağı, biri qonaq otağı. Ora televizoru qoyarlar, bir dənə də yemək stolu, hələ divan da lazımdı. Demək, olacaq həmin otaqda divan, divar boyu şkaf, televizor, bir dənə kreslo, yanında da jurnal stolu. Divara qızılı-sarı oboy çəkərlər. Özlərinin yataq otağı olar yaşıl. Əgər gün vuran otaqdısa, mavi rəng eləyərlər. Uşaqların otağını gərək lap yaxşı düzəltsinlər. Otaq boyu palaz salsınlar. Kitab şkafı, yazı stolu qoysunlar. Şkafın üstünə cürbəcür oyuncaqlar düzsünlər. Divarlara şən fiqurları olan çəhrayı, ya narıncı oboy çəkərlər. Hər yanda da gül dibçəkləri: sırğagülü, xınagülü, ətirşah. Otaqlar işıqlı, yaraşıqlı, pəncərələr tül pərdəli. Hər gün silər, təmizləyər. Hər gün bilər ki, Rasim yanındadı, hara getsə, harda geciksə, yenə axşam evə gələcək, o isə çörəyini yeməyib gözləyəcək, gözündən yuxu tökülsə də gözləyəcək. Gələndə qaçıb qapıda qarşılayacaq, paltosunu, pencəyini

tutacaq, tez-tələsik yeməyini qızdıracaq. Bir yerdə danışa-gülə yeyəcəklər. Ürəyi o qədər rahat olacaq ki, xoşbəxtlik öz sayalı əlilə ona qorxusuz, işıqlı yuxular göndərəcək.

Bazarda çox ləngimədi. Bayaqdan narahatdı. Elə bil nəsə itirmişdi, nəsə istəyirdi, ancaq bilmirdi nə. Aptekdən çıxıb poçtun yanından keçəndə nigarançılğın səbəbini bildi: məktub gözləyirdi. Ürəyinə dammışdı ki, bu gün gələcək. İndi bəlkə də qəzetləri paylayıblar. Məktub olduğundan poçtalyon həmişəki kimi qəzeti pəncərənin dəmirinə keçirməyib, içəridən kimisə çağırıb, qəzetlə bir yerdə məktubu ona verib. Bax həmin zərfin üstünə onun adı yazılıb, məktub ona çatasıdır. Evdəkilər oğullarının nə yazdığını, necə dolandığını nə qədər bilmək istəsələr də, hövsələlərini basıb onu gözləyirlər: gəlsin, açsın, oxusun, danışsın. Di gəl, hər şeyi danışmaq olmur. Yaxşıdı, salam söyləyir, vəssalam. Bunları deyəndə də sıxılır. Elə bil zorla əyinlərindən paltarı çıxarıb, hələ utanmaz-utanmaz geyinib qabaqlarında oyan-buyana gəzir. Amma sıxılsa da, oğullarına onlardan daha yaxın olduğuna görə bir az da qürrələnir. Sonra söz-sözü çəkir, ər-arvad nələrisə xatırlayırlar, nələrisə saf-çürük eləyirlər, oğullarının gələcəkdə nə cür yaşayacağını, həyatını necə quracağını fikirləşirdilər. Bu vaxt o, bir yanda sıpıxıb qalır, söhbətə qoşulmur. Ağırtaxtalı, səbirli, öz yerini, dünyadan nə istədiklərini bilən adamların söz-söhbəti onu bayaq qalxdığı pillədən yavaş-yavaş endirir. Başa düşür ki, demə, heç kimin əynindən zorla paltarını çıxarmayıb, paltarı ona xoşluqla veriblər, gözləri dalınca qalmayıb, istədikləri vaxt hətta əynindən çıxara da bilərlər. Endiyi pillədən o da bu qocalar kimi heçnəsiz: məktubsuz, sözsüz, qılıqsız iki adamı bir-birinə bağlayan yaxınlığı hiss eləmək istəyir. Elə bağlılıq ki, həmişə üstündə əsmirsən,

qırılacağından qorxmursan. Çünki bu bağ ölüm kimi gözəgörünməz və ölüm kimi qüvvətlidir.

Gecə məktubu bir də oxuyur. Hamı yatandan sonra. Gecənin sakitliyində iki ürək bir-birinin səsini daha tez eşidir. Uşaqları da yerinə salıb, stolüstü lampanı yandırır. Stolüstü lampanın işığına tutduğu sətirlər ona arzuladığı yaxınlığı, iki adamı heçnəsiz bir-birinə bağlayan əbədi yaxınlığı hiss elətdirir. Həmin beş-on dəqiqə o, hamıdan güclü, hamıdan xoşbəxt olur. Həmişə eyməndiyi qaranlıq da onun vecinə gəlmir. Ruhlar bu güclü adamla əylənmək fikrindən vaz keçib, qorxutmaq üçün özlərinə başqa adam gəzirlər.

Məktubu oxuya-oxuya Rasimin işini-gücünü, onsuz keçən günlərini gözünün qabağına gətirir. Bilir, bu yaşda yataqxanada yaşamaq çətindi. Paltarını yuyan, ütüləyən yox, yeməyini bişirən yox. Uşaqlar uzaqda. Görən, xəstədimi, gümrahdımı, bəlkə də bu saat elə orda lazımsan? Əl çatmır, ün yetmir, istəyəndə xəbər tutasan. Nigarançılığını bir işlə unutmağa çalışırsan. Heç nədən acığın tutur. Bilmirsən nəyə: dünyayamı, özünəmi, qulağının dibində vızıldayan milçəyəmi?

Sonra həmin lampa işığında cavab məktubu yazır. Yazır ki, hamı yaxşıdı, gümrahdı. Uşaqlar səni soruşurlar. Atan təqaüdə çıxdığına görə darıxır, bəlkə yenə yüngül bir işə girdi. Ananın, bilirsən, belində yel var. Soyuqdan gözləmək lazımdı. Qoymuram əlini suya vursun. Sən narahat olma. Mən də ki yaxşıyam. Biz sarıdan arxayın ol. Özünə fikir ver.

Ürəyindən keçənin çoxunu yaza bilmir. Həmin sözləri yuxuya gedə-gedə qaranlığa pıçıldayır. Gecənin sakitliyində iki ürək bir-birinin səsini daha tez eşidir.

Qəzet gəlib. Qayınatası divanda oturub oxuyur. Ona heç nə demədilər. Demək, məktub yoxdu. Uşaqlar hələ yatır. Paltarını dəyişə-dəyişə fikirləşir ki, məktub gəlməsə də, ola bilsin, telefonla danışar. Arabir telefonla danışanda məktubu gecikdirir. İndi bütün günü qulağı telefon zəngində olacaq. Gərək heç qəzet də gəlməyəydi. Elə gözləyəydi ki, indi gələcək. Daha qaldı sabaha: gözləmək də, məktub da.

Qayınanası üşüyə-üşüyə bağdan gəlib, özünü sobanın böyrünə verir. Əllərini isidə-isidə:

– Soyuqdu, – deyir, – qış elə bil dala qayıdıb.

Qayınatası sakitliyə deyilmiş sözü cavabsız qoymur:

– Soyuqdu, indi də çıxma eşiyə, sonra böyrünü tutub yıxılacaqsan.

O da nə düşündüyünü gizlətmək üçün qocalardan geri qalmaq istəmir. Hamının bildiyi və bu evdə heç kimə dəxli olmayacaq bir söz deyir:

– Yaxşı ki bizlərdə külək olmur...

* * *

Bayırda küləkdi. Elə bil külək evin içinə də əl gəzdirib – otaq tör-töküntüdü. Televizor işləyir, amma göstərmir, təkcə səsi çıxır. Kənd təsərrüfatından danışırlar.

K i ş i. Bunu niyə boş yerə açıbsan?

Q a d ı n. Nə bilim dedim, bəlkə konsert oldu, səsinisə eşidərik.

K i ş i *(televizoru keçirir).* Bunları bir səliqəyə sal, qocanı da çağıraq.

Q a d ı n. Çağırma. Vallah, onu görəndə birtəhər oluram.

K i ş i. Yazıqdı. Onsuz da çıxıb gedirik. Sən də çox baş qoşma.

Q a d ı n. Mən neynirəm axı?

K i ş i. Hər sözünün başına ip salırsan. Nə deyir, qoy desin, fikir vermə. Yeməyə nəyin var?

Q a d ı n. Kolbasadı, pendirdi, konserva da var.

K i ş i. Bəs toyuq? Dünəndən durur ki, bişirsən.

Q a d ı n. Yox, sən Allah, üz vurma, heç həvəsim yoxdu mətbəxə girəm.

K i ş i. Yaxşı, yaxşı, gedim onda çağırım. *(Gedir).*

*Qadın tənbəl-tənbəl yır-yığış eləyir, sonra soyuducudan kolbasa çıxarıb doğrayır, boşqabları düzür. Kişi qayıdır.*

K i ş i. Yatırdı.

Q a d ı n. Oyatdın?

K i ş i. Hə.

Q a d ı n. Yaxşı eləyibsən, doğrudan, yazıqdı. Adam fikirləşəndə birtəhər olur: qoca vaxtı tək qalasan damın altında.

K i ş i. Üstünü də örtməmişdi. Yəqin uzandığı yerdə mürgüləyib.

Q a d ı n *(fikirli-fikirli).* Biz də havaxtsa qocalacağıq...

K i ş i. Heç inanmağın gəlmir, hə?

Q a d ı n. Gəlir. Ancaq bir vaxt gəlmirdi. İnana bilmirdim. Öləcəyimə də inana bilmirdim. Fikirləşirdim lap özümü ataram maşının altına, heç nə olmaz.

K i ş i *(gülür).* Yəni heç atmaq istəyibsən ki?

Q a d ı n. Dəli deyiləm ha. Sözdü deyirəm. Nəsə ağlıma sığışmırdı, bax, bu saat nəfəs alıram, danışıram, gülürəm, bir dəqiqədən sonra hər şey qurtarır. İndi ancaq lap ağrını hiss eləyirəm, necə yıxılıram, necə maşın üstümdən keçir, qanım nətəri axır, hamısını.

K i ş i. Mən ancaq heç ölüm haqqında fikirləşmirəm. Balaca olanda çox fikirləşirdim. Onda da öz ölümümü yox, ata-anamın. Bilmirəm, nəyə görəsə qorxurdum birdən onlara bir şey olar.

Q a d ı n. Sən Allah, ölümdən danışma.

K i ş i. Özün söhbət saldın ki... İndi fikirləşirəm, axı niyə qorxurdum? Onlar axı o vaxt lap cavan idilər, ölüm hara, onlar hara. İndi qocalıblar, ölüm, Allah eləməmişkən, lap yaxında, di gəl, qorxmuram.

Q a d ı n. Daha öyrəşibsən.

K i ş i. Ola bilsin. Adam bilmədiyi şeydən qorxur. Amma öyrəşmək də bir şey deyil. Deyirəm, adam həmişə uşaq kimi ola, hər şeyə heyrət eləyə, hər şeyə təəccüblənə *(Qoca qapının ağzında öskürür).* Gəlin, gəlin.

Q o c a. Salaməleyküm. Deyəsən, yığışırsınız?

Q a d ı n *(sevincək).* Hə, ay dayı, daha gedirik evimizə-eşiyimizə: gəzdik, doyduq.

Q o c a. Düzdü. Gəzmək nə qədər yaxşı olsa, baxma, ev adamı çəkir.

Q a d ı n. Deyəsən, ay dayı, siz də möhkəm gəzibsiniz.

Q o c a. Gəzmişəm. Lap Urusetə də gedib çıxmışam.

Q a d ı n. Urusetə deyəndə, hara?

Q o c a. Yadımdan çıxıb, balaca şəhərlərdi. Ancaq Moskva yaxşı yadımdadı.

Q a d ı n. Moskvada da olubsunuz? Bəxtəvər!

K i ş i. Yəqin çoxdan olub.

Q o c a. Çoxdan. O vaxt yaxşı rəqs eləyirdim, dəstəynən yığıb aparırdılar. *(Qadın gülür.)*

K i ş i. Nədi? Sən o vaxtı fikirləş, həmişə qoca olmayıb ha.

Q a d ı n. Ona gülmürəm. Özümüzə gülürəm. *(Qocaya.)* Bizim ancaq əlimizdən heç nə gəlmir, heç nə bacarmırıq.

K i ş i. Neyləyək, özümüzü öldürək? Bacarmırıq da.

Q o c a. Əşşi, oynamağa nə bacarıq, boş şeydi, oynamağı hamı bilir.

Q a d ı n. İş orasıdı ki, hamı bilmir *(qayğılıdı).* Doğulasan, əlli-altmış il yaşayasan, əlindən bir iş gəlməyə. Dəhşətdi.

K i ş i. Niyə, nəsə gəlir.

Q a d ı n. Bilirik nə gəlir.

K i ş i. Bilirsən, onda danışma.

Q a d ı n *(Qocaya).* Belədi də, adama düz söz deyirsən, inciyir. Guya mən bacarıram? Mən də sənin günündəyəm. Tək qalanda adamın bağrı çatlayır. Allah, heç olmasa, səs verməyib, özümüz üçünsə oxuyaq. Çalıb-oxuyana paxıllığım tutur. Xoşbəxt adamlardı.

Q o c a. Bizim dəstədə bir oxuyan qız var idi, səsi Allah vergisiydi. Ancaq özünə hörmət eləmirdi. Ayıb olmasın, gah onnan, gah bunnan. Əldən-ələ keçdi, hayıf oldu.

Q a d ı n. Nətəri yanı hayıf oldu?

Q o c a. Belə də, əldən-ələ keçdi.

Q a d ı n. İstədiyini eləyib. İstədiyini eləyəndə adam hayıf olur?

Q o c a. Nə bilim, vallah...

K i ş i. Hayıf oldu-olmadı, bizə nə. Yaxşı, bəs arvadınız sizə nə deyirdi, gündə bir yerdə, hayıf olmuşlarla çal-oyna, qısqanmırdı?

Q o c a. Olsaydı, qısqanardı.

Q a d ı n. Bir belə yaşınız var, yəni bir dəfə də evlənməyibsiniz?

Q o c a *(gülür).* Yox.

Q a d ı n. Niyə?

K i ş i. Dayını çətinə salma. *(Soyuducudan araq çıxarır.)* Deyirəm, yolüstü bir balaca içək.

Q o c a. Mənə olmaz, həkim qoymur.

Q a d ı n. Eh, həkimə nə var, onlara qalsa, adam gərək indidən ayaqlarını uzada.

Q o c a. Yox, özüm də bilirəm, içəndə ziyan eləyir. Bekara şişib. (Qarnını göstərir).

Q a d ı n. Sən Allah, göstərmə.

K i ş i. Niyə xəstəxanada yatmırsınız?

Q o c a. On beş gün olar çıxmışam. Dərman yazıblar.

Q a d ı n. Tək adama xəstəxanada yatmaq çətindi. Gələni yox, gedəni yox.

Q o c a. Tək niyə? O qədər dost var, qohum var. İndi bilirlər qonağım gəlib, ona görə görünmürlər... Özüm bezib çıxdım.

K i ş i *(özünə araq süzür).* Yaxşı, istəmirsiz, içməyin, mən əvəzinizə də içərəm.

Q o c a. Süz əşi, cəhənnəmə ki, bir də nə vaxt siznən oturacağıq, Allah bilir.

Q a d ı n. Dayımın ürəyi istəyir, ancaq bizə minnət qoyur.

K i ş i *(badəni götürür).* İçək...

Q o c a. Sizin sağlığınıza, yaxşı yol. *(İçirlər.)* Əla araqdı.

K i ş i. Xaricə gedənlərdəndi.

Q o c a. Deyirəm axı... İki tin o yanda dükan var ha, bax orda bundan olur, əlaltdan satırlar, insafsızlar çox alır.

Q a d ı n. Niyə insafsız olur? Xoşun gəlmir, pulun yoxdu, alma. Zorla tutub soymurlar ki?!

K i ş i. Qızışma.

Q a d ı n. Yox, düz deyirəm ki, hamı elə dolanır, hərə bir yerdən qazanır. *(Qocaya).* Siz guya qazanmırdınız?

Q o c a. Mən sürücü baba olmuşam.

Q a d ı n. Nə olsun, heç artıq almırdınız?

K i ş i *(kinayə ilə).* İstintaq başladı.

Q o c a *(duruxur).* Almırdım, verirdilər.

Q a d ı n. Görürsünüz? Nə fərqi.

Q o c a. Bütün günü sükan arxasında, beş-üç köpük nə olan şeydi?

Q a d ı n. Beş-üç, beş-üç, yığılır olur bir ətək. O da piştaxta arxasında durur. Bütün günü bir yerdə dayanmaq lap zülümdü. Hamımız danışmağın qoçağıyıq, di gəl, heç kim düz işləmir.

K i ş i. Niyə, o qədər düz işləyən var, sən görmürsən, ya görmək istəmirsən.

Q a d ı n. Biri sənsən o düz işləyənin *(qocaya.)* Çünki zavodda işləyir, fəhlədi, düz işləməkdən savayı özgə əlacı yoxdu.

K i ş i *(acıqla).* Bəs sən neyləyirsən?

Q a d ı n. Buğalterəm, belə lap daş-başım da olur. *(Birdən nəsə yadına salıb duruxur.)* Özün ki bilirsən?!

Q o c a. Bir var çay pulu, bir də var adamın boğazını üzmək.

Q a d ı n. O, başqa məsələ. Məni yandıran odu ki, hamı guya düzdü, hamı guya yaxşıdı. Tək işdə yox, hər yerdə. Guya hamı peyğəmbər övladıdı, mələkdi. *(Kişiyə.)* Guya sən də mələksən, dilinə heç yalan dəyməyib.

K i ş i. Hə, mələyəm, inanmırsan?

Q a d ı n. Axı elə deyil, elə deyil. *(Səsini get-gedə qaldırır.)* Bax, mən özümü tanıyıram. Bilirəm ki, mən pisəm, pisəm, pisəm! *(Qolu stəkana dəyir, stəkan düşüb sınır)*.

K i ş i. Sakit ol. Havayı yerə stəkanı qırdın. *(Gülmək istəyir, bacarmır.)*

Q a d ı n. Qorxma, öz stəkanımızdı.

Q o c a *(kişiyə).* Yenə süzün içək.

Q a d ı n. Mənə də süz.

K i ş i. Sənə də?

Q a d ı n. Süz, süz, dayı bağışlayar. Mənə həkim bunu dərman buyurub.

Q o c a *(fikirli-fikirli).* Mənim içən qadından xoşum gəlir.

K i ş i. Özgə arvadının içməyindən hamının xoşu gəlir.

Q a d ı n *(yanpörtü kişiyə baxır).* Sənin də?

K i ş i. Mən heç kimin işinə qarışmaram. Hər kəsin özü bilər.

Q a d ı n. Demək, onda içmək olar.

K i ş i *(süzür).* Buyuracaqsan.

Q o c a. Çəkişməsən, bərkiməzsən. Xoşbəxt olun, körpələrinizin sağlığına.

Q a d ı n *(gözü yol çəkir).* Elə bil evdən bir ildi çıxmışam. Adam nətəri darıxarmış...

K i ş i. Elə bezibsən?

Q a d ı n. Bezibsən də sözdü?! Mən balamı hamıdan çox istəyirəm. Bax, sən ərimsən, gizlətmirəm, səndən də çox istəyirəm *(gülür).*

Q o c a. Neçə uşaqdı?

K i ş i. İkidi.

Q o c a. Əlinizdə-ovcunuzda qalsın.

Q a d ı n. Sağ olun. Siz də gərək evlənəydiniz, heç olmasa, uşağa görə.

K i ş i. İndi məsləhət vermək asandı. O vaxt nə biləsən, nə olub.

Q a d ı n. Nə olacaq, dünyada bütün qadınlar qırılıb, dayım tək qalıb. *(Qoca gülür.)* Nəyə gülürsüz?

Q o c a. Yadıma bir şey düşdü.

Q a d ı n. Nə?

Q o c a. Vacib deyil, desəm, birdən xətrinizə dəyər.

Q a d ı n. Deyin, deyin, deyin gəlsin.

K i ş i. Geriyə yol yoxdu, deyin gəlsin.

Q o c a. Tolstoy deyibmiş ki...

Q a d ı n *(maraqla).* Sizin Tolstoydan da xəbəriniz var?

K i ş i. Niyə olmur?! Bircə elə sən çoxbilmişsən?..

Q a d ı n. Hə, nə deyirmiş Tolstoy?

Q o c a. Deyirmiş, qadınlardan bir söz bilirəm, indi deməyəcəyəm onu. Elə vaxt deyəcəm, heç kimin əli mənə çatmasın. Deyib, tabutun qapağını örtəcəm.

Q a d ı n. Macal tapıb?

Q o c a. Yox.

Q a d ı n. Heyif, maraqlıymış. Bəlkə siz biləsiniz?

K i ş i. Hardan bilsin. Ağzında deyir ki, Tolstoy macal tapmayıb.

Q a d ı n. Yox, dayım bilir.

Q o c a. Deyəcəkmiş ki, qadınların heç hansı bir zibil deyil.

Q a d ı n. Vay, vay, vay. Daha dayıma süzmə, dayım keflənib. Demək mən də...

K i ş i. Dayının nə təqsiri, onu Tolstoy deyəcəkmiş.

Q a d ı n. Təmizə çıxarma, xeyri yoxdu, mən incidim. Axı birdən-birə bu, hardan yadınıza düşdü? *(Qoca nəsə demək istəyir.)* Yox, lazım deyil. Ürəyinizə gəlib deyibsiniz. *(Bir az susandan sonra.)* Amma yaxşı deyəcəkmiş.

K i ş i *(gülür)* Fikir vermə, yəqin onun rast gəldikləri zibil olub.

Q o c a *(tutulub).* Ola bilsin.

Q a d ı n. Amma, doğrudan da, kişi olmaq yaxşıdı. Mən də istiyərdim kişi olam. Bax, belə bir kişi *(əlini kişiyə uzadır.)* Gözəl, yaraşıqlı, qüvvətli. Gəzmədiyim qız qoymazdım, hamısını yalvardardım.

Q o c a. İndi kişilər yalvarır.

Q a d ı n. Siz də yalvarıbsız?

Q o c a. Çox.

Q a d ı n. Yəqin o qədər gəzibsiz, vaxtınız olmayıb evlənməyə. *(Kişiyə.)* Dayım qadınları çox sevirmiş, onunçün elə zəhləsi gedib onlardan. Çünki axtarıb, axtarıb, yaxşısını tapmayıb. *(Qocaya.)* Hayıf, o vaxt mən olmamışam, sizə ərə gedərdim.

K i ş i *(stolun altından qadının ayağını basır).* Hardan bilirsən, bəlkə heç xoşuna gəlməyəcəkdin?

Q a d ı n. Gələrdim, mən bilirəm nə eləyərdim.

K i ş i. Deyirəm, bəlkə içək?

Q a d ı n *(gözü qocadadır).* Belə adamlardan xoşum gəlir. Gəzir, dolanır, kef eləyir, lap yaxşısını axtarır. Ancaq heç fikirləşmir, görən, özü yaxşıdımı?

K i ş i. Bəsdi.

Q a d ı n. *(nazla gözlərini süzdürə-süzdürə).* Yəni mən xoşunuza gəlməzdim? Düz deyin, xoşunuza gəlməzdim?

K i ş i *(hirslə qışqırır).* Qurtar, oyun çıxarma!

Q a d ı n *(zorla gülümsəyir).* Nə olub? Dayım məndən inciməz. *(Qocaya.)* İnciyirsiz məndən?

Q o c a . Yox. Tanımadığım adamdan mən incimirəm.

Q a d ı n *(səmimi).* Onda niyə dillənmirsiz? Məni alardınız? Alardınız?

Q o c a *(uzun-uzadı baxır).* Alardım.

Q a d ı n *(kişiyə).* Gördün, gördün? Alardı, alardı, alardı. *(Birdəncə ağlayır.)*

K i ş i *(ayağa durur, qanı qaradır).* Getmək vaxtıdı. Qatarın tərpənməyinə bir saat qalıb.

*Dururlar. Heç kim bir-birinə baxmır. Qadın əl-üzünü yuyub qayıdır. Geyinirlər.*

Q a d ı n. Bağışlayın, stolun üstünü yığışdıra bilmədik.

Q o c a *(gülümsəyir).* Qalsın gələn dəfəyə.

Q a d ı n. Gələn dəfə mən ağıllı olacam. Sağ olun.

*Xudahafizləşib çıxırlar. Qoca araq içir, sonra pəncərəyə yaxınlaşır. Bayırda möhkəm külək əsir. Qadınla kişi küləkdən qorunmaq üçün bir-birinə sığınıblar. Tək-tək qar atır. Elə bil torbanın dibini çırpırlar. Qoca fikirləşir ki, daha bundan sonra çətin qar yağa. Amma qocanın ağlına da gəlmir ki, küləyin yerə düşməyə qoymadığı qar, onun ömrünə yağan sonuncu qardı.*

# FEVRAL

Külək qalxdığını qapı zərblə açılanda bildi. Otağa bayırın səs-küyü ilə bərabər, soyuğu da doldu. Soyuq hava pərdələri yellətdi, nəsə xışıldayıb düşdü, haradasa boş vedrə danqıldadı. O, qapını örtməyə tələsmədi, uzandığı yerdəcə büzüşüb küləyin səsinə qulaq verdi. Qəfil evə dolan bu səs özü ilə kimlərinsə qaçdığı, vurnuxduğu, yaşamağa tələsdiyi başqa bir həyatın nəfəsini gətirmişdi. Ancaq başqa həyat onda heç bir həvəs, maraq oyatmadı. Dəmir çarpayının cırıltısına üz-gözünü qırışdıra-qırışdıra qalxıb yerinin içində oturdu, – ayağı döşəməyə çatmırdı. Və elə bil çarpayının cırıltısını eşitməmək üçün bir müddət eləcə də qaldı. Bayaq azca tərləmişdi, indi hiss elədi ki, yavaş-yavaş küləyin soyuq əli bədənində gəzir. Altmış ildə özünü yaxşı öyrənmişdi, nə vaxt, nədən, necə xəstələnəcəyini, xəstəliyin necə başlayıb, necə qurtaracağını əvvəlcədən duyurdu. Ancaq indi bədənində gəzən soyuq ələ mane olmaq istəmədi – bu təmasda nəsə xoşa gələn bir şey vardı. Bildi ki, "nəsə" keçmişlə bağlıdı, ömrün hansı gözəl anınınsa uzaq əks-sədasıdı.

Uzananda üstünə atdığı kürkü götürüb çiyninə saldı. Fikrində çəkələklərini geyindi, ayaqlarını sürüyə-sürüyə səliqəylə yığılı, axırıncı dəfə nə vaxt yatmaq üçün açıldığını unutduğu və yəqin ki, heç vaxt da yatılmayacaq, qəbrə oxşayan çarpayılara sarı həmişəki kimi baxmamağa çalışaraq orta otaqdan adlayıb, uzun dəhlizin axırına, qapını örtməyə getdi. Qardaşı ilə göz-gözə gəlməməkdən ötrü dəhlizin qurtaracağındakı otağın yanından da səssizcə, otaq tərəfə boylanmadan keçdi. Sonra qapını örtüb, mətbəxdə çaydanı qızmağa qoydu, ona da heyifsiləndi ki, daha çayı mətbəxdə içə bilmir, gərək bir stəkan çaya görə bu qədər uzun yolu nəlbəkini əlində əsdirə-əsdirə öz otağına apara, çünki çayı mətbəxdə içsə, narahat olacaqdı, hər dəqiqə fikirləşəcəkdi ki, indi qardaşı gələ bilər, ya ona görə mətbəxə gələ bilmir, onun getməyini gözləyir; gözlətməksə istəmirdi, deyirdi, birdən yenə səbri çatmayıb gələr, lap elə qəsdən gələr, iş görürmüş kimi yalandan böyür-başında fırlanar, qurdalanar, nədi-nədi öz dinməzliyi ilə onu saymadığını göstərsin. Elə nə fikirləşdiyini bildiyinə görə əsəbiləşirdi, adamın bu cür özündən bədgüman olmağı, heç kimi bəyənməməyi onu yandırıb yaxırdı. Otuz il gedib haralardasa küllənmişdi, vecinə almamışdı kimin başına nə gəldi, kim öldü, kim qaldı, indi peyda olub ki, guya onlar təqsirkardı bunun evdən didərgin düşməyində. Axı kimiydi deyən başını götürüb get, bu yaşa qədər bambılı kimi gəz, ailə qurma, bir yerə kül salıb oturma? Kimin nə günahı?! Hərdən şlyapasını başına keçirib seyrə çıxır, tanış-bilişə dəyir, orda da, yəqin, ağzını boş qoyub artıq-əskik danışır, gileylənir, onların ucbatından evsiz-eşiksiz qaldığını necəsə çatdırır.

Başqa əlacı yoxdu, gərək danışsın, heç kimə ağzını açmağa aman verməsin, birdən dədəsinin qəbrinin yerini soruşarlar – çaşıb qalar. Yazıq Vəli, nə yaxşı ki, bu evi dədəsi onun adına tikib, yoxsa bu da bir başqaxıncı olardı, əvvəl-axır bezdirib evdən qaçırdardı. İndi də gözünün qabağındadı; şivərək, çatmaqaş oğlanıydı, hərəkətlərindəki cəldliyə, pərtoyluğa uyuşmayan xasiyyəti vardı. Hamısından böyük idi, demək, hamısından da tez evlənəcəkdi, arvad alıb, oğul-uşaq yiyəsi olacaqdı. Atası belə danışanda, onların gülməyi tuturdu, Vəliyə sataşırdılar, o isə şitənmirdi, sakit-sakit gülümsəyirdi. Onda bilmirdilər kimin bəxtinə nə düşəcək, kimi nə gözləyir – həyat öz təbii axarı ilə gedirdi, ola bilsin dalaşmışdılar da, küsüşmüşdülər də, bir-birilərindən incimişdilər də, di gəl, onları ağrıdan heç nə olmamışdı ki, sonra yara kimi izi qalsın, onları göynətsin; atalarının təzədən evlənməyi də heç yaddaşlarında iz salmamışdı, necə oldu, necə gəldi, necə öyrəşdilər yad qadına, ayaqqablarını təmizləməyinə, paltarlarını yumağına, başlarını sığallamağına – xatırlayammır. Bir dəfə xətirlərinə dəymədi, üstlərinə hirslənmədi. Ancaq böyüyəndə fikirləşdi ki, bu elə yadlıq imiş, yad olduğuna görə ərk eləmirmiş, hər şıltaqlıqlarına dözürmüş. Qəribədi, böyüdükcə, adam doğmalarda yadlıq axtarır, yadlarda doğmalıq. Bacılarının başına fırlanırdılar, çor deyəndə, can deyirdilər, di gəl, elə ki böyüdülər, başladılar burunnamağa, hər sözünün başına ip salmağa, özü də heç nədən, elə bil şeytan qulaqlarına pıçıldayırdı ki, o, ögeydi, o, sizi istəmir, yalandan özünü mehriban göstərir. Əvvəllər bunu hiss elətdirəndə, bacısı pisikirdi, yazıqlaşırdı, sonra öyrəşdi, hətta yad olmadığına

hamını inandırmaq istəyirmiş kimi, başladı lap mehribançılıq eləməyə. İndi də hay deyəndə yanlarını kəsdirir, xeyirdə-şərdə əldən-ayaqdan gedir, hələ durub burdan Vitebskə, Vəlinin oğlunun toyuna da yollandı. Yazıq Vəli, yazıq Vəli, nə yaşadı, nə gördü, heç bilmədilər qəbri hardadı, bəlkə də heç yoxdu. Sir-sifətini elə yaxşı xatırlayır, elə bil dünən ayrılıblar. Vur-tut 18 yaşı vardı, elə yaşına görə də, sir-sifətinə, görüb-götürdüyünə görə də uşaq idi. Ancaq son şəkillərində tam bambaşqadı – bığlı, sərt, hətta bir az zəhmli. Baxır, baxır, heç inanmağı gəlmir ki, bu, Vəlidi. Oxuyub rütbə alıbmış, təyyarəçi olubmuş, evlənibmiş, boy-buxunlu, ailə qayğısı çəkən kişiymiş, di gəl, Vəlini heç vaxt bu cür təsəvvür eləyəmmədi. Yəqin, ona görə arvadının, uşağının varlığını, Düzyurda gəlib-getməklərini hələ də nağıla oxşadır. Qucağında körpə uşaq, əlində taxta çamadan yol basa-basa, vağzallarda yata-yata, qatarlar dəyişə-dəyişə ərinin verdiyi ünvanla Vitebskdən gəlib, bir səhər Düzyurda çıxasan, evi tapdığına, əziyyətdən qurtardığına sevinəsən və bir də eşidəsən ki, ərin itkin düşüb. Sonra da yad yer sənə lap yad ola, hamıdan bir xoş söz uma-uma, hamıya yük olacağından qorxa-qorxa oturub müharibənin qurtarmağını gözləyəsən, hərdən-hərdən də özünü aldadasan ki, bəlkə ərindən bir xəbər çıxdı. Həmin günləri çox daşınıb-düşünmüşdü, çalışmışdı Lüdmilanın gəlişini gözünün qabağına gətirsin, o yolun əziyyətini, Lüdmilanın gəlib çatandan sonrakı peşmançılığını hiss eləsin, bilsin kim haqlıdı, kim haqsızdı, çünki o, müharibədən qayıdanda nə Lüdmila varıydı, nə uşaq, qardaşı isə Vəli üçün tikilmiş evə köçmüşdü, bacısından savayı da heç kimi danışdırmırdı.

Üstündən otuz il keçəndən sonra bunu bilməyin heç bir xeyri yoxdu, olan olmuşdu, keçən keçmişdi; başa düşdüyündən bir xeyri olması üçün o, gərək otuz il əvvələ qayıdardı, o vaxta ki, hələ Lüdmilanın, o uşağın yoxluğuna evdəkilər öyrəşməmişdi, o uşağı əzizləyəndə dedikləri hansı sözlərisə yadırğamamışdılar, hələ atası sağ idi, kiçik oğlunun haradasa yaşadığını bilə-bilə, ömrü boyu üzünü görməycəyindən, xiffətini çəkəcəyindən xəbərsizdi – onda, bəlkə də başa düşdüyünün bir xeyri olardı, nəsə eləyərdi, daha bu küsülülüyü ötəri şıltaqlıq bilməzdi. İndi ancaq ürəyinicə sakitləşdirmək istəyirdi, elə bil bu vaxta qədər gur işıq salmışdılar üstünə, nə elədiyini, nə dediyini, nə düşündüyünü bilmişdilər, bilib halına gülmüşdülər, ağlamışdılar, o isə gözünü qırpa-qırpa qalmışdı, bu adamları görəmməmişdi, gördüyü qaraltılarca olmuşdu, bu qaraltılardan da özü üçün adamlar düzəltmişdi, ad qoymuşdu, haqlarında əhvalatlar uydurmuşdu; indi o istəyirdi, işığı bu qaraltılara tərəf çevirsin, onların əslində necə olduğunu görsün, tanısın, onu da bilsin ki, gur işıqda döyükə-döyükə qalanda halı necəymiş, necə görünürmüş, bu adamlar onun haqqında nə düşünə bilərlərmiş. Di gəl, öz gözü ilə heç nə görmədiyindən eşitdikləri də hiss elədiklərinə, özündən düzüb-qoşduğuna qarışmışdı və illər keçdikcə nəyin düz, nəyin qondarma olduğunu ayırd eləyəmmirdi, elə bil nə vaxtsa gördüyü yuxu qəfilcə yadına düşür, anşırammırsan ancaq yuxuda olub bu, yoxsa həqiqətdə. Bir də o pis idi ki, hər şeyin necə qurtardığını bilirdi, bu da olub-keçəni olduğu təki duymağa qoymurdu, baxışları, sözləri, ən gülməli hadisəni də ölmüş adam haqqındakı xatirələr kimi qüssəli

etmişdi. Bircə Lüdmilanın gəlişini təsəvvür eləyəndə həyəcanlanırdı, elə bil özü orda olmuşdu, sarışın qadının bir payız səhəri qucağında uşaq həyətdə necə çəkinə-çəkinə dayandığını görmüşdü, hamı ilə bir yerdə sevinmişdi (bacısı deyirdi ki, mat qalmışdıq); necə də sevinməyəsən, bir yandan Vəlinin itkin düşmək xəbəri, evdə qan-qaraçılıq, o biri yandan da Lüdmila əlində körpə, heç kim də bilmirdi Vəli əsgərlikdə evlənib, müharibəyə qədər hələ uşaq da dünyaya gətirib. Yəqin onda Vəlidən incimək heç kimin ağlına gəlməzdi ki, niyə belə iş tutub – yenə şükür, kim bilir qayıdacaq, ya qayıtmayacaq, heç olmasa, yadigarısa qalıb, canı canından, qanı qanından. Dönə-dönə bu səhnəni fikrində istədiyi kimi qurmuşdu, qadının kimsəsiz həyətdəki çaşqınlığını, qorxusunu hiss eləmişdi: bilmir neyləsin, kimisə çağırsın, ya gözləsin, hələ bu saat kimsə bayıra çıxacaq, burda niyə dayandığını soruşacaq, onda birinci hansı sözü desin, necə başa salsın, başa salana qədər, görən, ona nə deyəcəklər, necə baxacaqlar? Sonra qadının qorxusunu hiss eləyə-eləyə qapının necə açıldığını görürdü, gah atası çıxırdı o qapıdan, gah bacısı, ya qardaşı, ancaq bir dəqiqə ötürdü hamısı artırmada durub gözlərini qadına zilləyirdilər, qadın da dili söz tutmadığından əlində sıxdığı məktubu uzadıb, birdəncə ağlayırdı. Bəlkə də heç ağlamamışdı, bəlkə də bu görüş bir az başqa cür olmuşdu, ancaq inanırdı ki, əvvəl-əvvəl bu görüş evdəkiləri sevindirib, çünki onda hələ Lüdmila – Lüdmila deyildi, oğullarının yanından gəlmiş adam idi, təzə xəbərlər, təzə söhbətlər gətirmişdi, hələ gərək neçə vaxt keçəydi ki, Lüdmilanı yanından gəldiyi adamdan ayıraydılar, elədiyi söhbətləri, özlərinə nə lazımsa,

götürüb daha Lüdmilaya marağı itirəydilər və birdən ayrılıb görəydilər ki, bu qadının da öz həyatı var, o da nəsə istəyə bilər, o da nəsə eləyə bilər – bu da onları qorxudaydı, yadlıq, soyuqluq da yəqin onda başlayacaqdı. Ancaq oğullarından ayırdıqları adama bu müddətdə isnişə də bilərdilər, bir ay, iki ay yox, üç il bir damın altında yaşamışdılar, gəlin gözündə görmüşdülər, evin gəlini kimi də analarının qızılından ona da pay düşmüşdü; lola sırğalar, sünbül biləzik, nişan üzüyü mücrüdən çıxmışdı. Və beləcə-beləcə eşitdiklərini götür-qoy eləyəndə söz-söhbətə, incikliyə səbəb olacaq heç nə tapmırdı, intəhası, nəsə olmuşdu, nəsə olmuşdu ki, üç ildən sonra Lüdmila birdəncə uşağı da götürüb evdən çıxmışdı, başqa yerdə otaq kirələmişdi. Hərdən fikirləşirdi, bəlkə gözləyib, gözləyib, axır ərinin qayıdacağından əlini üzüb, qadın kimi ətrafına baxıb, kimisə görüb, kimisə seçib, alışıb-verişib. Di gəl, belə şey olsaydı, Düzyurd camaatının ağzını yummaq olmazdı. Hələ başqalarından əvvəl bunu evdəkilər tezcə deyərdilər, onların qabağında özlərini təmizə çıxarmaq üçün deyərdilər ki, evdən, sonra da Düzyurddan getməyinin təqsirini Lüdmilanın üstünə yıxsınlar. Di gəl, belə şey olsaydı, heç qardaşı da ataları ilə küsü saxlamazdı. Demək, elə şey olmamışdı, bəlkə də elə şey yox, heç arada xırda inciklik də olmamışdı, sadəcə, atası, ya analığı daşınıb-düşünüb, sonra yüz dəfə ölçüb-biçiblər, görüblər Vəlidən səs-soraq yoxdu, qız da gözlərinin qabağında; gözəl-göyçək, cavan, ömrünü çürütməyəcək ki, gec-tez ərə getməlidi, özünə ailə qurmalıdı, bunun üçün çalışıblar özlərindən uzaqlaşdırsınlar ki, qız necə istəyir yaşasın, onlara görə, evlərində yaşadığına görə

istəyini boğmasın. Yoxsa istədin-istəmədin, gündə bir qanqaraçılıq olacaqdı, dul arvaddan sözmü əskikdi: belə durmadın, elə durdun, belə baxmadın, elə baxdın, belə oturmadın, elə oturdun – deyəcəkdilər də ürəkləri ağrıyacaqdı, deməyəcəkdilər də. O da, yəqin, bunu başa düşüb, söz-söhbətsiz barxanasını yığışdırıb, elə söz-söhbətsiz yığışdırıb ki, arada xətir-hörmət yenə qalıb, sonra da tamam Düzyurddan gedənə qədər ayağını onlardan kəsməyib. Ancaq, axı nə bilmək olardı, bəlkə Lüdmila heç indən belə ərə getməyəcəkmiş, gözü orda-burda qalmayacaqmış, bəlkə Lüdmilaya onların qayğısından, məhəbbətindən savayı heç nə lazım deyilmiş, elə qayğıya, məhəbbətə isinə-isinə oturub balasını böyüdəcəkmiş? Bunların hamısı inanılasıydı, düz fikirləşirdi, düz başa düşürdü: elə olsaydı, belə olmalıydı, belə olsaydı, elə olmalıydı, "elə-belə"liyinə görə də hər şey yalandı. Həqiqət o idi ki, müharibədən qayıdıb görmüşdü, evdə hamı suçlu kimi gəzib-dolanır, qardaşı atası ilə küsü saxlayır, görmüşdü Vəlidən naftalinlənib sandığa qoyulmuş paltarlar qalıb, atasının fikirdən, dərddən beli əyilib – bilməmişdi Vəlinin ölümünə yansın, atasına ürək-dirək versin, ya ərköyünlüyünə görə qardaşına hirslənsin. Qardaşı dağar-dağar gəzəndə lap əsəbiləşirdi. Bunu da gizlətmədi. Fikirləşdi, qırımını görüb özünə yığılar, uşaqlıq elədiyini qanar. İntəhası, qırımını görüb, başladı ondan da gen gəzməyə, soyuq görüşməyə. Yəqin, özünü qəhrəman hiss eləyirmiş, gözləyirmiş ki, hamı bunun kürəyinə şappıldadacaq, deyəcək, igidsən. Ancaq, doğrudan da, igiddi. Otuz ildən sonra peyda olub, camaat bunun görüşünə gəlir, xoşgəldin eləyir – necə üz göstərdisə, yavaş-yavaş ayaqlarını

kəsdilər. Neyləsinlər, üzləri ətdəndi, igid deyillər. Gərək igid olasan ki, özündən başqa heç kimi bəyənməyəsən, ömründə bir dəfə də nəyəsə peşman olmayasan, əzab çəkməyəsən...

Çaydanı qazın üstdən götürmək üçün ayağa duranda hiss elədi ki, onu soyuq tutub. Kürkə bərk-bərk bürünüb, çəkələklərini sürüyə-sürüyə yarıqaranlıq dəhlizin axırına getdi. Qapı açıq idi. Dayanıb key-key açıq qapıya baxdı: axı bayaq qapını örtmüşdü?! Bunu edib-etmədiyini yadına salmağa çalışaraq, külək bir də açmasın deyə, qapının arasına əski qoyub örtdü. O dəqiqə də evə ürəyincə olmayan bir sakitlik çökdü. Bu sakitlikdə sobanın uğultusu, divar saatının cansıxan taqqıltısı eşidildi. Şüşənin o tərəfində külək öz lal oyununu çıxarırdı. Sıx buludlar tutqun pərdə kimi günün qabağını tutmuşdu, amma külək hərdən bu boz-bulanıq pərdənin kənarını azacıq qaldırırdı, onda soyuq günəş şüası donmuş torpağın üstü ilə titrəyə-titrəyə sürüşüb, yenə bircə anda yoxa çıxırdı.

Pəncərəsi çardağa baxdığından mətbəx lap alaqaranlıq idi. Çaydanın altı yanmırdı. Əlini toxundurdu – soyuqdu, yəqin, qaynadığına görə qardaşı altını söndürmüşdü. Qazı yandırıb çaydanı təzədən üstünə qoydu. Əlini oda tutdu. Barmaqlarına isti dəyəndə canından üşütmə keçdi. Fikirləşdi ki, bircə bu qışın qış günü xəstələnməyə, yorğan-döşəyə düşməyə. Bir yandan soyuq, bir yandan da şıppır tərin içində. Qızları gəlib baş çəksə də, gərək yenə nələrisə özü eləsin, heç olmasa, durub çay qoysun, hələ gəl islanıb bədəninə yapışmış gecə köynəyinin üstündən bərk-bərk

geyinib titrədə-titrədə bu soyuqda ayaqyoluna get. Beş-altı ay əvvəlki həyatı indi ona xoşbəxtlik kimi göründü. Özü öz kefinin ağasıydı, fikirləşmirdi əynindəki köhnədimi, təzədimi, günorta ətmi yeyəcək, ya pendir-çörəkmi, elə olurdu darvazanı bağlayıb bütün günü evdən eşiyə çıxmırdı, heç həyətə də düşmürdü; televizora baxırdı, yeyirdi, yatırdı, ya elə-eləcə yerinin içində uzanırdı, ərindiyindən bəzən ayaqyoluna da getmirdi, mətbəxdəki aroy vedrəsinə siyirdi. İndi ancaq rahatlığı bir yana, hələ gərək vaxtlı-vaxtında üzünü qırxa, paltarını dəyişə, çalışa soyuducudan ət-yağını kəsməyə, qoy, qardaşı görsün ki, o, necə lazımsa, elə də yaşayır. Yoxsa altdan-altdan sevinər, deyər, tək qalıb, başını itirib. Görən, qardaşı niyə belə qəddardı? Bəlkə ana görməyib, ona görədi? Nə olsun ki, heç vaxt xətrinə dəyməmişdilər, hər nazı ilə oynamışdılar – ana başqa şeydi. Özü də elə bil necəsə bu yoxluğu hiss eləmişdi. Hələ lap balaca olanda, yaxşı yadında idi, bir dəfə onu heç cür kiridə bilmirdilər. Beşiyinin başında yüz oyundan çıxırdılar, biri muşqururdu, biri oyuncaq göstərirdi, o isə ovunmurdu, zülüm-zülüm ağlayırdı, onların üzünə də düzəməlli baxmırdı, elə bil başqa adamı axtarırdı, başqa səsi eşitmək istəyirdi. Onda atası üstünə qışqırandan sonra kiridi. Kəs, dedi, kəs, qurtar, boğaram yoxsa. Kiriyib key-key üzlərinə baxanda da hamısı kövrəlmişdi. Çox istəyirdilər. Bəlkə də yazıqları gəldiyi üçün çox istəyirdilər. Ancaq ana başqa şeydi, başqa şeydi. Qurban olum, ay ana, hardasan, ay ana, hardasan?

Təzə çay dəmləməyə həvəsi yoxdu. Olmadığına görə də acıqla çaynikə çay atıb dəmə qoydu. Dəmlənənə qədər,

özünü məcbur elədiyindən ləzzət ala-ala tələsmədən stəkanını duzla yudu. Sonra çay süzüb öz otağına apardı. Bufetin gözündən limon çıxarıb dilimlədi. İçində beş-altı dənə nanəli konfet olan şüşə şəkər qabını da, limon saldığı stəkanı da çarpayının yanındakı krujeva örtüklü tumbanın üstünə qoydu, çarpayıya uzanıb gözlərini yumdu. Bir vaxt çətinliyə düşəndə, ya nədənsə bezəndə özünü sakitləşdirirdi ki, həmişə belə olmayacaq, bu qanqaraçılıq da, çətinlik də keçəcək, öz otağında bir stəkan çayla tək qaldığı anlar da olacaq, kənar gözdən uzaqda rahatca düşünüb-daşına biləcək, nəyəsə, içdiyi çayın dadınamı, döşəyin yumşaqlığınamı, ya pəncərədən düşən gün işığınamı, fərqi yoxdu, nəyəsə yenə sevinəcək, nədənsə ləzzət alacaq. Hətta inanırdı ki, hər şeydən, hamıdan əli üzüləndə də ömrü onu diysindirməz, çünki bu sevinclər dörd divar arasında da onunla olacaq. Ancaq onda tək deyildi, ailəsi vardı, uşağı vardı, onda hələ arvadı onu atıb getməmişdi. Hə, demə, onda bunları arzulamaq mümkünüymüş, bu, demə, yorğun adamın yuxu arzulamağı kimi bir şeymiş – gözündən yuxu tökülə-tökülə sevincək özünü çarpayıya yıxırsan, di gəl, səhər ayılacağından qorxmursan, əksinə, ona da sevinirsən ki, səhər ayılacaqsan, mütləq ayılacaqsan, görəcəksən kimlərinsə gözü səndədi, onlar sənsiz bir addım da ata bilməzlər. Demə, bütün ömrü boyu bunuca – kimlərinsə səndən asılı olduğunu, necəsə sənə ehtiyacı olduğunu hiss eləməkcə adama rahatlıq gətirirmiş. Çünki onda səni sevdiklərinə sözsüz-söhbətsiz inanırsanmış. Yəqin bu rahatlığa görə uşağı balaca vaxtı çox istəyirsən; bilirsən ki, döysən də, söysən də, səndən

üzü dönməz, ətəyini buraxmaz, bir az sonra yenə üstünə qaçacaq, sənin qucağında kiriyəcək. İndi ancaq qızlarından çəkinir, gəlib yoluxanda, pal-paltarını yuyanda yüz yol "sağ ol" deyir, yerli-yersiz üzlərinə gülümsəyir ki, onları özündən bezdirməsin, qırpım-qırpım üzüləsi bağları birdən qırmasın. Onsuz da necə uzaqlaşdıqlarını görürdü, bu da onu təəccübləndirmirdi, bilirdi ki, belə də olmalıdı, Allah rəhmlidi: övlad ata-anadan uzaqlaşmalıdı, elə uzaqlaşmalıdı ki, onları nə vaxtsa itirəcəkləri fikrinə öyrəşə bilsinlər, itirəndə də ağrı az olsun.

Telefon yavaş-yavaş cingildədi – qardaşı o yanda nömrə yığırdı. Görəsən, kimə zəng vururdu? Marağını, onunla bir yerdə közərən qibtə hissini ürəyində boğdu, özünü sakitləşdirdi ki, həmişəki kimi aldanır, naməlumluq, uzaqlıq onu aldadır, guya başqasının həyatı daha maraqlıdı, daha mənalıdı, guya bircə o dayanıb, dünyasa işığını, kölgəsini onun üstünə salmadan kimlərinsə başına fırlanır. Beləcə kənardan başqalarına ürək ağrısı ilə baxdığı çox olmuşdu, həmin həyatı arzulamışdı, istəmişdi yaxınlaşsın, həmin həyatın oduna o da sığınsın, ancaq həmişə də qorxmuşdu ki, orda artıq görünər. Bacısı Vitebskə, Vəlinin oğlunun toyuna gedəndə, onu da həvəsləndirdi: gedək, gedək – getmədi, iyirmi-iyirmi beş ildə həyatı üçün heç nə eləmədiyi adamın toyuna getməyə, birdən-birə peyda olub, "mən də sənin əminəm" deməyə üzü gəlmədi. Getsəydi, Lüdmilanın, balaca Vəlinin necə sevinəcəyini fikrinə gətirdi, getmədiyinə sonra da peşman oldu, günləri saya-saya da bacısını gözlədi ki, toyda onun yeri göründüyünü, onu andıqlarını eşitsin.

Sadəlövhlüyə bax! Bacısı getdi, qayıtdı, toydan, Lüdmilanın yaxşı güzaranından, toyda qardaşı ilə də görüşdüyündən ağızdolusu, sevinclə danışdı, xəbəri də yoxdu ki, o, içini yeyir, öz axmaqlığına gülür. Çünki əvvəllər Lüdmilanın, qardaşının həyatını asanca təsəvvürünə gətirirdi, təsəvvürünə gətirib hallarına acıyırdı, elə bilirdi onlar üçün dünyada hər şey itirilib, oturub-durub keçmiş günləricə xatırlayırlar, onları yaşadan, çəkib aparan da həmin günlərin sevincidi. Demə, belə fikirləşməklə, hallarına acımaqla təsəlli tapırmış, öz dərd-sərilə təkbətək qalmamaq üçün başını qatırmış. Qardaşının qayıdacağından əlini üzdüyündən, gündən-günə hələ lap xeyirxah olurdu, qardaşına lap yazığı gəlirdi, hətta qayıtmağını arzulayırdı, qayıtmayacağına inandığına görə arzulayırdı; atasının dəfninə də gəlməyən adam, sonra nə üzlə qayıdacaqdı ki?! Gecə-gündüz əzab çəkəcəkdi, özünü söyəcəkdi, yamanlayacaqdı, ancaq qayıda bilməyəcəkdi. Belə fikirləşdiyindən, demə, ürəyiyumşaq olubmuş. Nə bilsin ki, qardaşı düşündüyündən də möhkəm adamıymış. Ancaq qəribə idi ki, atası onu hamıdan çox istəyirdi. Bunu hiss eliyəndə, hər dəfə atası söhbəti hərləyib-fırlayıb qardaşının üstünə gətirəndə əsəbiləşirdi. Gəl əsəbiləşmə də: itilib gedəsən, illərlə özündən bir səs-soraq verməyəsən, kimin başına nə gəldiyi vecinə olmaya, yenə səni hamıdan çox istəyələr. O, ancaq pis-yaxşı oğulluqsa elədi, bacardığını əsirgəmədi, dalına alıb gəzdirməsə də, dallarına da minmədi. Ölənə yaxın üç ay xəstə yatdı, ayaqyoluna da gedəmmirdi, altını batırırdı. Gördü hamısı iyrənir, söylənir – qoymadı, heç kimi yaxın qoymadı, özü baxdı, özü altını təmizlədi, özü

çimizdirdi, körpə uşaq kimi üç ay qucağında çölə çıxartdı. Di gəl, yenə pis oldu. Ürəkləri yananıydı, qoy ona yanaydı. Gözlərinin qabağında idi, görürdülər nə zülmlə uşaq böyüdür, asandımı anasız iki uşaq böyüdəsən, gecə yüz dəfə durub üstlərinə baxasan, işdə rahat oturammıyasan ki, görən, nə yedilər, nə içdilər. Beləcə böyüt, sonra da göz ol, görüm hardan gəldi, hara getdi, kimlə oturub-durdu – qız uşağıdı, birdən yolunu azar, ya adına söz çıxar. Hamısını elədi, toy vurdurdu, cer-cehizlə köçürdü, hamısını da təkbaşına. Buna da yəqin hünər lazımdı. Ürəkləri yanaydı da. İntəhası, o, xırdaçı deyildi, atasına da baş qoşmurdu, hirsinin-hikkəsinin ömrü bircə anlıq olurdu, lənət şeytana deyirdi, özünü inandırırdı ki, atasının da çox istəməyi yazığı gəlməyindəndi (görən, doğrudanmı, buna görə çox istəyirdi?). Bacısının söhbətindən sonrasa məlum oldu ki, indiyə qədər fikirləşdikləri boş şeymiş, heç kəs dərd əlindən dəli olmayıb, hamı sakitcə başını sallayıb öz ömrünü yaşayır, yazığı gəlinəsi adam varsa, elə o özüdü. Ona görə də birdən-birə özündən, öz yaşayışından bezdi, gündəlik qayğıları, səhər durub axşam yatmağı, acdı, ya acmadı, hər gün vaxtlı-vaxtında qarnını doyuzdurmağı ondan ötrü işgəncəyə döndü. O vaxta qədər ki, qardaşını gördü, görüb bildi ki, yenə aldanıb, naməlumluq onu aldadıb, qardaşının həyatında həsəd aparmalı heç nə yoxdu: əgər adam otuz ildən sonra da tək-tənha qayıdıb gəlirsə, otuz ildən sonra da kor kimi tutduğunu buraxmırsa, demək, bu otuz ildə əl atıb tutmağa başqa şey tapmayıb. Daha onu da bilirdi ki, eləyib-eləmədiklərinə görə özünü üzməyə dəyməz, çünki

necə yaşasan da, vaxt özü ilə peşmançılıq gətirir, anlayammırsan nə yaxşıdı – yanından ötüb keçdiyin, yoxsa çatdığın. Bu gün inandığına da sabah şübhə eliyirsən, əlin hər yerdən üzüləndə heç nədən yenə özünə bir ümid yaradırsan, indi də onun arxasına düşürsən. Bütün ömrü beləcə ümidlə şübhə arasında keçdi. Gərək vaxtında başa düşəydi ki, başını dik tutub gəzmək üçün sənin necə olduğun vacib deyil, səni necə tanıdıqları vacibdi. Ancaq bu, narahatçılıq gətirir, istəyirsən səni olduğu kimi tanısınlar, sevsinlər, hörmət eləsinlər, bilsinlər ki, sən bir küncə çəkilib dursan da, onları düşünürsən, onlarla nəfəs alırsan, gecə-gündüz Allaha yalvarırsan ki, heç kimə heç nə olmasın, bir xətər toxunmasın. İntəhası, bunu bilmək heç kimə lazım deyil, qışqırsan belə, səsin heç kimə çatmaz, çünki hamı sənin kimi eşitdiyinə şübhə eləməyicə bacarır, eşitdiyi bir yana, gözü ilə gördüyünə, yaxşılığına, ya pisliyinə inandığına da sonradan yüz cürə don geyindirir, çünki keçən vaxt, olanı sınıq güzgü kimi hər qəlpəsində bir cürə göstərir. Gərək bunları vaxtında başa düşəydi, yaddaşın unutqanlığına inanaydı, başa düşəydi ki, yalanla həqiqət eyni şeydi – hər şey olan anda həqiqətdi, bir an sonra yalan. Yalan olduğuna görə də olub-keçəni öz ömrü kimi xatırlayammır, elə bil ayrı-ayrı illəri, günləri ayrı-ayrı adamlar yaşayıb. Ayrı bir adam haçansa uşaq olmuşdu, səhər-səhər yerindən durub yuxulu-yuxulu ata-anasının yanına qaçmağı xoşlayırdı, aralarında uzanıb nazlanırdı, xətrinə dəyəndə, nədənsə inciyəndə acıq eləyib küsürdü, bilirdi ki, gəlib könlünü alacaqlar, qılığına girəcəklər, əvvəlkindən daha çox əziz-

ləyəcəklər. Onda da qar yağırdı, gün çıxırdı, di gəl, o uşaq unamırdı qar yağdığına niyə sevinir, atası evə gec qayıdanda niyə darıxır, başına niyə fırlanırlar, nazı ilə niyə oynayırlar, küsəndə niyə qılığına girirlər – tələsiyirdicə, tələsiyirdi ki, axşam olsun, tələsiyirdi ki, səhər açılsın, çünki hər an, hər gün özü ilə sevinc gətirməliydi. Bir dəfə evdə adam çox olduğundan, Vəliylə onu yatızdırmağa qonşuya apardılar. Onların da tək qalmaq ürəklərindəniydi; yerlərinin içində oynayırdılar, gülürdülər, yastıqları bir-birinə tullayırdılar. Qəfil ataları otağa girdi, acıqlı-acıqlı üstlərinə qışqırdı ki, sakit olsunlar, gülməsinlər! İkisi də elə bil bir himə bəndiydilər, səs-səsə verib ağladılar. Onda ataları da durub-durub birdəncə ağladı, onları qucaqlayıb, ağlayın, dedi, siz də ağlayın, ananız ölüb. O uşaq inanırdı ki, gözünü açıb isti, işıqlı evlərini, altında oynadığı tanış ağacları gördüyü kimi hər gün ata-anasını da görəcək. Sonra bir gün keçdi, iki gün keçdi, bu günlər ötən günlərə oxşamayanda həmin uşaq da yoxa çıxdı, anasının yoxluğuna, atasının sərtliyinə, qaraqabaqlığına, evdəki qanqaraçılığa öyrəşən daha ayrısıydı, onunçün tanış həyətdən, tanış ağaclardan savayı məktəb varıydı, küçə varıydı, dostları, yoldaşları varıydı, çox vaxt heç evdən ötrü darıxmırdı da, çünki evdə hər dəqiqə qorxurdu ki, bu saat atası ona, ya qardaşlarına hirslənəcək, yenə qanqaraçılıq olacaq. Sonra atası evləndi, evlənib birdən-birə dəyişdi, mehribanlaşdı, pis bir iş tutanda da xətirlərinə dəymədi, elə bil nədəsə təqsirkardı, çalışırdı günahını yusun, özünü təmizə çıxarsın. Onlar da evdəki dincliyə sevinirdilər, ancaq ataları çox mehribançılıq eləyəndə

nəyə görəsə atalarının gözünün içinə baxmağa utanırdılar. Onun yaddaşında bir ayrı oğlan da varıydı. Bu oğlan üçün dünyada xurmayı saçlı, qaragözlü, tutaş kirpikli qızdan başqa heç kim yoxuydu, elə bil doğulmuşdu ki, gecə-gündüz o qızı düşünsün, özündən olmazın əhvalatlar quraşdırsın, o qızdan ötrü qəhrəmanlıqlar eləsin, yaralansın, ölsün, ölsün ki, qız onun üstündə ağlasın, xiffətini çəksin. Ancaq elə ki, qızı görürdü, baxışları rastlaşırdı – əsməcəyə düşürdü, qız yaxınlaşıb bir söz deyəndə, bir söz soruşanda dili-dodağı təpiyirdi, başını yerdən qaldırammırdı. O oğlanın nələr çəkdiyindən heç kimin xəbəri olmadı, bəlkə heç qızın da xəbəri olmadı, beləcə, heç nə ummadan, heç nədən şikayətlənmədən öz hisslərinin içində yaşadı, günlərin bir günü də həmin hissləri həmişəlik özü ilə aparıb yoxa çıxdı. Orduya çağırış vərəqi alan daha başqa adamıydı, müharibədən qayıdan da. Müharibədən tez-tez məktublar yazırdı, hamının bayramını, ad gününü vaxtlı-vaxtında təbrik eləyirdi, ancaq elə ki qayıdıb gəldi, bu vərdişlərini o saat yadırğadı, bəzən öz ad gününü də yaddan çıxartdı; demə, adam nə qədər çətinə düşürmüşsə, o qədər istəyirmiş insan olduğunu hiss eləsin, hamını, elə özünü də buna inandırsın, inandırsın ki, o öz canının hayına qalmayıb, hər şey yadındadı, hətta od-alovun içində bayramları, ad günlərini belə unutmur.

Müharibədən qayıdandasa buna inanmaq, kimisə inandirmaq ona lazım olmadı, onsuz da hamının gözü qabağındaydı, görürdülər ki, hamıtək yaşayır, azad-arxayın gəzib dolanır, yeyib-içir. Gələn kimi də Düzyurdda açılmış ikiillik müəllimlər institutuna girdi, pis-yaxşı oxudu, diplom aldı,

öz kefindən də qalmadı, subay oğlanıydı, ömrünün dörd ilini müharibə yelə vermişdi, gərək o günlərin əvəzini çıxaydı, ona görə hər günü qənimət bilirdi, hətta şənbə, bazar qızlarla vaxtını xoş keçirmək üçün Dilicana rəqsə qaçmağa da ərinmirdi. Bəlkə də ora-bura çox “qaçdığından”, atası onu “kəndirləməyə” tələsdi. Ancaq o, heç baş-ayaq atmadı da, yəqin özü də unamaya-unamaya bu fikrə öyrəşibmiş, bilirmiş ki, gec-tez bu haqq-hesab olmalıdı, hər atanın arzusudu övladını ərsəyə çatdırsın, toy vurdurub borcundan çıxsın, nəvə görüb sevinsin. O da bu arzunun xilafına getmədi, evlənib Vəli üçün tikilmiş evdə yaşayanda artıq başqa adamıydı. Həmin adam bir səhər hamilə qadının yanında gözünü açıb anlamışdı ki, onun bu günəşli, aylı, ulduzlu səmanın altında nəfəs ala bilməyi xoşbəxtlikdi və bu xoşbəxtlik üçün hamıya borcludu, hamı onun üçün nəsə edib, deməli, o da bu adamlar üçün nəsə etməlidi, necəsə, nə cürsə bu borcun əvəzini verməlidi. Bu hiss birdənbirə hamını onun gözündə dəyişmişdi, hamı ona özü kimi xoşbəxt görünməmişdi – dərdli, ağrılı, uşaq kimi köməksiz görünməmişdi, o, hətta hamının bir-birindən çox az şey umduğuna, vur-tut bir xoş söz, bir xoş baxış umduğuna təəccüblənmişdi. Həmin adam inanmırdı ki, kimsə bilə-bilə pislik eləsin, nə olurdusa anlaşılmazlıqdan olurdu, hamı da bunun ağrısını gec-tez öz içində çəkirdi, ona görə hamıya yazığı gəlmişdi, istəmişdi qarşısındakına yarasın, ağrısını necəsə yüngülləşdirsin, heç olmasa, bir müddətsə unutdursun; özünü alçaltdığını fikirləşmədən hamının qulluğunda dururdu, bu saat kimə nə lazım olduğunu üz-gözündən anlamağa çalışırdı, bundan ləzzət alırdı, onu da hiss eləyirdi ki, get-gedə qapısını daha ürəklə açırlar, hər

sözə, hər təbəssümə sevinə bilirlər, bu da ona rahatlıq gətirirdi, elə bil əlləşib-vuruşub, axır ki, çoxdan arzuladığın evin xımını qoyursan, daha inanırsan ki, çətini başlamağıydı, kərpic-kərpic də olsa, bu evi tikib qurtaracaqsan. Həmin adam üçün Lüdmila da, o uşaq da nağıl deyildi, balaca Vəlinin şəkli iki qızının şəkli ilə yanaşı bir ailənin uşağı kimi divardan onlara baxıb gülümsəyirdi, arada nə vaxtsa qanqaraçılıq olmamışdı: Lüdmila öz yerlərinəcə qayıtmaq istəmişdi və qayıtmışdı, qardaşı da gec-tez atasını danışdıracaqdı, bu, xırda iş idi, heç bu uşaq ərköyünlüyünə baş qoşmağa da dəyməzdi. Vəlidən bir soraq bilmək fikri də ona dinclik vermirdi, ümidi gəldiyi yerlərə məktub da yazırdı, deyirdi bəlkə qəbrinisə də tapdı, hələ pul yığıb balaca qardaşı ilə balaca Vəlini, Lüdmilanı görmək üçün Vitebskə gedəcəkdi, qoy o uşaq əmilərini tanısın, ürəkli böyüsün – hələlik bu arzunu qardaşından gizlədirdi, istəyirdi qəfil deyib sevindirsin... Həmin adamın daha nələr istədiyi, nələr arzuladığı onun yadında deyil, həmin adam özündən sonra onun üçün bircə ağrı qoyub gedib – yəqin ağrısız yaşanan illərcə ağrı ilə xatırlanır, yəqin, ağrı həmişə olmalıdı: ya həmin günləri yaşayanda, ya da xatırlayanda. Bir də həmin adamı xatırlayanda həmişə heyifsilənir: axı, o, həmişə o cür ola bilərdi, dünyanı, adamları o cür görə bilərdi, qorxusuz-hürküsüz, xoşbəxtliyinin üstündə əsmədən, xoşbəxtliyini heç kimə qısqanmadan, heç nəyə qızırğalanmadan yaşaya bilərdi. Hər şey birdəncə dağıldı, yoxa çıxdı. Fikirləşirsən adi gündü, işdən çıxıb evinə gedirsən, görəcəksən arvad-uşaq səni gözləyir, sən də bir qısmat çörəyini yeyib, uşaqlarını başına yığacaqsan, deyib-güləcəksən. Gəlirsən ki, arvadından başqa hamı

evdədi, gözləyirlər şad xəbər versinlər, muştuluqlasınlar: gözün aydın, arvadın qaçıb. Gülməlidi. Yaman gülməlidi. Gərək belə gülməli iş elə onun başına gələymiş. Əməllicə ağlını itirmişdi, elə bilirdin dünyanın axırıdı, tələyə düşmüş siçan kimi vurnuxurdu, yazıq-yazıq döyükürdü, hamıya yalvarırdı, "bir şey fikirləşin da, bir şey fikirləşin..." İndi də yadına salanda onu tər basır, özünə nifrət eləyir. Sonra hələ sızıldaya-sızıldaya küçəyə çıxdı, ordan vağzala qaçdı, gəlib-gedən qatarların pəncərəsinə boylandı, evə qayıdanda da tələsidi, guya qayıdıb arvadını evdə tapacaqdı, eşitdiyinin yalan olduğunu biləcəkdi. Gəldi ki, sakitlikdi; dağılışan dağılışıb, yatan yatıb, oyaq bircə qardaşıdı, oturub kitab oxuyur – lap kövrəldi, doluxsundu. "Bir xəbər yoxdu, bəlkə başına bir iş gəlib, hə?" Adam cavanlıqda nə yaman axmaq olurmuş. Bir çətinliyə düşəndə elə fikirləşirsən heç kimin boğazından su keçməz, gözünə yuxu getməz, başının üstünü kəsdirib dayanarlar ki, ay aman, görək nə deyir, ürəyi nə istəyir. Onda sağ olsun, qardaşı ayıltdı. "Arvad kimi nə ağlayırsan, ə, dedi, nə olub, qaçıb, cəhənnəmə qaçıb, özünü niyə öldürürsən?!" Bilirdi ağzını açıb cavabında heç nə deyəmməyəcək. Nə deyəsiydi axı, deyəsiydi ağlamıram?! Bilirdi. Ona görə cırtdadı, tezcə özünü göstərdi. Beləsini indi yaxşı tanıyır: birinin nəsə ayıblı işini görəndə, üzünü çevirib görməzliyə vurmaz, o saat yaxasından yapışar, danlayar, dərs verər, ağıl öyrədər, nədi ki, utandırsın, alçaltsın, qabağında diligödək eləsin. İstədiyi bircə bu idi. Başını götürüb evdən birdəfəlik gedəndə də yenə oyun oynadı. Getməyinə düz eləyib gedirdi, hamının dilinə düşən, dalınca şınqroy çalınan adamla bir damın altında niyə də yaşamalıydı ki. Qal, gündə hər ağzıgöyçəkdən bir söz

eşidib əsəbiləş, üstəlik, özünü də sal azara, qardaşının gününə ağla, kömək elə balalarını saxlasın, böyütsün. Düz iş gördü. Ancaq buna görə getdiyini boynuna almağı şəninə sığışdırmadı. O, axı qəhrəmanıydı. Gərək qəhrəman kimi də gedəydi, özünücə düşündüyünü, özünə rahatlıq axtardığını pərdələyəydi, özü özünü aldadaydı; guya əziyyətdən qaçmır, onun ucbatından özünü əziyyətə salır, evindən didərgin düşür, çünki burnunun suyunu axıtdığına görə ondan zəhləsi gedir, üzünə baxammır. Yaxşı ki, tez getdi, yoxsa əlindən yığmışdı, axır tutaşacaqdılar. Ancaq sonra bir gün keçdi, iki gün keçdi, görəndə ki, camaat arasına çıxammır, başını qaldırıb şax gəzəmmir – hirsi soyudu, qardaşını qınayammadı. Qəribəydi ki, onda heç kimdən inciyə bilmirdi, incimək ağlına da gəlmirdi. Soyuq görüşürdülər – təbii sayırdı, yan keçirdilər – təbii sayırdı. Əksinə, kimsə mehribanlıq eləyəndə, xoş söz deyəndə, xoş üz göstərəndə dalağı sancırdı, bunu yüz yerə yozurdu. Elə o vaxtdan vasvası oldu, başladı hamıya, hər şeyə şübhəylə baxmağa. Belə yaşamaqsa zülmdü. Hardansa gic-gic fikirlər dolur beyninə, bilirsən ki, boş şeydi, nahaq narahat olursan, başından atmaq lazımdı bunu, unutmaq lazımdı, ancaq yenə özünlə bacarmırsan, həmin fikrin dalına düşüb gedirsən, nələrsə uydurursan, nələrsə toqquşdurursan, içində əsib-coşursan, asıb-kəsirsən, səhər də özündən toqquşdurduqlarına uyub kimisə acılayırsan, kimdənsə gen qaçırsan, ya kiməsə yaltaqlanırsan, qulluq göstərirsən. Sonra da bunları yadına sal, peşman ol, özünü danla, söy, özün özündən bez. Yəqin daha ölüncə bu xasiyyət ondan əl çəkməz. İndi də qardaşının danışdırmamağını durub özünə dərd eləyib, hələ canı da yanır ona. Otuz ildi görməmişdi, ürəyi əsirdi,

istəyirdi qabağına gedib görüşsün, qucaqlasın. Allahın quru salamını da vermədi. Əyilib sakitcə ayaqqablarını çıxarırdı, elə də çıxarırdı ki, guya aradan otuz il keçməyib, bu qapını örtdüyü dünəndi. Matı-qutu qurudu, heyrətləndi ki, görən, qardaşı, doğrudanmı, bu otuz ildə özünü aldada bilib, evsiz-eşiksiz qalmağında onları günahkar sayır? Ancaq bəlkə heç özünü aldatmayıb, elə doğrudan da, həmişə ondan zəhləsi gedib? Hə?! Heç vaxt da, onun fikirləşdiyi kimi, evdən getdiyinə peşman olmayıb, yarı canı onların yanında qalmayıb, qayıtmağa bəhanə axtarmayıb, yuxularını qarışdırmayıb? Yəni, doğrudanmı, o, qardaşının gözündə belə pis, vecsiz adamdı?! İntəhası, bəlkə elə doğrudan da, o, vecsiz adamdı? Olur da, elə adamlar olur ki, hamı onun yanında darıxır, elədiyi, dediyi hamıya xor gəlir, çalışırlar tezcə ondan uzaqlaşsınlar, canlarını qurtarsınlar. Yəqin o, elə adamdı. Bir adamı ki, arvadı da iki uşaqla atıb qaçırsa, deməк, burda nəsə var, demək, heç nə boş yerə deyil; nə olsun, sonradan bir şey tapıb ürəyini sakitləşdirir, inanır ki, guya ondan asılı heç nə yoxuymuş, guya belə də olmalıymış. Ancaq axı belə olmaya da bilərdi, hamının başına bu iş gəlmir ki! Demək, burda nəsə var. Nahaq yerə Vəli yadına tez-tez düşmür, həmişə narahatdı, xəcalət çəkir ki, oğlunu arayıb-axtarmadı, di gəl, o saat da özünü təmizə çıxarır: hələ imkanı yoxdu, uşaqlar aman vermir, qoy bunun xəstəliyi qutarsın, qoy bu uşaq böyüsün, qoy bunu ərə verim... Düzdü, imkanı yoxdu, uşaqlar, qayğılar aman vermədi, başı özünə qarışdı, ancaq bir parça kağızsa yaza bilərdi, bayramdan-bayrama bir otkrıtka yollaya bilərdi. İstəmədi. Çünki gərək onda yerində saymayaydı, bu gün dünənkindən daha qayğıkeş, daha həssas olaydı, daha

artıq nələrsə eləyəydi, ya eləməyə hazır olaydı. Dinməzcə durmağı üstün tutdu, durduğu yerdə özünü işə salmaq istəmədi. Onsuz da üz-üzə, göz-gözə gəlməyəcəkdi, utanıb qızarmayacaqdı. İndi acığı tutur qızlarının anaları ilə görüşməyinə, süfrələrinin başında oturtmaqlarına, amma haçansa özü şərait yaradırdı. Bilirdi yolda-izdə görüşürlər, günü uzadılmış adınnan evdən çıxıb, analarının yanına qaçırlar, üstəlik analığı, bacısı da onu danlayırdı, deyirdilər, öyrəşdirmə, üstlərinə təpin, "qoy o ləçərin ürəyi qovrulsun, cızdağı çıxsın, ondanmı ötrü uşaq böyüdübsən?!" – qulaqardına vururdu, yeri düşəndə də ürəkləndirirdi, adınnan deməsə də, analar haqqında dastanlar quraşdırırdı. Axırdan-axıra aranı da açdı, hərdən qızlarını söhbətə tutub, analarının necə yaşadığı ilə, nə danışdığı, nə soruşduğu ilə maraqlandı. Etinasız-etinasız suallar verirdi, guya eşitdiklərinin ona dəxli yoxdu, amma qulağı darı dəlirdi, analarının qanıqara olduğunu, nəyəsə deyindiyini, şikayətləndiyini eşidəndə çiçəyi çırtlayırdı. İlahi, hələ heç kimin ağlına gəlməz ki, o, indiyə qədər nə edibsə, həmişə arvadını düşünüb, hər hərəkətini "o ləçərin" gözü ilə ölçüb. Görən, arvadı nə deyər? Görən, arvadı nə fikirləşər? Görən, arvadının xoşuna gələrmi? Təkcə ona çalışıb ki, gördüyü iş arvadının xoşuna gəlsin, arvadı onu tanısın, təzədən tanısın, yaxşı adam kimi tanısın və günlərin bir günü o, hiss eləsin ki, arvadı peşman olub... Deyəsən, axı o, doğrudan da, vecsiz adamdı?

Pəncərənin şüşəsini tıqqıldatdılar: "ay ev yiyəsi!" Kimdisə, yad adamdı. Durmağa ərindi, bir də tıqqıldadana kimi gözlədi ki, bəlkə qapıya qardaşı çıxdı. Sonra kimin ola biləcəyini fikrində dolandıra-dolandıra durub dəhlizə getdi. Ağ xələtdə bir cavan oğlandı, bir də ortayaşlı, balacaboy

qadın. Həyətin açıq qapısından “Təcili yardım” görünürdü. Ürəyinə damdı ki, qardaşı bayaq bunlara zəng vururmuş, ona görə oğlan xəstəni soruşanda, qardaşının otağını göstərdi, onları içəri ötürüb, ayaqqabılı keçdiklərinə görə deyinə-deyinə öz otağına çəkildi. Ancaq otağında çox bənd alammadı, qayıdıb astanada dayandı ki, görsün nə olub. Qardaşı zorla, hıqqana-hıqqana danışırdı, sol böyründəki sancılardan şikayətlənirdi, deyirdi, iki gündü ağrıdan qovrulur. Bu, qoca adamın səsi idi. O, elə bil qardaşının qocaldığını indicə başa düşdü. Və narahatçılıq hiss elədi. Bu narahatçılıqda adamı şirnikdirən, çəkən nəsə vardı. Ancaq hələlik nəfəsini boğdu, istədi narahatçılıqla bir az oynasın, ona görə özünü bilməzliyə vurdu, bu narahatçılığın səbəbini tapmağı sonraya, rahat bir vaxta saxladı. Qardaşını xəstəxanaya aparacaqlarını eşidəndə də elə həmin narahatçılığın boş yerə olmadığına inanmaq üçün geyinib tələsik maşına oturdu. Maşında, qardaşının yuxulu, əzgin, onun getdiyinə görə də, yəqin, lap turşumuş sifətinə baxanda, ürəyinə damanı artıq özündən gizlətmədi: qardaşı öləcək. Qardaşının bundan xəbərsiz sakitcə çölə baxması onu ağrıtdı. O da çölə baxdı. İndi gözü gördüyü hər şey onun yadında qalacaq, hər şey; qadının nazik dodaqları, sürücünün tüklü barmaqları, maşının qabağından qaçan sarı pişik, həkimin təmiz qırxılmış göyçək sifəti, qardaşının təzə paltosu, şərf bağlamadığından paltonun altından görünən göy, nimdaş pencəyi, boğazına kimi düymələnmiş ağ düyməli qəhvəyi köynəyi, bir də soyuq, fevralın soyuğu – hər şey yadında qalacaq, qardaşını xəstəxanaya apardıqlarını xatırlayanda gözünün qabağına gələcək, hər şeyi də yenə ağrı ilə xatırlayacaq, qardaşı ilə son dəfə bir maşında getdiklərinə görə, son dəfə belə üzbəsurət oturduqlarına

görə. Görəsən, indi nə düşünür qardaşı? Bu evləri, ağacları, hərdənbir buludların arxasından işaran günəşi son dəfə gördüyünü hiss eləyirmi? Gözləri yol çəkir, deyəsən, onun maşında olduğunu da unudub. Qardaşı ona oxşayırmış. Özü də çox oxşayırmış. Çənəsinin, alnının iriliyi, yumru gözləri. İntəhası, qardaşının gözləri qonurdu, onunku qara. Anasının da gözləri qonur idi. Ancaq qəribədi, tək sir-sifətdən oxşamırlar, talelərində də nəsə bir oxşarlıq var, elə xasiyyətlərində də. Var, var. Bəs buna niyə sevinir, burda sevinməli nə var ki? O da qardaşı kimi tərsdi. Ürəyi qövr eləyir, bir şirin söz dilini-dodağını yandırır, di gəl, gedib həmin sözü deyəmmir. Guya desə, alçalar, özünü sındırar. Həmişə belə fikirləşib, bundan qorxub. Özünə də əzab verib, başqalarına da. İndi qardaşının gözündə o, tamam ayrı adamdı, ölüb gedəcək, heç vaxt da onun ürəyindəkilərdən xəbəri olmayacaq, xəbəri olmayacaq ki, həmişə, hətta qayıtmağından əlini üzəndə də ona güvənib, inanıb ki, çətinə düşsə, yenə qardaşı hayına yetər, xəstələnsə, yastığının dibini kəsdirər, ölsə, gəlib yerdən götürər. Ona görə ürəyi rahat olub, ona görə incikliyi, narazılığı vecinə almayıb. Bilmir, bilməyəcək. İndi danışdırsa da, qardaşının ağlı özgə yerə gedər, bəlkə də hirslənər, deyər, mənə ürəyi yanır. Hə, elə deyər. Qardaşı öləcək. Ay Allah, deyəsən, axı haçansa bu haqda düşünüb, bu sözləri dilinə gətirib, onda da qardaşı yanında idi, gözünün qabağında idi... Hə, düzdü, ancaq o vaxt qardaşı balacaydı, özü üçün hoppanıb-düşürdü, ağız-burnunu əyişdirirdi, o da qəfil fikirləşmişdi ki, qardaşı da qocalacaq, öləcək, aparıb basdıracaqlar, onda yaş, hələ yaşanılası ömür ölümü hiss eləməyə qoymamışdı, ancaq qardaşının, özlərinin bunu bilə-bilə belə sakitcə yaşamaqları, deyib-gülməkləri ona qəribə gəlmişdi. İndisə

qəribə gəlmir. Qəribə odur ki, elə bil bütün ömrünü ölümün qəribə olmadığına inanmaq üçün yaşayıb.

"Təcili yardım" xəstəxananın yanında dayandı, qardaşından tez düşdü ki, maşının qapısını tutsun. Özünə elə bil kənardan baxırdı; küləkdən, soyuqdan büzüşüb durmağı, kədərli görünüşü, qardaşından ötrü nəsə etməyə çalışmağı kənardan baxan bu adamı kövrəltdi. "Mən yaxşı adamam, – deyə fikirləşdi, – mən yaxşı adamam".

Girdikləri balaca otaqdan bir qapı da başqa otağa açılırdı. Həkim oğlan həmin qapını açıb, qardaşını da çağırdı. O kəsdirəmmədi – qardaşının arxasınca otağa keçsin, ya keçməsin? Qapı örtüləndə başa düşdü ki, burda dayanmağı nahaqdı, indi qardaşını palataya aparacaqlar, heç kim də onu arayıb-axtarmayacaq. Sakitcə oturub nəsə gözləyən adamlara baxdı, bu adamların sifətindəki qayğı ona tanışdı – ona görə də darıxdı, bayıra çıxıb hara gedəcəyini, neyləyəcəyini fikirləşdi, burda onluq daha bir iş olmadığını öz-özünə təkrar elədi. Ancaq binadan aralana bilmirdi. Qardaşı öləcək. O isə qardaşını tək-tənha qoyub evə getməlidi, rahatca oturub çay içməlidi. Gör hər şey necə qurtardı. Bir vaxt atası Bakıdan Düzyurda köçmüşdü ki, qaçhaqaçda Göyçədən tökülüşüb gəlmiş qohum-əqrəbasını bir yerə yığsın, onlara həyan olsun, ancaq gözü görə-görə öz ailəsi dağıldı, hərə ağzını bir tərəfə tutdu. Bu da sonu. Tək o qaldı. O da başını bu gün, sabah yerə qoyar. Hiss elədi ki, kiminləsə danışmaq istəyir, istəyir öz səsini eşitsin. "Təcili yardım"ın sürücüsü sinəsini sükana söykəyib siqaret tüstülədirdi. Bu adam onu tanıyırdı, nələr keçirdiyini bilirdi. Gedib maşının yanında durdu, əlini maşına toxundurdu, bayaq çıxdığı qapıya baxa-baxa köks ötürdü. Sürücü isə dillənmirdi. Özünü elə bil yenə kənardan gördü – maşının

yanında büzüşüb durmuş adama acığı tutdu, sürücü görsün deyə belini dikəldib həyətdə gəzişdi. Beşmərtəbəli xəstəxana binasının eyvanları boşuydu, qapı-pəncərələr bərk-bərk örtülmüşdü. Qardaşı da bu pəncərələrdən birinin arxasında oturub darıxacaqdı. Yuxarı mərtəbələrdə yatsa, meyiti düşürmək çətin olacaq.

Həkim qapıdan çıxanda, onu görüb uzaqdan-uzağa "qorxmayın, dedi, heç nə yoxdu, bir az qara ciyəri şişib, beş-on gün yatıb durar". "Necə yəni heç nə..." Oğlan onu danışmağa qoymadı, gülümsəyə-gülümsəyə dediklərini bir də təkrar eləyib, maşına tərəf qaçdı.

"Təcili yardım" çılpaq qızılgül kollarının başına fırlanıb, xəstəxana həyətindən çıxana qədər o, durduğu yerdən tərpənəmmədi. Deməli, heç nə yoxdu. Deməli, heç nə dəyişməyəcək. O, yenə evdə barmağının ucunda gəzəcək, qardaşı ilə rastlaşmamaq üçün dəhlizə çıxanda öskürəcək, nəlbəkini əlində əsdirə-əsdirə çayı yenə öz otağına aparacaq. Deməli, heç nə dəyişməyəcək.

Yavaş-yavaş avtobus dayanacağına tərəf getdi. Evdə onu nə gözlədiyini, günün necə başlayıb, necə qurtaracağını bildiyindən birdən-birə sakitləşmişdi. Hərdən-hərdən yenə qızları gəlib onu yoluxacaqdı, növbəylə ağları dəyişib, yumağa aparacaqdılar, heç vaxt da onlarla ürək söhbəti eləyəmməyəcəkdi, dərdini, ağrısını onlardan gizlədəcəkdi, çünki həmişə fikirləşib ki, ata övladına ancaq sevinc verməlidi. Hərdən də bacısı bir qab qonşu payı gətirəcəkdi, bəzən heç söhbətə oturmayacaqdı da, evin səliqə-səhmanına ötəri göz gəzdirib xudahafizləşmədən, nəyisə fikrində götür-qoy edə-edə, dodağının altında mızıldaya-mızıldaya çıxıb gedəcəkdi. O da tək qalanda arvadını xatırlayacaqdı, çalışacaqdı haçansa evli olduğuna özünü inandırsın, arvadı

süfrəyə yemək gətirəndə nə hiss keçirdiyini yadına salsın. Hər şey olmuşdu; yuxusuz gecələr də, doğulacaq uşağın sevinci də, məhrəm yaxınlığın xoş utancaqlığı da, ancaq ayrı-ayrı əhvalatlar kimi, bütün bunlar da elə bil başqa adamın başına gəlmişdi, ona bir qırıq da dəxli yoxdu. Qəribədi ki, arvadının da həmin günləri xatırladığına, ona rast gəlsə, həmin məhrəm günləri yadına salıb, indiki yad kişidən xəcalət çəkəcəyinə inanmırdı. Cavanlıqda elə bilirdi, çətini qadını bir dəfə öpənə kimidi, sonra ömürlük səndən əl çəkməz, qarşında gözükölgəli olmaqdan qorxub əl çəkməz. Ancaq demə, qadın heç vaxt sənin olmurmuş, nə qədər çox tanıyırmışsansa, nə qədər çox yaxın olurmuşsansa, bir o qədər səndən uzaqlaşırmış... Bəlkə də bu saat bacısı onu gözləyirdi – "Təcili yardım" gəldiyini görməmiş olmazdılar. Həkimdən eşitdiklərini o da bacısına təkrar eləyəcək, sonra da narahatçılığı başlayacaq: bilməyəcək qardaşının yanına getsin, ya getməsin, yemək aparsın, ya aparmasın, qorxacaq ki, qardaşı birdən ağır söz deyər, hamının yanında onu pərt eləyər. Fikirləşdikləri onu üzəcək, heç vaxt da özünü haqlı sayammayacaq. Demək, hər şey olduğu kimi qaldı. Demək, heç nə dəyişməyəcək.

Tələsdiyindən qapını bağlamayıbmış – astanada dayanıb qardaşının otağına sarı baxdı. Qapı örtülü idi. İtələyib açdı. Çarpayı yığılmamışdı, qəhvəyi zolaqlı pijama necə gəldi yorğanın üstünə atılmışdı. Qara çəkələyin bir tayı yoxdu, o biri tayı ağzı üstə çönmüşdü.

Qardaşından ötrü birdən-birə darıxdı. Və çarpayıya çöküb, bütün qocalar kimi astadan, için-için ağladı.



# Roman

# ZƏDƏ

Biabırçılıqdı, biabırçılıqdı, biabırçılıqdı. Gör nə təhər alçaltdı özünü, nə təhər alçaltdı, alçaltdı, alçaltdı. Hələ xahiş eləməmişdən alçalmışdı, görən kimi alçalmışdı. Gözləri yazıqlamışdı, şit-şit gülümsəməyicə bacarırdı. Çünki o, heç nədi, heç nədi. Hə, hə, heç nədi. Qışqırıb bağırmaqla deyil – heç nədi. Özgə vaxt sinəsinə döyür: mən, mən, mən – güya göydən zənbillə düşüb, güya hamı ondan aşağıdı, güya hamının ona borcu var. Ancaq başqasını görən kimi sıpıxır, bilir ki, heç nədi. İçini yeyir, titrəyir, başını qaldırıb dik baxammır. İlahi, axı o niyə yaşayır, niyə yaşayır. Öləsi adamdı, öləsi. Özü özünu aldadır, yalmanır, yazıq-yazıq gülümsəyir. Tutu da deyir, nişanlım var, sevdiyim var. Onu sevir, onu. Gör dünyanın harasıdı, onu da sevən var, xoşuna gəlməkdən ötrü dəridən-qabıqdan çıxan var. Qoy rədd olsunlar, qoy hamısı rədd olsun. Qoy sevməsin. Desin, sən pissən, sən heç nəsən. Bacarır, qoy desin. İndi ki gördü, gördü o kimdi. Gördü ki, kiminsə qabağında sıpıxır, boynunu bükür. Üzünə tüpürürlər – susur, dolayırlar – susur. Haqları var, haqları var. Kişiydi, cavabını verəydi. Gözünün içinə şax baxaydı. Onda ayaqlamazdı onu. Ona "qaqaş"

deməzdi. Otuz üç yaşlı adama "qaqaş" deyirdi. Hələ gərək çənəsini də əlləşdirəydi: "ağlama, qaqaş, ağlama, düzələr". Sağlığına içirdi: "sən yaxşı oğlansan". Guya özü ondan yaxşıdı, hətta ona qiymət də verə bilər. Başqasına belə deməzdi. Ancaq ona dedi. Başqasına deyərdi: "Sağ ol, Həsən müəllim, sağ ol, Hüseyn müəllim, şadam siznən tanış olmağıma". Belə deyərdi. Ancaq onu saymadı. Onu adam yerinə qoymadı. Çünki o, heç nədi. Çünki onsuz da yalmanırdı, yazıq-yazıq gülümsəyirdi. Neynir onun hörmətini qazansın. Nəyinə lazım. Yalmanır, yalmanacaq. Gələn dəfə də deyəcək: " Sən yaxşı oğlansan". Sağlığına bir yüz qram da vuracaq, vəssalam. O adlı adam daha yoxdu. Onunla beləcə hərdən süfrə arxasında oturmaq olar. Bircə saat, yarım saat. Sonra xoş gəldin. Ondan nə dost, nə yoldaş. Qoy getsin öz dərdini çəksin. Çünki o, heç nədi. Çünki özü özünü alçaldır. Özü özünə hörmət eləmir. Cavabını versəydi, belə danışmazdı. Onda sayardı. Deyərdi, bu da kişiymiş. Elə deyərdi. Onda sayardı. Ancaq özü istəmir onu kişi bilsinlər. İstəmir. İstəyir ona yazıqlarıca gəlsin, başını sığallasınlar, üzünə gülümsəsinlər. Öyrəşib, daha öyrəşib. Bu gün dözdü, sabah da dözəcək. Xətrinə dəyəndə narahat olmayacaqlar, üzr istəməyəcəklər. Güləcəklər: "İncidin? İncimə, incimə". Çünki bilirlər, o, cavab qaytara bilməz, hirslənə bilməz, təhqir eləyə bilməz. O ancaq susub burnunu sallaya bilər. Yiyəsindən küsmüş it kimi ancaq quyruğunu bulayar, qayıdıb dişləyə bilməz. Çünki qorxur qapıdan qovalar, üzünə baxmayalar, sonra yazıq ola. Bunu bilirlər. Düz bilirlər. Özünü elə tanıdıb. Çünki o, heç nədi, heç nədi. Qıraqdakılar da deyir, igid bu adamdı, kişidi, əynində şalvarı var. Hələ bəlkə ondan çəkinirlər də. Hələ bunları aldatmaq olar, üstlərinə şeşələnmək olar. Bu trolleybus

harda qaldı? Bayaq yol görünürdü. İndi niyə görünmür? Əlini də nəsə üşütmüşdü. Hə, bayaq dəmir çəpərin yanında dayanmışdı. Əlini dəmir üşüdübmüş. Ordan yol görünür. Doğrudu. Burdan görünür. Dəmir də sərindi. Yəqin arada yenə yağıbmış. Bunun bir geyiminə bax. Guya uzun geyinib, yarığı ancaq düz belinə çıxır. Baxanda da deyirlər, niyə baxırsan? Sabah Tutunu görəsidi. Üz-üzə gələsidi, göz-gözə durasıdı. Axı, nə üzlə, nə üzlə? Gözünün qabağındaca alçaldı, yazıqlaşdı. Saymazyana, etinasız danışırdı, gülürdü, dayısını gördü, o saat büzüşdü, sıpıxıb quyruğunu buladı. Sonra da üzünə baxa bilmədi. Qorxdu. Qorxdu ki, gözündə özünün yazıqlığını görər. Görər ki, doğrudan da, heç nədi, heç nədi. Qorxdu. Axı nə fərqi ki, görmədi. Nə vaxta qədər aldatmağa çalışacaq, özünü görməzliyə vuracaq, guya heç nə olmağından xəbəri yoxdu?! Gör nə ilə təsəlli tapır. Demək, üzünə deməsinlər, ancaq nə düşünürlər düşünsünlər. Bircə üzünə deməsinlər. Özlərini bilməzliyə vursunlar. Oldu, keçdi, unuduldu. Eləmi? Axı necə unutmaq olar? Ola bilməz ki, sabah Tutu ona əvvəlki gözlə baxsın. Bəlkə də hələ hiss eləməyəcək. Elə biləcək hər şey əvvəlki kimidi, arada heç nə olmayıb, heç nə dəyişməyib. Soyuq baxırsa – bu cür də olmalıdı, kobudluq eləyir – təbiidi. Səbəbini bilməyəcək. Ancaq nə olsun ki, bilməyəcək. Bəs o? O, bu kobudluğa, soyuqluğa dözəcəkmi? Dözəcəksənmi? Yox, Tutu bilsə yaxşıdı, səbəbini bilsə yaxşıdı. Bilsə, doğrudan da unudar. Fikirləşər, yozar, axır bir söz tapıb ürəyini sakitləşdirər. Xəstəlik gizli olanda pisdi. Adamı içindən yeyir. Yeyir, yeyir, yeyir, bir də ayılırsan ki, quruca canın qalıb. Onda da gec olur, gec olur. Ayılanda gərək inciməyə. Gərək başa düşə ki, təqsir özündədi. Ayılacaq, nə vaxtsa ayılacaq. Gözünü açıb onu tanıyacaq. Hələ başqasına rast gəlməyib.

Elə bilir dünya onunla qurtarır. Rast gələr. Eləsinə rast gələr ki, onun xırdalığını, cılızlığını başa düşər. Onda tanıyar onu, birdəfəlik tanıyar, daha işini bilər, gözü açılar. Onda da dillənməsə, demək, əvvəlki Tutu daha yoxdu, demək, yavaş-yavaş onun səviyyəsinə enib, hər sifətinə uyğunlaşıb. Demək, o, nə qədər yazıq adamdısa, Tutu ondan da yazıq olacaq. Demək, onun da haqqı var Tutunu alçaltsın. Əgər alçaldığını başa düşə-düşə alçalırsa, bununla razılaşırsa – alçalmağa layiqdi. Layiq bilmir, çıxıb getsin, rədd olsun. Rədd olsun. Qəribədi, niyə, axı nağılların hamısı toyla qurtarır? Toy olan kimi nağıl bitir. Sevgililər qovuşdu, qırx gün, qırx gecə toy çaldılar, yedilər, içdilər, xoşbəxt oldular. Hər şey toydan sonra başlayır, bunlar ancaq başlanası yerdə qurtarırlar. Özünü gör nə təhər əskiltdi. Biabırçılıq. Təqsir Süleymandadı, Süleymandadı. Qoymur öldüyü yerdə ölsün. Məcbur elədi. De, de, de. Dedi. İndi ürəyin sakit olsun. Sabah dördotaqlı evini alarsan, sonra lap direktorun yerinə keçərsən, böyük adam olarsan. İşin düzəldi. “Nişanlının dayısı, əziz qohum”. Deyən kimi əlini sinəsinə qoyacaq. Qoydu. Niyə, axı gərək kimdənsə xahiş eləyə, gözükölgəli ola?! Niyə?! Nə vaxta qədər?! Gözünün içinə baxıb gülümsəyirdi. O cür dilənçiyə baxarlar. Görürlər əlini açıb dilənir, ancaq yenə soruşurlar: “Nədi, dilənirsən?” Hələ heç onda xahiş eləməmişdi. Ancaq dayısı başa düşmüşdü, qabağında titrədiyinə görə için-için gülürdü. Onda cavabını almışdı. Eşidəcəyi sözləri deyilməsə də eşitmişdi. Deyilən sözlər yalandı. Əsas deyilməyən sözlərdi. Gözündə gördüyü sözlərdi. Onda artıq alçalmışdı. Söymüşdülər, üzünə tüpürmüşdülər. Özünü bilməzliyə qoydu. Öyrəşib. Çünki öyrəşib. Sonra da başladı onunla oynamağa, qəşəng-qəşəng suallar verməyə. Qardaşının adını soruşurdu. Guya

yadından çıxmışdı. Elə bil kabinetində oturmuşdu, sorğu-suala tuturdu. Təqsir özündədi. Bir var səni alçaltmaq istəyələr, bir də var durduğun yerdə özün yazıqlaşasan. Onu alçaltmaq ağlına da gəlmirdi. İt üstünə hürəndə necə deyərsən ki, it məni alçaltmaq istəyir. Hürmək itin peşəsidi. Özücə özünü alçaltdı. Kiçilib pişik boyda oldu. Nə boyda oldusa, o boyda da əyninə paltar tikdilər. Gəl indi təzədən başını dik tut, sinəni qabart, görüm, necə qabardırsan. Paltar cırılar, lüt qalarsan. Lap gülünc olarsan. Bu gün kiməsə gülmüşdü. Kimə? Lağ eləyirdi, doyunca da güldü. Hə, dayısına. Çimərlikdə lüt gəzdiyinə görə. Yəni gör nə axmaq dayın var, hamınız da qabağında bulanırsınız. Özünü Tutuya göstərirdi. İndi də göstərdi. Həmin axmaq adamı görən kimi sıpıxdı, ayağına düşdü... Görürlər arvad-uşaq var, yenə siqaret çəkirlər. Guya qəhrəmanlıq eləyirlər: baxın, biz heç kimdən qorxmuruq, hətta trolleybusda da siqaret çəkirik. Çək, çək. Heç kim də dillənmir. Kimin nəyinə lazım dillənib pis ola, bir-iki yaxşı söz eşidə. Sonra da gəl dalaş, milisə düş. Çək-çevir, sorğu-sual – adamınkı adama dəyər. Qoy tüstülətsinlər. Susmaq məsləhətdi. Özləri də uşaqdılar. On səkkiz-on doqquz yaşları olar. Qəhrəmanlıq həvəsinə düşən vaxtlarıdı. Nə qəribə sifətləri var. Narahatdılar. Bilirlər düz eləmədiklərini, ona görə narahatdılar. Hər dəqiqə gözləyirlər bu saat kimsə durub narazılıq eləyəcək. Bilə-bilə də çəkirlər. Başqa cür seçilməyi bacarmırlar.

– Qardaş, olmaz ki, burda çəkmiyəsiniz...

Nahaqca dedi. Durub indi düşələr üstünə. İki nəfərə gücü çatmaz. Nahaqca dedi.

– Dədənin maşınıdı? Xoşun gəlmir, bas bayıra.

Lənət şeytana, özünü işə saldı. Çönüb baxanlar da var.

Yazıqlar darıxmışdı. Yox, belə olmaz, belə olmaz. Lap mat qalıblar. Yəqin gözləmirdilər ki, durub ayağa üzlərinə sakitcə baxa-baxa siqaretlərini alıb pəncərədən atar. Gözləmirdilər ki, mat qalıblar. Yaman elədi. Birdən gəlib vurarlar? Tərslikdən arxasını da onlara çevirib. Vurdular – vurdular, nə desən çıxar. Yox, düşüb getdilər. Allaha şükür, yaxşı qutardı. Yamanca isti oldu. Lap təntidi. Su ola, çiməsən. Çətin ki, bu vaxta su qala, yəqin, çoxdan kəsiblər. Qarpız olsa yeyərdi. Sopsoyuq, ağzına qoyasan, dişini göynədə. Deyəsən, axı evdə var? Var. Olmalıdı. Dünən yarısı qalmışdı, soyuducuya qoydu. Hə, soyuducudadı. Çatan kimi işinə baxar. Görən, Tutu indi nə fikirləşir? Dayısı artıq-əskik danışmasa yaxşıdı. Danışar, cəhənnəmə, qoy danışsın. O xudahafizləşəndə ayağa durmadı. Heç olmasa, yerindən bir balaca qalxmadı da. Başqa vaxt bəlkə də belə eləməzdi. İndi ancaq lazım bilmədi, artıq iş saydı. Bu, nə gözəl qızdı. Hörmətlə baxdı. Hörmət və məhəbbətlə. Yəqin, düşünür ki, igid oğlandı o. Yəqin, elə düşünür. Lap tanış olmaq məqamıdı. Trolleybusdan düşəndə daban alasan dalınca. Kinoda belə olur. Ancaq kinoda qız qəhrəmana yaxınlaşır. Yaxınlaşıb gül dəstəsi verir, xalqı divin zülmündən qurtardığına görə. Saçı Nərgizin saçına oxşayır: uzun, yumşaq. Hardan hara gör kimi xatırladı. Yəqin, heç özünün yatsa, yuxusuna da girməz. İki il deyil, üç il deyil, indi ev-eşik, bir yığın külfət. Məktub yazmışdı ona. Oxuyub qaytardı geri. Dedi, səni aldatmaq istəmirəm, mənim ürəyim bomboşdu, gəlin dost olaq. Beləcə də dedi. Yaman deyib ha! Bu haqq-hesabdan sonra qızın gözündə lap qalxdı: fikirləşdi, gör nə yaxşı oğlandı, zəifliyimdən istifadə eləmədi. Amma eləyə bilərdi. Doğrudan, eləyə bilərdi. Nə vardı ki, yalandan deyərdi, mən də səni sevirəm, dərdindən ölürəm.

Demədi. Çünki xoşuna gəlmirdi. Xoşuna gəlsə, sözsüz, deyərdi, sevməsə də deyərdi. Gəzərdi özüyçün. İndi bəlkə Nərgiz hələ onu yaxşı adam bilir, vicdanlı adam bilir. Ona minnətdardı. Demir daha iş başqa cürmüş, vicdana dəxli yoxmuş bu məsələnin. Yoxdu, Nərgiz xanım, yoxdu. Vallah-billah, yoxdu dəxli. Bilmədi yazıq. Ancaq yaxşı qızdı, mehribandı, sakitdi. Heyif, gözəl deyildi. Gözəl olsa, xoşuna gəlsə, gəzərdi. O gün əri ilə gördü. Çoxdandı görmürdü. Onu görməzliyə vurdu. Çətin bir də görüşək, Nərgiz xanım, çətin bir də məktub yazasan. Olan oldu, keçən keçdi. Məktubda nələr yazdığı tam yadında deyil. Xatırlayammır. Di gəl, möhkəmcə fəxr eləyirdi, qürurlanırdı: ona məktub yazmışdılar, onu sevirdilər, hamının başına gəlmir, ha. Bəlkə ürəyini qırdığına görə Nərgiz xanım indi nifrət eləyir ona? Nə bilmək olar. Hamı başını sallayıb öz işini görür, yolunun üstə olmayan adamın nifrəti də onu maraqlandırmır, sevgisi də. Uşaqlar, deyəsən, yarımçıq düşdülər. Yəqin özlərini təhqir olunmuş saydılar. İndi əsib-coşurlar. Təqsir özlərindədi. O istəmirdi, özləri məcbur elədilər. Gərək işi o yerə çatdırmayaydılar. Günah təhqir olunandadı. Qoy bacarırsa, alçalmasın. Qoy kim bacarırsa, o da alçaltsın...

Trolleybusdan düşəndə vaxt ölçüsünü itirmişdi. İyirmi dəqiqəlik yol ona çox uzun gəlirdi, elə bil trolleybusa mindiyi vaxtdan bir ömür keçmişdi.

Dayanacaq yaşadığı beşmərtəbəli binanın düz qabağında idi. Burdan onun pəncərəsi görünürdü. Evin işığı yanmırdı. Yana da bilməzdi, açar cibində idi. Ancaq həmişə evə gec qayıdanda ona elə gəlirdi ki, gedib görəcək işıq yanır, evdə də heç tanımadığı bir adam oturub. O, hətta əvvəlcədən harda gecələyəcəyini fikrində götür-qoy da eləyirdi.

Qapını açan kimi, ilk-əvvəl keçib otağın da, mətbəxin

də işığını yandırdı. Ancaq ətrafına göz gəzdirəndən sonra qayıdıb ayaqqablarını soyundu. Qaranlıqdan qorxmasa da, xoşu da gəlmirdi. Onsuz da işıq yananda belə özünü bu evdə həmişə narahat hiss eləyirdi. Bəlkə də qədim bir evin xarabalığına girən adam belə hiss keçirir. Bilirsən ki, ayaq basdığın yerdə səndən qabaq kimlərsə yaşayıb: seviblər, seviliblər, gülüblər, ağlayıblar, məclislər qurulub, uşaq doğulub, kimsə son dəfə gözünü bu divarlarda gəzdirib – hər şey olub, keçib, gedib, indisə sakitlikdi, di gəl, sakitlik sənə aldadıcı görünür, həmin adamlardan bu evdə heç nə qalmadığına inana bilmirsən. Sənə elə gəlir ki, tək deyilsən, sənə göz qoyurlar, səni izləyirlər. Daşın-divarın sükutu da sirlidi, onlar sənin görmədiyini görüblər, bilmədiyini bilirlər. Evdə kiminsə olduğu fikri səni eyməndirir. Bu fikri başından qovmaq üçün öz-özünə zümzümə eləyirsən, fit çalırsan, radionu açıq qoyursan. Ancaq yenə də hərdən inamsız-inamsız ətrafına baxmalı olursan... Bu daimi narahatçılığın səbəbini o, yaxşı bilirdi: heç nə onun bu evdə yaşadığını hiss elətdirmirdi. Qəribə də olsa, iki ili burda qonaq kimi yaşamışdı, guya sabah çıxıb gedəsiydi. Sabah, sabah, beləcə iki il keçmişdi. İki ildə heç nəyə toxunmamışdı, heç nəyə əl vurmamışdı. Ovalşəkilli qırmızı stol, iki stul, narıncı örtüklü divan, köhnə dolab, sarı pərdələr, bir də qatlanan çarpayı – iki il qabaq bu evə köçəndə necə görmüşdüsə, hər şey eləcə dururdu, nə köhnəsini atmışdı, nə təzəsini almışdı. Heç olmasa, çəkdirdiyi şəkillərdən göz qabağına qoymurdu, görən biləydi ki, burda filankəs yaşayır. Bunu, bax elə indicə də eləmək olar, vur-tut bir dəqiqəlik işdi, götür, qoy, vəssalam.

Fikirləşdiyinə inanmaq üçün çamadandan şəkil albomunu çıxartdı. Axtarıb ailəliklə çəkdirdikləri şəkli tapdı. Çoxdan

çəkdirmişdilər, o vaxt səkkiz yaşı vardı. Ancaq həmin gün yaxşı yadında idi – ilk dəfə bir yerdə şəkil çəkdirdiklərinə görə: ilk və axırıncı dəfə. Əgər öz ayağı ilə məhəlləyə fotoqraf gəlməsəydi, yəqin, heç bu şəkil də olmayacaqdı. Qonşulara hay düşəndə anasının dilindən çıxdı ki, onlar da çəkdirsinlər. Əvvəl atası razı deyildi, bəlkə də ona görə razı deyildi ki, bu fikir özünün ağlına gəlməmişdi. Hamını üzəndən sonra lap axırdan-axıra razı olub bir daha xatırlatdı ki, bu evdə son söz onundu. Geyinib-gecinib sevincək qonşuya fotoqraf dalınca qaçdılar. Şəkil çəkdirənə qədər qorxurdular birdən ataları yenə fikrini dəyişər. Ata-anası stulda oturdu, o isə aralarında, Süleymanla bacısı arxada dayandı. Rəhim onda hələ doğulmamışdı. Beləcə, ailəliklə ilk dəfə şəkil çəkdirdilər, ömürlərinin bir anı beləcə donub qaldı. Şəkildə Süleyman əlini atasının çiyninə qoyub özünü dartmışdı, bacısı elə diqqətlə baxırdı, guya, doğrudan, indicə quş uçası idi. Üzlərindəki kölgə tut ağacından düşmüşdü. Onun dibində çəkdirmişdilər. Daha həmin tut ağacı yoxdu, həyəti zibillədiyi üçün atası onu kəsdi...

Şəkli hara vuracağını fikirləşib, münasib bir yer tapmadı, əlində hərləyib-hərləyib stolun üstünə atdı. Sonra bekarçılıqdan albomu vərəqlədi. Tutunun şəklinə rast gələndə əlini saxlayıb bir xeyli diqqətlə baxdı. Qız gözünü naməlum bir yerə zilləyib gülümsəyirdi. Şəkil nişandan sonra çəkilmişdi. Ona görə də şişkin dodaqların xoşbəxt təbəssümü onda qısqanclıq oyatmırdı. Şəklin arxası yazılmışdı: “Əzizim Mədətə”. Altına da tarix: iyun, 1984. Tutu ona çox gözəl göründü. Olduqca gözəl və yad. Hətta bu qızın əllərinə toxunmağı belə ancaq arzulamaq olardı.

Qalan şəkillərə ötəri göz gəzdirdi. Şəkillər az idi – çəkdirməyi xoşlamırdı. Nə çəkdirməyi, nə də kimdənsə

şəkil istəməyi. Yəqin, ailədən adam çox şey götürür. Evdə şəkil çəkdirməyi xoşlamırdılar, indi də o xoşlamır. Qonaq getməyi, başqa yerdə gecələməyi xoşlamırdılar – o da xoşlamır, çalışır gecənin yarısı da olsa, öz evinə qayıtsın. Bəzən ona elə gəlirdi ki, atasının ömrünü də təkrar eləyəcək: atası kimi qocalacaq, atası kimi qaradinməz olacaq, danışanda da hamını acılayacaq. Evdə ondan da qorxacaqlar, dərd-sərlərini ondan gizlədəcəklər, yeri düşəndə dalınca danışacaqlar. Onun da saçı yavaş-yavaş tökülüb ortadan dazlaşacaq, yel xəstəliyindən həmişə əziyyət çəkəcək, həkimə getməyə də başısoyuqluq eləyəcək. Hətta o, hərdən öz qocalığını, arıq, tüksüz ayaqlarını, lırtlaşmış qarnını da görürdü.

Daha albomu vərəqləməyə həvəsi gəlmədi, aparıb yerinə qoydu. Sonra fikirli-fikirli otaqda gəzişdi, elə bil nəsə istəyirdi, ancaq nə istədiyini yadına sala bilmirdi. Gedib soyuducunu açdı; üç-dörd yumurta idi, bir az kolbasa, para da qarpız. Bayaq qarpız arzulamışdı, indi ona da könülsüz-könülsüz baxdı – bir balaca ortasını eşib yenə soyuducuya qoydu. Yatsa, yaxşı olardı. Fikirləşdi ki, işığı keçirib yerinə girsin, bəlkə onda yuxusu gəldi. Heyif, telefonu yoxdu. Olsa, götürüb kiməsə zəng vurardı, ya da kimsə ona zəng eləyərdi. Ola bilsin, bu saat zəng eləmək, ya onu görmək kiminsə könlündən keçir, bayaq Nərgizi xatırladığı təki heç unamadığı bir adam da onu xatırlayır. Ola bilsin. Rastlaşdığı, tanıdığı adamları gözünün qabağına gətirməyə çalışdı. Özü də heyrət elədi ki, belə çox adam tanıyır. Ancaq indi həmin adamlar onun üçün yox kimidi, onları nə vaxtsa görə biləcəyinə də inanmırdı. Onda, belə çıxır ki, o günlər ömründən boş-boşuna keçib. Doğrudanmı, elədi? Fikrinin axarına düşüb getmədi. Buna səbri çatmadı.

Düşündüyü, elədiyi bu saat ona yersiz görünürdü. Elə bil harasa qaçırdı, dayansa, vaxt itirəcəyindən qorxurdu. Yaxınlaşıb üzünü pəncərənin şüşəsinə söykədi. Evlərin sönmüş işığı onu sakitləşdirdi: daha gecdi, heç hara getməyəcək, heç kim gəlməyəcək, heç kimi gözləmir.

– Yatmaq lazımdı, – dedi, – yatmaq lazımdı, vəssalam.

Yuxudan oyananda, ona elə gəldi ki, heç yatmayıb. Çünki hələ də dünənki gündən ayrıla bilməmişdi. Vaxt anlayışı nisbidi – bunu o, indi başa düşdü. Vaxtın keçdiyini hiss eləmək üçün gərək əhvalın da dəyişə, o, ancaq elə bil yenicə otağa girmişdi və bir az əvvəl nə baş verdiyini tələsik aydınlaşdırmaq istəyirdi.

Yerində dikəlib saata baxdı – yeddiyə iyirmi dəqiqə qalmışdı. İşə çatmaq üçün indi durmaq lazımdı.

Ayağını yerə basanda ağrıdan ufuldadı, elə bil sol dizinə iynə batırdılar. Dünən stola vurduğu yerdi. Ancaq onda ağrını bir o qədər də hiss eləməmişdi. Üzdən heç nə bilinmirdi, nə şiş vardı, nə qızartı.

Bir saatdan sonra Tutunu görəcəkdi. Tutunu xatırlayıb başını silkələdi. Durub axsaya-axsaya mətbəxə getdi, çaydanı doldurub qaz pilətəsinin üstünə qoydu. Sonra əl-üzünü yudu.

Dizinin ağrısı hövsələsini lap daraltdı. Belə ağrı ilə işləyə bilməyəcəkdi. Fikirləşdi ki, gedib icazə alsın. Ancaq çətin icazə verəydilər. İşlətməsələr də, deyəcəkdilər otur burda, gözə görün. Hamilə arvad kimi üzülə-üzülə hamının gözü qabağında dayanmaq da bir şey deyildi. Həm də Tutu o saat böyür-başına keçəcəkdi. Çalışacaqdı hiss elətdirsin ki, onun ağrıdığına görə narahat olub. Dəqiqədəbir kefini soruşacaqdı. O da gərək haqq döyüşündə güllə yarası almış adam təki zorla gülümsəsin: yəni çətin də olsa, dözürəm.

Tələsmədən çay dəmlədi, bir stəkan şirin çay içib stəkan-nəlbəkini yaxaladı, çörəyin artığını qurumasın deyə sellofan torbaya qoydu. Sonra götürüb dünəndən stolun üstünə atdığı şəklə baxdı. Ata-anasını bir ildən çox idi ki, görmürdü – məzuniyyəti nişana və nişanlısına görə Bakıda keçirmişdi. Düzyurda getməyi bir də qaldı gələn məzuniyyətə. Deməк, bir ildir getmir, bir il də getməyəcək – eləyir iki il. Ancaq heç darıxmırdı da. Bircə yazağzı soyuqdəymədən yatanda evdəkiləri yamanca arzulamışdı. Heç elə xəstələndiyi xatirinə gəlmirdi: iki-üç gün yorğan-döşəkdən durammadı, titrətmə aman vermirdi, tez-tez huşa gedirdi, gözünü açanda çay-çörək yadına düşürdü, amma taqəti olmurdu durub bir şey bişirsin. Onda dünyadan lap bezmişdi. Ağız açmağa, nəsə istəməyə adam yoxdu. Elə adam ki yastığının dibini kəsdirməkdən bezməsin. Kim olur-olsun, uzağı bir-iki saat onun nazı ilə oynayardı, bunu da candərdi eləyərdi. Ona görə yox ki, hamı pisdi; hamı bəlkə o düşündüyündən qat-qat yaxşıdı, ancaq ən yaxşı adam da xeyirxahlıq eləyəndə qabağındakını yox, özünü düşünür, bundan ləzzət almaq istəyir, istəyir özünü yaxşı adam olduğuna inandırsın. Bu düşünülmüş xeyirxahlığa görəsə o, heç kimi qınamırdı. Çünki hamı bu cürdü, hamı bir yaxşılıq eləyəndə istər-istəməz nəsə umur.

Yenə şəkli vurmağa bir yer tapmadı. Elə yerə vurmaq istəyirdi göz qabağında olsun, otağa girən kimi görünsün. Belə yer divar idi, ancaq lap başdan kirayəyə verəndə şərt qoymuşdular ki, divara toxunub oboyu korlamasın. Bunu ev sahibinin dilindən qardaşı tapşırmışdı. Ev sahibinin özü üçilliyə xaricə getmişdi. O, həmin adamı tanımırdı. Görüb tanıdığı elə ev sahibinin qardaşı idi, hər ayın axırında kirayə pulunu almağa gəlirdi. Özünü də elə aparırdı güya

kirayə pulunu almağa gəlməyib – köhnə dostunu yoluxmağa gəlib. Gəlib bir xeyli otururdu, çay içirdi, hal-əhval tuturdu, siyasətdən danışırdı, qocalıqdan şikayətlənirdi. O, harasa gedəcəyini hiss elətdirməsə, bəlkə bütün günü beləcə danışardı. Duranda aldığı pula da heç baxmırdı, elə bil dəsmalı götürüb cibinə qoyurdu. Ancaq o, yaxşı başa düşürdü ki, kişi elə qapıdan çıxan təki pulları sayacaq. Ona görə kişinin bu saxta inamı ona gülməli gəlirdi. Fikirləşirdi bir dəfə pulu verməsin, görsün kişi nə deyəcək, pulu istəyəcəkmi? Bunu bilmək, kişinin qadağanına baxmayıb şəkli divara vurmaq istəyi kimi, hərdəncə onu şirnikdirirdi.

Vaxt keçirdi. Bilirdi ki, bir az da ləngisə, işə gecikəcək. Bildiyinə görə də saat tərəfə baxmırdı. O zaman baxdı ki, daha evdən çıxsa da, işə çatmayacaqdı. “Gecikdim, – dedi, – iş batdı”. Fikirləşdi ki, həkimə gedər, dizini göstərib kağız alar. Amma həkimə getməyəcəyini də yaxşı bilirdi. Bunu işə getmədiyinə görə özünü sakitləşdirmək üçün fikirləşdi. Həkimə getməkdən həmişə qorxmuşdu. Qorxurdu, heç unamadığı bir xəstəlik tapalar, durduğu yerdə işə düşər. Əgər xəstəlik varsa, bilməyindən bilməməyi yaxşıdı, harda qırılar, qırılar.

Poliklinika, yəqin, saat 8-dən tez açılmazdı. İndisə səkkizin yarısı idi. Hələ vaxta var. Uzanıb gözünü tavanda gəzdirdi. Qəribədi, çox qəribədi: bugün-sabah otuz üç yaşına adlayacaq, ancaq hələ də nə istədiyini, nə axtardığını bilmir. Süleyman yaxşı deyir: səndən, deyir, heç başım çıxmır, elə bil, Allah eləməsin, türmədəsən, birtəhər başını qatırsan ki, günün gəlib keçsin. “Türmədə deyilsən e, ay başına dönüm, əlini-qolunu tutan yoxdu, adam kimi yaşa, yoxsa bir də ayılacaqsan ki, lələ köçüb, yurdu qalıb, ömrü

başa vurubsan”. Yəqin, düz deyir Süleyman. Yəqin, o, adam kimi yaşamır. Adam kimi yaşasaydı, indi onun da ailəsi, uşağı vardı, ev-eşiyi vardı. Di gəl, yoxdu. Yoxdu, vəssalam. Buna görə də haqqı var Süleymanın, haqqı var onu qabağına qoyub danlasın, öyüd-nəsihət versin, yeri gələndə də üstünə qışqırsın. O adamın üstünə qışqırmazlar ki, bir çətən külfət dolandıra, oğul-uşaq sahibi ola. Bu yaşa qədər heç nə qazanmayıbsa, demək, nəyisə bilmir, nəyisə bacarmır, demək, hələ uşaqdı, başına ağıl qoymaq olar, öyüd-nəsihət vermək olar – nə olsun saç-saqqalı ağardıb. Nəsə heç onunku düz gətirmir. Axı haçana qədər elədiyi işin, dediyi sözün xəcalətini çəkəcək?! Haçana qədər?! Görən, elə vaxt olacaqmı ki, yuxudan ağrısız oyana, dünən tutduğunu düşünüb xəcalət çəkməyə?! Bəlkə də olar. Gərək onda heç hara çıxmasın, heç kimlə görüşməsin. Hə, onda mümkündü. Başqa yolu yoxdu. Çünki özündən nəsə uydurmağı xoşlayır, istəyir hamının xoşuna gəlsin, hamı desin bu, yaxşı oğlandı, bacarıqlıdı, fərasətlidi. Elə ona görə neçə vaxtdı qardaşına sözün düzünü deyə bilmirdi, heç nə boyun olmurdu, dilini sürüyürdü, mızıldayırdı, “baxaram, görüm...” çalışırdı, lazım gəlsə, geri çəkilməyə bir addım yer saxlasın, güya gec-tez Süleyman özü işin nə yerdə olduğunu başa düşüb ondan əl çəkəcəkdi. Ancaq nə başa düşdü, nə əl çəkdi. Bircə kəlmə sözdü, deyirdi, nə var, axı onu çatdırmağa. Cibə girmirsən, yol kəsmirsən – qardaşından ötrü xahiş eləyirsən. Sabah da bəlkə onların mənə işi düşəcək?! Elə bilirsən düşməyəcək? Hardan bilirsən?.. “Bilmirəm, Süleyman, bilmirəm sabah nə olacaq. Onu bilirəm ki, indi sənin işin düşüb. Amma, vallah, bu, mən bacaran haqq-hesab deyil”. Gərək, bax beləcə də cavab verəydi, cançəkmə də birdəfəlik qurtaraydı. Pis olmaq

istəmirdi. Di gəl, başa da düşmürdü ki, belə çox davam eləməz. Bir gün dilini sürüyərsən, iki gün, üç gün; elə deyil ki, sonra daha üz-üzə gəlməyəsən, rastlaşmayasan, uzağı-uzağı on gündən sonra yenə qabaq-qənşər oturacaqdın. Bəs onda? Elə də oldu. Axır ki, boynuna götürdü: "Asan işdi, çox asan işdi. İmkan olan kimi deyəcəm". Dərd orası idi ki, asan deyildi, heç asan deyildi. Neçə dəfə fikirləşmişdi, çalışmışdı gözünün qabağına gətirsin: necə deyəcək, sözünü nə cür başlayacaq. Hər dəfə də özünü söymüşdü ki, durduğu yerdəcə işə düşüb. Bəlkə də sonralar bir xahiş eləməkdən ötrü bu qədər baş sındırmağı, içini yeməyi ona gülməli gələcəkdi. Bəlkə də. Vur-tut üç aydı həmin adamı tanıyırdı. Tanıyırdı deyəndə, salam verib, salam alırdı. İndi gəl bir salamın üstündən xahiş elə, ağız aç. Yaxşı başa düşürdü ki, başlanğıcdan çox şey asılıdı . Özünü necə göstərsən, elə də tanıyacaqlar, sən də məcbursan öz açdığın cığırı tutub gedəsən. Çünki qəfil cığırdan çıxsan, o saat təəccüblənəcəkdilər: bu niyə öz yolunu qoyub başqa yolu gedir? Ona görə istəyirdi açdığı cığır elə olsun ki, gedəndə qulaqlarısa görünsün, heç olmasa, desinlər, adam gəlir... Pis oldu, pis. Pislik eləmək istəyən yoxdu, amma nəticəsi pis oldu. Süleyman istəməzdi ki, o gedib kiminsə qabağında alçalsın. İstəmirdi də. Hiss eləyirdi ki, üç aydı tanıdığın adama qohumdu deyə ağız açmaq, nəsə xahiş eləmək onun üçün çətindi. Hiss eləyirdi. Ona görə Tutunu qabağa verirdi: "Sən Tutuya de, qurtarsın getsin. Öz dayısıdı, özləri də bilər". Daha demir, elə Tutuya görə o, ağız açmaq istəmir. Bəlkə də kiminsə qarşısında özünə əskiklik gətirən bir iş görər, ancaq Tutu olan yerdə yox. Tutunun yanında, Tutu başa düşə-düşə o, heç başqasına da yalan da demir. Çünki Tutu onu yalançı kimi tanımamalıdı. Çünki Tutu ilə ömrü

boyu yaşayacaq. Tanımamalıdı ki, sonra lazım gələndə Tutunun özünü aldada bilsin. Bunu Süleyman başa düşmürdü, ya da başa düşmək istəmirdi. Hə, başa düşmək istəmirdi. Süleymana öz işi daha vacibdi: necə olur, nə cür olur – təki düzəlsin. İki otaq, üç uşaq. Çətindi, əlbəttə, çətindi. Tezcə evini dəyişsə, əla olar. Bircə kəlmə sözlə dörd otaq hazır. Bütün ağrı-acın qaldı arxada. Daha neynir, bircə kəlmə sözü deyənə qədər Mədət nə çəkdi, hələ də nə çəkir. Nəyinə lazım. Deyir, üç uşaqla iki otaqda nə vaxta qədər can çürüdüm? Növbəsi hələ çatmayıb – bunu danmır, ancaq neçəsi gözü görə-görə keçib ondan qabağa. İstəmir gedib şikayət eləyə, divan-dərəyə düşə: keçə bilib, sağ olsun, kişi bacarıb, daha niyə badalaq vursun. Badalaq vurmur, intəhası, gözlədiyi də bəsdi. Günah olmaz o da başqasından qabağa düşsə, bir il tez dəyişsə. Əlbəttə, günah olmaz. Fikirləşəndə görürsən burda təəccüblü bir şey yoxdu: hamı istəyir yaxşı dolansın, yaxşı ev-eşiyi olsun, geyinib-kecinsin, yaxşı da dincəlsin, ancaq əziyyət çəkməsin, növbədə çox dayanmasın, hirslənib əsəblərini pozmasın. Yəqin ki, bu istək təbiidi. Yəqin, elə inkişaf da buna deyirlər: az əziyyət çəkəsən, ancaq yaxşı yaşayasan. Hələ Süleyman bir kəlmə sözün sonrasını da fikirləşir. Düz eləyir, adam gərək burnundan bir az irəlini görsün. İş tək ev dəyişməkdə deyil. Bu gün tapşırıqla ev alar, sabah partiyaya keçməkdi, ya başqa işdi, uşaq ha deyil, direktor bilər öz adamıdı, bir də gördün qaldırıb qoydu sex müdiri. Niyə də qoymasın, neçə ildi ustalıqda külüng vurur, işini də həmişə yarıdıb. Başqalarından nəyi əskikdi? Diplomdu – onun da var. Adamdı – qoy indi görsünlər onun da adamı var. Hamısı düzdü. Axı kim istəmir qabağa gedəsən, sex müdiri yox, lap belə nazir olasan. Kim istəmir?! Ancaq daha onu kiminsə

yanında gözükölgəli eləmək niyə? Demirsə, mızıldayıb günü günə satırsa, demək, səbəbi var. Yox, bu fikri özünə yaxın buraxmadı. Öz işi daha vacibdi. Nəyə ki toxunursan, nəyi ki görürsən – qalacaq; sevinməkdi, ağlamaqdı, alçalmaqdı – hamısı keçib-gedən şeydi, unudulandı. O da unudar alçaldığını. Süleyman düz başa düşür. Arada da yaxşı dedi, həmişə onlara əl tutduğunu, kömək elədiyini hərləyib-fırlayıb birtəhər çatdırdı. Az bacarıb – az eləyib, çox bacarıb – çox. Eləyəcək də. Şükür, yaxşı-pis dolanır. Ancaq istəyir sabah lap yaxşı imkanı olsun, ürəyindən beş keçəndə beş də eləsin, daha udquna-udquna qalmasın. Hələ dörd otaq alsa, onun da işi düzəlir. Allah qoysa, evləndirəcək onu, daha kirayədə zülüm çəkməz, gəlib otağın birində qalar. Elədi, ya elə deyil, Mədət qardaş? Elədi, elədi. Sağ olsun, onu yaddan çıxartmır, hələ yaddan çıxartmadığını eşitdirir də. Hamıdan ötrü bacardığını eləyib. "Hamıdan" da ona xüsusi pay çatır. Tək ona yox, ata-anasına da, kiçik qardaşı Rəhimə də. Bircə bacısından savayı. Bacısı başqa rayona ərə getməklə bir onların ailəsindən yox, elə onların dünyasından da gedib. Xəstədimi, sağdımı, nəyə ehtiyacı var – xəbərləri yoxdu. Nə məktublaşırlar, nə arada gedib yoluxa bilirlər. Ondan-bundanca hərdən sorağı gəlib çatır: filan yerdə gördük, vəssalam. Nə yaxşı ki, keçən il, təsadüfən olsa da, görüşdülər, yoxsa indi bəlkə sir-sifətini də unutmuşdu. Ata-anaları Düzyurdda, özləri Bakıda. Çox şükür ki, eyni şəhərdədilər, yoxsa bacılarından xəbər tuta bilmədikləri kimi, bir-birlərini də arayıb-axtarmağa bəlkə vaxt tapmazlar, istər-istəməz gediş-gəlişləri kəsilər. Çox şükür. Ancaq indi qardaşının başına yığışırlar. Düz deyir, hamısı üçün bacardığını eləyib, eləyir də. Di gəl, bunu üzə vurmağın nə mənası, lap əvəz istəməyə

oxşayır. İşin tərsliyindən, söz açılanda elə yenicə çörək yemişdilər, içdikləri arağın boş şüşəsi də hələ yığışdırılmamış süfrədə dururdu. Elə bil qardaşı ona qonaqlıq vermişdi. Qonaqlıq, üstündən də xahiş. Yox, bu cür düşünmək insafsızlıqdı. Bu cür düşünmək üçün heç kim qardaşı evində onların üzünə soyuq baxmayıb. Nə onun, nə kiçik qardaşının. Gör neçə ildi Bakıdadılar. Öz evləri kimi gələndə yüklərini bu evə salırlar, ürəkləri istəyəndə buradaca çimirlər, paltar dəyişirlər, gəlinin bir əli elə onların tökdüyünü yığışdırır. Ataları qocalıb, daha özünü-sözünü bilmir, ona görə ağsaqqallığı Süleyman eləyir. Böyük qardaşdı, həmişə sözlərini ona deyirlər, bir iş olanda qabağa o düşür. Üç ay qabaq onun nişanında da yenə qardaşı irəli durdu. Sözsüz, pul-paradan özü yığmışdı, azdan-çoxdan almışdı, ancaq böyükçəliyi qardaşı elədi. Özü də bu, qardaşının qabağa düşdüyü ilk xeyir işi idi. Ona görə gəlin də, o da yamanca karıxmışdı, qohum-qonşudan bakılıların adətini öyrənirdilər, hər şeyi yüz dəfə ölçüb-biçirdilər. Axır ki, getdilər, "hə"sini aldılar, barmağına üzük keçirdilər. Sonra hələ Tutunu qonaq da çağırdı, hədiyyəsi də öz yerində. Sağ olsun, onların boynunda minnəti çoxdu. Rəhim neçə il orada qalmışdı, istəyirdi instituta girsin – girə bilmədi, elə oradan da əsgərliyə getdi. Aydan-aya xərcliyini, bayramdan-bayrama pay-püşünü yenə Süleyman yollayır. Yollayır, di gəl, yollamaya da bilər; xoş üz göstərir – göstərməyə də bilər, yavaş-yavaş soyudar aranı. Nə olsun qardaşıdı, qardaşın borcu deyil ha, dalına alıb gəzdirsin onları. Ancaq Süleyman gəzdirib, gəzdirir də. O da borclu qalmaq istəmədi. Ayda, ildə bir dəfə ona işi düşmüşdü, ağız açmışdı. Həm də nəyə görəsə həmin an qardaşı birdən-birə ona çox köməksiz göründü. Köməksiz, ağır, fağır. Nə halına yanan

var, nə üz tutmağa bir adam. Umacağı-küsəcəyi yer təkcə odu. “Gör də, gör neyləyirsən...” Qabaq-qənşər oturmuşdular. Uşaqlar dənizə çimməyə getdiyindən evdə sakitlik idi. Bir yandan da bürkü – avqust günəşi öz istisində boğulurdu. Gəlinsə yorğun-yorğun süfrəni yığışdırırdı. Süst tərpənişinə baxanda, deyirdin, bu saat durduğu yerdəcə yorğunluqdan dizləri qatlanacaq. Ancaq bu süstlük yorğunluqdan deyildi, onu həmişə belə görmüşdü, həmişə də inanmağı gəlmirdi ki, bu süst tərpənişlə evin bütün iş-gücünü tək canına aşırır: doğduğu üç uşağın əyin-başından tutmuş, evin səliqə-sahmanına qədər. “Gör də, gör neyləyirsən...” Bax, onda, o bürküdə, o sakitlikdə birdən-birə qardaşına yazığı gəldi. Qorxdu ki, həmin hissi gəlin də keçirər. Tezcə dilləndi ki, asan işdi, düzələr. Elə bil gəlin görməsin deyə, nəsə ayıblı bir şeyin qabağını kəsirdi. Bəlkə də gəlin orda olmasaydı, heç o sözü dilinə gətirməzdi...

Tavanın künclərində hörümçək tor qurmuşdu. Ürəyi dözmədi, durub süpürgə ilə təmizlədi. Sonra qapını açıb, eyvana çıxdı. Təzə rayon olduğundan şəhərin bu tərəfində yaşıllıq az idi. Cavan ağaclar beşmərtəbəli binaların yanında lap cılız görünürdülər. Şəhərdə ən uca şeyin bina olması onu açmırdı. Ağacları elə bil qutuya salmışdın. Nə qədər uzanıb boy atsalar da, binaların arasından çıxıb səma ilə göz-gözə qala bilməyəcəkdilər.

Yox, iş gəlinin orda olub-olmamağında deyildi. Sadəcə, qardaşı ağız açandan, o, özünü böyük adam bilirdi. Evə girəndə az qala yerişini, duruşunu da yadırğayırdı. Və çox istəyirdi ki, daha qardaşı da onu belə tanısın: iş düzəltdiyinə görə evdə-eşikdə tərifləsinlər, qulluğunda dursunlar, hörmətlə baxsınlar. Hə, bircə bundan ötrü dedi, özünücə düşündü, vəssalam. Qorxdu bu dəfə də boyun qaçırsa,

qardaşı daha onu it yerinə qoymaya. Əvvəlcədən vecsiz bilib, yenə də elə bilə. Həm də qorxdu ki, vecsizliyini, heç nə olduğunu özü də boynuna ala. Amma söz verən təki, doğrudan da, özünü dartdı. Gəlin büllur stəkanlarda çay gətirmişdi, mürəbbə qoymuşdu. Zoğal mürəbbəsi idi, təzəlikcən bişirmişdi. Mer-meyvənin bol vaxtı olduğundan mürəbbə ləzzət eləmirdi, bir yandan da yayın cırcırı, adam onsuz da durduğu yerdə tərləyirdi. Di gəl, o, bir stəkan çay içməyi, mürəbbədən bir qaşıq dadmağı özünə borc bildi. Guya yad yerə gəlmişdi: qulluğunda dururdular, üzünə gülümsəyirdilər, gərək o da xətirlərinə dəyməyəydi. Nə olar lazımlı adam olanda – o, sadə oğlandı. Bəli, hətta sonra ağlından keçdi ki, yəqin ağız açdığına görə qardaşı indi özünü onun yanında naqolay hiss eləyir. Ürək yanğısı ilə fikirləşmişdi: adamın imkanı ola, heç kimdən xahiş eləməyə, lap dopdoğmaca qardaşından da. Zorla, xoşla nəyisə boynuna qoyursan, elə həmin an da aradakı yadlığı duyursan. Bilmirsən daha nə deyəsən, nə danışasan, qorxursan hər sözlə yadlıq bir az da üzə çıxa; elə bil gizlətdiyin şeyin üstü birdəncə açılır, sən ha çalışırsan örtəsən, tələsdiyindən, karıxdığından lap açıb tökürsən. Bundan sonra gəl heç nə olmamış kimi "qardaş" de, qucaqlaş. Hə, o, belə fikirləşmişdi. Ancaq Süleyman bu hissdən çox uzaq idi. Çox uzaq. Süleyman onun kimi hər sözü astarına çevirmirdi, necə desə, nə cür baxsa, xoş olacağını ölçübbiçmirdi. Ölçüb-biçmirdi ki, çay içən təki durub başladı eyvanda rəf düzəltməyə. Onu da qoşdu özünə, on beş dəqiqənin içində yaxşıca tərlətdi. Onun fikrincə isə, Süleyman bu xahişdən sonra hörmət-izzətlə onu yola salmalıydı ki, o, fikrini dəyişməsin.

Eyvanın qapısını açıq qoyub yenə otağa qayıtdı. Ürəyində xoşagəlməz bir hissin ağırlığı vardı. Bu hiss ona tanış idi:

pis, ya ürəyincə olmayan bir iş görəndə bu naməlum yükü hiss eləyirdi. Bəzən narahatlıq öz-özünə də unudulub gedirdi, nədən yarandığını bilmədiyi kimi, necə yoxa çıxdığından da xəbəri olmurdu. Bəzən isə yadına düşürdü, peşmançılığını çəkirdi. Son vaxtlar əhvalı tez-tez beləcə pozulurdu, ona görə daha səbəbini axtarmağa çalışmırdı, çalışırdı tezcə də yadından çıxartsın. Ancaq indiki narahatçılığın Tutugildə olan əhvalatla heç bir əlaqəsi yoxdu, çünki bu ağırlığın səbəbini bilmirdi. Yəqin başqa nəsə eləmişdi, ya nəsə demişdi. Nə?... Rəf düzəldəndə qardaşının kefi yaxşı idi. Qurşağacan soyunub işləyə-işləyə dil-boğaza qoymurdu. Eyvanı necə düzəldəcəyindən danışırdı. İki tərəfdə şkaf, boyaboy da aynəbənd. Çoxlarında görüb: əladı. Balaca bir stol da çıxarıb qoyacaq – oldu əməlli-başlı otaq. Yayın canıdı, axşamlar otur burda, çaydan iç, nərddən vur. Deyir, gün batdımı, bura olacaq səpsərin. Hə, yaxşı fikirləşib. O isə Tutu ilə görüşə tələsdiyindən, söhbətə qoşula bilmirdi, nə də əli işə yatırdı. Getməyə çəkinirdi, istəmirdi Süleyman desin ki, işdən qaçdı. Onun üçün qalmışdı qırıla-qırıla. Axır yenə Süleymanın hövsələsi çatmadı, sən canın, dedi, get evdə otur, sənnən işləyən olmaz. İşə görə danladığı birinci dəfə deyildi, daha öyrəşib. Di gəl, qəribə idi ki, bəzən can yandıranda da fərqi yoxdu, yenə danlaq eşidirdi. Ya özünü başdan yarıtmaz göstərmişdi, ya, doğrudan da, iş bacarmırdı... Zorla mızıldadı ki, gedəsi yerim var. Süleyman ancaq onu heç saxlamağa çalışmadı: "Var, bəs nə durubsan burda, di get işinin dalınca". Sonra Süleyman hara getdiyini də soruşdu. Onda daha yuyunub, daranıb xudahafizləşmək üçün eyvana qayıtmışdı, bir az ayaq saxlamışdı ki, Süleyman deməsin elə bu, getməkdən ötrü ölürmüş; həm də yaxşı yadındadı – Süleymanın can-

başla işləməyinə baxmaq həmin vaxt onun xoşuna gəlirdi. Evdar olmaq, iş bacarmaq da bir istedaddı. Süleyman nədən ötrüsə, bir dəfə də olsun, evə usta çağırmayıb: televizor xarab olur – özü düzəldir, işıq çəkmək lazımdı – çəkir, dülgərlikdi – bacarır. Onda fikirləşdi ki, nə vaxtsa onun da evi olacaq, ailəsi olacaq, uşaq böyüdəcək, hərdən lazım gələcək nələrisə özü eləsin – bütün bu işlər, bu qayğılar onun da qabağında dururdu, bu qayğılardansa hec cür yaxa qurtarmaq mümkün deyildi. Bu fikir ona yaşayacağı ömrün qüssəsini gətirmişdi, bədənində yorğunluq, əzginlik hiss eləmişdi. Sonra Süleyman hara getdiyini soruşanda, o istədi nəsə bacardığını, başqa qayğıları da olduğunu, imkan düşəndə kiməsə yaradığını, yaxşılıq elədiyini qardaşına eşitdirsin. Bilmədi Süleymanı aldadırdı, ya özünü. Dedi, Əzizin qardaşı əsgərlikdədi, gedirəm yanına dəyməyə...

Narahatçılığın səbəbi indi yadına düşdü: Süleyman Əzizin ailəsilə, dolanışığı ilə maraqlandı, o da qalxıb birdən dedi ki, pis deyil, babatdı, amma arvadını yaxşı söyləmirlər. Elə dedi. Hə, elə dedi. Gör, heç yeri idi?! Axı, niyə dedi? Nə düşmüşdü ona ki, dost bildiyi adamın ailəsi haqda mollalıq eləyirdi. Lənət şeytana. Sabah da heç nə olmamış kimi, gedib Əzizin çörəyini kəsəcək, üzünə güləcək, süfrəsinin başında oturacaq; daha Əzizin ağlına gəlməyəcək ki, dostu yeri düşəndə ailəsi haqda gözəl-gözəl sözlər deyir. Deyir, gəlib süfrəsinin başında oturmağa da utanmır. Ancaq utanacaq. Bekaraca. O da Əzizi görənə qədər. Görüb biləndə ki, dediyindən Əzizin xəbəri yoxdu, yenə əvvəlki kimi mehribandı, yenə xətrini istəyir – sakitləşəcək. İnanacaq ki, doğrudan da, yaxşı adamdı, bu hörmətə layiqdi. Lənətə gələsən...

Qənd götürüb ağzına atdı. Sora-sora dırnaqlarına baxdı. Dırnaqlarının ağı iri idi. Balaca vaxtı uşaqlar deyirdi, kimin dırnağının ağı iridirsə, ağıllı adam olacaq. O da gizlicə bununla fəxr eləyirdi. İndi Süleymanın gözündə Əziz heç nədi, aldanmışın, yazığın biridi. Lap tutaq ki, doğrudan da, pis söyləyirlər, axı bunu qardaşına deməyin nə mənası. Süleymanın az-çox hörməti vardı Əzizə, o da getdi işinə. Hələ yeri gələndə eşitdiyini başqasına da deyəcək. Başqası da başqasına deyəcək, bu gün beş nəfər danışırdı, sabah on beş nəfər danışacaq. Gülən – güləcək, lağ eləyən – lağ eləyəcək. Yazıq Əziz, hardan bilsin ki, dostu bir söz eşidəndə başqasının ağzından vurmaqdansa, özü onun-bunun ağzına söz atır: çeynə kefin istəyən qədər. Deyək, inanırdı, deyək ki, eşitdiyi düzdü, arvadı... axı, niyə Əziz onun-bunun dilinə düşməlidi, məsxərəyə qoymalıdılar onu, dalınca şınqroy çalmalıdılar?! "Özü, deyəsən, yaxşı oğlandı". Hə, Süleyman o saat elə dedi, o saat yaxşılığına şübhə elədi Əzizin. Özü də bilir onun dostudu. Dostudursa, demək, yaxşı oğlandı. Daha buna şəkk-şübhə eləmək olmaz. Ancaq elədi. Demək, onu saymadı, ona da hörmət qoymadı. Çünki "dost" sözünə inanmadı. Çünki dost dostunun ailəsi haqda o danışdığı sayaq danışmazdı. Danışırdısa, demək, hər şey üzdəndi. Demək, ikinizə də bir qoz. Elədi. Əlbəttə, elədi. O, Əzizi yox, özünü də alçaltdı. Gülüncdü. Vallah, gülüncdü. Axmaq adam, axmaq adam, axı nə düşmüşdü sənə ki, danışırdın? Nə, hə, nə? Ailəsini soruşurdu, deyərdin, yaxşı dolanırlar, vəssalam. "Arvadını bir az yaxşı söyləmirlər..." Özü də kədərli-kədərli dedi. Guya gör nə yaxşı dostam, bunu özümə dərd eləmişəm, dostuma canım yanır. Hə, ona görə dedi. Qardaşının gözündə özünü qaldırmaq istədi. Həmin dəqiqə də qandı ki, kişilik eləməyib. Çünki başladı

Əzizi tərifləməyə. Ancaq daha qardaşı üçün bu söhbət maraqsızdı, heç qulaq asmadı da. Qulaq asmadı...

Qəndin şirnisi boğazını tutmuşdu. Çaydandan su töküb içdi. Suyun tamı vardı – qaynanmış su həmişə tam verir. Ağzının tamını dəyişmək üçün bir dişdəm qarpız götürdü. Sonra evin ortasında dayanıb nə edəcəyini, hara gedəcəyini fikirləşdi. "Həkimə gedim", – dedi. Boş-boşuna evdən çıxmaq istəmədiyindən yenə "həkimlə" özünü aldatdı.

Hava artıq qızmışdı. Günəş öz istisi, öz işığı ilə onu doyuzdurmuşdu. O qədər doyuzdurmuşdu ki, indi hava da parıldayırdı, sarımtıl parıltı adamın gözünü qamaşdırırdı.

Həyətdə kimsəsizlikdi. Təkcə balaca bir uşaq kranın dəstəyi ilə oynayırdı. Dəstəyi firlatdıqca da suyun gəlib-gəlmədiyinə baxırdı. Suyu isə təkcə axşamlar buraxırdılar. Bunu yəqin ki, uşaq bilirdi. Bilə-bilə də günün altında dayanıb kranın dəstəyini hərləyirdi.

Belə istidə həyətə heç kimin çıxmaması təbii idi. Həm də səhər yenicə açılmışdı, bu saat hamı iş-güc dalınca getmiş olardı. Sözsüz, hamı yox, ancaq evlərdə kiminsə olduğuna bu saat onun inanmağı gəlmirdi. İnana bilmirdi kimsə boş-boşuna evdə qalıb, darıxdığından bilmir nə eləsin, divanda uzanıb gözünü tavanda gəzdirir, ya dırnaqlarını təmizləyir. Çünki belə işsizlik, boş-boşuna evdə qalmaq ona çox dözülməz görünürdü, onların yerində olmağı da arzulamazdı. Di gəl, bayaq özü də beləcə bekar idi, bu dözülməzliyi, zülmüsə bayaq hiss eləməmişdi.

Hansı evdəsə qırıq-qırıq telefon zəng çaldı. O, hətta ayağını yavaşıtdı, guya ona zəng vurmuşdular. Bu narahatçılığı özünə də gülməli gəldi. Üç-dörd zəngdən sonra telefon susdu. Yəqin ki, dəstəyi götürdülər. "Kimsə kimisə axtarır, – deyə düşündü. – Kimsə kimisə axtarır".

Nə bilmək olar, bəlkə də bu zəngdən çox şey asılıymış. Bəlkə də indi kiminsə taleyi həll olundu, ömrü tamam başqa axına düşdü: sevindi, ya dəhşətdən başını itirdi. O isə sakitcə keçib gedir. İki addım kənardakı adamın ondan xəbəri yoxdu. O da həmin adamı tanımır. Dünyadasa adamlar çoxdu, bu saat hərə öz istəyinin dalına düşüb, ona toxunmadan, onun başı üstdən harasa uçub gedirlər, harasa tələsiyirlər. Həmin adamlar üçün o, yox kimidi, onsuz yaşayıblar, yaşayacaqlar da.

Dünyanın özgə vaxt sezmədiyi, ya sezmək istəmədiyi böyüklüyü ona öz xırdalığını hiss elətdirdi. Bu böyük dünyada bu saat kiminsə onu axtarması fikri ona gülünc göründü. Çoxdan, lap çoxdan o, bir dəfə də özünü belə tənha hiss eləmişdi. Onda rayondan bir il olardı gəlmişdi. Şəhərdə dost bildiyi, ərk eləyib qapısını açacağı bir adam yoxdu. Heç kimlə də məktublaşmırdı ki, heç olmasa, məktubsa gözləsin. Bax, onda günlərin bir günü ona elə gəlmişdi ki, unudulub, lazımsız, işlənmiş bir əşya kimi hamının yadından çıxıb, harda olduğu, hara getdiyi, nə istədiyi, necə yaşadığı heç kimi maraqlandırmır. Yaxşı ki, elə həmin vaxt əsgərliyə çağırış vərəqi almışdı. Minlərlə adamın içində yaddan çıxmadığı, unudulmadığı ona qəribə gəlsə də, kağızda öz ad-familiyasını oxumaq xoş idi.

İndi o gündən çox keçmişdi, indi o, Bakıda çox adamı tanıyırdı, aça biləcəyi çox qapılar vardı, ancaq demə tanımaq da o deyilmiş ki, səni axtardıqlarına, səni andıqlarına inanasan. Anan da, axtaran da bəlkə vardı. Di gəl, inanmağı gəlmirdi ki, kimsə durduğu yerdəcə birdən-birə ondan ötrü qəribsəsin, onu, sadəcə, görməkdən ötrü, səsinicə eşitməkdən ötrü burnunun ucu göynəsin, özü də bu istək o qədər güclü olsun ki, bu istəyi nəyləsə aldadıb ovundura

bilməsin. Doğrudanmı, görən, elə adam yoxdu? Dərinə getmədi. Özünü çətinə salmağı, adi şeyləri də qəlizləşdirməyi əvvəllər xoşlayırdı. İndi bunun əksini eləyirdi, belə eləyəndə yaşamaq daha asandı.

Keçən il bu vaxt, görən, harda idi? Keçən il avqustun axırında?.. Hə, yenə burda idi – Bakıda, məzuniyyətdən yenicə qayıtmışdı. Onda heç ağlına da gəlməzdi ki, bir il sonra, düz həmin bu vaxt nişanlı olacaq. Onda evlənmək haqqında heç fikirləşmirdi də. Bircə evdən tələsdirirdilər. Ən çox da Rəhim. Deyirdi, tərpən, elə eləmə qabağına keçim. Bax, deyirdi, əsgərlikdən gələnə qədər vaxt verirəm, evləndin, evləndin, evlənmədin daha məndən küsmə. O da cavabında gülürdü; gülürdü ki, qardaşı belə sözdən incidiyini düşünməsin. Sən mənə baş qoşma, deyirdi, əhd eləmişəm, gərək səni evləndirəm sonra. Zarafatla desə də, o vaxt, doğrudan da, evlənmək söhbəti onu maraqlandırmırdı. Eləsi var evlənmək istəyir, amma axtardığını, arzuladığını tapmır. O isə nə istəyirdi, nə də axtarırdı. Tutunu ilk dəfə görəndə də başqa sevib-sevilənlərdən eşitdiyi kimi, nə ürəyi əsdi, nə dili topuq vurdu. Alagöz, arıq, ağbəniz qızdı. Çiyinləri düz, bir az da enli olduğundan həmişə saçını açıb tökürdü. Yenicə də institut bitirmişdi, vur-tut iyirmi iki yaşı vardı. Özü də şən, gülərüz – bir həftənin içində hamı ilə dil tapdı, hamıya qaynayıb-qarışdı. Hərdən işdən sonra da görüşürdülər. Ad günü olurdu – ad günündə, dəstə ilə kinoya gedirdilər – kinoda. Bir dəfə, iki dəfə, üç dəfə, sonra ikilikdə görüşdülər, ikilikdə kinoya getdilər, ikilikdə şəhəri gəzdilər. Sonra ilk dəfə əlindən tutdu, belinə toxundu, sonra öpüşdülər. Evlənmək yenə fikrində yox idi. Görüşürdülər, gəzirdilər, sadəcə, qızla bir yerdə olmaq ona xoş gəlirdi. Ancaq görüşmək başqa şeydi,

evlənmək tamam başqa. Evlənmək ömrü boyu bir yerdə olmaq deməkdi. Görən, Tutu ömrü boyu onunla bir yerdə olmaq istəyərdimi? Lap Tutu olmasın, lap başqası olsun, görən, kimsə ömrü boyu onunla bir yerdə yaşamaq istəyərdimi? Evlənmək o deməkdi, indi istəyib elədiyini sabah istəməsən də eləyəsən. Niyə, axı, sabah kimsə istəməyə-istəməyə mehribançılıq eləməyə məcbur olsun? Sonra unadı ki, Tutu elə ondan evlənmək təklifini gözləyir. Daha çox gözlətmədi. Razılığını alanda nə qədər sevinmişdisə də, bir o qədər də qorxmuşdu. İndi də qorxurdu. Nə vaxtsa məcburi yaxınlığı, məcburi mehribançılığı hiss edəcəyindən qorxurdu.

Trolleybus o, elə çathaçatda yerindən tərpəndi. O, için-için güldü, guya trolleybus acıqla dayanıb onu gözləməmişdi, o isə hamıya göstərmək istəyirdi ki, bu, heç onun vecinə də deyil. Sonra boylanıb ətrafına göz gəzdirdi, biləndə ki, heç kimin onunla işi yoxdu, hərə öz yolunda, öz iş-gücündədi – sakitləşib teleqraf dirəyinin kölgəsinin işıqla kəsişəcəyinə baxdı. Qəfilcə gün batdı, kölgə öz qatılığını itirib bozardı, bu bozluq bayaq gün düşmüş yerlərə də yayıldı. Sonra gün yenə çıxdı, bozluq o saat itdi, kölgə qatılaşıb yenə işıqla burun-buruna dayandı. Dünən Tutu ilə görüşə gedəndə də hava qəfilcə tutulmuşdu. Üç-dörd gündü belə idi: bürküdən buxarlandığın yerdə bir də görürdün hava bulandı, bekara yağış çilədi, üstündən beş dəqiqə keçirdi yenə gün, yenə bürkü. Üç-dörd gündü belə olduğuna görə, bilirdi ki, yağış yağsa, tezcə də kəsəcək. Ancaq son illər havanın necəliyi onu az maraqlandırırdı. Yağış, qar, ya günəşli hava arzuladığı, bunlara sevindiyi, kədərləndiyi vaxtlar çoxdan keçib-getmişdi. Daha başa düşmüşdü ki, havanın necəliyindən heç nə asılı deyil; yağış, qar, külək

onun həyatında heç nəyi dəyişə bilməz. İndi öz görünüşü də onu az maraqlandırırdı. Əvvəllər sir-sifətinə çox fikir verirdi, güzgüdə gördüyü adam ona çox doğma gəlirdi. Baxırdı, gözünə, saçına, sifətinin quruluşuna – xoşhallanırdı, həm də çalışırdı daha çox xoşa gəlsin, əlini tez-tez saçına çəkirdi, üzünə xoş ifadə verirdi, gülümsəyirdi. Amma indi elə bil güzgüdə yad adamı görürdü. Bu adam nə eləyib? Necə yaşayıb? Nə eləyəcək? – fikirləşirdi, axırını bir yana çıxara bilməsə də, fikirləşirdi. Hamı kimi ona da ad qoyanda özündən soruşmamışdılar. Amma xoşuna gəlirdi. Sağ olsunlar ki, "Mədət" adı qoyublar, daha buna görə xəcalət çəkəsi olmur. Allaha çox şükür ki, sir-sifətdən də babatdı: gözləri qonur, saçı qara, boyu ortaboydan bir az uca, burnu, ağzı, qaşı – hamısı yerli-yerində. Belə doğulub, belə doğulduğuna da peşman deyil. Necə yaşamağı, bu yaşa necə gəlib çıxmağısa az-çox özündən asılı olub. Bir dəfə tərcümeyi-hal yazanda, ömrünün üç-dörd cümləyə sığışdığına çox təəccüblənmişdi: pis-yaxşı institut qurtarıb – Politexnik İnstitutunun axşam şöbəsini. Əsgərliyə qədər yüz yer dəyişib. Sənəti yoxdu, həmişə fəhlə işləyib; tikintidə, zavodda, tara bazasında. Əsgərlikdən sonra zavoda girib, indi də orda işləyir, ancaq texniki şöbədə, mühəndisdi – mühəndis-konstruktor. Bunlara əlavə də eləmək olar: evi yoxdu, kirayədə qalır. Bir otaqdı, ondan savayı mətbəxi, tualeti, hamamı. Zavodda ev növbəsindədi. Hələ ki, bir otaqlıya durub, növbə çatana qədər bəlkə üç, ya dörd otaqlıya durar... Belə-belə işlər. İndisə 1984-cü ilin avqustu evdən çıxıb özü də bilmir hara gedir.

Dayanacağın yanındakı telefon budkasına gözü sataşanda istədi iş yerinə zəng vursun, bir bəhanə tapıb nə üçün işə gələmməyəcəyini desin. Ancaq onda gərək Tutu ilə də

danışaydı. Tutuyasa küçədən zəng vuranda həmişə özündə acizlik hiss eləyirdi. Elə bil boynunu uzada-uzada ona altdan yuxarı baxırdı. Bu hisslə heç cür bacara bilmirdi, acizliyini duyacağı fikri qoymurdu telefonda istədiyi kimi danışsın. Dünən də Tutunun səsini eşidən kimi zəng vurduğuna peşman olmuşdu. Çünki zəng vurmaya da bilərdi, onsuz da şərtləşmişdilər nə vaxt, harda görüşsünlər. Ancaq iyirmi dəqiqənicə gözləməyə səbri çatmadı. O saat da ağlına gəldi ki, bu görüşdən savayı onun başqa işi-gücü, başqa qayğısı olmadığını Tutu fikirləşə bilər. Elə buna görə kefi birdən-birə dəyişmişdi, səsi özünə də yad gəlmişdi. Gözləməyi bacarsaydı, şərtləşdikləri vaxt, şərtləşdikləri yerdə görüşüb, hər görüşdə olduğu kimi bir az bulvarda gəzəcəkdilər, arada xəlvət bir küncə çəkilib bir az da öpüşəcəkdilər; xoş bir hisslə onu da fikirləşməyə macal tapacaqdı ki, bu qolları arasındakı qız dünyada hələ çox az şey bilir və bu qıza bəzi şeyləri ilk dəfə o öyrədəcək. Sonra, uşaq təki öpüşüb qucaqlaşmağa çox uyduğuna görə halsız, əzgin evə qayıdanda özünü bekaraca da danlayacaqdı. Ancaq ürəyi sakit, canı-başı dinc qayıdacaqdı. Yoxsa dünənki kimi... Vur-tut iyirmi dəqiqəni gözləyə bilməməyicə hər şeyi dəyişdi.

Qəribədi, neçə dəfə sınamışdı, Tutunun ki, kefi lap yaxşı olurdu, onu elə bil qıcıqlandırırdılar, istəyirdi acı bir söz desin, sancsın, axır ki, necə olsa, kefinə soğan doğrasın. Sonra axmaq iş tutduğunu boynuna alırdı, Tutuya yazığı gəlirdi, ancaq həmin dəqiqə özü ilə bacarmırdı, hətta özü özünü qızışdırırdı da, necə, nə cür sancmaq üçün həvəclə yollar axtarıb tapırdı. Dünən elə Tutunun səsini telefonda eşidəndə hiss elədi ki, bu səs onu şirnikdirir, qıcıqlandırır. Elə söz var ki, deyildiyi kimi eşitmirsən, nə üçün, hansı

hisslə deyildiyi həmin sözləri eşitməyə qoymur. Tutunun dəstəyi götürən təki dediyi söz də incik adamın sözüydü: “Bəs bayaqdan hardasan?..” Ancaq Tutu zəng eləyib-eləmədiyinə görə ondan inciyə bilməzdi. Çünki onlar görüşməyi şərtləşmişdilər, zəngləşməyi yox. Bu, sadəcə, şıltaqlıq idi. Xoşbəxt adamın şıltaqlığı. Onu qıcıqlandıran da bu xoşbəxtlik oldu. Bunu indi başa düşür, dünən bunu hiss eləmişdi: kimsə rahatca oturub evində, dünyadan bir umu-küsüsü yoxdu, hamı, hər şey yaxşıdı, bircə Mədət adlı oğlanın zəngi lazımıymış ki, hər şey daha yaxşı olsun, özünü daha xoşbəxt hiss eləsin. Özü də bu xoşbəxtliyin arxasında pıqhapıqla qaynayan bir gülüş gizlənmişdi. Elə bil hazırlaşırsan sirkə getməyə; gülməyə, əylənməyə getdiyini bildiyindən də bəri başdan özünü kökləyirsən, ona görə binaya girəndə təbəssüm artıq üzündə olur, təlxəyinsə elə burnunu görən kimi daha gülmək aparır səni. Ancaq o, təlxək deyil, öz gəlişilə həmişə sevinc gətirəmməz. Tutu yaşda olanda o da elə düşünürdü ki, xoşbəxtlik – sevinmək deməkdi, guya xoşbəxt adam həmişə sevinməlidi. Belə olmasa, demək, arzular puça çıxıb, dünyadan şikayətlənmək olar. Şikayətlənmək üçün də, nə qədər istəsən, söz var. De, ürəyin boşalsın, qabağındakının da yazığı gəlsin sənə. Hamı təkcə sözə inanır. Onun özü də hamının içində. Amma elə şey var ki, sözə çevrilmir, bəs onda necə olsun! Adamı ağrıdan da, güldürən də həmin şeylərdi. Söz həmin şeylərin köpüyüdü, gözə görünənidi; hamının fikirləşdiyi kimi nələrinsə, hansı hisslərinsə yekunu deyil, hansı hisslərisə gizlətmək üçün pərdədi. Ona görə söz həmişə ürəyini bulandırır. Çalışır qarşısındakını çətinə salmasın ki, axmaq sözlər də eşitməsin. Nə yaxşı ki, Tutudan indiyə qədər soruşmamışdı: məni sevirsənmi? Ya mən yaxşımı iş gördüm?

Filan adamdan xoşun gəldimi? Belə kəsəsinə sualların ikicə cavabı var idi. Əvvəlcədən də bilirdi ki, eşitdiyi sözün heç biri ürəyincə olmayacaq. “Hə” eşitsə, şübhə eləyəcək, “yox” sözünüsə sonra yüz yerə yozub, zarafata salsa da, içini yeyə-yeyə qalacaq. Dünən ancaq belə bir axmaq cavaba Tutunu məcbur eləmişdi. Tutu “bəs bəyaqdan hardasan?” deyəndə, kinayə ilə soruşmuşdu: “çox darıxıbsan?” Niyə axı darıxmalıydı? Darıxmağa axı heç vaxt qalmırdı da. Hər gün görüşürdülər: iş günləri səkkiz saat işdə; şənbəni, bazarı – şəhərdə. Hələ iki gündən bir işdən sonra gəzməkləri də olurdu. “İstəyirsən deyim darıxmışam? Hə, darıxmışam”. Onun nə eşitmək istədiyini Tutu, doğrudan da, yaxşı bilirmiş. Adamı elə yaxşı tanıyanda aldatmaq olur.

Yox, Tutu onu hələ yaxşı tanımır. Bunu dünən başa düşmüşdü. Qəfilcə baxışları rastlaşanda başa düşmüşdü. Kefinə soğan doğrayandan sonra. Yazıq qız fikirləşirmiş ki, Mədət onun necə səbirsizliklə gözlədiyini biləndə sevinəcək: heç hara çıxmayıb, nişanlısı üçün yaxşı badımcan dolması bişirib, hələ üstəlik bir “Gəncə” konyakı da alıb, “elə bilmə papamındı, öz puluma almışam”, gözü də qalıb telefonda ki, nə ola Mədət indi zəng vura, bilə onu gözləyirəm, qaçıb gələ, ikilikdə oturaq, elə hiss eləyək öz evimizdəyik, öz süfrəmizin başında oturmuşuq, “heyif, heyif, dünən bilsəydim papagil bağa gedəcək, əvvəlcədən sənə deyərdim, heyif...” Ancaq onun – Mədətin qaşqabaqlı gəlməyi bəs deyil, fikirləşmir çörək yeməyib onu gözləmişəm, deyir: “Zəhmət çəkmə, mən toxam”. Nə olsun toxsan, gərək bunu deyəsən?! Otur, bir qismət çörək ye, danış, gül, bişirdiyimi təriflə də, axı bütün qadınların xoşu gəlir onun yeməyini tərifləsinlər. Gərək adamın elə ürəyini qırasan? Bax onda, başını qaldırıb qəfilcə Tutunun baxışları ilə

rastlaşanda, birinci dəfə ağlına gəlmişdi ki, Tutu hələ onu tanımır. İstədiyi, sevdiyi (əgər sevirdisə) Mədət başqadı: bir az öz ürəyində düzüb-qoşduğu, bir az da onun görünməyə çalışdığı Mədətdi. Əsl Mədəti isə hələ tanımır. Və haçansa Tutu yanıldığını hiss eləyəcək. Bəlkə də artıq hiss eləyib, nəsə sezib, çünki həmin an Tutu elə bil yad adama baxırdı, onu ilk dəfə görürdü. Heç bilməzdi Tutunu itirmək onu bu qədər qorxudar. Yox, qorxu Tutunun onu tanıya biləcəyinə görə idi. Bunun elə ilk işartısına hürkmüşdü. Tezcə gülümsəyib, yad adama mehribançılıq eləyirmiş kimi, çəkinə-çəkinə Tutunun qoluna toxunmuşdu, saçını sığallamışdı: "Di yaxşı, bağışla". Və o saat Tutunun da gülümsədiyinə, gözlərindəki yadlığın əriyib itdiyinə sevinmişdi. "Əlini çək, elə bil at sığallayır. Əvvəl adamın ürəyini qırmasan, qılığına girməzsən".

Yox, iş düşündüyü kimi deyil. Tutu əgər bilirsə, o, ürəyini qırmasa, qılığına girməz, demək, yavaş-yavaş tanıyır onu. Gərək valı dəyişdirə, yoxsa sabah "xətrinə dəyəndə" Tutu daha kefini pozmayacaq, fikirləşəcək ki, indi "qılığıma girib" könlümü alacaq. Əvvəl kefini pozmayacaq, sonra da heç o dediyini eşitməyəcək: "əşi, danışıb, danışıb kiriyəcək". Hə, belə fikirləşəcək. Onda da məsələ məlum. Yenə şükür, belə vaxtlar göz-gözə qalmamaq üçün öpüşüb-qucaqlaşmaq qanının arasına girir. Özü də bilir öpüşməkdən Tutunun xoşu gəlir. Balaca olanda inanırdı ki, uşaq öpüşməkdən doğulur. Əgər, doğrudan da, öpüşməkdən doğulsaydı, Allah bilir indi neçə uşaqları varıydı. Hərdən öpüşüb qucaqlaşmağa çox uyanda az qalırdı sərhədi keçsin. Yaxşı ki, Tutu qoymurdu: qurban olum, yox, qurban olum, tələsmə, sonra, sonra... "Bu gün ürəyimdən bilirsən nə keçib? Yuxudan oyananda səni görmək. Gözümü açıb

görəm yanımda yatırsan, uşaq kimi, mışıl-mışıl... Təzədən səni qucaqlayıb yatam. Elə rahat yataram...” Tutu bunları danışanda gözlərini yummuşdu, özü də həmin an uşağa oxşayırdı, xoşbəxt, qayğısız uşağa. Tutuya baxa-baxa onun da içində dumduru bir işıq peyda olmuşdu. Ürəyindən keçmişdi ki, vaxtı beləcə saxlayasan. O, əlini usdufca-usdufca bu uşağın saçında gəzdirə, əlinin hər təmasından bu uşağın çöhrəsində kölgə kimi təbəssüm gəzə, yuxuda gülümsəyirmiş kimi gülümsəyə və onun əli həmişə bu uşaq üçün beləcə həssas ola. “Yatırsan?” Bilirdi ki, yatmır, ancaq belə demişdi; bu adicə söz deyildi, bu onun indiyə qədər Tutuya demədiyi sözdü. Bunu Tutu hiss elədi – bircə kəlmə söz kirpiklərini islatdı. İslanmış kirpiklərini qaldırıb gözdolusu sevinclə üzünə baxdı: “Mən dəliyəm, hə?... Sən mənə fikir vermə, hərdən olur...” Bunlar da adicə söz deyildi... Ancaq həmin an onun boğazında bir hönkürtü qaynadığından Tutunun xəbəri olmadı. Birdən-birə özündən zəhləsi getmişdi – bu dünyada nə axtardığını, nə istədiyini bilmədiyinə görə, hisslərinin içində başını itirdiyinə görə. Çünki elə həmin an hər şey: dediyi söz də, Tutunun göz yaşı da, yaşadığı həyat da onu darıxdırmışdı, hər şey ona boş, mənasız görünmüşdü... Amma ağlasa, əla olardı. Burnunun suyunu axıda-axıda birdəncə başlayaydı ağlamağa. Tutunun heyrətdən gözləri çevrilərdi: nə oldu? nə oldu sənə, Mədət? Bir de görüm nə oldu? Tutu soruşduqca, o hönkürəydi, burnunu çəkə-çəkə, mızıldaya-mızıldaya. Kef olardı, ha! Di gəl, darıxdığını Tutudan gizlədəmmədi. Heç gizlətməyə çalışmadı da. Qəribə idi ki, özgə vaxt Tutu onun kefsizliyinin səbəbini soruşub içinə-piçinə yetməyincə əl çəkməzdi, bu dəfəsə heç nə soruşmadı. Yəqin, onun kimi Tutu da hansı sözlərisə eşitməkdən qorxur. Qorxur ki, çintərib səbəbini soruşmadı. Heç nədən qəfilcə başladı

dayısı ilə bağlı bir əhvalat danışmağa. Özü də onu güldürməkdən ötrü danışdı. İki adamın əylənməsi üçün ən yaxşı üsul üçüncü bir adam haqqında söhbət salmaqdı. Tutu bunu da bilirmiş. Bunda təəccüblü nə var ki! Nahaqca özünü Tutudan ağıllı sayır. Nahaqca. Sonra ancaq peşman oldu, dayısından söhbət saldığına görə. Əvvəlcə danışdıqca uğunub gedirdi. İstəyirdi onu da güldürsün. Dayısı üç il qabaq Amerikada olanda, arvadı ilə gedibmiş çimərliyə. Görürlər hamı bilet alır, bunlar da alıblar. Çatanda bunları qapıdan buraxmayıblar. Deyiblər bura lüt çimənlər üçündü, gərək siz də lüt soyunasınız. Fikirləşiblər, axır dayısı deyib bizi burda kimdi tanıyan – soyunaq. Soyunub keçiblər. "Bəs niyə gülmürsən? Bir təsəvvür elə..." Təsəvvür elədi, ər-arvad lüt anabülbül çimərlikdə necə gəzirlərmiş: başlarında çimərlik papağı, gözlərində gündən qorunmaq üçün eynək, qol-qola, özləri də lüt. Tutu hardan bilsin ki, dayısı qarışıq elə hamısına gülmək üçün ona bir him lazımmış. Qəsdən də lap möhkəm gülürdü ki, Tutu nəyə güldüyünü başa düşsün. Başa düşdü də: "Mən danışdım gül, danışmadım lağ elə". Ancaq yaxşı olardı, orda bir Məmmədhüseyn çıxaydı böyürdən: salam, Əsgər müəllim, salam, Ziynət xanım... Kef olarmış, hamı lüt, bu üç nəfər müsəlman əllərini qabaqlarına tutub söhbət eləyirlər. Adamdan baş açmaq olmur. Otuz-qırx il yaşayır, bilir pis nədi, yaxşı nədi, ancaq aparıb başqa yerə atan kimi necə yaşadığını, kim olduğunu unudur, tezcə düşdüyü yerə uyğunlaşır. Hamı necə, o da elə. Lüt çimirlər – lüt çimir, hələ başqa şeylər eləsələr, onu da eləyər. Demək, adam özündən utanmır, başqalarından utanır. Demək, necə olmağı, necə özünü aparmağı adamın özündən asılı deyil, başqalarından asılıdı. Görən, Tutu da elə bir yerə düşsəydi, lüt çimərdimi? Bəlkə də çimərdi. Bəlkə də elə şeylər olub ki, bundan onun xəbəri yoxdu, sonra da

heç xəbər tutmayacaq. Lənət şeytana, düşünməyə şey tapdı. Gethagetdə Tutu ancaq yaxşı təklif elədi ona. Papasının adından. "Hara tələsirsən, bir dayan, dayan, sən Allah. Otur, bax belə. Bilirsən, papam deyir, Mədət razı olsa, evlənəndən sonra gəlib bizdə qalarsız". Yalan sözdü ki, adam səhv iş gördüyünü əvvəlcədən başa düşmür. Guya başa düşsə, səhv eləməz. Hamı başa düşür. Heç olmasa, hiss eləyir, bilir ki, bax bu sözü nahaq deyir, ya nahaq görür bu işi. Ancaq fikirləşir ki, yəqin, ona elə gəlir, bəlkə qabaqdakı heç hiss eləmədi, ya başa düşmədi. Başa düşsə də, bəlkə heç incimədi. Demək, qabağındakının kütlüyünə görə riskə gedir. Tutu da bilirdi ki, o, inciyə bilər. Fikirləşər ki, ona yazıqları gəlib, evi olmadığına görə. Əlbəttə, onun evi olsaydı, bu sözü eşitməzdi, ona bu təklifi eləməzdilər. Olsaydı. Yox idi – eləyirdilər. Ancaq o, inciyə-inciyə susa bilərdi, rahatlığı üçün razılaşa bilərdi. Tutu buna inanıb təklifi eləmişdi. Hirsləndiyini görən kimi tezcə söhbəti dəyişdi. "Daha niyə hirslənirsən. Mənimçün fərqi yoxdu. Harda istəyirsən qalaq: daxmada, çöldə, təki yanında olum, yanında". İndi ağzı isti yerdədi, sabah belə danışmayacaq. Belə danışmayacaq.

Trolleybusa minib oturmağa yer tapmayanda, dizinin ağrısı yadına düşdü. "Yadıma düşmürmüşsə, demək ağrı keçib", – dedi. Ancaq ağrını hiss eləmək istəyirdi. Hiss eləmək üçün də sol ayağını yerə bərk basdı. Ağrı vardı. Bunu hiss eləmək ona xoş gəldi. Üz-gözünü turşudub ətrafına baxdı, guya kimsə durub ona yer verməliydi. Oturanlarınsa çoxu qocaydı, özü də elə bil rahatca otura bildiklərinə görə qocalıqları ilə fəxr eləyirdilər.

Daha oturmaqdan gözünü çəkib pəncərədən bayıra baxa-baxa hara gedəcəyini, trolleybusdan harda düşəcəyini fikirləşdi. Həkimə getməli idi – evdən bu adla çıxmışdı.

Amma, çətin ki, həkim kağız verə. Bu şübhəsinə tezcə özünü inandırdı: dizində nə şiş vardı, nə qızartı. Demək, həkimə getməyə dəyməzdi, işə də gecikmişdi. Demək, indi heç bir işi-gücü yoxdu, ürəyi hara istəsə gedə bilər. Bəs hara? Dünya hələ də böyükdü, bu böyük dünyada tanıdığı adamlar da çoxdu, di gəl, bu saat heç kim onu özünə çəkmirdi, heç kimi görmək istəmirdi. Evə qayıtmaq fikri də onu açmadı. İndi yenə nəsə gözləyirdi, nəsə olacağına inanırdı; evdəsə, dörd divar arasında bu ümiddən də gərək əlini üzəydi.

Tutu, görən, gəlib onu işdə tapmayanda nə düşünəcək? Üç aydı demək olar ki, hər gün görüşürlər. Bir-birilərini görməyə öyrəşiblər. Öyrəşməksə pis şeydi. Öyrəşəndə elə bilirsən başqa cür yaşamaq olmaz. Bəs axı "başqa cür" nə deməkdi? Əgər nəsə yaxşıdısa, "başqa cür" nəyə lazımdı? Əvvəlkinin, doğrudan da, yaxşı olduğuna inanmaq üçünmü?.. Ancaq Tutu onu söhbətə tutmasaydı, indi heç dayısınnan görüşməmişdi. Di gəl, görüşdü, görüşübsə də, demək, görüşməliymiş. Bir gündə neçə dəfə söhbətini eləmişdilər. Lüt çimdiyinə görə də yaxşıca məsxərəyə qoyub gülmüşdü. Axır özü gəlib çıxmalıydı. Gəlib çıxdı da: bax, bu da mən, bacarırsan, di indi gül. Gülə bilmədi. Çimərlikdə necə lüt gəzdiyini təsəvvür eləyib uzaqdan-uzağa gülmüşdü. Gözünün qabağında olandasa gülə bilmədi. Baxdı eninə, uzununa – mati-mutu qurudu, guya birinci dəfə görürdü. Hündür, şaqqalı, yaraşıqlı kişi – gözünün qabağında durub, təsəvvür eləmək lap asan, amma daha bu əhvalat ona gülməli gəlmirdi. Olur, elə adamlar olur, onlara lağ eləmək mümkün deyil. Nə eləsə yaraşır, deyirsən, bu cür də olmalıdı. Gözəl kişilərə eşq olsun! Elə qapının zəngi çalınanda dalağı sancdı. Sonra

hələ dəhlizdəki marçıltı. Bildi ki, təzə qohumlardandı gələn. Qəribə adətləri var: hər gün görüşəndə öpüşürlər, elə bil yüz ilin həsrətlisidilər. Marçıltılarını eşidəndə qıdığı gəlir. Toydan sonra, yəqin, onunla da belə görüşəcəklər. Kefdə olacaq. Səhər març, axşam març, günorta març. "Salam, salam, nə gözəl qonağımız var. Otur, otur... kefin, əhvalın?" Ona görə ayağa durduğunu o saat qeyd elədi. İcazə verdi otursun. Yoxsa guya dimdik dayanacaqdı. Ancaq doğrudan elə dayanacaqdı. Belə öyrədiblər. Uşaq vaxtından beyninə yeridiblər: böyüyə hörmət elə, gələndə ayağa dur, papağını çıxar (varsa), nə bilim özgə neylə. Böyük bəlkə dəlidi, gicdi, əclafdı – daha burasını fikirləşən olmayıb. İntəhası, "otur" deyən kimi oturdu. Kefdi, vallah. Fikirləşdiyinin özünə dəxli yoxdu, özünü sərbəst apara bilmirdi. Gec-tez Süleymanın xahişini eləməliydi bu adamdan – bax bu, onu qoymurdu özünü sərbəst aparsın. Gözüqıpıq olmuşdu. İstəməyə-istəməyə ağız açacağını, sonra bunun peşmançılığını çəkəcəyini başa düşdüyündən get-gedə fağırlaşırdı, yazıqlaşırdı. Ha çalışırdı özünü düzəltsin – bacarmırdı, elə bil boynundan basırdılar: lap kiçilirdi, yazıqlığını görməsinlər deyə təbəssümlə yaşmanırdı, yerli-yersiz şit-şit gülümsəyirdi. Öz xasiyyətini yaxşı bilirdi, bilirdi içində peyda olmuş yazıq adamla bacarmayacaq, bu adam özünü büruzə verəcək. Ona görə cəhd edirdi vaxtında aradan çıxsın. Cəhdi də o oldu ki, duruxa-duruxa oturub heç özünün də başa düşmədiyi nəsə mızıldadı. Əsgər müəllimsə böyük və ağıllı adam kimi, söhbəti tutsun deyə, qara camaatın səviyyəsinə, zövqünə uyğun şeydən – yeməkdən danışırdı, həvəslə süfrəni tərifləyirdi. Qayınanası onu çox istəyirmiş ki, gəlib süfrənin üstünə çıxıb. Bacıqızını da sağ olsun, bilir dayısı təkcə "Gəncə" konyakı içir. (Beş

dəqiqə sonrasa məlum oldu ki, demə, konyak ona yuxu gətirir, araq içməyi məsləhətdi.) "Hələ dolma! Bəh-bəh, badımcan dolmasına söz olmaz. Vallah, bu dolmadan yeməmək günahdı..." O da Tutunun könlünü almaq üçün, xətrinə dəyəndən sonra dolmanı beləcə tərifləmişdi. Başqası da həmin sözləri deyəndə özündən zəhləsi getdi: ucuz sözdü ki, o saat hamının ağlına gəlir. Tutunun ancaq çiçəyi çırtlayırdı tərif eşitdikcə. Tezcə qaçıb boşqabları təzələdi, yeməyi qızdırdı, salat elədi; qaça-qaça, gözlərini şıltaqlıqla süzdürə-süzdürə. Böyüklərin yanında o, həmişə dəcəl uşağa dönürdü. Böyük də ki, ərk eləməli adam, üzügülər, zarafatcıl, elə durub oturur, deyirsən, tay-tuşdu. Di gəl, tay-tuş olmadığını hiss elətdirirdi. Gözlərinin dərinliyindəki qüssəylə hiss elətdirirdi. Bəlkə bu, heç qüssə də deyildi, buna qayğı, ya ciddilik də demək olardı. Bəzi adamlarda ciddilik qoruyucu maska vəzifəsini görür. Yəni özüm gülürəm, danışıram, zarafat eləyirəm, amma gülməyimə baxıb üz alma, sərhədi gözlə. O isə sərhədi gözləyə bilmədi, bu sərhədi görə-görə gözləyə bilmədi. Üzdəki mehribançılığa uydu, özü özünü aldatdı, bir də ayıldı ki, iş işdən keçib. Adamın sağlığına da içərlər, haqqında xoş söz də deyərlər, daha bu, o demek deyil ki, qabağındakı can-ciyərdi sənlə, nə desən, əlini döşünə qoyacaq. Ancaq o, belə fikirləşdi. Deyirdi, ata-ananı nişanda görəmmədik, inşallah, toyda görərik. Böyüklərin sağlığına içəndə deyirdi, məhrəm adam kimi də gülümsəyirdi. Əvvəlcə də onun sağlığına içmişdi, "yaxşı oğlansan" demişdi. Həvəssiz yediyinə görə arada az qalmışdı hətta ondan incisin. Tutu da dayısına qahmar çıxmışdı: "...bayaq da heç düzəməlli yemədi, e!" Tutunun ondan dayısına gileylənməyi gülməli idi. Guya o, uşaqdı, kiməsə acıq eləyib yeməyindən küsmüşdü, dayısı da bu

saat səbəbini öyrənib onun könlünü alacaqdı. Beləcə mehriban oturmuşdular, əziz-xələf qohumlar hər xırda şeyə də narahat olurdular. Sonra da bu “toy” söhbəti. Bircə kəlmə söz canına xoş bir istilik gətirdi. Elə bil hamının gözü önündə Tutunun bədəninə toxundu, heç kimdən də utanmadı. Çünki hamı bilirdi ki, bu təbiidi, belə də olmalıdı, Tutu onundu. Tutu isə onda yaman gözəldi. Gözləri oyur-oyur yanırdı. Yanlarında üçüncü adam olanda, Tutu ona həmişə bu cür gözəl görünür. Bax, onda, “toy” söhbətindən sonra birdən-birə inandı ki, qarşısındakı adamın hərəkətlərində, ona qarşı mehribançılığında heç bir saxtalıq ola bilməz. Axı niyə də olmalıdı? Əgər onu saymırlarsa, o, pisdisə, nə məcburdu ona qız versinlər?! Bir də ki, qız verən ailə həmişə bir pillə aşağıda durur oğlan evindən. Çünki oğlan sabah istəsə, nişanı qaytarar, qaytarıb onları gözükölgəli eləyər. Ya ayrı ev olanda üzlərinə baxmaz, ayaqlarını kəsər qapıdan. Sözsüz ki, belədi. Demək, o yox, bunlar onun qulluğunda durmalıdırlar. Həm də vəzifə hələ ağıldan xəbər vermir, nə də üstünlük deməkdir. Əlbəttə, dayısı da bunu başa düşür. Ona görə bayaqdan maraqlı bildiyi söhbətlərdən eləyir, istəyir onu əyləndirsin... Belə fikirləşməsəydi, söhbəti açmazdı. Öz fikirləşdiyinə uyub, qarşısındakını bir baş özündən aşağı bilib ürəkləndi. Guya dayısı sevinəcəkdi ki, heç olmasa, bir işə yarayır, xeyirxahlıq eləməyə imkan tapır. Xahişi hətta saymazyana elədi. Lap inanmışdı Əsgər müəllimin sevinəcəyinə. Sevinib-sevinməyəcəyinə sözünü deyəndən sonra şübhə elədi. Çünki qəfilcə baxışdılar. Bu, bircə an çəkdi. Ancaq hiss elədi ki, həmin bircə anda qarşısındakı adam onun içini gördü: xahiş eləyəcəyini, bu xahişi eləyənə qədər nələr keçirdiyini, nələr düşündüyünü də bildi. Bildiyinə görə də

yumşaqca gülümsədi. Onun sözünü deyənə qədər çıxardığı oyunlara və hal-hazırdakı qurama təbəssümünə, saxta qüruruna, özünü dartmağına gülümsədi. Fikirləşəndə ki, qarşısındakı adamın gözünə bu saat çox gülünc görünür – qızardı. Amma dilinin ucundakı sözləri qaytara bilmədi. Çünki qaytarmağın heç bir mənası yoxdu, sözlər deyilmişkən vardı. "Deyirdim, bəlkə direktora tapşıraydınız?!" Bunu deyənə qədər o dünyaya gedib gəldi. Nəsə içində sındı, son həddə qədər dartınmağa davam gətirməyib sındı. O saat da özünü çox yazıq hiss elədi. Dili-dodağı əsdi, gözləri torlandı. Fağır-fağır gülümsədi, döyükdü, elə bil gizlənməyə yer axtarırdı. Ən pisi o idi ki, Tutu böyründəydi, gözlərini sifətindən çəkmirdi. "Yamanca işə saldın məni, qaqaş, yamanca işə saldın. Onun direktorunnan heç aram yoxdu, zayın biridi, istəmirəm ağız açam". Alçaldığını başa düşmək də yaxşı şeydi. Bilirsən, daha bundan da pisi ola bilməz. Ona görə fikirləşdi ki, susmağa, susub-döyükməyə dəyməz, nəsə bir söz demək lazımdı: sərt, kobud bir söz. Heç olmasa, bekara əvəzini çıxar. Elədiyi xahişlə bayaqdan özü öz dilini bağlamışdı. Keçib daha. Qöy özünü dartmasın, qoy bilsin, tapşırıb-tapşırmayacağı onun heç vecinə də deyil. Sözdü, yeri gəlmişdi dedi, heç demək fikri də yoxdu. Bir axmaqlıqdı elədi, vəssalam: elə bilmişəm adamsan, ürəyimin sözünü deyə bilərəm, demək, səhv eləmişəm, yanılmışam. Bağışla, iki gözüm, bağışla. "Zaydı, deməyin. Nə məcbur olub". Amma Əsgər müəllim də Əsgər müəllimdi. O saat gülümsədi. Qohumun ürəyini qırmağa heç qıyarmı?! Hökmünü göstərdi – bəsidi. "Ay səni, incidin, deyəsən, məndən. Yox, bir şey fikirləşərəm, sən narahat olma. Bir dəfə söz deyibsən, heç elə şey olar düzəlməsin?! Elə deyil, Tutu bala?" Hal qalmamışdı Tutu balanın üzünə baxsın. Gərək

baxaydı, gözlərini görəydi. Bəlkə də baxmamağı yaxşıdı. Görmədiyini yüz yerə yozub ürəyi sakitləşdirmək olur...

Düz qabağında oturmuş balaca bir arvad hərdən çəkinə-çəkinə ona baxırdı. Elə bil nəsə demək istəyirdi, ancaq ürək eləyə bilmirdi. Onunsa danışmağa həvəsi yoxdu, ona görə də arvada tərəf baxmamağa çalışdı ki, ürəklənib sözünü deməsin. Fikri arvadın yanında olduğundan elə gərgin dayanmışdı ki, arvad dillənəndə o, hətta diksindi.

Arvad yavaşca:

– Deyən ağrıyırsan, a bala, – dedi, – gəl otur.

O da elə bayaqdan bunu istəyirdi. İstəyirdi ağrıdığını bilsinlər. Və bunu istədiyinə görə, ağrısını gizlədə bilmədiyinə görə də özünə acığı tutdu. Trolleybusdakıların söhbətin nədən getdiyini sezməməsi üçün etinasız-etinasız başını silkələdi.

Arvad ona qulaq asmayıb durdu:

– Otur, otur, görürəm ki, ağrıyırsan.

Onu tər basdı. Başını qaldırıb ətrafına baxa bilmirdi. Yaşlı bir arvadın cavan bir oğlana yer verməsini həmişə görmək olmazdı.

Zor-xoşla arvadın qolundan tutub yerində otuzdurmağa çalışdı:

– Oturun, siz Allah, mən ağrıyıb eləmirəm.

Arvad dediyindən əl çəkmirdi. Axır onun səbri tükəndi. Hirslə arvadı özündən kənar elədi:

– Əl çəkin, – dedi, – işiniz-gücünüz qurtarıb, dedim ki, ağrımıram.

Qapılar açılan kimi daha dayanmayıb trolleybusdan düşdü. Ağrıdığına inansınlar deyə dayanacaqdan uzaqlaşana qədər axsaya-axsaya getdi. Doğrudan da, dizi indi möhkəmcə sancırdı. Ayağını saxladı ki, burdan hansı tərəfə gedəcəyini

götür-qoy eləsin. Qarşı tərəfdəki yaşıl binaya "DƏMİRYOLU KASSASI" yazılmış lövhə vurulmuşdu. Yolu keçib binaya girdi. Xırda gözlükdən sarışın bir qız, saqqız çeynəyə-çeynəyə ona baxırdı.

– Bu gün üçün Düzyurda bilet var?

Qız ağzını açmağa da ərindi, gülümsəyib başını yırğaladı. Qəsdəndi ki, qızdan nə üçün gülümsədiyini soruşsun. Ancaq soruşmadı. Özü də gülümsədi. Düzyurda getmək fikri, qəfilcə ağlına gələn bu fikir kefini açmışdı. Elə bil düşdüyü yerdən əlləşib-vuruşub çıxmağa bir yol tapmadığı vaxt qəfilcə üzünə qapı açılmışdı. Həm də yolun ağına düşən kimi məlum olmuşdu ki, bu yolla yüz dəfə gedib gəlib, o yolun başında kimlərin durduğunu da yaxşı bilir. Qəribə idi ki, bayaq hara getmək istədiyini düşünəndə həmin adamları xatırlamamışdı. Yox, xatırlamışdı. Dünən gecə şəkli vurmağa yer tapmayanda xatırlamışdı. Hələ ondan da qabaq xatırlamışdı ki, şəkli götürüb baxmışdı. Bütün bunları şüursuz eləmişdi, elədiyinin, nə istədiyinin fərqinə varmamışdı. Demək, elə onda rayona getməyi qət eləyibmiş ki, indi gedib-getməməyi düşünüb daşınmadı da, indi heç nə də onu bu fikrindən daşındırammaz.

Hara gedəcəyini bildiyindən daha ürəyi rahatdı. Dizinin ağrısı, toxmaq kimi başının üstündə dayanmış günəş, qatarın vaxtına qalmış altı-yeddi saatı bu dözülməz istidə necə və harda keçirəcəyi daha onun eyninə gəlmirdi. Gəzdiyi, gördüyü yerdən çox, indi ona gedəcəyi yer yaxındı.

Qatarın tərpənməyinə çox qalsa da, evə qayıtmadı. Günorta çörəyini də yeməkxanada yedi. Sonra bir az şəhəri gəzdi, dükanlara dəyib, əliboş getməmək üçün atasına müştük, anasına iki dənə xına aldı.

Qatarın vaxtına qalmış bu altı-yeddi saatda o, bir şeyə də inandı ki, qarşındakının sənə qarşı necə olmağı adamın

özündən, öz əhvalından çox asılıdı. Əgər kefin yaxşıdısa, üzün gülürsə, bu ovqat qarşındakına da keçir, həmin adam da istər-istəməz yaxşı olmağa çalışır. Bəlkə elə birinci yanaşdığı vaqon bələdçisi də buna görə onu biletsiz aparmağa söz-söhbətsiz razı oldu, necə alacağını da heç soruşmadı: "Tələbəni aparmamaq günahdı, – dedi, – özü də qəbul olana oxşayırsan. Düz tapmışam, qadası?"

Yalan deməyin bu yoğun, çalsaçlı kişiyə bir istiliyi-soyuqluğu olmadığından, o, başı ilə təsdiqlədi.

Bələdçi ərklə əlini onun çiyninə vurdu: "Təbrik, təbrik. Keç içəri, səni gərək aparıb öz əlimlə dədənə təhvil verəm".

Kişi doğrudan da sevinirdi. Özü də elə danışırdı ki, güya qatarı düz onların qapısına sürdürəcəkdi.

Vaqonda hava deyilən şey yox idi. Durduğu yerdə adamı tər basırdı. İçəri girən istidən şikayətlənirdi. Eyni şeydən şikayətləndiklərinə görə də çoxu artıq bir-birilə tanış olub söhbətə girişmişdi.

Qatar tərpənəndən sonra vaqon azca sərinlədi. Hiss olunmadan hava da artıq qaralmışdı. Yavaş-yavaş səs-küy azaldı, hər kəs öz yerinə çəkilib yatağını rahatladı. Sakitlik, təkərlərin yeknəsəq səsi, pəncərədən görünən qaranlıq yuxu gətirirdi. Yorğun olanlar, ya darıxanlar tezcə yuxulayıb vaxtı öldürmək üçün işıqdaca yerlərinə uzandılar. Təkcə qadınlar, yuxuları gəlsə də, işığın sönəcəyini gözləyirdi. Onlar hamının gözü qabağında yatağa uzanmağa utanırdılar; bekarçılıqdan, yerlərinə girmiş adamların yatışına baxa-baxa fikirlərində nəyinsə haqq-hesabını çəkirdilər. Mələfənin gizlədə bilmədiyi yalın ayaqların yiyələrinisə, yəqin ki, daha yuxu aparmışdı.

Yerinə uzanmaq onun da ürəyindən keçirdi. Uzanıb qarşıdakı yol haqqında, görəcəyi adamlar haqqında

fikirləşmək istəyirdi. Ancaq bələdçinin ona öz yerini verməsi, üzünə xoş baxması əl-qolunu bağlamışdı – özünü yad yerə düşmüş qonaq kimi narahat hiss eləyirdi və bu hiss onu istədiyi təki oturub durmağa qoymurdu. Bir yandan da kişi mehriban olduğu qədər də danışqan idi. Özü də gözü nə görürdüsə, yadına birinci nə düşürdüsə, o haqda danışırdı. Dayanacaqlarda söylədiyi əhvalat yarımçıq qalsa belə, daha bu söhbətə qayıtmırdı, bu dəfə başqa söhbətə başlayırdı. Girib-çıxdıqca da tez-tez ona sataşırdı: "Söyündüyünnən yata bilmirsən ha, tələbə". Dərhal da üzü gülürdü, başını razılıqla tərpədirdi: yəni başa düşürəm, bilirəm ki, sevinməyə dəyər.

Sonra hələ kişinin yeməyinə də şərik oldu, çayından da içdi, çəkən olmasa da, siqaretindən də götürüb yalandan tüstülətdi. Kişi təklifi ürəklə eləyirdi, ona görə boyun qaçırammırdı, qorxurdu xətrinə dəyər.

Yemək arxasında yavaş-yavaş söhbətləri axına düşdü. Kişi onun hardan, kimlərdən olduğu ilə maraqlandı. Yaxşı ki, heç kimi tanımadı. Sonra hansı sözsə kişini çəkib apardı, başladı öz həyatından, başına gələnlərdən danışmağa. Anasını çox istəyirmiş. Deyirdi ki, adam hamını eyni cür istəyəmməz. Düzdü, çoxuna hörmət eləyirsən, lazım gəlsə, onnan ötrü özünü əziyyətə də salırsan, ancaq bir nəfəri hamıdan çox istəyirsən. Kimsə hamıdan çox arvadını istəyir, kimi uşağını: dədəsi, anası gözünün qabağında dura-dura and içəndə də uşağının canına and içir. "Mən də anamı çox istəyirdim. Özü də istək vergi kimi bir şeydi. Elə bil anadan olanda kiminsə adını alnına yazırlar. Daha həmin adam pis oldu, yaxşı oldu, dəxli yoxdu, üzün onnan çətin dönər..."

Kişinin də anasından üzü dönməmişdi. "Tərsin biriydi, dili də zəhər. Durduğun yerdəcə adamı zəhərləyirdi. Evə

tez gəlirdim – danışırdı, gec gəlirdim – danışırdı, qarğıyırdı, söyürdü. Deyirdi, ölümümü arzulayırsan, istəyirsən əlin-ayağın açılsın. Üzüməcə deyirdi, yana-yana qalırdım. Xəstəydi, zobu varıydı, gözləri az qalırdı hədəqəsindən çıxa. Kürlüyü də elə xəstəlikdən idi; özü xəstəlikdən bezmişdi, elə bilirdi hamı da ondan bezib. Xəstə adamdan kim bezməz? Hələ bir yandan da xəstə kür ola. Nə olsun, bezəndə adam özündən də bezir. Qulluğunda ki dururdum, bir sözünü iki eləmirdim, çor deyəndə, can deyirdim...”

Anasına görə evlənə bilməmişdi. Əvvəl-əvvəl evlənibmiş, anası gəlini yola vermədiyindən boşayır. Sonra da heç evlənmir. “Yoldaşım yaxşı qadındı, abırlı adamdı. Mən anama necəydim, o da elə: cavab qaytarmazdı, hərdən mənə şikayətlənirdi. Mən də bir dedim – bəsdi, iki dedim – bəsdi, axır şələ-küləsini verdim qoltuğuna. Neyləyim, qulağım dolmuşdu, bilirdim nə deyir – düzdü. Gərək dözəydi, qanaydı ki, çıxış yolu yoxdu, anamı evdən çıxarmayacaqdım ha. Durub onnan anamın qeybətini eləməyəcəkdim ha... Çıxıb getdi, bir uşağımız varıydı, oğlan uşağı...”

Qadının dalınca daha getməmişdi. Özünü sındırmaq istəməyib. “O vaxt cavan idim. Cavanlıq da o deməkdi ki, adam bu gününü fikirləşmir, elə bilir hər şey qabaqdadı. Ancaq, demə, bu günsüz sabahın bir qəpiyə də dəyməz. Dəyməz, qadası, dəyməz. Özülsüz ev çox davam gətirməz. İndi bir ildi anam rəhmətə gedib, elə bil göydən asılı qalmışam, əlimi atıb bir yandan tuta bilmirəm. Axır vaxtlar uşaq tez-tez yadıma düşür, di gəl, üz lazımdı gedib görüşəsən. Keçən il o da instituta qəbul olub. Atalığı, deyəsən, yaxşı adamdı. Bir dəfə uzaqdan-uzağa görmüşəm. Üçü də bir yerdə gedirdi. Yaxşıydılar. Adamın xoşbəxt

olduğunu bilmək üçün bir dəfə üzünə baxmaq bəs eləyər...”

Kişi danışa-danışa kövrəlmişdi. Növbəti dayanacağa çatanda əlini onun dizinə vurub gülümsədi: “Belə-belə işlər”. Sonra durub qapını açmağa getdi.

Danışmağa bir sözü olmadığından, kişi qayıdana qədər tezcə yerinə uzanıb özünü yuxuluğa vurdu. Fikrini bir yerə cəmləşdirə bilmirdi. Çalışıb kişinin ilk dəfə gözünə necə göründüyünü yadına salmaq istəyirdi. Necə görünsə də, adamlar göründüyü kimi deyillər. Özü də göründüyü kimi deyil. Başqaları da bunu başa düşmür. Ona görə də adamı alçaldırlar, xətrinə dəyirlər. Onu da alçaldırlar, o da kimisə alçaltmaq istəyir. Çünki heç kim bir-birinə inanmır, inanıb üzündən pərdəni atmaq istəmir, gülünc olacağından qorxur. Kişi də bəlkə birinci və axırıncı dəfə görüşdüklərini bilməsəydi, ona – tanımadığı adama öz dərd-sərini danışmazdı. O da kişini onda özünə bu qədər yaxın, bu qədər doğma hiss eləməzdi.

Qatara minəndən ilk dəfə evdəkiləri düzəməlli yadına saldı, gözünün qabağına gətirdi. Səkkiz saatdan sonra evdə olacaq. Bu qəfil gəlişinə yəqin mat qalacaqlar, sevinəcəklər; necə ki, bir vaxt Süleymanın gəlişinə sevinərdilər. Ancaq Süleymanın gəlişini əvvəlcədən biləndə də sevinərdilər. Bu sevinc hamının idi, onu hamısı gözləyirdi. Süleyman gözlərindən uzağa gedən ilk uşaqdı, hələ onda evdəkilər ayrılığa öyrəşməmişdilər. Bir ürəkləri elə onun yanında qalmışdı. Hər gün evdə Süleymanın söhbəti gedirdi, and içəndə Süleymanın canına and içirdilər. O zaman evdə telefon yox idi, ürəkləri istəyəndə xəbər tuta bilmirdilər. Ona görə də tez-tez məktublaşırdılar. Məktubları anası yazırdı – hamının iştirakı ilə, lap axırdasa hərənin dilindən özü bir söz quraşdırırdı: kimi salam söyləyirdi, kimi nəsə

xahiş eləyirdi, atası isə həmişə təpinirdi ki, yaxşı oxusun, bizi el içində biabır eləməsin... İmkan düşəndə də arada Süleymanın özü qaçıb gəlirdi. Anası özgə vaxt beş qəpiyin üstdə əssə də, Süleymanın gəlib-getməyi üçün pula qızırğalanmırdı. Hər şeyin təzəsi də Süleymana alınırdı, o, yaddan çıxmışdı, ona böyük qardaşının köhnə-köşkülü çatırdı. O isə hətta bir az nimdaş olsa da, Bakıda tikilmiş bu son modalı pal-paltarı geyinməklə fəxr eləyirdi, qardaşı hər gələndə gözünü tezcə çamadana dikirdi, ona bu dəfə nə çatacağını gözləyirdi. Qəribə idi ki, Süleyman da bu köhnə-köşkülü ona verməyilə fəxr eləyirdi, geyindirib baxırdı, başını razılıqla tərpədirdi, təriflәyirdi, guya heç öz əynindən çıxarmamışdı, dükandan təzəcə almışdı. Nədənsə, Süleymanın gəlişi onun yaddaşında qışla bağlı idi. Yanvar ayı, bayırda qar, soyuq, bu soyuqda evin adamı xumarlandıran istisi, pəncərədən görünən qaranlıq, tək-tük yanan, hamının unudub yatdığı küçə fənərləri... Sonra Süleyman gedib-gəlməyin arasını yavaş-yavaş seyrəltdi, başı öz iş-gücünə qarışdı. Sonra evdəkilər də yavaş-yavaş ayrılığa öyrəşdi. Daha onun evdən çıxmağı, instituta girməyi nə evdəkiləri bir o qədər sevindirdi, nə də Süleymana yazılan məktublar ona yazıldı. Ancaq həmişə evə gələndə ürəyindən keçir, onu da Süleymanı gözlədikləri təki gözləyələr, gəlişinə sevinələr. Başa da düşür ki, bu, heç vaxt olmayacaq, Süleyman evin ilki idi, onunla da ata-anası hər şeyi dadıb toxtamışdı.

Yerində ehmalca çevrilib, vaqonun pəncərəsindən qaranlıqda qaçışan işıqlara baxırdı. O, evə çatanda hamı yatmış olacaq. Gərək pəncərəni döyüb kimisə oyatsın. Bu, onun üçün həmişə çətin bir işə dönür. Qorxur oyadıb kimisə sevindirməkdən çox, narahat eləyər. Əgər həyətə adlaya bilsə, evdəkiləri oyatmaz. Səhərin şehli alatoranında

bir azca tək oturar; doğulduğu evin böyründə, görmək istədiyi adamların beş addımlığında. Özü də həmin an bilirsən ki, indicə onlarla görüşəcəksən, bunu bilə-bilə də yerindən tərpənmirsən. Çünki beləcə dayanmaq xoşdu, çünki həmin an heç kimdən narahatçılığın yoxdu... Bəlkə indi evdəkilər də yatmayıb. Ancaq yatmayıb neyləyəsidilər? Nə qədər diz-dizə oturub bir-birinin üzünə baxmaq olar. Görən, özlərinədəmi həyatları cansıxıcı görünür, yoxsa ona belə gəlir?.. Hiss elədi ki, getdiyinə, evdəkilərlə görüşəcəyinə daha sevinə bilmir. Bayaqdan bəri içində olduğu sevinc qəfilcə yoxa çıxmışdı, onun yerini biganəlik, soyuq bir laqeydlik tutmuşdu. Fikirləşdi ki, tamam başqa bir şey haqda düşünsün, xoş bir şey haqda, əgər ona da sevinə bilməsə, demək, sadəcə, kefi yoxdu, yorulub. Onda heç nə haqda fikirləşməz, çalışar hər şeyi unudub yatsın... İndi bağ-bağatın yaxşı vaxtıdı. Getdiyinə görə mer-meyvəni də yığmağa kömək eləyər. Bu il almanın ilidi, yığıb-yığışdıra bilməyəcəklər. Nahaq yerə belə çox alma ağacı əkiblər. Nar ondan xeyirlidi. Yadına düşsə, evdə deyər, qoy yazda almaların dibinə nar şitili basdırsınlar. Nar tutanda almaları kəsərlər. Bircə qırmızı xallı almanı saxlayarlar. Ona alma çatmaz, həm şirin, həm ətirli. Heyif, tez qurdlayır, qışa qalmır. Ancaq, onsuz da, qışa meyvə saxlayammırlar. Qışa onların şirəsi, mürəbbəsi qalır. Bayramdan-bayrama, qonaqlıqdan-qonaqlığa ye, iç, kef elə. Bir vaxt evlərinə qonaq gəlməyinə çox sevinərdi. Ola bilsin təkcə o vaxtlar evdə şənlik olduğuna görə, növbənöv, ləzzətli yeməklər bişirildiyinə görə xoşlayırdı. Hələ də "bayram" deyəndə, gözünün önünə bol işıqlı otaqlar, hay-küy, dəmə qoyulmuş plov, gülən, sevinən adamlar gəlir. Di gəl, böyüdükcə həmin sevinci yadırğayıb. İndi bayramlar ona qüssə gətirir.

Hərdən baş sındırıb bunun səbəbini tapmağa çalışır. Bəlkə də bayramların sevinc gətirdiyinə uşaqlıqdan inandığı üçün kədərlənir: fikirləşir ki, sevinəcək, bax, bu gün sevinməlidi; gözləyir, özünü kökləyir, ancaq uşaqlıqda hiss elədiyi sevinci yenə duya bilmir. Adamın təsəvvüründə yaratdığı, olacaq şeyi həmişə kölgədə qoyur. Ona görə gərək özünü heç nəyə daha qabaqcadan hazırlamasın, getdiyi yeri də təsəvvüründə bəzəyib-düzəməsin. Bugünkü kimi. Bilir, evdə hər şeyi bir il əvvəl necə qoyubsa, eləcə də tapacaq. Hər şeyi öz ölçüsündə, öz səmtində. Doğrudan da, ancaq adamın özü dəyişir, nəsə elə vaxt olur ki, gözündə ölçülərini, duruşunu, görünüşünü itirir. Həmin dövrü o, çoxdan keçirib. Haçansa Bakıdan qayıdıb gələndə Düzyurd ona lap balaca görünmüşdü: küçələr elə bil daralmışdı, hasarlar alçalmışdı, öz evləri də Düzyurd kimi lap kiçilib yerə yapışmışdı. Sonra yavaş-yavaş gözü gördüyünə öyrəşdi, hər şey öz xırdalığı ilə təzədən gözlərində böyüdü. İndi neçə ildi gəlib-gedəndə nəyinsə dəyişdiyini hiss eləmir. Deməк, çoxdandı o özü dəyişmir, çay kimi axa-axa öz yatağını tapıb, bundan sonra dəyişib-dəyişməyəcəyini də Allah bilir. Evlərini görəndə keçirdiyi bir hiss isə onda həmişə dəyişilməz qalıb. Qapını açan kimi birbaşa düşdüyü balaca mətbəx, bu balaca mətbəxdə gördüyü qaz pilətəsi, tunc əlüzyuyan, onun altındakı aroy vedrəsi, gözlərinə hər gün işlənən qab-qacaq, stəkan-nəlbəki yığılmış siyirtməli stol, stolun üstünə salınmış, rəngi çoxdan getmiş, bıçağın kəsik-kəsik etdiyi müşəmbə örtük, yaşıl boyası bəzi yerlərdən qopub tökülmüş divar ona həmişə həyatın, ömrün kinayəsini hiss elətdirir. Elə bil dünyadakı hər şey insanın başını qatmaq üçün, onu darıxmağa qoymamaq üçündü. İnsan bunlarla oynayır, düzür, qurur, təzədən söküb-dağıdır və

qocaldığını, ölümün addım-addım yaxınlaşdığını hiss eləmir. Hiss eləyəndə artıq gec olur və yəqin ki, bu vaxt həmin adam öz həyatına, üstündə əsdiyi bəzi şeylərə, gündəlik qayğılarına başqa cür baxır, nələrsə ona həmin an gülünc gəlir. Ancaq insanın da xoşbəxtliyi ondadı ki, özünü aldada bilir, gördüyünü görməzliyə vura bilir, hiss elədiklərinin arxasına düşüb getmir. Ata-anasının da başı hələ ki, bu oyunlara, bu qayğılara qarışıb. Elədiklərini eləyiblər; ev tikiblər, düzüb-bəzəyiblər, vacib olan şeylərdən alıblar. Bununla qayğılar qurtarmayıb, o, özünü biləndən anası tədbirlər tökür: evi yaxşıca təmir elətdirmək lazımdı, artırmanı uzadıb, genişləndirib aynabənd düzəltdirəcəkdi, qaz pilətəsini də ora çıxartdıracaqdı. Sonra bir əsas iş də dururdu – hamam tikdirmək, mətbəxi hamam eləyib, evin qapısını başqa yerdən açdırmaq. Yəqin anasını dilləndirsə, yenə bu qayğılardan danışacaq, çox-çox əvvəl dedikərini təkrarlayacaq. Amma hər şey olduğu kimi qalır, bir az daha köhnəliblər, bir az daha uçub tökülüblər, ömürsə hiss olunmadan keçib-gedir. Axır vaxtlar atası hərdən qəsdlənir, evi satıb köçsün Bakıya. Hələ ki, Rəhimə görə dözür, fikirləşir, bəlkə o, qayıdıb gəldi. Rəhim ancaq çətin qayıda. Qayıtmasa, görən, atası, doğurdanmı, evi satar?.. İndi onsuz da evi yoxdu, onda heç olmayacaq. Demək, əlvida, Düzyurd. Hara gedəsən, nəyə gedəsən? Gedib doğulduğun, böyüdüyün evdə kimlərinsə yaşadığını görməkdənsə, heç getməmək yaxşıdı. Yadına düşəndə ancaq xatırlamağa gücü çatacaq. Yenə şükür, yaddaş deyilən şey var. İstəyəndə gözünün qabağına gətirə biləcək. Sonralar, bir az kənar gözlə baxanda başa düşmüşdü ki, evləri hamısı üçün bir elə də gen-bol deyilmiş. Vur-tut iki otaqdı, mətbəxin yanındakını da saysan – üç. Lap dib otaqda ata-anası

yatırdı, orta otaq həm yemək otağı idi, həm də onların yataq otağı. Mətbəxin böyründəki otaq o birilərindən xırdadı, qışda o birilərindən də isti olur. Çünki qaz peçi burda yanır. Ona görə qışı qardaş-bacı bu otaqdan çıxmazdılar. Soyuqlar düşdümü, yan otaq həm də hamamı əvəz eləyirdi, anaları nə zülmlə çimdirirdi onları, Allah bilir. Heç hansının çimməkdən xoşu gəlməzdi: otağı nə qədər qızdırırsan qızdır – xeyri yoxdu, bədənlərinə su dəydimi, tir-tir əsirdilər, tez qurtarmaq üçün analarını tələsdirirdilər, yalvarırdılar, arada sabunlu-sabunlu vannadan çıxıb sobanın lap böyrünə qaçırdılar, döyüldükləri də çox zaman elə çimməyin üstündə olurdu. O vaxtdan çox keçib, amma hələ də "çimmək" sözünə rahatca qulaq asa bilmir. Di gəl ata-anası indi də orda çimir. Heç çəkinmirlər də ki, qəfil gələn olsa, həyətdən onları görər. Qabaqlar bunun qorxusundan alt gözlərə mavi rəng çəkmişdilər. İndi rənglənmiş yerlərdən əsər-əlamət qalmayıb: şüşələr cızıq-cızıq olub, rəng qopub tökülüb. Ona görə otaq da indi elə bil çılpaqlaşıb, bir az da genişlənib.

O düşündü ki, doğrudan da, yaddaş yaxşı şeydi. Yaxşıdı ki, qaz peçinin yerində haçanşa odun sobası olduğunu xatırlaya bilir. Odun xırxılamağı xoşladığı da yadındadı. Bu adi şeyləri xatırlamağın nəyə görə belə xoş olduğunusa bilmir. Bilmək də istəmir. Əvvəllər söhbət düşəndə o da kimlərəsə öz uşaqlığından danışardı. Həmin adi şeylərdən ki, onun üçün xoşdu. Sonra başa düşdü ki, odun xırxılamağa həvəsləndiyi, qışda başına papaq qoymadığı, çimməkdən zəhləsi getdiyi heç kim üçün maraqlı deyil. Həm də hiss eləyirdi ki, danışdığı şeylərin başqalarına maraqsız olduğunu anlayanda həmin şeylər öz gözündən də düşür, dilinə gətirdiklərini unudur, nələrəsə qayıtmaq, nələrisə xatırlamaq

get-gedə çətinləşir. Bunu başa düşdü və susdu. Daha öz həyatını heç kimə danışmır, adi şeylərin nəyə görə onda hiss oyatdığını da axtarıb tapmağa çalışmır – xatırlayırca. Və nə yaxşı ki, xatırlaya bilir, nə yaxşı ki, bax, indi hansı may bayramısa gözünün qabağındadı: günəş, yasəmən kolu, rəngbərəng şarlar, təkərləri bəzənmiş velosipedlər, karusel, mikrofonla deyilən şüarlar, yolların qırağındakı şirniyyat stolları, saysız-hesabsız şirəli su satanlar, bir də o... cibində də kağız manatlıq. Heç vaxt bu qədər çox pulu olmamışdı, gəzirdi, dolanırdı, uşaqlar bayramdı deyə şirni alıb yeyirdi, qazlı cu içirdi, onunsa manatı xırdalamağa heyifi gəlirdi. Günorta geri dönəndə evdəkilər həmişəki təki onu qabaqlarına qoyub sorğu-suala tutdular: haraları gəzdi, nə gördü, nə aldı? Eşidəndə ki, pulu xərcləməyib, dedilər, ver saxlayaq, qırıq-qırıq aparıb məktəbdə xərcləyərsən. Pulu verəndən sonra bayramın hələ qurtarmadığı bircə əynindəki təzə paltardan bilinirdi. Paltarı soyundumu, bayram qurtaracaqdı. O isə istəmirdi bayram qurtarsın. Ancaq öyrəşmişdi, evə gələn kimi, deməsələr də, paltarını dəyişirdi. Onda əyninə aşırmalı göy şalvar geyinmişdi, bir də qolsuz ağ köynək... Ağlıq ona qışı xatırlatdı. Qış onun üçün qar deməkdi. Qar, ilk qar, bir-birinin üstünə qonur, amma elə bil bir-birinə toxunmur. Ayağını basanda, deyirsən, təzədən göyə uçacaq, ayaqqabıya da heç yapışmır. Sonra nədənsə burnuna təbaşir qoxusu dəydi. Məktəb, təmiz sinif otağı, qara lövhə, bir küncə toplanmış paltolar. “Papaqları partanın altına qoyun!” Soba, gözlərini acışdıran tüstü, sulu ayaqqabıların döşəməyə saldığı ləkələr, dışarıya qaçmaq sevinci... İndi də yaydı. Yay, isti həyətdə gəzişən toyuqların əzgin, üzüntülü qaqqıltısı. O, içəridə yatıb. Günortadı. Elə bil dünyada heç

kim yoxdu, bu saat heç kim yaşamır. Bürküdə özünə yer tapmayan toyuqlara yazığı gəlir. Sonra bildi ki, günorta hamı yatmırmış. Sonra toyuqlara da yazığı gəlmədi. Onda daha böyümüşdü... Yağışsız, küləksiz yay axşamlarını, ağacların barlı sükutunu o, həmişə xoşlayıb. Gecənin bir vaxtı durub bayıra boylanırsan; ulduzlu, aylı göy üzünə, nəfəsini içinə çəkmiş qaranlığa... nəsə ürəyini titrədir, hiss eləyirsən ki, heç nə donub qalmayıb, hər şey canlıdı, yaşayır... amma sən dərk eləyə bilmədiyin kimi. Adam hər şeyi dərk eləsə, yəqin, həyat mənasını, gözəlliyini də itirər. Bu qız kimdi? Nə qəşəngdi. Gözlərinə baxmağa çəkinir. Kimdi görən? Bu qüssə hardandı? Lənət şeytana, hər şey bir-birinə qarışdı. Lənət şeytana...

Şaraqqıltıya başını qaldırdı. Üstünə mələfə atmışdılar, amma ona elə gəlirdi ki, heç yatmayıb. Qatar bir-iki dəfə də dartınıb yavaş-yavaş tərpəndi. Vağzal binası görünmədiyindən boylansa da, hansı dayanacağı keçdiklərini bilmədi. İki nəfər tez-tez danışa-danışa pəncərənin qabağından ötdü. Sonra kimsə bərkdən fıştırıq çaldı. Bu səslər özündən sonra narahat bir boşluq qoydu. O, elə bil indi başa düşdü ki, doğrudan da, yola çıxıb, işini-gücünü atıb bu tər qoxuyan havasız vaqonda Düzyurda gedir. Yenə bu fikir ona sevinc gətirmədi. Ancaq sevinə bilmədiyinə görə indi ikiüzlülük edən adam kimi özü özündən utandı. Gözünü yumdu ki, heç nə haqda düşünməyib yatsın. Di gəl, yuxusu gələnə oxşamırdı, deyəsən, bayaq elə həqiqətən yatıbmış. Görən, gedib bu dəfədəmi Düzyurdda bacısı ilə rastlaşacaq? Dünyanın işini nə bilmək olar, bəlkə də rastlaşdı. Onda heç bacısı haqqında düşünmürdü də: qoşulub qaçmışdı, barışığa da gəlməmişdilər. Bilmirdilər, kimə qoşulub qaçıb, oğlan kimdi, nəçidi, nə məssəbə qulluq

eləyir? Bekaraca ucundan-qulağından eşitmişdilər ki, rayonda kənd təsərrüfatı texnikumunda oxuyurmuş, özü də Gədəbəyin hansı kəndindəndisə. Vəssalam, bildikləri bu idi. İki-üç il tez-tez söhbət düşürdü, deyirdilər, bəlkə bir xəbər çıxdı. Gözlədilər, gözlədilər, sonra da unutdular. Elə bil heç Gülzar adında bacıları olmayıb. Ancaq keçən dəfə məzuniyyətə gedəndə, gördü bacısı iki uşaq da qoltuğunda oturub evdə. "Küsüb gəlib, möhkəm küsüb, dava-dalaşnan ayrılıblar, özü də qayıtmaq fikri yoxdu". Anası bu "şad" xəbəri çatdıranda, o, heç əynini-başını da dəyişməmişdi, yenicə bismillah eliyib yanını stula qoymuşdu. "Gəldiyi bir həftədi, heç özündə-sözündə döyül. Sizdən danışanda ağlayır, utanır üzünüzə çıxmağa. Sən də olub-keçəni yadına salma, qoy dərdi təzələnməsin, onsuz da ürəyi sınıqdı". Sonra da anası işə getmək üçün duranda, qalxıb evdən bir ovuc konfet gətirdi: "Oyananda uşaqların əlinə verərsən". Onda bacısı ilə necə görüşəcəyi gözünə durmuşdu. Oturub bacısını neçə ildi görmədiyini hesablayırdı. Demə, yeddi ildi görmürmüş. Yeddi il. Sonra hesabladı ki, yeddi il qabaq bacısının iyirmi yeddi yaşı olub. Qoşulub qaçmamışdan əvvəl bacısı cavanca qıza oxşayırdı. Ancaq bu cavanca qız onda bir ildi ki, dul qalmışdı. Əri kök, zarafatcıl oğlandı, evdə hamıya qaynayıb-qarışmışdı, hamı ilə dostlaşmışdı. O da düzyurdluydu, Düzyurdsa öz evlərinin içi kimiydi, istəməyəndə də görüşürdülər. Tez-tez Bakıya da gəlirdi. Yığıb-yığışdırıb bir köhnə "Pobeda" almışdı, gəlib Bakıda onları tapırdı, heç vaxt da yataqxanada, ya evdə çörək yeməyə oturmurdu. Gedib bir yanda başlarını açırdılar. Sabah da yenə hardasa otururdular, birisi gün də, daha birisi gün də, sonra bir də xəbər tuturdular ki, Mahmud Düzyurddadı – gəldiyi kimi

də qəfilcə, xudahafizləşmədən çıxıb gedirdi. Bakıya nə üçün gəldiyini soruşmağa macal da tapmırdılar. Axırıncı dəfə Mahmudu elə Bakıda görmüşdü. Nədənsə, son illərdi hər şey yaxşı yadında qalır. Ola bilsin, bu yaşdan asılıdı, yaşın elə dövrüdü ki, daha adi şeylər də yaddan çıxmır. Uzaqlıq duyumu get-gedə itir, hətta çox-çox əvvəli xatırlayanda ona elə gəlir bunlar vur-tut dünən olub. Mahmuddan da elə bil dünən ayrılıb. Onda fevralın əvvəli idi, quru, şaxtalı havaydı. Restoranda yeyib-içəndən sonra aparıb onu "Göy göl" mehmanxanasına ötürürdü. Nədənsə, onda yol boyu ikisi də susmuşdu, ikisi də fikirliydi. Mahmudun nə haqda düşündüyünü o bilmirdi, ancaq özü Mahmud haqda, bacısı haqda fikirləşirdi. Və qəribə idi ki, bu, ona qüssə gətirirdi. Bəlkə də bu qüssə həmin fikirlərdən deyildi; ola bilsin, qüssə gətirən kimsəsiz küçələr idi, çılçılpaq qış gecəsi idi? Ola bilsin. Ancaq Mahmudun ondan ayrılanda dediyi sözlərdə nədənsə kədər varıydı. Gecənin qaranlığına baxa-baxa gülümsəyib demişdi ki, harasa getmək istəyir, harasa uzağa, tanımadığı bir yerə. Getdi də. Ağsu yolunda maşını aşırmışdı... Mahmudla bağlı bir lövhəni də o, yaxşı xatırlayır. Həmin lövhə indi də gözünün qabağında idi, elə bil kino lenti kimi donub qalmışdı. Ancaq qəribəydi ki, həqiqətdə belə bir şey görməmişdi; alaqaranlıq otağı, divarın bir küncündə yerə domuşub üzü qaranlıqda zorla seçilən bacısını görməmişdi, anasının səsi ilə danışan qadının dediklərini eşitməmişdi. Kino lenti kimi gözünün qabağında donub-qalmış lövhədə anası yox idi, anasının təkcə səsi vardı. Bu səs duman kimiydi, bacısını bürüyürdü, bacısı get-gedə kiçilirdi, balacalaşırdı, büzüşüb yumağa dönürdü. Anası deyirdi ki, uşağı saldır. Deyirdi, yetimmi saxlayacaqsan, sonra kim baxar üzünə, kimin

nəyinə lazımdı başqasının uşağını böyüdə. "Sən cavanlığına salıb dəlilik eləmə, bala, başına döyə-döyə qalarsan..." Bunu yuxuda görmüşdü, yoxsa kimnənsə eşitmişdi – bilmirdi. Ancaq elə şey var ki, ona həqiqətdə olduğundan daha çox inanırsan. Həmin uşaq qalsaydı, görən indi neçə yaşı olardı? Səkkiz yaşı olardı. Səkkiz yaş. Nə az, nə çox. O vaxt yəqin heç kimin ağlına gəlməyib ki, bu ana bətnindəki körpənin haçansa səkkiz yaşı olacaq, haçansa məktəbə gedəcək, böyüyəcək, məktəbdə bulka almaq üçün utana-utana, çəkinə-çəkinə on qəpik pul istəyəcək. Hamı kimi. Onların hamısı kimi. Ancaq belə çıxır ki, onlar da doğulmaya bilərmiş. Onda nə dəyişərdi? Yəqin heç nə. Necə ki, doğulmayanların yeri hiss olunmur, eləcə də onların yeri hiss olunmazdı. Yoxun kölgəsi olmur. Heç kimin də ağlına gəlməzdi ki, dünyada Mədət adlı bir adam olacaqmış, Tutu adlı bir qızla nişanlanacaqmış. Mədət özgə nə eləyib? Heç nə: böyüyüb, məktəbə gedib, institut bitirib... Qəribədi, bəs Mədət olmasaydı, Tutu kimlə nişanlanacaqdı? Başqa bir Mədətlə, ya Həsənlə, Hüseynlə. Onunla qucaqlaşacaqdı, öpüşəcəkdi, ona "sevirəm" deyəcəkdi, ondan uşaqlar doğacaqdı. Təbii şeydi. Əgər hər şey başqa cür də ola bilərmişsə, demək, heç nə ilə öyünmək lazım deyil, nə də ki, heç nəyə təəccüblənmək. Belə-belə işlər... Bacısı ancaq sir-sifətdən heç dəyişməmişdi. Yeddi il əvvəl gördüyü kimi idi: həvəsli, coşqun. Danışığı da, yerişi-duruşu da. Gözləri də əvvəlki təki qaynayırdı, dəymiş gilənar kimi yumru, iri qara gözləri. Onu görəndə ağlamsındı. "Qurban olum, ay qardaş, qurban olum". Heç aman vermədi o da ağzını açıb bir kəlmə söz desin. Qucaqlayıb bərk-bərk öpdü: "Gör nətəri böyüyübsən, gör nətəri böyüyübsən". Onda yadına düşdü ki, bacısından yaşca kiçikdi. Kiçik olmağı ilk dəfə

xoşuna gəldi: qoy özünü necə aparmağı, nə danışıb-danışmamağı böyük fikirləşib tapsın. Sonra uşaqları gördü. İki balaca oğlan uşağı yuxulu-yuxulu, key-key artırmadan onlara baxırdı. Bildi ki, bacısı uşaqları bunlardı. Eləydisə, o, bu uşaqların dayısı düşürdü. Dayı da gərək öz bacısı uşaqlarını qucaqlayıb öpəydi. Ona görə də qucaqlayıb öpdü. "Ədə, siz də öpsəniz! Dayınızdı da, Mədət dayınızdı". Yazıq uşaq dayımı görmüşdü, – sıpıxıb qalmışdılar, analarının sözündən sonra ona lap çəkinə-çəkinə baxırdılar. Amma tez isinişdilər. Deyəsən, ad yadlarına nəsə salmışdı. Əl-üzlərini yuya-yuya altdan-altdan ona baxıb xısınlaşırdılar. Daha çəkinməkdən çox, doğma adam marağı ilə baxırdılar. Onunsa əvvəl-əvvəl uşaqlara qanı qaynamadı. Heç kimə oxşada bilmədiyindən, uşaqlar ona lap yad gəlirdi. Hətta bu uşaqların bacısının olduğuna, bacısının bu uşaqları istədiyinə belə özünü inandıra bilmirdi. Elə bil kimsəsiz qalıblarmış, bacısının da yazığı gəlib, götürüb özünnən. Belə fikirləşməyi uşaqları ona doğmalaşdırdı. Çünki uşaqlar, doğrudan da, ona kimsəsiz göründü. Beş dəqiqəni özgə vaxt adam az bilir. Di gəl, beş dəqiqədə bacısı çörək doğrayıb, stəkanlara çay süzüb, uşaqlara yaxma hazırlaya-hazırlaya yüz şeydən danışdı. Onun, Süleymanın iş-gücünü soruşdu, heç vaxt görmədiyi, bəlkə də heç ömrü boyu görməyəcəyi Bakıda havaların necə keçdiyilə, Rəhimin əsgərlikdən nə yazdığıyla, Süleymanın mebel alıb-almadığı ilə, onun ev növbəsində neçənci adam olduğu ilə maraqlandı. O isə iynə üstündə oturmuş kimi idi; hər dəqiqə gözləyirdi ki, bacısı indi onlardan gileylənəcək, deyəcək, bəs məni niyə arayıb-axtarmırsınız? Rəhim bəs mənə niyə məktub yazmır? Nişan qoyanda bəs məni niyə çağırmadın? Bəs bacınız deyiləmmi, sizdən savayı kimim var mənim?!

Desəydi, nə cavab verəcəyini bilmirdi. Ancaq yaxşı ki, onlardan gileylənmədi – gileyi öz həyatından, qoşulub qaçdığı altı-yeddi ildə ər evində gördüyündən, eşitdiyindən oldu. Bacısının danışdığı onun üçün təzə deyildi, gözlənilməz də deyildi. Həm ona görə ki, bacısını gəlib ata evində görmüşdü, bu gəlişin necə gəliş olduğunu da bilirdi: hər şey yanında iki uşaq evə qayıtmaqla qurtarmışdısa, demək, bacısı xoş gündən qaçıb gəlməmişdi. Həm də xəbəri olmasa da, lap əvvəllər belə inanırdı ki, ər evində bacısı üçün pis keçir, pis keçməlidi. Çünki inana bilmirdi ki, adam ömrünün yarısını yaşadığı yerdən, dostlarından, əzizlərindən birdəfəlik üzülüşüb gedə, hər şeyi sıfırdan başlaya və qazandığı ona öz keçmişini ağrısız-əzabsız, tamam-kamal unutdura. Ancaq bacısından eşitdikləri onun üçün gözlənilməz olmasa da, durduğu yerdəcə gözləri doldu. Özünə də təəccüblü gəldi ki, bacısının dediyi sözlər, elə bil çoxdan eşitdiyi, hamının ömründən, bəxtindən gileylənəndə dediyi dadsız-tamsız sözlər onu kövrəldib. Kövrəldiyini gizlətməyə çalışdıqca dili-dodağı lap əsirdi, qəhər boğazını tuturdu. Di gəl, bu hiss, bacısından ötrü belə kövrəlməyi onu sevindirdi də. Sevindi ki, qarşısında duran bu adam ona yad deyildi, həmin adamın danışdıqları hətta onu ağlada da bilər. Nə qədər istəsə də təsəlli versin, nəsə bir xoş söz desin – bacarmadı. Onsuz da anası tapşırmışdı, içinə-piçinə yetib yarasını təzələməsin. Bir də ki, ürək-dirək verməyin yersiz olduğunu yaxşı başa düşürdü. Əgər əlindən bir iş gəlmirsə, qabağındakına köməyin dəyməyəcəksə, boş yerə danışmağın nə mənası. Adam dediyi sözlə o saat öz gücsüzlüyünü də duyur. Həm də ki bacısı gəlmişdisə, pis gündən qurtarıb gəlmişdisə, buna ancaq sevinmək lazımdır. İntəhası, nə gəldiyinə sevinə bilmişdi, nə də qayıdıb getdiyinə. Çünki

bacısı üçün ər evində xoş keçmədiyi kimi, öz evlərində də xoş keçməyəcəyinə inanırdı.Yəqin bacısı da bunu başa düşürdü – elə gələn təki narahatçılıq olmuşdu, "ev məsələsi" ortaya çıxmışdı. Sonra da iş böyüyüb o yerə gəlmişdi ki, anası öz dopdoğmaca qardaşını məhkəməyə vermək istəyirdi. Ancaq təqsir elə anasının özündəydi. Gərək dayısı iki il qabaq gəlib, bağın başından yer istəyəndə, heç beş yüz manata uyub, yer verməyəydi. Dayısı demişdi, oğlu üçün iş otağı tikəcək: beş-altı il qalar, sonra ev də sizin, yer də. Di gəl, iş elə gətirdi ki, dayısı oğlu həmin bu balaca, ikiotaqlı evdə bircə gün də otura bilmədi. Çünki ev tikilib qurtarhaqurtarda dayısı oğlunun arvadı, başqa yerdə məşuqə saxladığı üçün ərini məhkəməyə verdi. Məhkəmədən də tələb elədi ki, ərinin iki evi var, birini versinlər ona. İş belə dolaşanda, dayısı gəlib anasına tapşırmışdı ki, məhkəmədən, soruşan olsa, deyin, ev bizimdi. Bunun üçün də nə sənəd lazımdı düzəldiblər, hər şey qayda-qanunla yönünə salınıb. İş bağlanana qədər də ər-arvad təzədən barışmışdılar. İntəhası, dayısı oğlu söz-söhbətdən qorxduğunamı görə, yoxsa nədənsə, daha evə yaxın durmamışdı. "Mən də gördüm bacın küsüb gəlib, daha qayıtmayacaq, dedim, boş evdi, gedib oturar. Elə bunu dediyimi gördüm, gecəynən o kaftar bibini də, gəlinini də gətirib saldı evə. Görür evdə əlli-ayaqlı kişi yox, elə bilir gücüm çatmayacaq çıxarmağa. Anası ölmüşdü, indi mən məhkəməynən çıxarım, o da baxsın". Demə, anası səs-küy salanda, dayısı verdiyi beş yüz manatı, bir də daşın, ağacın pulunu istəyib ki, qaytar – çıxım. Arvadı bu, lap yandırmışdı. Görürsən, deyirdi, dayını, pulnan ağız yummaq istəyir. Neynək, hamı dövlətli olmaz ki. Yoxumdu, olsa da heç vermərəm. Gətirib köçünü salmayaydı, adam təki danışaydı,

mən də insafla iş tutaydım. İndi pul əvəzinə dirsəyimi görər. Hökumət ölməyib ha, sənədlərin hamısını saxlamışam. Hələ özünə pis olacaq, qoy bir qurdalasınlar: altında maşını, ikimərtəbəli evi, hər kənddə bir arvad saxlayır, özü də zərgər. Deməzlərmi, a bala, qudurubsan? Deyərlər, deyərlər, burnundan tökərlər... Anasının hirsi-sikkəsi ona çatmırdı. Çünki anasını haqlı saymırdı. Ancaq fikirləşdiyini anasına deməyin xeyri yoxdu. Arada özü pis olacaqdı. Onsuz da məhkəmədən, milisdən danışanda onun qanı qaraldığını sezdi. Sən nahaq gəlirdin, dedi, gərək Süleyman gələydi, sənnən iş bacaran olmaz. Demə, anası elə bilirmiş ki, o, Bakıdan məxsusi durub bu iş üçün gəlib. Bundan ötrü iki gün qabaq Süleymana zəng də vurubmuş. "Mən arvad xeylağıyam, bir söz deyəndə, birini deyəmmirəm, başımı aldadıb yola salarlar. Belə işdə kişi yaxşıdı, dədəndə də, görürsən, o hal yoxdu məhkəmə qapısı döyə". Guya onda vardı. Ora qaç, bura qaç, qapıları yağır elə, yüz sifət gör, yüz söz eşit, özü də bilmirsən kim haqlıdı, kim haqsız. Onun qanı qaraldığını sezəndə anası elə bil birdəncə köməksizləşdi, qocaldı. Başladı dünyadan, həyatından, insanların vəfasızlığından gileylənməyə. Dayılar görmüşük, dedi, gəlib-gedəndə bacısı uşağının cibinə pul qoyar, qonaq çağırar, bizimkiləri ancaq Allah qarğayıb, hamısı öz altına çəkir, daha demir, quru yerdə qalan var. İndi budu bax, bir balaca daxmanın üstündə olan xətri-hörməti də, qohumluğu da vurdu yerə... Qəribə idi ki, anasının danışdığı ilə sir-sifətinin ifadəsində uyarlıq yoxdu. Danışığından deyərdin, bu saat ağlayacaq, di gəl, sir-sifətinə baxanda görürdün çox sakitdi, elə bil adicə söhbət eləyir. Daha anası öyrəşib yəqin dünyanın işlərinə. Hər şeyin ötəri, keçəri olduğuna inanıb, ona görə danışdığını hiss eləmir, ürəyinə salmır.

Ancaq nə yaxşı ki, iş böyüyüb məhkəməyə çıxmadı. Çox şükür. Hərə bir şınqroy çalacaqdı dallarınca: filankəs qardaşını məhkəməyə verdi, filankəs qardaşını tutdurdu, nə bilim neylədi. Belə söz-söhbət adamın qırx dönəninə bəs eləyər. Düzdür, anası dediyi kimi, dayıları ilə araları sərindi, qohumluq təkcə toydan-toya, vaydan-vaya yada düşürdü. Ancaq nə fərqi – qardaşıydı. Əvvəl-əvvəl o da əli heç yana çatmayanda, biləndə ki, istəsə də, istəməsə də, qabağa özü düşməli olacaq – bu soyuqluqla özünə təsəlli vermişdi, özünü ən pis sonluğa hazırlamışdı ki, başqa cür alınsa, ona lap ağır gəlməsin. Pis sonluq da o idi ki, anası demiş, dayıoğlunun zibilləri açılacaqdı, ona görə də tutulacaqdı, dayısı ilə də ömürlük düşmən olacaqdılar. Fikirləşirdi ki, cəhənnəmə, bundan ona nə. Uzağı-uzağı, tezcə çıxıb gedər, siz sağ, mən salamat, dayısıgillə əvvəldən yaxınlığı yoxdu, indi də heç olmaz, vəssəlam. Ancaq bir yana qalanda o, anası təki gediş-gəlişlərinin olmadığını soyuqluğa yozmurdu. Çünki onsuz da ata-anası ünsiyyət saxlamağı xoşlamırdı. Dayısı oğlunusa heç düzəməlli tanımırdı, hərdənbir rastlaşanda hal-əhval tuturdular. Bu da ona təbii görünürdü, çünki dayısı oğlu ilə tay-tuş deyildilər – dayısı oğlu altı-yeddi bayram ondan böyükdü. Həm də özünü biləndən, dayısı oğlu haqqında elə şeylər eşitmişdi ki, tək yaş fərqinə görə yox, keçirdiyi həyata, gəzib-dolandığı yerlərə görə də dayısı oğlu ona əlçatmaz görünmüşdü: altında maşını, bir ayağı Tiflisdə, Sevanda, Yerevanda, axşamlar restoran, kef məclisləri, macəralar, bir də heç kimin adını bilmədiyi, üzünü görmədiyi, şəhərin başqa qızlarına oxşamayan qızlar... Həmin qızları şəhərin başqa qızlarına yəqin bircə o idi oxşada bilməyən. Ancaq, nə fərqi, indi də oxşada bilmir. Çünki Düzyurdun qızlarına

hələ də on altı il əvvəlki Mədətin gözləri ilə baxır, özgə cür baxmağı bacarmır. On altı il əvvəl o, bu qızları uzaqdan-uzağa sevmişdi. Onda bilmirdi qadın nə deməkdi, bilmirdi sonra nələr olur – ancaq sevirdi. Hər dəqiqə, hər gün fikrində gəzdirirdi, oğrun-oğrun göz yetirirdi, di gəl, rastlaşanda dili-dodağı təpiyirdi, əsim-əsim əsirdi. Üç qız sevmişdi orta məktəbdə. Əvvəl ikinci sinifdə, sonra altıncı, sonra səkkizinci. Heç hansına da ürəyini açmamışdı. Bu, heç ağlına da gəlməmişdi. Sevirdicə, istədiyi də o idi ki, qız ona baxsın, gülümsəsin, ya da bir söz desin: "Mədət, dünən niyə dərsə gəlməmişdin?" Bax, belə bir söz. Onda dünyanı Mədətə verirdilər, Mədət işıq saçırdı, Mədət xoşbəxtlərin xoşbəxti olurdu. Çoxdandı daha o hissləri keçirmir. İndi bilir qadın nə deməkdi, bilir nə istədiyini, di gəl, o hissləri keçirmir. Elə nə vaxtsa keçirdiyi hisslərə görə Düzyurdun qızlarına başqa gözlə baxammır. Kimsə hansı qızdansa bəzi-bəzi şeylər danışanda, öz axmağlığına ürəyində gülsə də, inanmağı gəlmir, istəyir haqqında danışılan qızı gedib özü görsün, gözünün içinə baxsın: necə ola bilər, axı? Hələ də əl-ayağına dolaşan on altı il əvvəlki axmaq Mədətin axmaq heyrətinə son qoymağın, yəqin ki, bircə yolu vardı – Düzyurdun "elə qızlarından" biri ilə günah işlətmək. Hə, onda, doğrudan da, son qoyular. Çox şeyə son qoyular. Dayıoğlunun sirli-sehirli həyatı da öz əlçatmazlığından enər. Başa düşər ki, hər yerdə necə olursa – insanından tutmuş, bu insanların sevgisinə, xəyanətinə, çəkdikləri kefə kimi – Düzyurdda da elə olur. Yəni adi olur. Fikrində yaratdığından çox-çox adi olur. Gör bunu neçə dəfə öz-özünə təkrar eləyir. Ancaq yenə yeri gələndə özü ilə bacarmır, hisslərinin əlində aciz qalır: bir vaxt dayısı oğlu ona əlçatmaz görünüb, buna görə də inanmağı gəlməyib

ki, belə əlçatmaz adam onunla yoldaşlıq eləyər, ya kefi istəyəndə qapılarını açar. Sonra da bu inamını təbii sanıb: deməli, doğrudan da, belə böyük şəxsiyyət onlara gəlməməliymiş, bunu soyuqluğa yozmaq lazım deyil. Gülməlidi. Hələ dayıoğlunu yaxşı adam da bilir. Bəlkə də yaxşı adamdı, di gəl, o, dayıoğlunu bir dəfə ona restoranda qonaqlıq verdiyi üçün yaxşı adam bilir. Anası məhkəmədən danışanda, çoxu elə buna görə kefi pozulmuşdu: axı belə yaxşı adamı niyə tutdursun?! Ancaq heç bu qonaqlıq da olmayacaqdı, özü gedib restorana çıxmasaydı. Sinif yoldaşı ilə nəsə almağa girmişdi. Görüb əl çəkmədi. Onlar üçün ayrıca süfrə açdırdı, yemək-içmək gətizdirdi. Özü cavan kişilərlə oturmuşdu, hərdən ona baxıb gülümsəyirdi. Yəni bilirəm, kefin yaxşıdı, mənim kimi oğlan qonaqlıq verəndə pis ola bilməz! Onun da sevindiyindən ağzı qulağının dibinə getmişdi. Bəs nə, ona qonaqlıq verirdilər, özü də şəhərin sayılan oğlanı. Qoy sinif yoldaşı da heç çəkinməsin. Əşi, dayısı oğludu da, qıraq adam deyil ha. Borcudu, eləyir. Adi işdi... Gəl, indi belə dayıoğlu haqqında pis fikrə düş. Nəsə, yaxşılığı da, pisliyi də qalsın özünə. Şükür, yenə məhkəməlik olmadı. Məhkəməlik olsaydı, onların hamısından çox nənəsini ağrıdacaqdı. Yazıq arvad, bilmirdi kimdən kömək istəsin, kimə ağız açsın, necə eləsin ki, bu dava-şava kəsilsin. Qızıqarışıq hamıdan əlini üzdüyündən, durub ondan nəsə umurdu. "A bala, deyirdi, bir anana ağıl versən. Adam da öz qardaşı oğlunu tutdurarmı, qardaşının evinə vay salarmı?!" Çoxdandı gözü görmür deyən, lap səbirsiz olub. Hər sözdən darılır, inciyir, bəzən səbəbsiz yerə də inciyir. Ürək-dirək verəndə də, deyir ki, kimdi məni sayan, adam yerinə qoyan, hamını boğaza yığmışam, "ay canı sağ olmuş, əlacları olsa, üzümə də bax-

mazlar”. Bu, anasının payınadı, çünki evləri bitişik olduğundan, gəlib-getdiyi yer də bircə onlardı. ”Qələt eləyib sənin yanında ev tikdirmişəm, onça elə başıma daş düşüb, nə qədər canımın yağını yedirdirəm, yenə pis mənəm ki, mən”. Bunu anası deyir, özü də ürəkdən deyir. Yəqin uzaqda yaşadığından onun çox söz-söhbətdən xəbəri yoxdu. Hərdən ancaq onun beş-on günlük qonaq olduğuna da baxmırlar, onun yanında da atışırlar. Nənəsinin gözü nurdan düşəndən bu dava-dalaş lap artıb. Anası hirslənir ki, “Camaatı bizə niyə güldürürsən? Hamı dədəmizi söyür, deyirlər, tək qoyublar damın altında. Köç da, insafın olsun, ya bizə köç, ya oğlungilə, axı nə tapıbsan o xarabada”. Belə vaxtlar nənəsi də borclu qalmır: ”Neyləmisiz axı?” – “Neyləmişik?! Evini yuyuram, təmizləyirəm, yeməyini gəlib yeyirsən, paltarını ütüləyirəm, tikirəm... daha neyləyim?” – “Bax elə başıma qaxdığına görə haqq eləyib söyürlər. Paltarımı yuyur. Heç yuma!” – “Başına qaxmıram e, yandığımnan deyirəm. Bəs oğlun neynir? Canına and içirsən, ”oğlum, oğlum” deyirsən. O neynir? Ayda-ildə bir kərə kefini gəlib soruşa, ya soruşmaya. O boyda pulu var, sənə nə verib, nə alıb? On manat verir?!” – “Yüz manat verir, belə get kefinə bax. Pulnan ölçürlər...” – “Qədrimi bilmədin, nə mənim, nə yeznənin, sənə oğuldan artıq olub”. – “Qədir ağacı əkəcəm sizə”. Beləcə atışırlar. Nənəsi oğlunun tərəfini vermir. Gücü heç yana çatmayanda ağlayıb gedir, həmin gün çörək yeməyə də gəlmir. Bir dəfə o da dilini saxlamayıb, niyə köçmədiyini soruşdu, ya oğlungilə köç, ya bizə, dedi, canın rahat olar, çayını, suyunusa verərlər. Demə, rahatlıq nənəsi üçün başqa şeymiş. Dedi, hamınız eyni sözün quyruğundan tutubsunuz. Niyə köçüm, niyə özgəsinin sözünü götürüm?! Qoca adamam, öz evimdi,

istəyəndə uzanıram, istəyəndə dururam, ürəyim istəyir bir yumurta qaynadıram, şirin çay içirəm. Köçsəm, gərək hər şeydən ötrü ağız açam. Oğul da özü üçündü, qız da. Bir də gördün bezdilər, burunnadılar. İndi oturuşumu, duruşumu söz eləyirlər, onda lap bəzəyərlər. Yaxşısı budu, öz evimdə oturum. Belə hörmətli olaram... Bəlkə də düz deyir – belə yaxşıdı. Ancaq daha sözü çevirib təsəlli vermədi, nahaq bu cür düşündüyünü demədi. Çünki şikayətlənmək arvadın özünü də bezdirib. Ona görə bəzən qəfilcə sözü dəyişir. Danışır, danışır, birdən: ″Eh, a bala, söhbətdi da eləyirəm″, – deyib gülümsəyir. Əvvəl-əvvəl nənəsinin söhbəti bu cür qəfilcə dəyişməsi, dediklərini bir kəlməylə pərdələməsi ona toxunurdu. Demək, nənəsi dərdini-sərini ona deməyin mənasız olduğunu başa düşür. Belə olmağına beləydi – demək, mənasızdı, di gəl, o istəyirdi nənəsi onu saysın, onunla tay-tuş kimi danışsın. Bunun üçün o da başlayırdı öz həyatından şikayətlənməyə. Qoy nənəsi bilsin ki, o, uşaq deyil, o, hər şeyi başa düşür. Həm də bilsin ki, onun da öz çəkiləsi dərdləri var. Bir də, axı özgə dərdi adama həmişə öz dərdini unutdurur. ″Elə bilirsən hamı kefdədi, bircə sən yox?!″ – deyib köks ötürdü. Kor adamla danışanda gərək çalışasan qabağındakı bilə sevinirsən, ya kədərlənirsən. Çünki nə üzünün ifadəsini görür, nə baxışını. O, dərdli-dərdli mızıldayanda, arvad, bekaraca da olsa, dirçəlirdi. ″Axmaq-axmaq danışma, deyirdi, sənə nə olub, heç evlənməyibsən də. Çatarsan mənim yaşıma, onda danışarsan“. Bir dəfə dedi ki, “ay nənə, bax, sənin oğlun-qızın var. Gör nə qədər, şükür Allaha, ömür sürübsən, hələ nəvə-nəticə, hamısının da yaxşı dolanacağı. Bəs mən neyləmişəm ki, nə görmüşəm ki, sevinəm?!″ Bu, söz oyunu idi. Nə qədər yaxşı yaşamış olsan belə, qocalıq heç kimi

sevindirməyib. Ancaq adamı bəzən çox ucuz yalanla da aldatmaq olur. Çünki həmin adamın özü elə istəyir onu aldatsınlar. Arvadın, doğrudan da, qırışığı açıldı. Darıxma, dedi, inşallah, sən də görərsən. Onun evlənməyini yaman arzulayır. Həmişə məsləhət verir, yol göstərir, qorxur gedib "qancığın birinə ilişər". Nənəsinə görə, gözəl gərək əndamlı olsun. Arvadı qucaqlayanda kişinin əlinə bir şey gələ da, ay köpəyin oğlu, yoxsa sür-sümük qucaqlamayacaqsan ha". İndi yəqin ondan-bundan öyrənib nişanlısının əndamlı olmadığını. O barədə daha danışmaz. Yenə öyüd verəcək ki, necə saxlasın arvadı: qoyma içki içsin, gödək geyinsin, bərkdən gülsün, "qoyma, qoyma, başına dönüm, indikilər havalıdı. Bəri başdan yüyənini boş buraxma. Arvadın ki ipini boş buraxdın, sonra çətin başararsan, çıxıb oturacaq təpəndə". Bircə qadınlar özləri haqqında yad kimi danışırlar. Elə bil özləri qadın deyillər. Cavab qaytaranda ki, axı, ay nənə, hamısı havalı deyil – məlum olur arvadın necəliyi kişidən asılıymış. Kişidən asılıdı, qadan alım, kişidən asılıdı. Qeyrətli kişinin altında at büdrəməz. İndi ancaq kişi də qalmayıb. Durub arvadnan ağız-ağıza verirlər, araq içirlər, qol-qola məhləyə çıxırlar. Kişilər vardı, həyətdə səsi gələndə arvadlar girməyə deşik axtarırdı. Mən babannan qoca vaxtında da yaşmanırdım. İndi hanı elə arvadlar". Deyəndə ki, ay nənə, içi mən qarışıq hamını pislədin, bircə özünü tərifədin ha – xısın-xısın gülür: "Bəs kimi tərifləyim, ay qırışmal?!". Heyif, nənəsinə heç nə almadı. Gör nə təhər yadından çıxartdı. Eybi yox, pul verər. Onsuz da həmişə pul istəyir. Özü də ikilikdə olanda. Çəkir bir qırağa, əvvəl soruşur, gələndə kimə nə alıb, sonra başlayır borclarını saymağa: dükançıya bu qədər, filankəsə bu qədər. Pulu götürəndə də tezcə gizlədib, möhkəm-möhkəm tapşırır ki,

anana demə. Guya anası bilsə, tutub pulu alacaq. Ancaq o deməsə də, anasının pul məsələsindən xəbəri var. Üstünü vurmur, bircə onu deyir ki, çox vermə. Nəyinə lazımdı, deyir, toya getmir, vaya getmir, çörəyini də burda yeyir. Doğrudan, heç hara getmir. Necə də getsin. Öz evidi, onlardı, bir də tuta-tuta gəldiyi divar. Bir səhər yuxudan duranda sağını, solunu çaşdırıbmış. Deyir, qalxdım yerimdən, bilmədim başımı ha tərəfdən götürmüşəm.Əlimi atıram bura ki, stol olmalıdı – yoxdu, qapı bu yanda olmalıdı – yoxdu. Guya eşiyə getdiyimdi, o biri otağın qapısından keçmişəm. Yalan olmasın, bir saat vurnuxa-vurnuxa qaldım evdə... Gör, səni neçə vaxtdı görmürəm, a bala". Bu sözü haçan deyib nənəsi ona? Qabaq-qənşər oturmuşdular. Gözlərində heç bir ifadə yox idi. Harasa yana baxırdı. Yəqin, istəsə də, adamın gözünün içinə baxa bilməz. Əvvəlcə söz ona çatmadı: necə yəni görmürəm, hər il gəlirəm ki?! Birdən yadına düşdü ki, nənəsi görmür. Yadına düşmədi – hiss elədi, qanınnan, canınnan hiss elədi. Hətta heyrətləndi də ki, adam, bax beləcə, bir addımlıqda dayana, ancaq önündəkini görməyə. Öyrəşmək belə şeymiş. Bir gün ağrıdır, iki gün, üç gün, sonra lazım olmayan bir şey kimi özündən uzaqlaşdırıb, tamam unudursan. Tamam-kamal. Demək, nənəsi bilmir o, necə dəyişib. Tək o yox, hamı – qızı, gəlini, oğlu, nəvələri. Kimi xatırlayırsa, on il əvvəlki adamı gözünün qabağına gətirir. Nənəsi üçün daha heç kim qocalmayacaq. Ürəyinə dəyməkdən qorxmasaydı, bir dəfə soruşardı: kim necədi? Yerişi, duruşu, sir-sifəti. Yəqin, hamının öz yadından çıxıb on il əvvəl necə göründüyü. Nənəsi yadlarına salardı. Ancaq elə adamlar var, nənəsi onları heç cür təsəvvürünə gətirə bilməz. Gülzarın nə birinci ərini gördü, nə ikinci, uşuqlarını da görmədi.

Süleymanın da uşaqlarını görmədi. Deyəsən, lap böyüyünü görmüşdü. Lap böyüyünü lap balaca vaxtında. Tutunu da görməyəcək. Bilməyəcək necə qızdı. Uşaqları olsa, onları da görməyəcək. Bilməyəcək kimə oxşayır. "Anana demə ha, mənə pul verdiyini". Gərək işini əvvəlcədən möhkəm tuta, çalışa qocalığında da özünü dolandıra, daha oğul-uşaq əlinə baxmaya. Yoxsa gəl bir manatdan , iki manatdan ötrü kiməsə ağız aç, səbəbini də de ki, bu bir manat sənə nə üçün lazımdır. Əməlli səbəb tapmasan – batdın. Ancaq "ev məsələsi" yaman düzəldi. Nənəsi demiş, "biarbırçılıqdan qurtardılar". Sağ olsun yeznəni, vaxtında özünü yetirdi. Bir səhər durdular ki, kəsdirib qapını. Gəlib külfətini aparsın. Adam var hara getsə, elə bil öz evindədi: "əyləş" deməmiş əyləşər, yüz ilin tanışı kimi danışar, gülər, zarafat eləyər, acdısa, özü çay-çörək istəyər. Xoşbəxt adamlardı. Yəqin, bacısı zorla tapıb beləsini. Beləsi tökülməyib ha küçəyə?! Tapan təki də sevincək olub, ətəyini dəstələyib düşüb arxasına. Görən, saldırdığı uşağı bacısı heç xatırlayırmı? Nə yaxşı ki, qapını yeznənin üzünə o açmayıb. Biləndə ki, filankəsdi – nə deyəcəkdi? "Xoş gəlibsən" deyəcəkdi? Doğrudan, o, uşaqdı bilmir ki, bacısını yola verməyib, iki uşaqla evdən qaçıranda, sonra da dalınca aparmağa gələndə necə qarşılamaq lazımdı: üzünə gülmək lazımdı, yoxsa qapıdan qaytarmaq? Bilmir, bilmir, başına gəlməyib. Onda da yuxudan durdu ki, yeznəni qarşılayıblar da, əziz-xələf qonaq kimi başda oturdublar da. Evdə hamının çiçəyi çirtlamışdı, elə bil çoxdan gözlədikləri tərəfdən axır ki elçi gəlmişdi. Tezcə anasına da telefonla xəbər verdilər: durma qaç, gözümüzün işığı təşrif buyurub. Anası da iş-gücünü atıb o saat özünü yetirdi. Qapıdan elə yelli girmişdi, deyərdin, bu saat keçib həyətdə yeznəni qu-

caqlayacaq. Ancaq anası hər şeyin həddini yaxşı bilir. Bilir nə vaxt, necə gülümsəmək lazımdır. Atası isə uşaq kimi başını itirmişdi, elə hey gülümsəyirdi yeznənin üzünə, boş bir şeyə qəhqəhə çəkib gülürdü. Qızının əridi, neyləsin, nədənsə xoşu gəlməsə, bu dəfə də gedib qızı döyər ki, bəs dədən üzümə yaxşı baxmadı. Çətini bir dəfə döyənə qədərdi, sonra döyən də öyrəşir, döyülən də. Əvvəl o istəmirdi məclisə qarışsın: özləri necə qarşılayıblarsa, zəhmət çəkib elə də yola salsınlar. Amma atası aman vermədi, tez-tez Gülzarı yollayırdı dalınca: ay qız, gör Mədət harda qaldı? Bir belə yatmaqmı olar?! Bacısı da gəlib həmin sözləri çatdırırdı ona. Guya atasının necə hayladığı evdə eşidilmirdi. Bir dəfə dedi, yuyunum, bu saat; bir dəfə dedi, üzümü qırxım, bu saat. Sonra gördü, xeyri yoxdu, əl çəkməyəcəklər, bacısı da bəzənib-düzənib ərinin gəlişi münasibətilə, birdən inciyər ki, qardaşım ərimi saymadı, gedib görüşmədi; incidi-incidi, nə olsun döyülüb-söyülüb, "it günü görüb", "bezmişəm daha, qayıtmayacağam, ay qardaş, qayıtmayacağam", yenə əridi, uşaqlarının atasıdı. Hələ gör nə sevincək olub ki, bəzənib də, üz-gözünə sığal verib, donunu dəyişib. Amma bəzəndiyinə görə utanırdı, söz deyəndə, başını qaldırmırdı, elə bil günah iş tutmuşdu. Di gəl, bəzənib-düzənməklə bu utancaqlığı heç uyuşmurdu. Lap ürəyini bulandırırdı onun, üzünə baxa bilmirdi. İstəyirdi tezcə çıxıb getsin, rədd olsun, gözünə görünməsin. Sonrasa yazığı gəldi – xudahafizləşib gedəndə. İllər, deyəsən, bacısına ağlamağıca öyrətmişdi: onu qucaqlayıb ağlamsındı, dillənə də bilmir. Nəsə demək istəyir, ancaq dili söz tutmur, ya da deməyə ürək eləmir. Onda özünə də yazığı gəldi – gücsüzlüyünə görə, əlindən bir iş gəlmədiyinə görə. Gücü ona çatdı ki, anasının yanına qaçıb bir tərəfə çəkdi: "Bəlkə

könlü yoxdu getməyə, bir soruşsan?" Anası da duruxub-duruxub əlini yellədi: " Nəyini soruşacağam, qoy getsin. Özümü zorla dolandırıram, iki uşaqla bunu hardan dolandırım". Vəssalam, bacardığı bu oldu. Hə, bir də istədi aşağı düşüb yeznəni yanlasın, hədələsin, qorxutsun, nəsə birtəhər çatdırsın ki, qızı incitmə, bacısı tək deyil, üç qardaşı var. Bunu da ancaq istədi. Acığını onunla soyutdu ki, xudahafizləşəndə yeznə ilə əl tutmadı, uzaqdanca kinli-kinli baxdı. Ancaq heç yaxınlaşası adam deyildi, zalım oğlu yaman hündürdü; zəhlən gedə, özü də yanında durub, boynunu uzada-uzada altdan yuxarı kinli-kinli baxasan... Onlar gedəndən sonra evdə elə bil hamının üstünə su ələnmişdi, bir-birlərinin üzünə baxammırdılar. Atası bir az bağda gəzişib getdi yatmağa. Mısmırığını da sallamışdı. Xasiyyəti belə idi, kefi həmişə qəfil dəyişirdi. Bir də görürdün iki-üç saat danışdı-güldü, hamı ilə zarafat elədi. Üstündən beş dəqiqə keçirdi, olurdu başqa adam, qaşqabağını sallayırdı, dinib-danışmırdı, dinəndə də zəhərləyirdi. Onda yamanca darıxdı, məzuniyyətdə olasan, özü də boş-bekar, evdə də oturmağa səbrin çatmaya. Sonra hiss elədi ki, anası nəsə demək istəyir, kranda qab yuya-yuya hərdən ona sarı boylanırdı. Başa düşdü: bayaq qızı barədə dediyini hələ unutmamışdı, qorxurdu, pis bir şey düşünər. Yaxınına getdi ki, danışıb ürəyini boşaltsın, daha əziyyət çəkməsin. "Sən elə bilirsən, mənim ürəyim daşdı, istəmirəm bacın yaxşı yaşasın?! Tək canına iki uşaq böyütmək sənə asan gəlməsin. Atasız uşaq ürəksiz böyüyər. Kimin evində söz-söhbət olmur, dalaşarlar da, barışarlar da. Hər şeydən ötrü ailə dağılsa, daha nə olmuşdu. Bacına da dedim, qoy hay deyəndə üstümüzə qaçmasın. Biz də az döyülüb-söyülməmişik..." Anası sözünü dedi, o da başı ilə təsdiqləyib

gülümsədi ki, ürəyi lap rahat olsun: düzdü, ana, düzdü. Beləcə çıxıb getdi bacısı. Yaxşı da pay-püşnən getdi. Anası üç-dörd dənə toyuq-cücə qoymuşdu, diri-diri, kardon yeşiyə... kasıbın olanından. Qəribədi, onda da bir-birlərinə ünvan vermədilər, heç dilucu da demədilər, gəlin, gedin. Nə onlar, nə bacısı.

Yuxusuzluq, bir yandan da təkərlərin yeksənəq səsi onu lap bezdirdi. Deyəsən, nə yata biləcəkdi, nə də bu səsdən, bürküdən can qurtara. Hələ Düzyurda çox qalırdı. İstəsə də, istəməsə də, gərək dözəydi. Durub dizinin ağrısından axsaya-axsaya, qatarla bir yerdə yırğalana-yırğalana tambura çıxdı. Şaqqıltıdan burda heç dayanmaq olmurdu. ”Nə tez durubsan, qadası? Get yat, get yat, dincəl. Hələ çox qalıb çatmağa”. Bələdçi idi. Onu söhbətə tutmasın deyə dillənmədi. Kupeyə qayıdıb pəncərənin qabağında dayandı. Dünən bu vaxt Bakıda idi, sabah bu vaxt Düzyurdda yuxu bişirəcək. İndi Tutu bir yerdə bənd ala bilmir, deyir, görən, nişanlımın başına nə gəldi? Axtarsa, bircə onu Tutu axtarar... bir də ev sahibi. Bu ayın kirayə pulu durur. Bəlkə də Tutu ilə rastlaşıblar qapıda? Mümkündü. Tutu evin yerini tanıyır, amma içəridə olmayıb. Neçə dəfə çalışmışdı evə aparıb gecəni saxlasın – razı olmamışdı. Bunun üstündə dalaşıb küsüşmüşdülər də, di gəl, sonra Tutudan xoşu gəlirdi ki, razılaşmayıb. Belə-belə işlər.

Pəncərədən heç nə görünmürdü. Təkcə qaranlıqdı, onu görmək üçün gözü yummaq da olardı. Hə, o, Düzyurda gedir, sabah ata-anasını görəcək. Nə olsun axı? Bununla nə dəyişəcək? Heç nə, heç nə. Özünü aldatmağa dəyməz. Heç nə dəyişməyəcək.

Qatar get-gedə yavaşıyıb dayandı. Stansiyanın gur işığından vaqona da düşdü: kimsə yerində çöyükdü, kimsə

öskürdü, sonra yaşlı qadın cəsi saatı soruşdu... "Üçə qalıb?! Allah, sən özün kömək ol, hələ də çimir eləməmişəm. Bütün bədənim qırılır". Vaxtı deyən kişi qadının üstünə çəmkirdi: "Zıqqıldama, sən dədənin goru, qoy mənsə yatım". Qadın daha dillənmədi. Bu da onu əsəbiləşdirdi. Elə bil sözünü danışmağa, ürəyini boşaltmağa qoymamışdılar. Düşmək lazımdı qatardan. Düşmək lazımdı. Bəs necə düşsün? Bələdçiyə nə deyib düşsün? Fikirləşəcək ki, Düzyurda getdiyi yerdə birdən nə oldu buna? Allah bilir, ağlına nə gələr... Gör nəyin dərdini çəkir. İşi-gücü qurtarıb, indi də bələdçiyə görə narahat olur. Nə fikirləşəcək, qoy fikirləşsin. Onun kefi belə istəyir, vəssalam... Amma düşəndə ötkəm danışmadı, bəhanə gətirdi ki, burda dostu yaşayır, gərək mütləq görüşsün onunla. Yolpulunu kişinin özünə birbaşa verməyə nədənsə utanmışdı, ancaq arxadan səsləyib pulu soruşanda, kişini dilə gətirdiyinə peşman oldu. Bu bir-iki saniyədə onun haqqında pis şey düşünməməsi üçün tezcə dönüb dedi ki, pul içəridədi, stolun üstündə. Kişi yenə yaxın bir adam kimi gülümsədi: "Sağ ol, qadası, sağ ol, dostuna salam de".

Qatar tərpənəndə, o başa düşdü ki, doğrudan da, Düzyurda getmir, daha evdəkilərlə də görüşməyəcək. Bayaqdan elə bil tək deyildi, indi qatarın arxasınca baxa-baxa kimsəsizlik hiss elədi. Yəqin ki, evdə onun gəlişinə sevinəcəkdilər, özü də görüşdüyünə sevinəcəkdi. Niyə də axı sevinməsinlər. Gör nə vaxtdı görüşmürlər. Başqa da gələn yox, gedən yox. Qalıblar qulağıbatmış kimi dörd divarın arasında. Onlardan savayı kimləri var ki, kimi də arzulasınlar. O da darıxdıqları yerdə çıxacaqdı böyürdən.

Rast gəldiyi ilk adamdan öyrəndi ki, Bakıya gedən qatar bir saatdan sonra olacaq. Qalırdı bu bir saatı necə keçirmək.

Bir az perronda gəzişdi. Vağzal binasının yanı meyvə bağıydı. Qaranlıqda mürgüləyən ağacların bircə meyvələri oyaqdı – uzaqdan adamı çağırırdılar. Amma çəpər aşılası deyildi. Hiss elədi ki, möhkəmcə susayıb. Ətrafı gəzib su tapmadı. Bircə kran vardı, o da gəlmirdi. Əlini dəstəkdən çəkəndə duruxdu. Elə bil bu kranı görmüşdü. Lap toxunmuşdu da. Onda da su gəlmirdi. Nə vaxt görmüşdü belə? Fikirləşə-fikirləşə gedib gözləmə otağında oturdu. Üzbəüz qoca bir kişi çənəsini çəliyinə söykəyib yatırdı. Gözünü kişiyə dikdi ki, oyansa, soruşsun hardan su tapmaq olar. O qədər bir nöqtəyə baxdı, az qalmışdı özü də yatsın. Yuxusunu dağıtmaq üçün yenə durub gəzişdi. Ancaq çox şükür, Düzyurda getmədi. Düz iş gördü. İşin-gücün bu vaxtı neynir gedib. Gərək səbəb ola. Səbəb olmayanda adama şübhəylə baxırlar, sorğu-suala tuturlar. Heç bir sözünə də inanmırlar. Hə, sorğu-sualdan canını yaxşı qurtardı. Sevinməyə dəyər. Dünən sevinmişdi ki, Düzyurda gedir, indi də getmədiyinə görə sevinir. Nə dəxli, nəyə sevinir, əsas odur ki, sevinir. Getsə, hələ gərək mütləq Əzizlə də görüşəydi. Bu da bir işdi, lap işdən də betərdi. Xudahafizləşib ayrılandaca sevinirdi, elə bil borcunu verirdi: yəni bax, mən dostluğumuzu davam elətdirirəm, səni yaddan çıxartmıram, gələn təki birinci səni axtarıram. Di gəl, görüşənə kimi onunku ona dəyirdi. Necə getsin, uşaqların əlinə nə alsın, bəlkə heç almasın, nə haqda danışsın. Qorxurdu, birdən nə iləsə Əzizin xətrinə dəyər. Bu da mümkündü. Axı bir yerdə böyüdükləri vaxtdan illər keçmişdi, özləri də dəyişmişdilər, qayğıları da başqa idi, o qədər də gec-gec görüşürdülər ki, aralarındakı münasibəti elə hər dəfə təzədən başlamaq olardı, çünki bir vaxt necə

olduqları, ”söhbətin” harda yarımçıq kəsildiyi yaddan çıxırdı. Əzizin öz həyatından, qayğılarından elədiyi söhbətlər indi onun üçün maraqlı deyildi. Nə qədər çalışsa da, bu həyatı, qayğıları özününkü təki hiss eləyə bilmirdi. Onda ağlına gəldi ki, yəqin, onun danışdıqları da Əziz üçün maraqlı deyil. Danışmaqsa lazımdı, susub durmayacaqsan ki, gərək nə iləsə başını qatasan. Əzizgil yaxşı tapmışdılar, həmişə ən əvvəl bir söhbətin başına fırlanırdılar: o, haçan evlənəcək? Onun haqda düşündüklərini, narahat olduqlarını belə çatdırırdılar. Qabaqca söhbəti Əziz başlayırdı, nədənsə, həmişə də arvadının yanında, sonra da arvadı qoşulurdu: “Doğrudan, Mədət qardaş, haçan toy eləyirsiz? Axı gözləməkdən gözümüzün kökü saraldı...” Sözləri deyə-deyə gülümsəyirdi. Söhbətin arxasını Əziz arvadı uzaqlaşanda başlayırdı. Ona ağıl verirdi, evlənməyin xeyrindən danışırdı: nəsil artırmaqdan tutmuş, pal-paltarın yuyulub ütülənməyinə, can rahatlığına qədər. Ancaq bunu çox ehtiyatla eləyirdi. Çalışırdı onun ürəyinə toxunmasın. O da sakitcə qulaq asırdı, imkan yaradırdı könlü istədiyi tək onu yola sala bilsin ki, görüşdüklərinə görə sonra peşmançılıq çəkməsin. Həm də, axı bu cür üzdə olan şeylərdən başqa özgə nədən danışacaq?! Subaydı – tələsdirirlər ki, evlən. Evlənər – uşaq barədə söhbət salarlar. Uşaq olar – maraqlıdı, görən, kimə oxşuyur, dincdimi, kürdümü, yerini batırırmı? Sonra da uşaq böyüyüb evlənmək yaşına çatacaq, başlayacaqlar indi də onu tələsdirməyə ki, evlən... Təki ürək rahatlığı ilə görüşüb ayrıla bilsinlər. Ancaq keçən dəfə bu görüşüb-görüşməməyin ucbatından lap zülm çəkdi. Çünki görüşməkdən savayı gərək həm də Əzizə başsağlığı verəydi – ansının vəfatına görə. Tənbəllikdən

vaxtında dəfnə getməmişdi, fikirləşmişdi ki, eybi yox, üçünə gedər, sonra fikirləşmişdi yeddisinə gedər, sonra qırxına, sonra ilinə... beləcə-beləcə məzuniyyəti düşdü o vaxta ki, nə ucuydu, nə qulağı: qırxından çox keçmişdi, ilinə də çox qalmışdı. Bilmirdi neyləsin, nə alsın, nə aparsın, bəlkə pul yazılsın? Hələ gərək hansı yollasa Əzizə anasının vəfatından kədərləndiyini hiss elətdirəydi. Başa da düşürdü ki, bu, onda alınmayacaq, təbii çıxmayacaq. Çünki qaraqabaqlığına, deyingənliyinə görə rəhmətlikdən həmişə zəhləsi getmişdi. İndi gəl, yalandan özünü qurut, iki-üç saat içini çəkə-çəkə, sızıldaya-sızıldaya Əzizlə otur, kəlmə kəs. Bir-iki günlüyə gəlmiş olsaydı, baxmazdı heç nəyə, yenə getməyi sonraya saxlayardı, gizlicə qayıdardı Bakıya – qoy harda qırılır qırılsın. Amma qəribəydi: gedib-getməməyi çox düşündüyündənmi, yoxsa nədənsə, Əzizlə görüşəndə, doğrudan da, kədərli idi. Altdan-altdan da sevinirdi ki, bu ovqatı lap yerinə düşüb. Onu elə yaxşı qarşıladılar, əvvəl-əvvəl fikirləşdi, yəqin, Əziz gec gəldiyi üçün ondan inciyib, indi də çalışır bunu büruzə verməsin. Ər-arvad hərəsi bir yandan üstünə düşmüşdü: orda durma, burda dur, ora keçmə, bura keç – guya o, birinci dəfə gəlirdi bu evə, heç hansını da tanımırdı, onlar da qorxurdu birdən qonaq inciyər. Sonra başa düşdü. Bildi ki, ondan inciyib eləmiyiblər, sadəcə, arvadın vəfatı evdəkiləri dəyişib – Əziz onu ilk dəfədi ev yiyəsi kimi, evin böyüyü kimi qarşılayır. Qabaqlar bir iş görəndə məcburdu anasına gənəşsin, icazə istəsin, razılığını alanda da fikri elə hey anasının yanında olurdu: birdən yenə nəsə deyər, hamının yanında biabır eləyər. Bu dəyişikliyi evdə başa düşdü, qayıdıb görüşü əvvəldən axıra xatırlayanda. Sonra da

həmişəki təki durub zəng eləmişdi ki, görsün indi Əzizin səsi, danışığı necədi, ondan inciməyib ki...

Gəlib yenə qoca ilə üzbəüz oturdu. Qocanı oyatsaydı, bir az da özü yatardı. Elə bil nə düşündüyünü qoca hiss elədi, gözünü açıb yuxulu-yuxulu ona baxdı. Ancaq ha eləyib ona bir söz deyənə qədər yenə gözünü yumdu. Deyəsən, onunku bu gün yatmaqdan keçdi. Eybi yox, sabah işdən qayıdıb yatar. Doyunca yatar... Sonra hiss elədi ki, kimsə onu çağırır. Hardansa külək əsirdi. Külək açıq pəncərənin tül pərdələrini oynadırdı. Çağıranı gördü – qadındı. Enli, çox enli çarpayının yanında dayanmışdı. Daha dillənmirdi, səssizcə dayanıb ona baxırdı. Qaranlıqda düzəməlli seçdiyi təkcə qadının xalı idi, sol yanağındakı qara xalı. Yaxına gedib qucaqlamaq istədi. Qadının yançaqları hərarətli olmalıydı. Bu hərarəti uzaqdan hiss elədi. Qızdırmalı adam kimi titrədi. Bütün bədəni həmin hərarətin həsrətini çəkirdi. Qucaqlayıb öpdükcə öpdü. Öpüşlər hava kimi yüngüldü. Öpürdü, amma qadının sifətini, dodaqlarını duymurdu, ağırlığından çarpayı cırıldadı. Qadın birdəncə dəyişdi, əlinin, belinin hərarəti yoxa çıxdı. Qadın həm də narahatdı. Çönüb baxdı. Qapının ağzında cılız, alçaqboy bir kişi durmuşdu. Çox tanış adama oxşayırdı. Dinməzcə ona baxırdı. İndi qadın da kişinin böyründə dayanmışdı. İkisi də ona baxırdı. Baxışlar elə bil onu çarpayıya mıxlamışdı. Ha eləyirdi, yerindən dura bilmirdi. Onlar da dinməzcə baxırdılar...

Tər içində oyandı. Hələ də titrəyirdi. Əvvəl-əvvəl gerçəkliklə yuxunu ayıra bilmədi. Böyür-başına baxıb harda olduğunu başa düşəndə rahatca nəfəs aldı: “Allah, sənə şükür, Allah, sənə şükür, nə yaxşı ki, yuxuymuş, demək, heç kimin xəbəri yoxdu, xəbəri yoxdu...” Qolları ilə özünü

qucaqlayıb büzüşdü. Özündən iyrənirdi, elə bil çirkaba batmışdı. Çimçəşə-çimçəşə ayağa durdu, bədəninə baxa bilmirdi, ayağını yerə basanda dizinin ağrısından ufuldadı. Ağrı dözülməzdi. Gözünün qabağına gəldi ki, ayağını dizdən kəsirlər, sonra dizdən yuxarı göyərir, irinləyir, yenə kəsirlər... Ondan pis qoxu gələcək, o qoxu hamını yanından qaçıracaq, səsinə heç kim hay verməyəcək... Titrəyə-titrəyə təzədən oturdu. Hər şeyi, bütün olub-keçəni unuda bilsəydi, nə yaxşı olardı. Ancaq çətin unuda. Bir dəfə ağ kağıza göz çəkmişdi, tək bir göz. Sonra ha istədi ora baxmasın – mümkün olmadı. Hara baxırdısa, yenə qayıdıb gözdə dayanırdı. Canını qurtarmaq üçün götürüb karandaşla qaraladı. Yenə narahatçılıqdan qurtara bilmədi, bilirdi ki, o ləkənin altındakı gözdü, özü də ona baxır. Axır kağızı cırıq-cırıq eləyib atdı. Yaddaşısa ölüncə gəzdirməlisən. Uşaq olmaq yaxşıdı. Bircə uşaq xoşbəxtdi, çünki uşağın keçmişi yoxdu. Ona görə hamı uşaqlığını xoş bir hisslə yada salır. Ona görə. Görən, saldırdığı uşaq bacısının yadındadımı? O, telefonda Əzizlə danışanda bacısı birdən-birə doluxsunmuşdu. Əzizin adını eşidib doluxsunmuşdu. Üz-gözü bircə an işıqlanmışdı, dodaqları əsmişdi. Unamışdı ki, bacısı Mahmudu xatırlayıb. Çünki Mahmudgilin evi Əzizin qonşuluğunda idi. Çünki bir vaxt bacısı da həmin evdə qalırdı. Bir vaxt bacısı da Əzizin qonşusuydu və bir vaxt bacısına elə gəlirmiş ki, ömrü boyu orda yaşayacaq, Mahmudla yasayacaq. Ola bilsin, bacısı üçün orda yaxşı keçirmiş. Yəqin hamının həyatında elə xoşbəxt anlar, günlər var ki, sonra adamı rahat yaşamağa qoymur.

Evdəkiləri gözünün qabağına gətirməyə çalışdı, nədənsə onları deyib-gülən təsəvvür eləyə bilmədi. Bir də, axı niyə güləsiydilər?! Gülmək üçün heç nə yoxdu. Doğrudan yoxdu. Ancaq bu, onu narahat eləməyib, heç bu haqda

düşünməyib də. İnanmayib ki, onlara lazım ola bilər, ya ondan nəsə uman var. İnanmayıb. Çünki inansa, gərək bir iş görə, özünü əziyyətə sala. Bunu başa düşür, bilir. Bildiyi üçün də yaxasını kənara çəkir, başını götürüb qaçır. İstəmir onu narahat eləsinlər, öz dərdləri ilə yükləsinlər, çalışır tezcə uzaqlaşsın: kimə nə olursa-olsun, bircə onu rahat buraxsınlar. Üstəlik, onun yaxşı adam olduğuna şübhə eləməsinlər. Ən çox bunun fikrini çəkir. Bu qatar da gəlib çıxsaydı… Bayaqkı bələdçiylə rastlaşsa, yaman olar. O dəqiqə soruşar: dostunu gördünmü, salamımı yetirdinmi? Ancaq hələ yol gedir o. Görən, tanımadığı adamın birinə dərdini danışdığı üçün indi peşman olmayıb ki? Anasından da danışdı. Anasını çox istəyirmiş. Bəs o, kimi çox istəyir? Bəlkə o, xəstədi? Guya sevdiyi adamlar var, di gəl, elə anlar olur ki, həmin adamları boğub öldürər də. Niyə belədi, görən? Bilirsən pis nədi, yaxşı nədi, amma heç nə özündən asılı deyil. Bəlkə hamı onun kimidi? Bəlkə hamı onun təki elə yuxular görür ki, ayılanda özündən iyrənir? Əgər bu cürdürsə, necə rahat yaşaya bilirlər? Anası öləndən sonra Əzizin qırışığı açılıb. Buna da səbəb var: evin böyüyü olub, hər gün danlaq eşitmir, kefi istədiyini qorxusuz-hürküsüz eləyir. İntəhası, Əzizə desən ki, sərbəst olduğuna görə ananın ölümünə sevinirsən – ömürlük səndən küsər, üzünə baxmaz. Ancaq axı belədi. Nəyə sevindiyini özü başa düşməsə də belədi... O, daha bacarmır. Öz içini hər addımda hiss eləyə-eləyə yaşaya bilmir. Elə bil uzun görünmək üçün barmaqlarının ucunda gəzib. İndisə bezib, özünü başqa cür göstərməyə çalışmaq onu bezdirib.

Qəribə bir boşluğun içində idi. Heç nə haqqında axıra qədər düşünə bilmirdi. Bir-birinə bağlı olmayan sözlər, hisslər, çöhrələr meh kimi yaddaşına, duyumuna toxunub

keçirdi. Hərdən nələrisə tutub saxlamağa halsız bir cəhd eləyirdi, elə bil dartınıb yuxudan çıxmağa çalışırdı. Beləcə, yarıyuxulu qatara mindi. Oturacağın bir küncündə birtəhər özünə yer eləyib, mürgüləyə-mürgüləyə yenə Nərgizi xatırladı; məktubunu saxlamadığına heyifsiləndi. Hərdənsə oxuyardı. Çətin daha ona bu cür məktub yazan ola... Çətin. Məktubu özü vermişdi ona. Axırında da yazmışdı ki, məni görmək istəsən, filan vaxt, filan yerə gəl. O da görmək istədi, amma tamam başqa şey üçün – məktubu qaytarmaq üçün. Doğrudan da, ürəyi buz kimi idi, Nərgizə qarşı heç nə yox idi ürəyində. Ancaq Nərgiz onda gör hansı hissləri keçirirmiş! Gözləyirmiş, ümid eləyirmiş – birdəncə hər şey qurtardı. Məktubu götürəndə heç başını da qaldırmadı. Tezcə uzaqlaşıb getdi. O da yaxşı iş görmüş adam kimi özündən razı geri qayıtdı. Bunu sonra başqalarına da danışdı. Ancaq Nərgiz gözəl idi axı, deyəsən?! Gözəl idi. Bax, indi gözünün qabağındadı. Hə, gözəl idi. Gözəl idi, ya çirkindi, dəxli yoxdu, olan oldu, keçən keçdi. Nahaqca bu haqda düşünür. Özü də belə çox düşünür. Görən, niyə unuda bilmir onu?.. Axmaqlıqdı.

Bakıya çatanda hava yenicə işıqlanırdı. Dənizin üstündə səma yumurta qabığı kimi nazilmişdi, indicə günəş oranı dimdikliyib çıxacaqdı. Taksiyə oturdu ki, evə tez çatıb bir az dincəlsin. Sonra bəlkə işə getdi. Hələ bu haqda fikirləşməmişdi. Şəhərə baxdıqca ona elə gəlirdi ki, uzaq, çox uzaq bir səfərdən qayıdır. Maşının qabağından bir uşaq zorla qaça bildi. Qorxudan o, az qaldı qışqırsın. İndiyə qədər keçirmədiyi bir hiss içini titrətdi. Ona elə gəldi ki, bu uşağı tanıyır. Tək bu uşağı yox – hamını tanıyır, nə vaxtsa bu adamların ömrünü yaşayıb, bu saat onların nə düşündüyündən, sevinclərindən, qayğılarından da xəbəri var.

Evə girib yorğun-arğın yerinə uzananda da hələ bu hissi keçirirdi. Nəsə olmuşdu, ya olurdu, ancaq indi bunu başa düşə bilməzdi. İndi yatmaq lazımdı, yatmaq lazımdı... Birdən yadına düşdü. Su kranını harda gördüyü yadına düşdü. Həyətdə görmüşdü. Dünən səhər-səhər. Balaca uşaq günün altında dayanıb dəstəklə oynayırdı. Kran da gəlmirdi. Hə, düzdü. Səhər-səhər görüb. Bu, elə bil onun son narahatçılığı idi. Daha heç nə haqqında düşünə bilmədi.

# KİTABDAKILAR


Otuz ildən sonra 5

**HEKAYƏLƏR**

Yağmursuz havalar 13
Yolüstü söhbət 22
Qırxıncı otaq 28
Firuzə qaşlı sırğa 40
Pul günü 54
Payız nağılı 59
Döngə 65
Qatar 74
Aralı qapı 84
Əclaf 89
Yaxşı oğlan 95
Nisgil 104
Günorta 110
Bir yay günü 116
Qoca 123
Şübhə 128
Uduş 138
Təpəgöz, qarışqa və uşaq 147
Sulu qar 154

**Povestlər**

Şəbəkə 161
Fevral 207

**Roman**

Zədə 237


YOLÜSTÜ SÖHBƏT

SADAY BUDAQLI

Kompüter dizaynı: **Aqil Əmrahov**
Korrektorlar: **Kəmalə Cəfərzadə, Vəfa Əliyeva**

Çapa imzalanmışdır 20.10.2015. Kağız formatı 60x84 1/16.
Ofset çapı. Fiziki çap vərəqi 20.
Sifariş ???. Tiraj 500.

"Təhsil Nəşriyyat-Poliqrafiya"
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 121A
Tel.: (+994 12) 567 81 28/29; Faks: (+994 12) 567 82 68
e-mail: tahsil_az@yahoo.com

Saday Budaqlı
YOLÜSTÜ SÖHBƏT
Bakı, "Təhsil", 2015.

**Saday Budaqlı**
YOLÜSTÜ SÖHBƏT
Bakı, "Təhsil", 2015.